ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2021
№3 (63)

BAKI-2021

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırılі (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2021
№3 (63)

BAKU-2021

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The socio-political, scientific-theoretical journal is published six times a year.

# Siyasi elmlər

UOT 327

# "VİLAYƏTİ-FƏQİH" NƏZƏRİYYƏSİNƏ ƏSASƏN İRANIN ALİ DİNİ LİDERİNİN XARİCİ SİYASƏT MƏSƏLƏLƏRİNDƏKİ VƏZİFƏLƏRİNƏ DAİR

**ELDAR ƏMİROV**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*

*E-mail: eldar.ado.85@mail.ru*

## Giriş

## "Vilayəti-fəqih"nəzəriyyəsi və onun formalaşma tarixçəsi

Ərəb dilindən tərcümədə "Ədalətli fəqihin (ilahi hökmləri dərindən mənimsəmiş, şəriətin tələblərinə müvafiq həyat tərzi keçirən din aliminin, dini rəhbərin) hakimiyyəti, səlahiyyəti" mənalarını verən ***"Vilayəti-fəqih"*** anlayışı 1979-cu il İran İslam İnqilabının lideri Ayətulla Xomeyni tərəfindən işlənib-hazırlanan eyniadlı dini-siyasi nəzəriyyənin təməl elementini təşkil edir. "Vilayəti-fəqih" nəzəriyyəsinin başlıca müddəa və prinsipləri İmam Xomeyninin "İslam hökuməti" adlı kitabında öz əksini tapmışdır. Kitab Xomeyninin İraq mühacirəti dövründə, daha dəqiq desək, 1969-1970-ci illərdə Nəcəf şəhərində ilahiyyat tələbələrinə oxuduğu mühazirələr toplusundan ibarətdir. Hal-hazırda "Vilayəti-fəqif" nəzəriyyəsi İran İslam Respublikasının dövlət idarəçiliyinin başlıca ideoloji komponenti hesab olunur. [5; s.19].

"Vilayəti-fəqih" nəzəriyyəsinə əsasən yer üzündə mütləq hakimiyyətin mənbəyi Allahdır və o, öz qanunlarını, iradəsini peyğəmbərləri vasitəsilə bəşəiyyətə çatdırmış və yer üzündə bərqərar etmişdir. Allahın sonuncu elçisi, İslam peyğəmbəri Hz.Məhəmmədə (s) nazil edilmiş "Qurani-Kərim" və peyğəmbərin öz sünnəsi (qərarları, davranışları) ümumilikdə şəriəti təşkil etməklə yanaşı, səmavi qanunlar sisteminin ən mükəmməl nümunəsidir. Peyğəmbərin vəfatından sonra ilahi qanunların düzgün təfsiri və onların ədalətli icrasına nəzarət onun nəslindən gələn imamların (Əhli-beyt) üzərinə düşür. Şiə inancına görə isə imamların xəttində Mehdi adlı XII imamın naməlum zamana qədər qeybə çəkilməsinədək tarixi fasilə meydana çıxmışdır. Lakin şiələr inanırlar ki, Mehdi nə zamansa mütləq zühur edəcək və Allahın qanunlarının icrasına əngəl törədən qüvvələri aradan qaldıracaq. Həmin zühur dövrünə qədər isə şiələr mütləq dini hökmlərini dərindən mənimsəmiş, öz həyatında, qərar və davranışlarında onları rəhbər tutan mötəbər din alimlərinə, fəqihlərə tabe olmalıdırlar. Çünki, həqiqi islam alimləri imamların varisləridir və onların ümmətin taleyüklü məsələlərinə dair həlledici qərarlar vermək səlahiyyəti var. İmam Xomeyninin nəzərincə bu səlahiyyətlərini tam mənada və effektiv bir şəkildə icra edə bilmək üçün vilayəti-fəqih, yəni dini rəhbər ölkənin birbaşa siyasi hakimiyyətinə başçılıq etməlidir. "Vilayəti-fəqih" nəzəriyyəsi siyasətlə din arasındakı ayrılmanı birmənalı şəkildə rədd edir, dini rəhbərin şəriətin hökmlərini bərqərar edə bilməsi üçün siyasi hakimiyyətə sahib olmasını mütləq şərt kimi irəli sürür. [4; ss. 80-86].

Maraqlıdır ki, İmam Xomeyni "İslam hökuməti" əsərində "Vilayəti-fəqih" haqqında bəhs edərkən, onun səlahiyyətlərini Məhəmməd peyğəmbərin (s) və məsum imamların siyasət, idarəetmə sahəsindəki haqlarına bərabər tutur. O, bildirir ki, gələcəkdə qurulacaq İslam dövlətində "Vilayəti-fəqih" məhz bu cür geniş hüquqlara sahib olmalıdır. [1; s.64].

Qeyd etmək lazımdır ki, İran konstitusiyasında ali dini rəhbərin hüquq və səlahiyyətlərinə, həmçinin vəzifələrinə dair müvafiq müddəalar da məhz bu nəzəriyyənin prinsiplərinə uyğun işlənib-hazırlanmışdır. Xomeyninin "Vilayəti-fəqih" üçün tələb etdiyi geniş səlahiyyətlər, xüsusilə də, hakimiyyətin bütün qollarına total nəzarət hüququ İran konstitusiyasının 57-ci maddəsilə rəsmiləşdirilmişdir. Həmin maddədə bildirilir ki, İran İslam Respublikasında hakimiyyətin bir-birindən asılı olmayan 3 qolu var – qanunverici, icraedici və məhkəmə. Həmin qolların hamısına nəzarət isə "Vilayəti-fəqih", yəni ölkənin ali dini rəhbəri tərəfindən həyata keçirilməkdədir. [8]. "Vilayəti-fəqihin" səlahiyyət dairəsi yalnız hakimiyyət qollarına nəzarətlə yekunlaşmır. Belə ki, güc nazirlərini vəzifəyə təyin və azad etmək, ölkədə keçirilən prezident seçkilərinin nəticələrini təsdiqləmək, müharibə elan etmək və sülh bağlamaq, dövlət maraqlarına təhlükə törətdiyi təqdirdə ölkə

prezidentini vəzifəsindən kənarlaşdırmaq, İranın ümumi dövlət siyasətini müəyyənləşdirmək, məhkəmə rəhbərlərinin təyinatları, dövlətin vəqflərinə və xeyriyyə təşkilatlarına nəzarəti həyata keçirmək İran konstitusiyasına əsasən "Vilayəti-fəqihin" müstəsna səlahiyyətlərinə aid məsələlərdir. [2; s. 926].

Vəqflərə və xeyriyyə qurumlarına nəzarət "Vilayəti-fəqihi" ölkənin yalnız siyasi deyil, həm də iqtisadi həyatında həlledici söz sahibinə çevirir. Tədqiqatçıların ümumi hesablamalarına əsasən İranda dövlət və xeyriyyə vəqflərinin sərəncamında olan vəsait ümumilikdə İranın maliyyə potensialının təxminən 40%-ə bərabərdir. [2; s. 926].

Tarixi arayış məqsədilə bir vacib məqamı vurğulamaq lazımdır ki, "Vilayəti-fəqih" anlayışı ictimai-siyasi dövriyyəyə və şiə fiqhinə Xomeynidən təxminən 150 il öncə, XIX əsrdə, Qacarlar dövründə yaşamış tanınmış şiə ruhanisi Molla Əhməd Nəraki (ö.1829) tərəfindən gətirilmişdir. "Mənacihül – Üsul və Əvaidül-Əyyam" adlı əsərində Molla Əhməd Nəraki fəqihin fəqihin yalnız dini mahiyyət daşıyan hadisələrə deyil, həm də siyasi proseslərə münasibət bildirmək haqqına sahib olduğu fikrini irəli sürmüş, özü də onun əməli nümunəsini təqdim edərək, 1826-1828-ci il Rusiya-İran müharibəsinin başlanması ərəfəsində ruslarla hərbin vacibliyinə dair fətva vermişdir. [4; s. 79].

Doğrudur, Nərakinin Qacar hökmdarı Fətəli şahla isti münasibətlərinin olması onun bu məsələdə nəzəriyyədən çox da uzağa getməsinə mane oldu. Şiə ruhanisi hökmdarın iradəsini kölgədə qoya-caq, onu ikinci plana salacaq hökm və xütbələrdən çəkinərək, öz təlimini nəzəriyyə çərçivəsində inkişaf etdirməklə kifayətləndi. Üstəlik bir faktı da nəzərə almaq lazımdır ki, Qacarlar sülaləsi dövlət idarəçiliyi məsələlərində nüfuzlu din xadimlərinin mövqeyinə daim böyük hörmət və həssaslıqla yanaşır, şiəliyi müdafiə edir və onun yayılmasına hər cür şərait yaradırdılar. Tədqiqatçılar qeyd edirlər ki, Qacarlar zamanında təhsil və məhkəmə sisteminin əhəmiyyətli hissəsi şiə ruhanilərinin nüfuz dairəsinə daxil idi. Sözügedən dövrdə təhsil sisteminin əsasən mədrəsələrdən ibarət olması, həmçinin əksər cinayət işlərinin şəriət məhkəmələrinin icraatında olması ruhanilərin cəmiyyətdəki təsirini əhəmiyyətli dərəcədə genişləndirmişdi. O dövrdə istər məişət xarakterli, istərsə də siyasi əhəmiyyətli cinayət işlərinə şəriət məhkəmələri baxırdılar. Onların bu məsələlərdəki rəyi yekun qərar hesab olunurdu və əsla dəyişdirilə bilməzdi. 1906-1907-ci illərdə İran konstitusiyasına qəbul edilmiş əlavələrdə isə ruhanilərə hətta qəbul edilən qanunlara veto qoymaq hüququ verilirdi. [7; s. 121].

Əlavələrin I maddəsində isə qeyd olunurdu ki, şah mütləq şiə məzhəbinə mənsub olmalı və onu himayə etməyə borclu idi. [7, s. 121].

Şiə ruhanilərinin belə bir vəziyyətdə özlərinə daha artıq səlahiyyətlər tələb etmələri, yekunda şahla onlar arasında ciddi münaqişəyə gətirib çıxara və mütləqiyyətə kölgə sala bilərdi. Bu vəziyyət Nərakinin "vilayəti-fəqih" nəzəriyyəsinə əsas etibarı ilə uyğun olduğundan ruhanilərin etirazları üçün xüsusi səbəblər yox idi.

Ancaq bütün hallarda Nərakinin meydana qoyduğu baxışlar "Vilayəti-fəqih" anlayışının formalaşmasında mühüm mərhələ kimi yadda qaldı və Xomeyninin müvafiq nəzəriyyəsi üçün baza rolunu oynadı. Təsadüfi deyil ki, İmam Xomeyni də "Vilayəti-fəqih" nəzəriyyəsinin müəllifi kimi özünü yox, məhz Molla Əhməd Nərakini göstərir, baxışlarını əsaslandırmaq üçün hər zaman onun kitabına istinad etməyi üstün tuturdu. [5; s.19-20].

İmam Xomeyni "Vilayəti-fəqih" nəzəriyyəsinin müəlliflik hüququnu hər nə qədər Əhməd Nərakinin adı ilə bağlamağa çalışsa da, bu iki alimin baxışları arasındakı kəskin fərq açıq-aşkar ortadadır. Bu fərqi qısa şəkildə səciyyələndirməli olsaq, deməliyik ki, Əhməd Nəraki fəqihin siyasi proseslərdə və dövlət idarəçiliyinə dair qərarların qəbulunda fəal iştirakını müdafiə edirdisə, Xomeyninin təlimi fəqihin bilavasitə dövlətə rəhbərliyi ideyasının üzərində qurulub. Qeyd etmək lazımdır ki, istər müasirləri, istərsə də sonrakı dövrün müsəlman alimləri arasında Xomeyninin baxışlarına etiraz edən kifayət qədər nüfuzli müctəhidlər olmuşdur ki, onlardan Ayətullah Şəriətmədarinin, Ayətullah Xoinin, Ayətullah Müntəzirinin, Ayətullah Beyat Zəncaninin və digərlərinin adlarını çəkmək mümkündür. [3].

**1. Xomeyninin "Vilayəti-fəqih" konsepsiyasında dini rəhbərin xarici siyasət məsələlərindəki vəzifələri**

"Vilayəti-fəqih" nəzəriyyəsinin konseptual müddəaları arasında xarici siyasət məsələləri olduqca mühüm yer tutur. İmam Xomeyniyə görə, "Vilayəti-fəqihin" xarici siyasətdə həll etməli olduğu bir neçə vacib məsələ var. Onlardan birincisi müsəlman dövlətləri və xalqları arasında möhkəm vəhdətin təmin edilməsilə bağlıdır. Vəhdəti

təmin etməyin yeganə yolunu İmam Xomeyni müsəlman dünyasında hakim olan və Qərbin kuklası funksiyalarını icra edən mürtəce rejimlərin devrilməsində görür. O, belə hesab edir ki, əgər həmin rejimlər devrilməsə və müsəlman ölkələrində xalqın həqiqi mənafelərinə xidmət edən, imperialist təfəkkürə qarşı olan, İslam təəssübkeşliyi çəkən hökumətlər qurulmasa ümmətin vəhdətini təmin etmək üçün atılacaq bütün cəhdlər iflasa uğrayacaqdır: "Müsəlmanların vəhdət və hürriyyətini təmin edə bilmək üçün zalım, oyuncaq dövlətləri yıxmaq, onların yerində xalqın xidmətində dayanacaq adil bir İslam dövləti qurmaq lazımdır. Dövlətin qurulması müsəlmanların vəhdətini qorumaq, birlik və nizamlarını mühafizə etmək üçün lazımdır". [1; s.48].

İmam Xomeyninin nəzərincə "Vilayəti-fəqih" fasiləsiz olaraq çalışmalı, bütün imkanlarını səfərbər etməlidir. Çünki, müsəlman ölkələrinin əksəriyyətində mövcud olan, Qərbin dəstəklədiyi və imperialist dairələr tərəfindən himayə edilən oyuncaq rejimlər sıradan çıxarılmadıqca nəinki ümmətin vəhdəti mümkün olmayacaq, həm də İslam dininin özünün gələcəyi təhlükə altına düşəcəkdir. İmam Xomeyni belə hesab edirdi ki, bənzər rejimlərin hakimiyyəti altında yaşayan müsəlmanların həyatlarını dinin hökmləri əsasında, əqidələrinə müvafiq tənzimləmələri qeyri-mümkündür. [1; s.47].

İslam dünyasını əsarətdə saxlamağa çalışan, onun təbii sərvətini talamağa can atanlarla müasibətlərdə "Vilayəti-fəqih" mütləq şəkildə güzəştsiz mövqedən çıxış etməli, onlara aldanmamalı və müstəmləkəçilərdən ədalət gözləməməlidir. Həmin qüvvələrin çıxaracağı hökmün "Vilayəti-fəqih" nəzərində hər hansı qanuni hökmü ola bilməz. Çünki, "Vilayəti-fəqih" üçün bütün məsələlərdə olduğu kimi xarici siyasət istiqamətində də yeganə hökm sahibi Allahdır. Allahın hökmünə zidd olan heç bir hökm və təklif İslam dövlətinin başçısı üçün məqbul deyildir. [1; s.108].

"Vilayəti-fəqihin" xarici siyasət sahəsindəki digər prioritet vəzifələrindən biri isə dinindən və irqindən asılı olmayaraq zülmə, istismara məruz qalmış xalqların qurtuluş mübarizəsinə yardım etməkdən ibarətdir. İslam nöqteyi-nəzərindən zülm Uca Allahın nəzərində ən böyük günahlardan biri hesab olunur və bu səbəbdən də zülmlə mübarizə müsəlmanların rəhbəri qarşısında dayanan mühüm vəzifələrdəndir. [1; s. 48].

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, zülmlə mübarizə, məzlum xalqların hüquqlarının bərpası, yer üzündə ədalətin və haqqın, Allahın hökmünün bərqərar edilməsi, mənəviyyatın islahı İmam Xomeyninin nəzərində İslam dövlətinin, onun başçısının ən mühüm hədəfi olmalıdır. İmam Xomeyni "Vilayəti-fəqihin" İslam alimləri arasından seçildiyini qeyd edir, fəqihlərin isə Allah qarşısındakı ən böyük vəzifələrinin zülmlə, haqsızlıqla mübarizə olduğunu xatırladaraq sözügedən hədəfin mühümlüyünü təkidlə vurğulayır. Bu mənada dövlət və siyasi hakimiyyət "Vilayəti-fəqih" üçün məqsəd yox, Allahın müəyyən etdiyi hədəflərə çatmaq, vəzifələri həyata keçirmək üçün bir vasitədir. Həmin prinsip istər daxili, istərsə də xarici siyasət məsələləri üçün keçərlidir. [1; s. 69-70]

Təbliğat işinin düzgün bir şəkildə qurulması, İslam hökmlərinin təhriflərdən və xarici qüvvələrin ideoloji təxribatlarından mühafizə edilmiş bir şəkildə həm ümmətə, həm də başqa xalqlara çatdırılması Xomeyninin fikrincə, "Vilayəti-fəqihin" mühüm vəzifələri sırasına aid məsələlərdəndir. İdeoloji mübarizənin effektiv şəkildə aparılmasına, düşmənlərin İslamı gözdən salmaq, müsəlmanlarda ruh düşkünlüyü yaratmaq istiqamətindəki cəhdlərinin qarşısının vaxtlı-vaxtında alınmasına birbaşa "Vilayəti-fəqih" cavabdehdir. O, müsəlmanların əqidəsinin təmizlinin qorunmasına, döyüş əhval-ruhiyyələrinin qorunmasına xüsusi həssaslıqla yanaşmalı, onların öz düşmənlərini yaxşı tanımalarına kömək etməlidir. [1; s.151-152].

Əgər biz İmam Xomeyninin "Vilayəti-fəqihin" xarici siyasət məsələlərindəki vəzifələrinə dair baxışlarını ümumiləşdirsək, əsas məğzin total nəzarətlə bağlı olduğunu görə bilərik. Yəni, Xomeyninin fikrincə, "Vilayəti-fəqih" daxili siyasətdə olduğu kimi, xarici siyasətin ana xəttinin müəyyənləşdirilməsində və onun icra metodlarının seçilməsində həlledici söz sahibi olmalıdır.

**2. İran konstitusiyasının müddəalarına əsasən "Vilayəti-fəqih" və xarici siyasət məsələləri**

İlk növbədə onu qeyd etmək lazımdır ki, İran konstitusiyası "Vilayəti-fəqihə" xarici siyasət sahəsində iki mühüm səlahiyyət vermişdir. Onlardan birincisi, İran İslam Respublikasının ümumi dövlət siyasətinin müəyyənləşdirilməsilə, ikincisi isə həmin siyasətin düzgün icrasına nəzarətlə bağlıdır. [6; s. 36]. Konstitusiyanın dini rəhbərə verdiyi sözügedən hüquqlar ona istənilən vaxtda həm prezidentin, həm də İslam Şura Məclisinin (parla-

mentin) xarici siyasətlə bağlı atacaqları addımlara və qəbul edəcəkləri qərarlara müdaxilə etməyə imkan verir. Həmçinin, İran Konstitusiyasında "Vilayəti-fəqihin" həyata keçirməli olduğu xarici siyasət kursunun başlıca ideoloji konturları və hədəfləri də aydın bir şəkildə öz əksini tapmışdır. İranlı tədqiqatçı A.Məniçöhri İran konstitusiyasında xarici siyasətlə bağlı 4 hədəfi xüsusi olaraq vurğulayır: 1. Ölkənin qeyri-şərtsiz suverenliyinin təmin edilməsi və dünya dövlətlərindən hər hansı asılılıq formasının yaranmasına mane olmaq. 2. Dünya müsəlmanlarının haqlarının müdafiəsi və bütün dünyada əzilmiş xalqların hüquqlarının təmənnasız şəkildə qorunması. 3. "İslam inqilabı" ideyalarının ixracı. 4. Fələstin xalqının azadlıq mübarizəsinin bütün vasitələrlə dəstəklənməsi [6; s. 186].

"Vilayəti-fəqih", yəni İranın ali dini lideri konstitusiyasının 153-cü maddəsinə görə ölkənin yeraltı və yerüstü sərvətləri, mədəni irsi, ordusu və iqtisadiyyatı üzərində hər hansı xarici qüvvənin nəzarətini ehtiva edən bütün növ saziş və müqavilələrin qarşısını almağa borcludur. Konstitusiyanın 156-cı maddəsinə əsasən isə dini rəhbər nə İran üzərində hər hansı xarici qüvvənin, nə də İranın hər hansı xarici dövlət üzərində hegemonluğunun yaranmasına imkan verməməlidir. Ana qanunun 154-cü maddəsinə əsasən isə "Vilayəti-fəqih" əzilmiş xalqların işğalçı dövlətlərə qarşı apardıqları mübarizəni dəstəkləməli, həmçinin başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsipini əməli baxımdan təmin etməlidir. [6;s. 186-187].

Yuxarıda qeyd edildiyi kimi, ali dini rəhbərin xarici siyasətin icrası sahəsində olduğu kimi, ona nəzarət məsələsində də kifayət qədər geniş hüquqları var. Bu hüquqlar ona həm birbaşa, həm da dolayı yolla xarici siyasəti korrektə etməyə, ona yön verməyə imkan yaradır. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, ana qanunun 110-cu maddəsi ölkənin ali dini liderinə dövlətin maraqlarına zidd siyasət yürüdəcəyi təqdirdə prezidenti vəzifəsindən kənarlaşdırmaq hüququ verir. [6; s. 36].

Həmçinin, İran parlamentinin xarici siyasət məsələlərinə dair qəbul edəcəyi istənilən qərar da ali dini rəhbərə tabe olan Konstitusiyaya Nəzarət Şurası tərəfindən təsdiqlənməlidir.

İranın siyasi sistemi kimi konstitusiyası da ali dini rəhbərin xarici siyasət sahəsində ciddi nəzarətini həyata keçirməyə imkan verəcək bir şəkildə formalaşdırılmışdır.

**Nəticə**

İmam Xomeyninin "Vilayəti-fəqih" konsepsiyasının təhlili göstərdi ki, bu təlimin müddəaları dini rəhbərə dövlət idarəçiliyinin bütün sahələri kimi, xarici siyasət məsələlərində də geniş hüquqlar vermişdir. Bu hüquqlar İranın ana qanunu – Konstitusiyasında da öz əksini tapmış və ali dini rəhbəri ölkənin hakimi-mütləqinə çevirmişdir. İranın dövlət strukturunda yaradılan idarəetmə nərdivanı prezidentin və xarici işlər nazirinin ölkənin xarici siyasətinə kardinal şəkildə müdaxilə imkanlarını sıfıra endirir. Müasir İranın siyasi sisteminə nəzər saldıqda əminliklə demək olar ki, 1979-cu il İslam inqilabının rəhbəri Ayətullah Xomeyninin mühacirət və təqib illərində yorulmadan təbliğ etdiyi ideyalar reallaşaraq, bu ölkənin danılmaz siyasi gerçəkliyinə çevrilmişdir.

**Açar sözlər:** *"Vilayəti-fəqih", Ayətullah Xomeyni, Molla Əhməd Nəraki, İran İslam İnqilabı, siyasi hakimiyyət, xarici siyasət,konstitusiya.*

**ƏDƏBİYYAT SİYAHISI**

*1. İmam Humeyni. Velayet-i Fakih (İslam devleti) // https://ankara.icro.ir/uploads/islamic_government.pdf*

*2. Kılınç A. İran Anayasa hukukunun genel esasları // Gazi Üniversitesi Hukuk fakültesi Dergisi, C.XII, Yıl 2008, Sayı 1-2, ss. 907-948.*

*3. Loui Hadi Khodabandeh. İranda dini otorite ve meşruiyet tartışmaları // Anadolu Ajansı – 20.04.2018 - https://www.aa.com.tr/tr/analiz-haber/iran-da-dini-otorite-ve-mesruiyet-tartismalari/1123778.*

*4. Uyar M. Velayet-i Fakihin ortaya çıkışı ve değerlendirilmesi // Dini Araştırmalar Dergisi, Ocak-Nisan, 2000, C.2, ss. 77-98.*

*5. Üstün İ. S. Velayeti-fakih // TDV İslam Ansiklopedisi, c.43, Ankara, 2013, ss. 19-22.*

*6. Манучихри А. Политическая система Ирана. Санкт-Петербург, 2007.*

*7. Миланян М.Д. Государственный строй современного Ирана. Москва, 1973.*

*8. Конституция Ирана - https://constitutions.ru/?p=140.*

**Амиров Эльдар Гурбан оглы,**
**доктор философии по политическим наукам,**
**доцент (Азербайджанский университет**
**языков)**

## РЕЗЮМЕ

В статье «Об обязанностях Верховного духовного лидера Ирана в вопросах внешней политики с точки зрения концепции Виляти-факих» рассматривается вопрос о роли и месте «Виляти-факих», то есть Верховного руководителя Ирана в определении и проведении внешней политики этой страны, в соответствии с одноименной религиозно-политической концепцией, разработанной в годы ссылки и преследований верховным лидером Исламской революции 1979 года. Автором дан подробный анализ этой концепции и рассмотрена история ее становления, начиная от Молла Ахмеда Нараки (ум.1829 г.) известного шиитского богослова эпохи Каджаров до самого Хомейни.

Анализ основных положений данной концепции показывает, что Хомейни в своем учении отвел ключевую роль верховному религиозному лидеру в системе исламского государства, закрепив за ним все права и полномочия, главы государства и механизмы тотального контроля за внешней и внутренней политикой страны. Основные положения этого религиозно-политического учения впоследствии нашли свое отражение в Конституции Исламской Республики Иран. Так, за духовным лидером признается право формировать и контролировать общегосударственную линию Ирана в вопросах внешней политики, утверждать внешние договора, корректировать действия президента и министра иностранных дел, заботиться об экспорте идей исламской революции и т.д.

С уверенностью можно сказать, что концепция «Виляти-факих» как в политическом, так и правовом отношении обеспечила верховному лидеру Ирана неограниченную власть в государственной иерархии, воплотив тем самым в жизнь идеи Хомейни яро проповедуемые им в годы ссылки и преследований.

**Ключевые слова:** *Виляти-факих, Айтолла Хомейни, Молла Ахмед Нараки, Иранская Исламская революция, политическая власть, внешняя политика, конституция*

**Amirov Eldar Gurban oglu**
**Doctor of Philosophy in Political Science,**
**Associate Professor**
**(Azerbaijan University of Languages)**

## SUMMARY

The article "On the duties of the Supreme Spiritual Leader of Iran in foreign policy issues from the point of view of the Vilyati-Fakikh concept" examines the role and place of the "Vilyati-Fakikh", that is, the Supreme Leader of Iran in determining and conducting the foreign policy of this country, in accordance with a religious and political concept of the same name, developed during the years of exile and persecution by the supreme leader of the 1979 Islamic Revolution. The author gives a detailed analysis of this concept and examines the history of its formation, from Moll Ahmed Naraki (died 1829) of the famous Shiite theologian of the Qajar era to Khomeini himself.

An analysis of the main provisions of this concept shows that Khomeini in his teaching assigned a key role to the supreme religious leader in the system of the Islamic state, securing to him all the rights and powers, heads of state and mechanisms of total control over the country's foreign and domestic policy. The main provisions of this religious and political doctrine were subsequently reflected in the Constitution of the Islamic Republic of Iran. Thus, the spiritual leader is recognized as having the right to form and control the national line of Iran in foreign policy, to approve foreign agreements, to correct the actions of the president and the foreign minister, to take care of the export of the ideas of the Islamic revolution, etc.

It can be said with confidence that the concept of Vilyati-fakikh, both politically and legally, provided the supreme leader of Iran with unlimited power in the state hierarchy, thereby realizing the ideas of Khomeini, fiercely preached by him during the years of exile and persecution.

**Keywords:** *Vilyati-fakih, Aytollah Khomeini, Molla Ahmed Naraki, Iranian Islamic Revolution, political power, foreign policy, constitution*

UOT 327

# ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNİN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ ROLU

**TƏHMİNƏ MƏSİMOVA**
*Bakı Dövlət Universiteti, doktorant*

*Email: tahmina_rustamova@yahoo.com*

Enerji amili yüz illərdir ki, insanların mövcudluğunun davam etdirilməsində ən önəmli və təməl qaynaqlar arasında öz yerini qorumuşdur. Günümüzdə də bu amil öz əhəmiyyətini qorumaqda davam edərək ölkələrin inkişafında əsas strateji rol oynamaqdadır. Bu günə qədər ənənəvi enerji mənbələri enerjiyə olan ehtiyacın əksər hissəsini qarşılamışdır. Ancaq bu mənbələrə hər ölkənin sahib olmaması, idxal, ixrac və tranzitin yüksək maliyyə tələb etməsi, ehtiyatların tədricən azalması və ətraf mühitə dəyən ziyan səbəbindən enerji istehsalında yeni mənbələrə ehtiyac çoxalmışdır. Enerji resurslarının məhdud olduğuna görə hər bir ölkə enerji təhlükəsizliyi problemi ilə qarşılaşır.

Son onilliklərin elmi tədqiqat məhsulu olan "enerji təhlükəsizliyi" anlayışının meydana çıxması bütün tarixi dövr ərzində ayrı-ayrı aspektlərdən qiymətləndirilsə də, vahid konseptual mənada izahlı ifadəsini tapmamışdır.

Beynəlxalq Enerji Agentliyi (BEA) qeyd edir ki, enerji bəşəriyyətin inkişafı və iqtisadiyyatın yüksəlişi üçün olduqca vacib amil olduğundan geniş anlamda "enerji təhlükəsizliyi" dedikdə kifayət qədər olan, adekvat, əlçatan və etibarlı enerji resursları ilə təminat başa düşülməlidir. (5, s. 160-161)

E. Telegina və L. Studenikina tərəfindən hazırlanmış "Enerji təhlükəsizliyi və XXI əsrdə Avrasiyanın energetik inteqrasiyası: Asiya profili" kitabında belə bir tərif verilmişdir ki, enerji təhlükəsizliyi ehtiyacların lazımi həcmdə, tələb olunan keyfiyyətdə və iqtisadi cəhətdən sərfəli qiymətlərlə, həmçinin fövqəladə hallarda minimal vacib ehtiyatlar şəraitində yanacaq-enerji resursları ilə zəmanətli təminatıdır. (12, s. 107)

2030-cu ildə dünya əhalisinin bu gün istehlak etdiyindən 45% daha çox enerjiyə ehtiyac duyacağı düşünülür, bununla bağlı yeni enerji istehsalının artan tələbatı ödəyə biləcəyinə dair narahatlıqlar yaranır. (2, s. 1-2)

Bu baxımdan bərpa olunan enerji növü enerji istehsalında bərpa oluna bilməyən enerjiyə alternativ olaraq ön plana çıxdı. Bütün dövlətlərin enerji ehtiyaclarının müəyyən bir hissəsini öz imkanları hesabına ödəyə bilmək qabiliyyəti müsbət şəkildə qarşılandı, lakin bərpa olunan enerji istehsalı bütün dünyaya yayılmamış və istənilən ölçüyə çatmamışdır. Ancaq müəyyən bir zamandan sonra bərpa olunan enerjinin rolunun əhəmiyyətli dərəcədə artacağını söyləmək səhv olmaz. Bərpa olunan enerji mənbələrindən istifadə ətraf mühitin qorunması baxımından da xeyli əhəmiyyətlidir.

Yeni alternativ enerjilərin əvəz etdikləri mənbələrə nisbətən az çirkləndirici olmasına ehtiyac duyulduğundan bərpa olunan enerji təbii olaraq mərkəzi plana keçir. Ən azı dörd onillikdir ki, mövcud olan bərpa olunan enerji mənbələri, ekoloji cəhətdən dağıdıcı və qeyri-insani sayılan mərkəzləşdirilmiş enerji mənbələrinə (məsələn, kömür, nüvə enerjisi) konseptual bir alternativ olaraq getdikcə daha geniş yayılmışdır. (4) Ənənəvi enerji mənbələrinə kömür, neft, təbii qaz və nüvə yanacağı, bərpa olunan enerji mənbələrinə isə su, günəş, külək, biokütlə enerjiləri və geotermal enerji aid edilir. (1, s. 29)

BEA bərpa olunan enerjini "təbii proseslər nəticəsində əldə edilən və istehlakdan daha sürətli bərpa olunan enerji" olaraq təyin edir. (6)

Yeniləbə bilən texnologiyaların regional, milli və qlobal səviyyələrdə ətraf mühit hədəflərinə çatarkən enerji təhlükəsizliyinə töhfə verə biləcəyini nəzərə alsaq (7), beynəlxalq əməkdaşlıq platforması rolunu oynamaq üçün 2009-cu ildə IRENA (Birləşmiş Millətlər Təşkilatının Rəsmi Müşahidəçisi) təsis edilmişdir. (9) Bərpa olunan enerji mənbələri hazırda güc və investisiya baxımından sürətlə böyüyür. Qlobal bərpa olunan enerji şüuru rəqəmlərlə göstərilir: 2018-ci ilin sonuna qədər 169 ölkə milli, ştat və ya kənd səviyyəsində bərpa olunan enerji hədəflərini qəbul (ya tətbiq) etdilər. Bundan başqa, 135 ölkə enerji tənzimləmə siyasəti yürüdür. (8)

Bərpa olunan enerji mənbələri şübhəsiz ki, bir ölkənin qlobal enerji bazarlarından daha az az asılı olması və karbohidrogen yanacaq ehtiyatlarından

və bahalı nüvə enerjisi texnologiyalarına çıxışından asılı olmayaraq enerji ilə təminat hədəfinə yaxınlaşması üçün ən yaxşı fürsətdir. (11, s. 99)

Bərpa olunan enerji ənənəvi enerji təminatında fasilələr olduğu təqdirdə enerji xidmətlərinin qorunmasına və davamlı təmin olunmasına kömək edərək enerji təhlükəsizliyinin təminində mühüm rol oynayır. Enerji kəsintisi səbəbləri təbii, texnoloji və ya insanın fəaliyyətindən qaynaqlana bilər, misal olaraq hava hadisələrini, kiber hücumları və qlobal bazarın təlatümlərini göstərə bilərik.

Təbii fəlakətlər: Quraqlıq və fırtına kimi ağır hava hadisələrinin daha kəskin və dağıdıcı olacağı proqnozlaşdırılır. Bu hadisələr enerji tədarükünü azalda və ya kəsə bilər və enerji infrastrukturuna ciddi mənfi təsir göstərə bilər. Məsələn, ABŞ-da kəskin hava elektrik enerjisinin kəsilməsinin bir səbəbi olaraq qalmaqdadır.

Kiberhücumlar: Enerji sektoru daha da avtomatlaşdırılır, rəqəmsallaşdırılır və bir-biri ilə əlaqələndirilir. Kiberhücumlar çox rast gəlinəndir və enerji sektoru olduqca müasir və əlaqəli olduğu üçün daha böyük bir təhlükə yarada bilər.

Geosiyasət: Dövlətlərarası qarşıdurmalar enerji təhlükəsizliyini təhdid edə bilər. Məsələn, 1973-cü il neft böhranı, OPEK-in ABŞ-a tətbiq etdiyi embarqo ilə nəticələndi. Yanacaq istehsal edən ölkələrdəki siyasi qeyri-sabitlik enerji qiymətlərinə bilavasitə təsir göstərir.

Yanacaq qiymətlərində dalğalanmalar: Yanacaq qiymətlərindəki dəyişikliklər (məsələn, iqtisadi və ya digər amillərlə əlaqəli) bir dövlətin və ya cəmiyyətin yanacaq almaq qabiliyyətinə təsir edərək enerji təhlükəsizliyini təhdid edə bilər.

Uzunmüddətli iqlim dəyişiklikləri: Havanın istiləşməsi, suyun temperaturu və suyun mövcudluğu kimi ətraf mühit şəraitinin dəyişməsi enerji sistemlərində stressə səbəb ola bilər.

• Temperaturun yüksəlməsi havanın süni yolla soyudulmasına (kondisionerlərdən istifadə) olan tələbatı artırır və bu da yayda enerjiyə olan tələbatın əhəmiyyətli dərəcədə artmasına təsir göstərir.

• Su enerji istehsalı üçün lazımdır. Hidroelektrik sistemlər axından asılıdır və bəzi elektrik istehsal sistemlərinin soyutma üçün suya ehtiyacı var. Azalmış yağıntı və ya artan su temperaturu, elektrik stansiyasının gücünü məhdudlaşdıraraq tədarükə təsir edə bilər. Qar əriməsi (yəni yazda ərimə və axma vaxtı) hidroelektrik sistemlərin pik istehsalını dəyişdirir.

Enerji sistemləri hər zaman pozuntulara məruz qala bilər, iqtisadi inkişaf üçün enerjidən istifadə ilə bağlı potensial imkanlara təhlükələr artır: hava hadisələrinin intensivləşməsi və getdikcə daha çox şəbəkələşən enerji sistemlərinə qarşı geniş miqyaslı kiberhücumların sayı artır. Bu təkamül yeni enerji texnologiyaları, planlaşdırma və tətbiqetmələrdəki tendensiyaları və zəif nöqtələri anlamağı vacib edir.

Arzu olunan səviyyəyə hələ çatılmasa da, enerji istehsalında bərpa olunan enerjinin payı və bu baxımdan şüur zamanla artır. Məsələn, Dünya Enerji Şurasının məlumatlarına görə, bərpa olunan enerjinin ilkin enerji təminatındakı payı 1993-cü ildə 12%, 2011-ci ildə isə 13% olmuşdur. (10) İqlim və Enerji Həlləri üçün Mərkəzin hesablamalarına görə bərpa olunan enerjinin enerji təminatındakı payı 2017-ci ildə 17,1 % olmuşdur. (14) BEA-nın verdiyi məlumatlara əsasən qlobal elektrik istehsalında bərpa olunan mənbələrin payı 2019-cu ilin birinci rübündə 26%-dən 2020-ci ilin birinci rübündə təxminən 28%-ə yüksəlmişdir. (16) Əvvəllər, əsasən bərpa olunan enerjiyə hidroelektrik enerjisi çərçivəsində baxılsa və digər mənbələr vahid başlıq altında toplanılsa da, indi isə geniş əhatədə baxılır. Buna görə bərpa olunan enerji mənbələrini bir-bir qısa şəkildə nəzərdən keçirək.

Minilliklədir ki, yer üzünə istilik və işıq verən günəş sonsuz bir enerji mənbəyi kimi bilinir. Günəş enerjisi dünyada ən əlverişli mənbələrdən biridir və xüsusilə, günəşli ərazilər üçün daha perspektivlidir. Dünyaya günəşdən çata bilən şüaların kiçik bir hissəsinin belə enerjiyə çevrilə bilməsi bəşəriyyətin enerji ehtiyaclarını böyük ölçüdə qarşılaya bilər.

Digər bərpa olunan enerji mənbəyi olan külək müxtəlif yollarla enerji istehsal etmək üçün hava axınlarının gücündən istifadə edir. Şübhəsiz ki, külək dünyanın hər yerində olur, ancaq küləyin vacib bir enerji mənbəyi olaraq qəbul edilməsi üçün müəyyən bir intensivliklə əsməli və daha çox davamlı olmalıdır. Belə xüsusiyyətlərə sahib yerlərdə quraşdırılmış külək turbinləri ilə ucuz enerji istehsal etmək mümkündür və bir çox dövlətlər son illərdə enerji ehtiyacının əhəmiyyətli bir hissəsini küləkdən əldə etməyə başlamışlar. Bu enerji mənbəyindən istifadəyə görə Almaniya dünya ölkələri arasında birincidir. Külək enerjisi həm də digər alternativ enerji mənbələrinə nisbətən maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə

görə ən perspektivlisidir. Almaniya, İspaniya və Danimarka kimi Avropa ölkələrinin külək enerjisinin istehlak edilməsi sahəsində addımlarını digər ölkələr yaxından izləyirlər. (3)

Su elektrik enerjisi çərçivəsində ən çox tanınan bərpa olunan enerji növüdür. Hidravlik enerji, dalğa enerjisi, qabarma-çəkilmə enerjisi və okean (termik) enerjisi kimi mövzuları araşdırmaq səmərəlidir.

Bərpa olunan başqa bir enerji növü, yerin müxtəlif dərinliklərində mövcud olan, müxtəlif minerallar və kimyəvi maddələr ehtiva edən nüvənin istiliyi ilə qızdırılan su, buxar və qazların enerjisi olan geotermal enerjidir. Hava şəraitindən təsirlənməmək, birbaşa istifadə etmək, bir çox istifadə sahəsinə sahib olmaq və kifayət qədər davamlı olmaq kimi səbəblər geotermalı bərpa olunan enerji növü kimi fərqli bir yerə çıxarır.

Bərpa olunan enerji daxilində bəhs edilməli olan başqa bir mövzu da biokütlə enerjisidir. Günəş enerjisini istənilən şəkildə saxlayan bioloji materiallar və tullantılar biokütlə enerjisi istehsalı üçün istifadə edilə bilər. Biokütlə enerjisi dünyanın ən geniş yayılmış bərpa olunan enerji növüdür və yaxın dövrlərdə istilikdən elektrik istehsalına, nəqliyyat vasitəsi yanacağından mövcud neft-kimya məhsullarının istehsalına qədər geniş bir sahəyə sahib olması gözlənilir. (15)

Artıq bəzi Avropa ölkələrində əhalinin sıx yaşadığı yerlərdə zibilləri emal etməklə ondan enerji alınır. Zibillərin yandırılmasından alınan enerji hesabına ətrafdakı yaşayış məntəqələri istilik və elektrik enerjisi ilə təmin edilir. Yandırılmış tullantıların qalıqlarından isə gübrə kimi torpaqların münbitliyini artırmaq məqsədilə geniş istifadə olunur.

Bərpa olunan enerjinin istixana qazı emissiyası profilinə görə daha sərfəli olmasına baxmayaraq digər texnologiyalar kimi də ətraf mühitə təsiri var. Külək və günəş enerjisi seyrək yanacaqdır və geniş ərazilərə ehtiyac duyur. Qurudakı külək stansiyalarının inşası quru sahələrini tısbağalar, quşlar, yarasalar və s. kimi canlıların təsirlərinə qarşı tədbirləri zəruri edir. Külək və günəş işığı fasiləsiz olduğu üçün əsas enerji mənbəyi rolunu oynayacaqları təqdirdə depolanmalıdır. Külək turbinlərinin ömrü təxminən 20-26 ildir, bundan sonra inşaatında istifadə olunan polad, sement və digər materiallar təkrar emal edilməli və ya lazımi qaydada utilizasiya olunmalıdır. Bu təsirlər, bir ölkənin enerji balansında bərpa olunan enerjinin iştirakının mənfi ekoloji təsirlər yaratması deməkdir. (17)

Yanacaq növlərinin şaxələndirilməsi, fasilələrin bərpası, xarici tədarüklərdən asılılığın, qiymət dəyişkənliyinin minimuma endirilməsi və davamlılığın qorunması komponentlərinin hamısı elektrik enerjisi istehsalı üçün bərpa olunan enerji mənbələrinin istifadəsi ilə dəstəklənir. Bərpa olunan enerjilər, yuxarıda göstərilən enerji təhlükəsizliyinin beş ölçüsündən ən az üçü üçün perspektivləri yaxşılaşdırır.

Azərbaycan bərpa olunan enerji mənbələrinin yüksək potensialına malik olan ölkələrdəndir. Belə ki, ölkəmizdə iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı 26 940 MVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 040 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

Azərbaycan külək enerjisi qurğularının tətbiqi baxımından əlverişli şəraitə malik ölkələrdən biridir. Xüsusilə, ölkənin Abşeron yarımadası, Xəzər dənizi sahili zolağı və şimal-qərb hissəsində olan adalar, Azərbaycanın qərbində Gəncə-Daşkəsən zonası və Naxçıvan Muxtar Respublikasının Şərur-Culfa ərazisi bu baxımdan əlverişli ərazilərdir.

Azərbaycanın təbii iqlim şəraiti də günəş enerjisindən istifadə etməklə, elektrik və istilik enerjisinin istehsalını artırmağa geniş imkanlar açır. Belə ki, günəşli saatların miqdarı il ərzində Azərbaycanda 2400-3200 saatdır, yəni Azərbaycan ərazisinə düşən günəş şüalarının miqdarı digər ölkələrlə müqayisədə üstünlük təşkil edir ki, bu da günəş enerjisindən istifadənin tətbiqinə sərmayələrin cəlb edilməsinin səmərəlilik meyarlarından biri kimi qiymətləndirilə bilər. Günəş enerjisindən istifadənin inkişafı Azərbaycanın bir çox rayonlarında enerji problemini qismən həll edə bilər.

Azərbaycanda biomaddələrin aşağıdakı mənbələri mövcuddur: yanma qabiliyyəti olan sənaye tullantıları, meşə təsərrüfatı və ağac emalı sahələrinin tullantıları, kənd təsərrüfatı məhsulları və üzvi birləşmə tullantıları, məişət və kommunal sahələrinin tullantıları, neft və neft məhsulları ilə çirklənmiş sahələrdən alınan tullantılar.

Aparılmış tədqiqatlar göstərir ki, iqtisadiyyatın

bütün sahələrində istehsal tullantılarının tərkibinin çox hissəsini biokütlə maddələri təşkil edir. Həmin biokütlə maddələrindən elektrik enerjisinin istehsalında istifadə olunan bioqaz, biomaye və bərk biokütlənin alınması mümkündür. Belə ki, Azərbaycan Respublikasında hər il tullantıların zərərsizləşdirilməsi poliqonlarına 2,0 milyon tondan çox bərk məişət və istehsalat tullantıları atılır. Bakı və ölkənin iri sənaye şəhərlərində ictimai binaların qızdırılmasındakı çətinlikləri bərk məişət və istehsalat tullantılarının emal edilməsi qismən aradan qaldıra bilər.

Yer qatından çıxan istilik (geyzerlər, palçıq vulkanları) bir çox ölkələrdə sənaye, kənd təsərrüfatı, məişət və kommunal sahələrdə və təbabətdə geniş istifadə olunur. Azərbaycan Respublikasının ərazisi termal sularla zəngindir. Bunlar Böyük və Kiçik Qafqaz dağları, Abşeron yarımadası, Talış dağ-yamac zonası, Kür çökəkliyi və Xəzəryanı-Quba ərazisi kimi geniş sahələrdə yayılmışdır. Göstərilən ərazilərdə olan termal suları istifadəyə cəlb etməklə, məişətdə və digər sahələrdə istilik enerjisinə olan ehtiyacın bir hissəsini ödəmək mümkündür.

Azərbaycan Respublikasının ümumi enerji sistemində su-elektrik stansiyalarının istehsal gücünün xüsusi çəkisi hazırda 17,8 faiz təşkil edir. Ölkədə indiyə qədər istifadə edilməmiş hidroenergetika ehtiyatlarının mənimsənilməsi üçün geniş imkanlar var. Su-elektrik stansiyalarının tikintisi nəticəsində sel suları tənzimlənir, ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsal edilir və yeni suvarma sistemləri yaradılır. Azərbaycan Respublikası ərazisindəki çaylar kiçik su-elektrik stansiyaları üçün əlverişlidir. (13)

Enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadəyə də diqqət edilir.

Ölkəmizdə bərpa olunan enerji potensialından səmərəli istifadə edilməsi məqsədilə atılmış əsas addımlardan biri 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi olub. Proqramın qəbulu bərpa olunan enerji mənbələrinin istifadəsində köklü dəyişikliklərin həyata keçirilməsinə və ölkəmizin bu sahədəki potensialının dəyərləndirilməsinə geniş imkanlar yaratdı.

Bu məqsədlə Azərbaycan 10 iyun 2009-cu il tarixində yeni yaradılmış Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinə qoşulub. (18) 10 noyabr tarixində isə Sənaye və Energetika Nazirliyinin Alternativ Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin (indiki adı Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi) təsis edilməsi barədə fərman imzalanıb. (20)

Azərbaycanın ümumi elektrik enerjisi istehsalı gücü 7516 MVt, iri su elektrik stansiyaları daxil olmaqla bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1278 MVt-dır ki, bu da ümumi gücün 17%-ni təşkil edir. Hidroenerji gücü 1135 MVt (22 ədəd stansiya, 12-si kiçik su elektrik stansiyası), külək enerjisi gücü 66 MVt (5 stansiya, 1-i hibrid), bioenerji gücü 38 MVt (2 stansiya, 1-i hibrid), günəş enerjisi gücü 37 MVt (9 stansiya, 1-i hibrid) təşkil edir. 1 ədəd hibrid elektrik stansiyasında (Qobustan) külək – 2,7 MVt, günəş – 3 MVt və bioenerji – 1 MVt əsaslı qurğular quraşdırılıb. Naxçıvan Muxtar Respublikasında ümumi gücü 24 MVt olan 3 günəş elektrik stansiyası istismar edilir. İri su elektrik stansiyaları daxil edilmədən bərpa olunan enerji mənbələri üzrə qoyuluş gücü 2019-cu ildə 166,3 MVt olmaqla ümumi elektrik enerjisi istehsalı gücünün 2,2%-ni təşkil edib.

2019-cu ildə respublika üzrə istehsal edilən elektrik enerjisi 26,1 milyard kVt·saat olub ki, bunun da 1,9 milyard kVt·saat-ı bərpa olunan enerji mənbələrinin payına düşüb. İl ərzində külək elektrik stansiyalarında 105,4 mln. kVt·saat, günəş elektrik stansiyalarında 44,2 mln. kVt·saat, bərk məişət tullantılarının yandırılması zavodunda isə 195,9 mln. kVt·saat elektrik enerjisi istehsal olunub. Bərpa olunan enerji mənbələrindən istehsal olunmuş elektrik enerjisi ümumi istehsalın 7.3%-ni təşkil edib. Kiçik su elektrik stansiyalarında (ümumi güc 25,3 MVt) enerji istehsalı 53,6 milyon kVt·saat təşkil edib.

İri su elektrik stansiyaları daxil edilmədən bərpa olunan enerji mənbələrindən istehsal olunmuş elektrik enerjisi 2019-cu ildə 399,1 milyon kVt·saat olmaqla ümumi elektrik enerjisi istehsalının 1,5%-ni təşkil edib. Bu stansiyalar, o cümlədən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 20 MVt-lıq günəş elektrik stansiyası, 2018-ci ildə “Azərişıq”

ASC tərəfindən istismara verilən 50 MVt gücündə külək elektrik parkı ölkə iqtisadiyyatının və əhalisinin elektrik enerjisi ilə təminatında və enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Eyni zamanda elektrik enerjisinin istehsalı üçün istifadə olunan təbii qaz və digər resurslara da ciddi şəkildə qənaət edilməkdədir.

2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması əsas hədəf kimi müəyyənləşdirilib. Bu hədəfə nail olmaq üçün dövlət investisiyası ilə yanaşı, özəl, o cümlədən xarici investisiya hesabına yeni istehsal güclərinin istifadə verilməsi istiqamətində tədbirlər həyata keçirilir.

"Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 may 2019-cu il tarixli 1209 nömrəli Sərəncamı ilə Energetika Nazirliyinə bərpa olunan enerji mənbələrindən istifadənin təşviq edilməsi, bu sahədə əlverişli investisiya mühitinin yaradılması və özəl sahibkarlıq fəaliyyətinin dəstəklənməsi tədbirlərinə dair təkliflərin hazırlanaraq təqdim edilməsi tapşırılıb.

Eyni zamanda bərpa olunan enerji mənbələrindən istifadə sahəsində qanunvericilik bazasının formalaşdırılması məqsədi ilə adıçəkilən sərəncamla "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin hazırlanması barədə tapşırıq verilib. Müvafiq sahədə dövlət siyasətinin əsas məqsədlərini, dövlətin vəzifələrini, təşviqedici mexanizmləri və digər əsas məsələləri özündə ehtiva edən qanun layihəsi hazırlanıb. Qanunvericiliyin hazırlanmasında dövlət qurumlarının, məsləhətçi şirkətin, beynəlxalq şirkətlərin və maliyyə təşkilatlarının nümayəndələri yaxından iştirak edib. Sahənin inkişafının təmin edilməsi üçün bərpa olunan enerji mənbələri potensialına malik ərazilərin müəyyənləşdirilməsi və prioritetləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilib. Ümumi gücü təqribən 750 MVt olan 8 ərazi müəyyənləşdirilib, 3 sahədə pilot layihələrin həyata keçirilməsi ilə bağlı tədbirlər görülür.

"Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 dekabr tarixli 1673 Sərəncamı ilə Azərbaycan Respublikasında külək və günəş enerjisi üzrə elektrik stansiyalarının tikintisi ilə bağlı pilot layihələrin həyata keçirilməsi və icrasının əlaqələndirilməsi məqsədilə Komissiya yaradılıb.

Təqdim edilmiş təkliflərin səmərəliliyi və xüsusi ilə də qiymət təkliflərinin ölkəmizdə külək və günəş enerjisi üzrə mövcud olan topdan satış qiymətləri çərçivəsində olduğu nəzərə alınaraq, 2020-ci ilin 9 yanvar tarixində Azərbaycan Respublikasının Nazirlər Kabinetində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında bərpa olunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı İcra müqavilələri imzalanıb. Müqavilələrə uyğun olaraq "ACWA Power" şirkəti ilə 240 MVt gücündə külək, "Masdar" şirkəti ilə isə 200 MVt gücündə günəş stansiyalarının tikintisi ilə bağlı pilot layihələr icra ediləcək. Külək və günəş enerjisi layihələri üzrə ümumilikdə, təxminən, illik 1,4 mlrd. kvt·saat elektrik enerjisinin istehsalı proqnozlaşdırılır. (19)

Kömürdən günəşə, odundan neftə qədər geniş bir enerji qaynağına sahib olmaq və ya bunlara ən ağlabatan yollarla çatmaq bütün ölkələrin enerji təhlükəsizliyi siyasətinin ilk və əsas prinsipidir. Ənənəvi enerji mənbələri kimi təyin olunan karbohidrat yanacaqları və nüvə enerjisinin bəzi iqtisadi, siyasi, hərbi, ekoloji və sosial təhlükəsizlik problemlərinin olması, bərpa olunan enerjiyə yaxından marağın artmasına səbəb olmuş və bu tendensiyanın davam edəcəyi də tamamilə gözlənilən və təbiidir. Bərpa olunan enerjinin yaxın və ya orta müddətdə enerji istehsalının hakim qüvvəsinə çevrilə biləcəyini və karbohidrat yanacaqların taxtını ələ keçirəcəyini söyləmək həddən artıq nikbinlik olardı. Buna baxmayaraq enerji istehsalında bərpa olunan enerjinin payı tədricən artır. Bərpa olunan enerji enerji təhlükəsizliyində potensial oyun dəyişdiricisi sayılır.

Beləliklə, yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti Azərbaycanda ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə edilməsinə imkan verir. Bu, istilik elektrik stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaətlə yanaşı, ətraf mühitə atılan zərərli tullantıların miqdarını da xeyli azaldar. Ölkənin təbii potensialından istifadə etməklə alternativ ener-

ji mənbələrinin elektrik və istilik enerjisi istehsalına cəlb edilməsi elektroenergetikanın gələcək inkişaf istiqamətlərində mütərəqqi dəyişikliklər etməyə imkan yaradar. Respublikamızın təbii potensialından istifadə etməklə alternativ enerji mənbələrinin elektrik və istilik-enerjisi istehsalına cəlb edilməsi elektroenergetikanın gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməyə əsas verir.

Energetikanın inkişafı, hələlik, başlıca olaraq bərpa olunmayan enerji mənbələrinə, yəni karbon tərkibli və ya uran yanacaqlarına əsaslanır. Bu mənbələrin ekoloji çatışmazlığı qeyri-ənənəvi (alternativ) bərpa olunan ekoloji təmiz enerji mənbələrindən daha geniş istifadənin tədqiqini tələb edir.

Azərbaycanda hazırda energetika ilə bağlı müxtəlif yeni layihələr hazırlanır, həyata keçirilir. Eyni zamanda, köhnə elektrik stansiyaların gücünün daha da artırılması işləri nəzərdə tutulub.

**Açar sözlər:** *Enerji, enerji təhlükəsizliyi, alternativ və bərpa olunan enerji, Azərbaycan Respublikası*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Yaşar Demirel, Energy: Production, Conversion, Storage, Conservation, And Coupling, Springer, Belin, 2012, 416 p.*

*2. Gal Luft, Anne Korin, Energy Security: In the Eyes of the Beholder, Energy Security Challenges for the 21st Century: A Reference Handbook, Santa Barbara Praeger Security International, California, 2009, 341 p.*

*3. Hal Marcovitz, Can Renewable Energy Replace Fossil Fuels?, Reference Point Press, San Diego, 2011*

*4. Harjanne A, Korhonen JM. Abandoning the concept of renewable energy, Energy Policy, 2019*

*5. İnternational Energy Agency, World Energy Outlook 2007-Global Energy Prospects: Impact of Development in China and India, ch. 4, The World's Energy Security, Paris, 2007, 663 p.*

*6. International Renewable Energy Agency (IRENA), A New World, The Geopolitics of the Energy Transformation, Global Commission on the Geopolitics of Energy Transformation,2019 https://geopoliticsofrenewables.org/assets/geopolitics/Reports/wpcontent/uploads/2019/01/Global_commission_renewable_energy_2019.pdf*

*7. Ölz S, Sims R, Kirchner N. Contribution of Renewables to Energy Security. Paris: OECD/IEA; 2007*

*https://www.iea.org/publications/freepublications/publication/so_contribution.pdf*

*8. REN21, Renewables 2019 Global Status Report, Paris: REN21 Secretariat; 2019 https://www.ren21.net/wp-content/uploads/2019/05/gsr_2019_full_report_en.pdf*

*9. Scholten D, Bosman R. The geopolitics of renewables: Exploring the political implications of renewable energy systems, Technological Forecasting and Social Change, 2016*

*10. World Energy Council, World Energy Resources: 2013 Survey, WEC, İngiltere, 2013*

*11. Zhao H. Energy security: From energy independence to energy interdependence, In: Zhao H, editor, The Economics and Politics of China's Energy Security Transition, 1st ed. London, UK: Academic Press; 2019, 394 p.*

*12. Телегина Е. А. , Студеникина Л. А. Энергетическая безопасность и энергетическая интеграция в Евразии в XXI веке: азиатский профиль, Москва: Информ-Знание, 2006, 223 с.*

*13. http://anl.az/down/meqale/ses/2010/may/120338.htm*

*14.https://www.c2es.org/content/renewableenergy/#:~:text=Renewables%20made%20up%2017.1%20percent,come%20from%20wind%20and%20solar*

*15. https://dergipark.org.tr/tr/download/article-file/276249*

*16. https://www.iea.org/reports/global-energy-review-2020/renewables*

*17.https://www.intechopen.com/books/renewable-energy-resources-challenges-and-applications/energy-security-and-renewable-energy-a-geopolitical-perspective*

*18. https://www.irena.org/newsroom/articles/2009/Jun/IRENA-welcomes-Azerbaijan-as-93rd-Signatory*

*19.https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade*

*20. https://president.az/articles/40895*

## THE ROLE OF ALTERNATIVE AND RENEWABLE ENERGY SOURCES IN ENERGY SECURITY


### SUMMARY

In 2030 the world's population is expected to need 45% more energy than it consumes today, raising concerns that new energy production could meet growing demand. Against this background, renewable energy comes to the fore as an alternative to non-renewable energy in energy production. The article deals with the role and dangers of alternative and renewable energy in energy security, as well as the potential of alternative and renewable energy in the Republic of Azerbaijan.


**Key words:** *Energy, energy security, alternative and renewable energy, the Republic of Azerbaijan*

## РОЛЬ АЛЬТЕРНАТИВНЫХ И ВОЗОБНОВЛЯЕМЫХ ИСТОЧНИКОВ ЭНЕРГИИ В ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ


### РЕЗЮМЕ

Ожидается, что в 2030-ом году населению мира потребуется на 45% больше энергии, чем оно потребляет сегодня, что вызывает опасения по поводу того, что новое производство энергии может удовлетворить растущий спрос. На этом фоне возобновляемые источники энергии выходят на первый план как альтернатива невозобновляемым источникам энергии в производстве энергии. В статье рассматриваются положительные и отрицательные аспекты альтернативных и возобновляемых источников энергии для обеспечения энергетической безопасности, а также потенциал альтернативных и возобновляемых источников энергии в Азербайджанской Республике.


**Ключевые слова:** *Энергетика, энергетическая безопасность, альтернативные и возобновляемые источники энергии, Азербайджанская Республика.*

UOT 327;930.22

# DÖVLƏTLƏRARASI ƏLAQƏLƏRDƏ DİPLOMATİYANIN ROLU

**EMİL KAZIMOV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı*

*E-mail: mirrena54@yahoo.com*

Diplomatiyanı müəyyən edən digər bir qurum ölkə parlamentidir ki, burada da diplomatiyanın hüquqi əsasları, qanunvericilik əsasları formalaşır. Diplomatiya qanunvericiliklə hüquqi status əldə edir. Dövlətin xarici siyasətinin icrasını həyata keçirən ümumiləşdirici qurum isə xarici işlər nazirlikləri və xarici siyasət ofisləridir.

Diplomatiyanın bir peşə sahəsi kimi tarixi qədimdir. Dövlətlər yaranandan indiyə qədər beynəlxalq münasibətlər olub. Diplomatiya tarixən dövlətlər arasında əlaqələri yaradan vasitə kimi əhəmiyyət kəsb edib. Diplomatiya dövlət siyasətinin tərkibini özündə cəmləşdirən aktlardan ibarətdir.

Hər bir anlayış kimi, diplomatiyanın da tərkib anlayışları, elementləri mövcuddur. Diplomatiya anlayışının konseptuallığı bundan meydana gəlir. Diplomatiya anlayışı özündə dövlətçilik konsepsiyalarını, qanunvericilik sistemini, beynəlxalq münasibətlərdə subyekt və obyekt kimi anlayışları, beynəlxalq hüquq anlayışını, o cümlədən beynəlxalq müqavilələr, danışıqlar anlayışlarını cəmləşdirən universal anlayışdır. Eyni zamanda məxsusi anlayışları da vardır: səfir, elçi, konsul, nunsi, internunsi, aqreman, ekzekvatura, göndərən ölkə, təyinat ölkə, immunitetlik, toxunulmazlıq kimi anlayışları da özündə cəmləşdirir.

Diplomatiya bir anlayış olaraq özündə: siyasət, bu baxımdan təmsilçilik, (ölkəsinin və təşkilatın təmsil olunması), missiyaçılıq (sülh missiyasının, digər siyasi missiyaların həyata keçirilməsi), vasitəçilik (münaqişəli tərəflərin barışdırılması), əlaqələndiricilik (dövlətlərin strukturlarının əlaqələndirilməsi), barışdırıcılıq (sülh missiyası), icraçılıq (dövlət siyasətinin icrası) kimi strateji və taktiki məsələləri ehtiva edir. Diplomatiyanın tərkibi olan konsulluq fəaliyyəti də siyasət aktlarından ibarətdir. Konsulluq mülkü sahədə dövlət siyasətinin əsaslarını həyata keçirir. Təyinat ölkədə yaşayan vətəndaşların mülki maraqlarını təmin edir, gediş-gəliş (viza) məsələlərini tənzimləyir. Mülki aktlar da dövlət siyasətinin tərkibini təşkil edir. (1,s.123)

Diplomatiya danışıqlar aparmaq məharətini özündə əks etdirən bir sahədir. Diplomatiya etiketləri, beynəlxalq mənəvi məsələləri özündə cəmləşdirir. Diplomatiya dövlətin nümayəndəliyi məsələsini özündə ehtiva edir. Diplomatiya beynəlxalq əlaqələrdə dövlətin identifikliyini yaradan bir sahədir. Diplomatik gedişlər taktiki uduşlara və strateji nailiyyətlərə yönəlir. Diplomatiya etika və estetika məsələlərini özündə əks etdirir. Diplomatiya təyinat ölkədə şəraiti öyrənmək, vəziyyəti öyrənmək funksiyasını həyata keçirir.

Diplomatiya (burada xarici işlər qurumları və səfirliklər, elçiliklər, diplomatik müşavirlər, konsulluqlar) öz fəaliyyətini milli qanunvericilik normaları (diplomatiya və konsul xidmətləri haqqında göndərən ölkənin qanunvericilik normaları ilə), təyinat ölkənin müvafiq qanunvericilik normaları və beynəlxalq hüquqla müəyyən edir. Diplomatiya beynəlxalq normaların hazırlanmasında iştirak edir (müqavilə və sazişlərin hazırlanmasında xarici işlər qurumları iştirak edirlər) və şəraitə uyğun təkliflərlə çıxış edir. Diplomatiya dövlətin beynəlxalq hüquqa (məsələn, konvensiyalar və onların protokollarına qoşulma) qoşulmasını təmin edir.

Diplomatiya təmsilçilik sahəsi olduğundan, burada dövlətin (təmsil olunan dövlətin) bütün elementləri əks olunmalıdır. Diplomatiya dövlətin (göndərən ölkənin) xarakterik xüsusiyyətlərini və xalqın mental cizgilərini özündə ehtiva edir. Diplomatiya həm beynəlxalq, həm də milli elementləri özündə daşıyır. Milli mədəniyyət modelini təqdim edir və digər tərəfdən də beynəlxalq normalara əməl etməklə beynəlxalq etiketi əks etdirir.

Diplomatiya milli elementlərin təqdimatını həyata keçirən bir etik və estetik fəaliyyət sahəsidir. Diplomatiya milli mədəniyyəti və dünya mədəniyyətini tərənnüm edən bir sahədir. Hər bir xalqın mədəniyyətini dünyada həm də onun dövlətinin diplomatiyası həyata keçirir. Deməli, diplomatiya tanıtım vasitəsidir. Xalqın həyata

keçirdiyi diplomatiyanın məzmunu ilə həmin xalqın xarakterini müəyyən etmək olar.

Diplomatiya bir elm obyekti kimi, öyrənmə sahəsi olaraq beynəlxalq münasibətlərə aiddir. Beynəlxalq münasibətlər dövlətlərin xarici siyasət fəaliyyətləri olduğundan diplomatiya da dövlətə aiddir. Bu baxımdan bir siyasət fəaliyyəti kimi diplomatiyanı politologiya öyrənir. Beynəlxalq hüquq da hüquqşünaslıqla yanaşı, poltologiya elminin tərkibində öyrənilir. (2,s.234-243)

Diplomatiya - dövlət başçılarının, hökumətlərin və xarici əlaqələr üzrə xüsusi orqanların prinsipial fəaliyyəti olub, dövlətin xarici siyasətinin məqsəd və vəzifələrini həyata keçirməkdən və dövlətin hüquq və maraqlarını xaricdə müdafiə etməkdən ibarətdir. Diplomatiya dedikdə əsasən beynəlxalq münasibətlərin iştirakçısı olan dövlət və qrupların səlahiyyətli nümayəndələri arasında danışıqların aparılması sənəti və təcrübəsi nəzərdə tutulur. Diplomatiyanın predmeti, subyekti, obyekti də dunyanın siyasi xəritəsində öz yerini tutmuş dövlətlərdir. Diplomatiya tarixinin başlıca məqsədi dövlətlərarası münasibətlərin yaranması, inkişafı və pozulma prosesini öyrənməkdən ibarətdir.

Müasir dünyada dövlətlər öz mənliyini, mövcudluğunu 2 yolla təsdiq etdirir:

• 1) dövlətlər arası münasibətlər, yəni ikitərəfli diplomatiya;

• 2) çoxtərəfli münasibətlər, yəni subregional, universal təşkilatlar vasitəsi ilə tanınma.

Ən qədim zamanlardan diplomatiya işi imtiyazlı dairələrin, saray elitalarının əlində olmuş, böyük bir tarixi inkişaf yolu keçərək mərasimləşmiş və məcəlləşmişdir. Tədricən dövlətlərarası münasibətlərin qayda və normalarının hüquqi bərkintisindən ibarət beynəlxalq hüquq elmi meydana gəlmişdir ki, qədim Romada bu elmi "Xalqlar hüququ" adlandırmışlar. Diplomatiya tarixinin vəzifələri çox spektrli olub bilavasitə məqsədin aydınlaşdırılmasına xidmət edir. Diplomatiya müxtəlif maddi mədəniyyət nümunələrini özündə saxlamaqdadır ki, bunlara Mani və Hammurapi qanunlarını göstərmək olar.

Fransalı diplomat Qarden diplomatiyanın tam kursunda yazır :

“Diplomatiya sözün geniş mənasında dövlətin xarici əlaqələri haqqında elmdir, daha dəqiq mənada isə danışıqların aparılması elmi və sənətidir.”

Bir sıra müəlliflər isə diplomatiyanın tərifinə subyektiv xüsusiyyətlər də əlavə edir. Məsələn : İngilis diplomatı E.Satau diplomatiyanı müstəqil dövlətlərin hökumətləri arasında rəsmi münasibətlərin aparılmasına ağlın və taktın (taktiki gedişlərin) tətbiqi kimi müəyyən edir. Digər ingilis diplomatı Q.Nikolson da yazır ki, söz nə xarici siyasəti, nə də beynəlxalq hüququ deyil, yalnız danışıqlar məharətini ifadə etməlidir.

Keçmiş sovet ədəbiyyatlarında isə diplomatiya daha çox xarici siyasətin həyata keçirilməsi vasitəsi kimi təyin olunur. (3, 78-89)

Diplomatik lüğətdə diplomatiyanın tərifi aşağıdakı kimi verilir :

“Diplomatiya – həll olunan məsələnin xarakterini və konkret şərtləri nəzərə almaqla tətbiq olunan üsul və vasitələrin, qeyri-hərbi praktiki mərasimlərin məcmuusundan ibarət olan dövlətin xarici siyasətini həyata keçirmək üsuludur. İkinci tərifə əsasən diplomatiya-dövlətin xarici siyasətinin məqsəd və vəzifələrinin həyata keçirilməsi, dövlətin, onun xaricdəki müəssisə və vətəndaşlarının hüquqlarının və maraqlarının qorunması üzrə dövlət və hökumət başçılarının, xarici işlər nazirinin, xaricdəki diplomatik nümayəndəliklərin, beynəlxalq konfranslardakı nümayəndə heyətlərinin rəsmi fəaliyyətidir.” (4,s.55-59)

Bir çox yerlərdə diplomatiya dar mənada dövlətlər arasında danışıqlar aparmaq və müqavilələr bağlamaq məharəti, bacarığı kimi də qiymətləndiilir.

Diplomatiya və xarici siyasət anlayışlarını bir-birinən fərqləndirmək vacibdir. Xarici siyasət daha geniş anlayışdır və diplomatiya onun həyata keçirilməsinin vasitəsi rolunu oynayır. Diplomatiyadan başqa dövlətin xarici siyasətinin həyata keçirilməsinin fərqli üsul və vasitələri də mövcuddur; iqtisadi əməkdaşlıq, hərbi güc, kəşfiyyat, xarici siyasi təbliğat və s. Lakin diplomatiyadan fərqli olaraq onların bir çoxu xarici siyasətə münasibətdə müstəqil məqsəd və vəzifələrə sahib olurlar.

Xarici siyasət dövlətin beynəlxalq məsələlərdə ümumi kursudur. O dövlətin məqsəd və vəzifələrini, onun beynəlxalq münasibətlərdə fəaliyyətinin əsas istiqamətlərini, həmçinin istər sülh, istərsə də müharibə dövründə bu fəaliyyətin forma və metodlarını müəyyən edir.

Deyilənlərdən aydın olaraq görünür ki, diplomatiya xarici siyasətə münasibətdə daha dar anlayışdır, çünki onun realizəsinin vasitələrindən

sadəcə olaraq biridir. Lakin qeyd etmək lazımdır ki, diplomatiyanı xarici siyasətin digər üsulları ilə qarşılaşdıranda diplomatiya xarici siyasətin əsas vasitəsidir və yalnız onun məqsədlərinə xidmət edir.

Lakin bu üsul beynəlxalq hüququdan fərqlənir. Diplomatiya hət hansı bir dövlətin xarici siyasət maraqlarını başqa dövlətlərə (onların hökumətlərinə, ayrı-ayrı siyasi dairələrinə, ictimai fikrə) mənəvi siyasi təsir vasitəsilə həyata keçirməyə, bu maraqların təmin olunması üçün onları başqa dövlətlərin xarici siyasət maraqları ilə razılaşmağa çalışır. Diplomatiyanı beynəlxalq hüquqdan fərqləndirən cəhətlərdən biri də odur ki, beynəlxalq hüquq bütün hallarda vahid tənzimləmə sistemi kimi çıxış edir və bütün beynəlxalq aləm üçün eynidir, lakin məlumdur ki, "hər kəs üçün ümumi olan diplomatiya mövcud deyil". Hər dözvlətin özünəməxsus diplomatiyası vardır ki, onların da effektivliyi həmin dövlətlərin diplomatiya məharətindən asılıdır.

Diplomatiya təbiətinə əsasən beynəlxalq münasibətlərin siyasi tənzimləmə vasitəsidir və zor işlətməyin və zorla hədələmənin qadağan olunduğu müasir dövrdə xrici siyasətin həyata keçirilməsinin əsas vasitəsidir.

K.K.Sandrovskiy diplomatiyanın bir sıra spesifik cəhətlərini ayırır. Bunlara aiddir :

– Beynəlxalq işlərdə dövlətin fəaliyyətinin rəsmi xarakteri;

– Diplomatik fəaliyyətin dövlətin istənilən orqanları vasitəsilə deyil, yalnız və yalnız bu məqsədlə yaradılmış xüsusi orqanlar – xarici əlaqə orqanları vasitəsilə həyata keçirilməsi;

– Diplomatiyanın bütün hallarda, yalnız dinc vasitələrlə həyata keçirilməsi.

Xarici siyasəti həyata keçirmək üçün digər dinc vasitələr də mövcud olduğu üçün sülh xarakteri təkcə diplomatiyaya xas olan cəhət deyildir, lakin buna baxmayaraq o, mühüm və müəyyənedici cəhətdir. (5,s.45)

Müasir beynəlxalq hüquqda ikitərəfli və çoxtərəfli diplomatiya anlayışı mövcuddur. İki dövlət arasında diplomatik fəaliyyəti tənzimləyən ikitərəfli diplomatiyadan fərqli olaraq, çoxtərəfli diplomatiya beynəlxalq təşkilatlar, konfranslar və müşavirələr çərçivəsində bir neçə dövlət dövlətlər qrupu tərəfindən həyata keçirilir və çoxtərəfli əsasda dövlətin danışıqları, məşvərətləri ilə müşayiət olunur.

Birləşmiş Millətlər Təşkilatının (BMT) və digər beynəlxalq təşkilatların yaradılması ilə çoxtərəfli diplomatiya da böyük əhəmiyyət kəsb etməyə başlayır. Onun özünəməxsus xüsusiyyətləri vardır:

– İştirakçıların razılaşdırdığı xüsusi proseduralar əsasında həyata keçirilir;

– İştirakçıların mövqeyi fikir mübadiləsi, açıq çıxışlar və şəxsi görüşlər əsasında işlənib hazırlanır;

– Qərarlar ya məcburi qüvvəyə malik olan, ya da tövsiyyə xarakteri daşıyan hüquqi aktlar formasında qəbul edilir.

Diplomatiya sahəsi çox genişdir və onun izahını bir məqalədə vermək mümkün deyil. Amma yekunda bu yazını Birləşmiş Ştatların 1842-1914-cü illərdə yaşamış diplomatı Ambros Biers`in (Ambroce Bierce) aşağıdakı sətirləri ilə yekunlaşdırmaq istəyirəm :

"İnsanın öz vətəni üçün yalan deməsi bir sənətdir. Buna DİPLOMATİYA deyilir."

Elə bəlkə də günümüzdə dövlətlərin çoxunun diplomatiyasının sirri bu sətirlərdə gizlidir. (6.s.124)

Diplomatiyanın tarixi beynəlxalq münasibətlərdə sülh tarixini özündə ehtiva edir. Bu baxımdan da bu elm obyekti tarixşünaslıq tərəfindən də öyrənilir. Diplomatiya həm də fəlsəfi məzmundur. Burada etika və estetika, dövlət maraqları, diplomata beynəlxalq səviyyədə hörmət olunması kimi məsələlər bu sahənin fəlsəfi məzmununu yaradır.

Diplomatiya sahəsi özündə diplomatik vəzifələri (səfir, elçi, konsul, müşavir, katib, attaşe) və diplomatik rütbələri əks etdirən bir strukturdur. Diplomatiya özündə protokol qaydalarını (nümayəndələrin qəbulu və yola salınması qaydaları), diplomatik korpusun (təyinat ölkədə xarici ölkələrin diplomatlarının məcmusu) əsaslarını müəyyən edir.

Hər bir anlayış kimi diplomatiyanın da tərifi mövcuddur. Diplomatiyanın tərifi onun konsepsiyasından, əhatəliliyindən və strateji və taktiki məzmunundan formalaşır. (7.s.98-99)

Nəticə etibarı ilə diplomatiyanın universal (geniş məzmunlu) və konkret (tərkibli) tərifi mövcuddur.

– Diplomatiya dövləti başqa dövlətlərdə və təşkilatlarda təmsil edən nümayəndəli bir siyasət sahəsidir;

– Diplomatiya xüsusi dövlət qulluğu sahəsi olmaqla, bir dövləti başqa bir dövlətdə və təşkilatda təmsil etmək sahəsi və vasitəsidir;

– Diplomatiya dövlət başçısının başqa dövlətlər

başçıları yanında təmsil edən əsas nümayəndəli və hüquqi statuslu bir vasitədir;

– Diplomatiya göndərən ölkənin hökumətini başqa dövlətlərin hökumətləri yanında (məsələn, konsulluqlar) təmsil edən siyasət vasitəsidir. Qeyd: mülki işlər, iqtisadi işlər, sosial və mədəni məsələlərin tənzim olunması siyasət fəaliyyətinin obyektidir. (8,s.111)

– Diplomatiya bir dövlətin daxili qurumları (hakimiyyət qolları və onların aparatları) ilə digər dövlətin daxili qurumları arasında əlaqələrin imkanlarını öyrənən və öz dövlətinə məlumat verən bir vasitədir. Dövlətin təyinat ölkəyə qarşı siyasətinin konturlarının müəyyən olunmasında diplomatiya müəyyən təkliflərlə çıxış edir;

– Diplomatiya (burada xarici siyasətdə iştirak edən və onu ümumiləşdirən, koordinasiya edən qurumlar) dövlətin xarici siyasətini sistemli olaraq həyata keçirən bir akt sahəsidir;

– Diplomatiya səlahiyyətli, fövqəladə statuslu, vəzifəli, öhdəlikli olmaqla, immunitet (şəxsi toxunulmazlıq, əmlak və əşyaların toxunulmazlığı, diplomatik poçtun toxunulmazlığı) və imtiyaz imkanlarına malik olan siyasət sahəsidir;

– Diplomatiya dövlətin mənafeyini qoruyan və onun maraqlarını beynəlxalq aləmdə, başqa dövlətlərdə və təşkilatlarda müdafiə edən siyasət vasitəsidir;

– Diplomatiya öz dövlətinin və təşkilatın elementlərini özündə cəmləşdirməklə, beynəlxalq aləmdə hərəkət edən və dövlətin və xalqın xarakter-tik xüsusiyyətlərini özündə daşıyan bir vasitədir;

– Diplomatiya dövlətin başqa dövlətlərdə əmlakını müdafiə edən, qoruyan və mülki məsələləri tənzim edən bir fəaliyyət sahəsidir;

– Diplomatiya milli maraqları beynəlxalq hüquq əsasında digər milli maraqlarla sintez edən fəaliyyət sahəsidir;

– Diplomatiya göndərən və təyinat ölkədə siyasi prosesləri analiz edən və proseslər arasında uyğunluğu öyrənən və proseslər axarına təsir edən proseslər barədə ölkəsinə təkilf verən siyasət fəaliyyətidir;

– Diplomatiya öz ölkəsinin və xalqının mental dəyərlərini nümayiş etdirən bir mədəniyyət modelidir və vasitəsidir;

– Diplomatiya missiyaçılıq məqsədini təmin edən bir vasitədir;

– Diplomatiya vasitəçilik funksiyasını yerinə yetirən bir vasitədir;

– Diplomatiya öz ölkəsi ilə təyinat ölkədə fəaliyyət göstərən diplomatik qurumlarla əlaqələndirən bir vasitədir. Diplomatik korpus daxilində diplomatiya öz ölkəsinin maraqlarını genişləndirir və müdafiə edir.

## ƏDƏBİYYAT SİYAHISI


*1. Elşən Nəsibov "ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası" Bakı, 2006 s.269*

*2. Дипломатический словарь. 2-е изд. - Т.1.- М., 2009. - С. 479*

*3. A.N.Abbasbəyli "Müasir beynəlxalq münasibətlər və Qloballaşma" Bakı, 2007 s.268*

*4. A.N.Abbasbəyli "Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının nəzəri problemləri" Bakı, 2006 s.409*

*5. Avropa Şurası və Azərbaycan, Sülh, təhlükəsizlik və demokratiya naminə. Bakı, 2000 s.196*

*6. Дипломатический словарь. 2-е изд. - Т.1.- М., 1971. - С. 479*

*7. Ковалев Ан. Азбука дипломатии. 5-е изд., переработанное и дополненное — М., 1988.*

*8. Попов В. И. Современная дипломатия: Теория и практика: Курс лекций. Ч. 1: Дипломатия — наука и искусство / ДА МИД РФ. — М.: «Научная книга», 2003.*


## SUMMARY


Diplomacy is the practice of influencing the decisions and conduct of foreign governments or intergovernmental organisations through dialogue, negotiation, and other nonviolent means. Diplomacy usually refers to international relations carried out through the intercession of professional diplomats with regard to a variety of issues and topics. Diplomacy is the main instrument of foreign policy and Global Governance which represents the broader goals and strategies that guide a state's interactions with the rest of the world. International treaties, agreements, alliances, and other manifestations of foreign policy are usually the result of diplomatic negotiations and processes. Diplomats may also help shape a state's foreign policy by advising government officials.

Modern diplomatic methods, practices, and principles originated largely from 17th century Eu-

ropean custom. Beginning in the early 20th century, diplomacy became professionalized; the 1961 Vienna Convention on Diplomatic Relations, ratified by most of the world's sovereign states, provides a framework for diplomatic procedures, methods, and conduct. Most diplomacy is now conducted by accredited officials, such as envoys and ambassadors, through a dedicated foreign affairs office. Diplomats operate through diplomatic missions, most commonly consulates and embassies, and rely on a number of support staff; term diplomat is thus sometimes applied broadly to diplomatic and consular personnel and foreign ministry officials.

**Key words:** *Diplomacy, foreign governments,organisations, Vienna Convention, Diplomats*

### РЕЗЮМЕ

Дипломатия - это практика влияния на решения и поведение иностранных правительств или межправительственных организаций посредством диалога, переговоров и других ненасильственных средств. Дипломатия обычно относится к международным отношениям, осуществляемым через заступничество профессиональных дипломатов в отношении самых разных вопросов и тем. Дипломатия является главным инструментом внешней политики и глобального управления, который представляет более широкие цели и стратегии, которые направляют взаимодействие государства с остальным миром. Международные договоры, соглашения, союзы и другие проявления внешней политики обычно являются результатом дипломатических переговоров и процессов. Дипломаты также могут помочь сформировать внешнюю политику государства, консультируя правительственных чиновников. Современные дипломатические методы, практики и принципы возникли в основном из европейского обычая XVII века. Начиная с начала XX века дипломатия стала профессиональной; Венская конвенция о дипломатических сношениях 1961 года, ратифицированная большинством суверенных государств мира, обеспечивает рамку для дипломатических процедур, методов и поведения. В настоящее время дипломатия в большинстве случаев осуществляется аккредитованными должностными лицами, такими, как посланники и послы, через специальное отделение по иностранным делам. Дипломаты работают через дипломатические представительства, чаще всего консульства и посольства, и пользуются услугами ряда вспомогательных сотрудников; таким образом, термин «дипломат» иногда широко применяется к дипломатическому и консульскому персоналу и должностным лицам министерства иностранных дел.

**Ключевые слова:** *Дипломатия, иностранные правительства, организации, Венская конвенция, дипломаты*

UOT 32:316.77; 32:070; 32.049.5; 32:316.65

# PANDEMİYA İLƏ MÜBARİZƏDƏ DÖVLƏT NƏZARƏT MEXANİZMİ

**XƏTAİ SALMANOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, doktorant*

*E-mail: salmanovxetai3@gmail.com*

Nəzarət qarşıya qoyulmuş məqsədlərə çatmağı təmin edən proseslərin məcmusudur. Nəzarət fəaliyyəti norma və standartların müəyyənləşdirilməsi, əldə olunmuş faktiki nəticələrin müəyyən edilmiş standartlarla müqayisəsi və müqayisə nəticəsində meydana çıxan fərqlərin aradan qaldırılması üçün lazımi addımların atılmasından ibarətdir. Nəzarət olmadan inkşafa və uğura nail olmaq mümkün deyil. Nəzarətin zəruriliyi aşağıdakı amillərlə şərtlənir:

1. Nəzarət daxili və xarici qeyri-müəyyənliyi azaldır. Eyni zamanda nəzarət dəyişən şəraitə hazır olmaq və həmin dəyişikliklərə lazımi reaksiya vermək üçün ən effektiv mexanizmlərdən biridir.

2. Nəzarət böhranlı situasiyaların meydana çıxması haqqında xəbərdarlıq edir. Əgər mövcud daxili vəziyyətin təhlili nəticəsində aşkarlanmış neqativ və qanunazidd hallara qarşı zamanında tədbirlər görülməzsə, həmin problemlər daha da dərinləşəcək və tənəzüllə gətirib çıxaracaq. Bu mənada nəzarət gələcəkdə baş verə biləcək böhranlı vəziyyət haqqında əvvəlcədən xəbərdarlıq edir.

3. Nəzarət təşkilatı hərtərəfli və istənilən neqativ təsirlərdən qoruyur [4].

İdarəetmə fəaliyyətində həyata keçirilən nəzarət prosesi özündə aşağıdakı funksiyaları daşıyır:

• Mövcud olan və baş verə biləcək nöqsanların, qanunazidd halların qarşısının alınması məqsədilə yoxlamaların həyata keçirilməsi;

• Qarşıya qoyulmuş hədəflərə və arzulanan nəticələrə çatmaq üçün fəaliyyətin qiymətləndirilməsinin həyata keçirilməsi;

• Qəbul edilən qərarların icrasının yoxlanılması və qanun aliliyinin təmin edilməsi;

• Resurslardan səmərəli istifadəni təmin etmək [7].

Nəzarət fəaliyyətində şəffaflığı və effektivliyi təmin etmək üçün bir sıra prinsiplərə riayət olunmalıdır. Bu prinsiplər aşağıdakılardır:

1.Müstəqillik prinsipi
2.Qanunçuluq prinsipi
3.Obyektivlik prinsipi
4.Aşkarlıq prinsipi
5.Məxfilik prinsipi
6.Səmərəlilik prinsipi

Müasir dövrdə idarəetmə fəaliyyətinin bütün (istər dövlət idarəçiliyi, istərsə də dövlətin ictimai, sosial, siyasi, iqtisadi, hüquqi) sahələrində şəffaf nəzarət sisteminin mövcudluğu labüddür. Nəzarət sisteminin formaları idarəetmə fəaliyyətinin inkşafında mühüm rol oynayır. Nəzarət prosesi aşağıdakı kimi təsnifləşdirilir:

1. Dövlət nəzarəti
2. Prezident nəzarəti
3. Sosial nəzarət
4. İctimai nəzarət
5. Məhkəmə nəzarəti
6. Konstitusiya nəzarəti
7. Maliyyə nəzarəti

Dövlət nəzarətinin əsas formalarından biri də fövqəladə vəziyyətlərə qarşı dövlətin həyata keçirdiyi nəzarət fəaliyyətidir. Fövqəladə hallar dedikdə, təbiət hadisələri (zəlzələ, sel, daşqın, torpaq sürüşməsi, vulkan püskürməsi, qar uçqunu, sunami, fırtına), genişmiqyaslı yanğınlar, partlayışlar, yoluxucu xəstəliklər, pandemiyalar və s. nəzərdə tutulur. Baş verən fövqəladə hallar zamanı hər bir dövlətin əsas məqsədi itkilərin qarşısının alınması və mövcud vəziyyəti nəzarətdə saxlamaqdır[2].

İlk öncə baş verə biləcək fövqəladə hallara hazırlıqlı və planlı olmaq lazımdır. Bu məqsədlə fövqəladə hallara qarşı strategiya planı olmalı və strategiya planında səmərəli nəzarət tədbirləri yer almalıdır. Yalnız bu təqdirdə fövqəladə hallar zamanı vəziyyəti nəzarətdə saxlamaq və vəziyyətdən minimum itkilərlə çıxmaq mümkün ola bilər.

Baş vermiş əksər fövqəladə vəziyyətlər dövlətin iqtisadi, sosial sahələrinə mənfi təsir göstərdiyi üçün hər bir dövlətin fövqəladə hallardan

sonrakı vəziyyətlə də bağlı tədbirlər mexanizmi olmalıdır[1].

Fövqəladə hallar ərazi xüsusiyyətlərinə görə üç qrupa ayrılır:

- Yerli
- Regional
- Qlobal

Yerli fövqəladə vəziyyət dedikdə, kiçik əraziləri əhatə edən, əsasən mövsumi və müvəqqəti xarakter daşıyan hallar nəzərdə tutulur. Yerli fövqəladə vəziyyətlər zamanı güclü dağıntılar və ciddi təhlükəlilik dərəcəsi olmur. Belə fövqəladə hadisələrə misal olaraq daşqınlar, zəlzələlər, sel, torpaq sürüşməsini və s. göstərmək olar. Regional fövqəladə vəziyyət dedikdə, müəyyən regionu əhatə edən, əsasən orta təhlükəlilik dərəcəsinə malik olan hadisələr nəzərdə tutulur. Orta təhlülələlik dərəcəsinə malik olmasına baxmayaraq, regional fövqəladə hallara qarşı zamanında müvafiq tədbirlər görülməzsə, vəziyyət nəzarətdən çıxa bilər. Regional fövqəladə vəziyyətə xəstəliklər, regional yanğınlar və s. misal olaraq göstərmək olar.

Qlobal miqyaslı fövqəladə vəziyyət dedikdə, dünyanın bir çox ölkələrində müşahidə olunan və yüksək təhlükəlilik dərəcəsinə malik olan hadisələr nəzərdə tutulur. Belə fövqəladə halların qarşısının alınması məqsədilə, dünya ölkələri bir araya gələrək qlobal problemin aradan qaldırılmasının həlli yollarını axtarmağa çalışırlar. Eyni zamanda qlobal miqyaslı fövqəladə halların aradan qaldırılması üçün bir sıra beynəlxalq təşkilatlar da yaradılır. Qlobal miqyaslı fövqəladə hallara misal olaraq pandemiyaları, ozon qatının deşilməsini, içməli su problemini və s. göstərmək olar[5].

Müasir dövrdə geniş və sürətli şəkildə yayılmış qlobal miqyaslı fövqəladə hallara yoluxucu xəstəlikər və pandemiyalar daxildir. Yoluxucu xəstəliklərə və pandemiyalara vəba, taun, ebola, COVID-19 koronavirus pandemiyasını misal olaraq göstərmək olar. Bu növ xəstəliklər içərisində COVID-19 koronavirus pandemiyası xüsusilə fərqlənir. Dünya təcrübəsi göstərir ki, dövlət nəzarət mexanizminin mövcudluğunun zəruri olduğu sahələrdən biri də pandemiya ilə mübarizədir. Xüsusilə son dövrlər dünyanın dörd bir yanına ayaq açmış koronavirus pandemiyası bu sahəyə olan dövlət nəzarətinin əhəmiyyətini daha artırdı.

Çində meydana çıxan COVID-19 koronavirus pandemiyası, 2019-cu ilin dekabr ayından etibarən qısa müddət ərzində bütün dünyanı öz cənginə aldı. Pandemiyanın qısa müddət ərzində bütün dünya ölkələrinə sürətli şəkildə yayılması dünya dövlətlərini qəti və zəruri addımlar atmağa məcbur etdi. Bu məqsədlə ilk olaraq COVID-19 koronavirus pandemiyasının yarandığı Çin dövləti pandemiyanın qarşısını almaq məqsədilə təcili nəzarət tədbirlərinə başladı. Bu nəzarət tədbirləri aşağıdakılardır:

- Keçirilməsi nəzərdə tutulan və planlaşdırılan olimpiyadalar, bir sıra beynəlxalq yarışlar təxirə salındı;
- Şəhərlərarası yeraltı və yerüstü nəqliyyat vasitələrinin hərəkəti müvəqqəti olaraq dayandırıldı;
- Kütləvi tədbirlərin, iclasların, toplantıların keçirilməsi qadağan edildi;
- İnsanlar arasında sosial məsafənin saxlanılması, maskalardan və digər dizenfeksiya vasitələrindən istifadə edilməsi tövsiyyə olundu.

Çin hökuməti tərəfindən həyata keçirilən zəruri nəzarət tədbirləri və məhdudiyyətlər nəticəsində vəziyyəti nəzarətdə saxlamaq mümkün oldu. COVID-19 koronavirus pandemiyasının tüğyan etdiyi dövlətlərdən biri olan Amerika Birləşmiş ştatlarında pandemiyanın qarşısının alınması və vəziyyətin nəzarətdə saxlanılması üçün bir sıra zəruri və təxirəsalınmaz nəzarət tədbirlərinin icrasına başlanıldı. Bu məqsədlə Amerika dövləti aşağıdakı nəzarət tədbirlərini həyata keçirdi:

- 10 nəfərdən artıq insanın bir yerdə toplaşması qadağa edildi;
- vətəndaşlara beynəlxalq səyahət etməkdən çəkinmək tövsiyyəsi olundu;
- məktəblər və digər təhsil müəssisələri müvəqqəti bağlandı;
- sərgilər, konvensiyalar, musiqi festivalları və konsertlər, idman tədbirləri və digər ictimai tədbirlər ləğv olundu[3].

COVID-19 koronavirus pandemiyasının vurduğu iqtisadi təsirləri nəzərə alaraq ABŞ dövləti tərəfindən bir sıra iqtisadi tədbirlərin, güzəştlərin icrasına başlanıldı. Bu məqsədlə işsizlik müavinətləri, bütün sahələrdə fəaliyyət göstərən müəssisələrə maddi yardımlar göstərildi. Eyni zamanda hər bir ABŞ vətəndaşına min iki yüz ABŞ dolları məbləğində birdəfəlik ödəmələr verildi. ABŞ dövləti tərəfindən həyata keçirilən zəruri nəzarət tədbirləri nəticəsində pandemiyaya yoluxanların və

pandemiyadan ölənlərin sayında azalma müşahidə olunmağa başlandı[6]. COVID-19 koronavirus pandemiyasının təsirləri Azərbaycan Respublikasından da yan keçmədi. Dünyanı cənginə almış COVİD-19 pandemiyasının qarşısını almaq və yaranmış vəziyyətdən minimum itkilərlə çıxmaq üçün Azərbaycan dövləti tərəfindən təcili tədbirlərin həyata keçirilməsinə başlanıldı və pandemiyaya qarşı dövlət nəzarət mexanizmi yaradıldı. Həmçinin vətəndaşları koronavirus pandemiyasının vurduğu iqtisadi zərərlərdən qorumaq, əhalinin sosial vəziyyətinin yüksəldilməsi məqsədilə bir sıra sosial-iqtisadi tədbirlərin icrasına başlanıldı. Sosial iqtisadi tədbirlər çərçivəsində müddəti bitmiş əlilliyi olan, işsizliklə bağlı sığorta alan, peşə hazırlığına cəlb olunanlar vətəndaşların ödəniş müddəti iki ay müdətinə uzadıldı. Əhaliyə tətbiq olunan elektrik enerjisinin limiti artırıldı. Həyata keçirilən xüsusi karantin rejimi ilə əlaqədar bir sıra dövlət və özəl sektorların müəyyən sahələri öz fəaliyyətlərini müvəqqəti olaraq dayandırmalarına baxmayaraq, həmin sahələrdə çalışan işçilərin iş yerləri və əmək haqları qorunub saxlanıldı. Həyata keçirilən maliyyə dəstəyi nəticəsində özəl sektorda çalşan 760 min nəfərin və dövlət sektorunda çalışan 900 min nəfər işçinin işsizliklə üzləşməsi problemi aradan qaldırılmışdır.

Sosial tədbirlər çərçivəsində koronavirus pandemiyası səbəbilə öz gəlir mənbələrini itirən və qeyri-formal şəkildə işləyən şəxslərə minimum yaşayış məbləği miqdarında (190 manat) birdəfəlik ödəmələr verildi. Birdəfəlik ödəmələr sərt karantin rejiminin (16 şəhər və rayon - Bakı, Cəlilabad, Gəncə, Lənkəran, Masallı, Sumqayıt, Yevlax, Abşeron Goranboy, Göygöl, Mingəçevir, Bərdə, Xaçmaz, Samux, Siyəzən, Şəki.) tətbiq edilməsi səbəbilə aprel-may aylarında 600 min vətəndaşı əhatə etməklə ümumilikdə 225 milyon manat vəsait, iyul ayında 290 min vətəndaşı əhatə etməklə 55 milyon manat vəsait, avqust ayında isə 279 min vətəndaşı əhatə edtməklə 53 milyon manat vəsait şəklində ödənilmişdir. Ümumlikdə COVİD-19 pandemiyasının yayıldığı gündən etibarən vətəndaşların sosial-rifahının qorunması və pandemiyanın təsirlərinin azaldılması məqsədilə dövlət tərəfindən həyata keçirilən nəzarət tədbirləri 5 milyona yaxın insanı əhatə etmişdir[9].

Koronavirusla mübarizə tədbirləri çərçivəsində dövlətin nəzarətdə saxladığı əsas sahələrdən biri də səhiyyə sahəsi oldu. Koronavirus pandemiyasının ölkə iqtisadiyyatına göstərdiyi mənfi təsirlərə baxmayaraq, ölkə prezidenti Cənab İlham Əliyevin göstərişlərinə uyğun olaraq səhiyyə sahəsində həyata keçirilən operativ nəzarət tədbirləri Azərbaycan dövlətinin öz vətəndaşına və ümumilikdə insan amilinə verdiyi yüksək dəyərin əyani sübutudur.

Koronavirus xəstələrinə xidmət edən 46 xəstəxanadan 40-ı son on beş ildə tikilmiş və ya əsaslı təmir edilmişdir. Eyni zamanda koronavirus xəstələrinə xidmət etmək üçün 16 modul tipli xəstəxana da istismara verilmişdir. Koronavirus testlərinin götütrülməsi üçün xəstəxana laboratoriyalarının sayı altı dəfə artırılmışdır.

Azərbaycan dövləti tərəfindən koronavirusla mübarizə çərçivəsində həyata keçirilən nəzarət tədbirləri, atılan məntiqli və ardıcıl addımlar Ümumdünya Səhiyyə Təşkilatının və digər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmiş və beynəlxalq miqyasda koronavirus pandemiyası ilə mübarizə çərçivəsində nümunə olaraq seçilmişdir. Azərbaycan dövləti tərəfindən pandemiya təsirlərindən əziyyət çəkən və pandemiyanın ciddi zərər vurduğu 30 ölkəyə humanitar yardımlar göndərilmişdir. Eyni zamanda Azərbaycan dövləti tərəfindən Ümumdünya Səhiyyə Təşkilatına fərdi şəkildə olmaqla iki dəfə ianələr köçürülmşüdür[8].

Azərbaycan Respublikası ərazisində COVİD-19 infeksiyasının yayılmasının qarşısının alınması, koronavirusla mübarizə tədbirlərinin genişləndirilməsi, gücləndirilməsi və koronovirusla mübarizə sahəsində həyata keçirilən tədbirlər sisteminin maliyyə dəstəyi ilə təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılmışdır. Koronavirusla Mübarizəyə Dəstək Fondunda yığılmış vəsaitlərin səmərəli və şəffaf xərclənməsini təmin etmək və xərclənən maliyyə vəsaitləri haqqında cəmiyyətin mütəmadi məlumatlandırılması məqsədilə İctimai Nəzarət Şurası yaradıldır. İctimai Nəzarət Şurasının tərkibi Nazirlər Kabineti yanında ictimaiyyəti təmsil edən beş və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahı təmsil edən iki nümayəndədən ibarət olmaqla yeddi üzvdən ibarətdir.

Koronavirus pandemiyası ilə bağlı vəziyyəti

nəzarətdə saxlmaq məqsədi ilə ölkə ərazisində bir sıra çevik və sistemli tədbirlərin tətbiqinə başlanıldı. Belə ki, paytaxt ərazisində, ictimai nəqliyyatda, qapalı məkanlarda gücləndirilmiş nəzarət-profilaktik tədbirlər həyata keçirildi. Bu tədbirlərin davamı olaraq Azərbaycan Respublikası ərazisində bir sıra xüsusi karantin rejimləri elan edildi. Xüsusi karantin rejimi çərçivəsində aşağıdakı nəzarət tədbirləri həyata keçirildi:

- Yaşı 65 -dən yuxarı olan insanların evdən çıxması qadağan olundu. 65 yaşını keçən, tənha yaşayan vətəndaşlara isə qanunvericilikdə nəzərdə tutulmuş formada sosial xidmətlərin göstərilməsi təmin olundu.
- Bakı və Sumqayıt şəhərinə, Abşeron rayonuna giriş və çıxış (xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla) məhdudlaşdırıldı.
- Ölkə üzrə rayon və şəhərarası sərnişindaşınma fəaliyyəti dayandırıldı.
- Küçələrdə, bulvarlarda, parklarda və digər ictimai yerlərdə insanların qrup halında cəmlənməsi (10 nəfərdən artıq) qadağan olundu.
- Ünsiyyət və təmas zamanı iki metrlik sosial məsafənin saxlanılması, maskalardan istifadə tövsiyyə olundu.
- İctimai iaşə müəssisələri yeni iş saatlarında fəaliyyət göstərməyə başladı. Belə ki, qəbul edilmiş yeni qərara əsasən müştərilərə saat 12.00-15.00 arasında yerində xidmət saatları müəyyən olundu. Evə götürmə, çatdırılma və onlayn ticarət kimi xidmətlərə isə məhdudiyyətsiz icazə verildi;
- Ölkə ərazisində fəaliyyət göstərən iri ticarət mərkəzlərinin və “Mall”arın (supermarketlər, ərzaq mağazaları və apteklər istisna olmaqla) fəaliyyəti müvəqqəti olaraq dayandırıldı.

Müəyyən edilmiş bu tədbirlərə riayət olunmasına nəzarət Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə həvalə olundu [10].

2020-ci il aprel ayının 5-dən etibarən isə ölkə ərazisində SMS-icazə sistemi tətbiq olunmağa başladı. Sms icazə sisteminə əsasən vətəndaşlar yaşayış yerini SMS-icazə alaraq tərk etməlidirlər. Vətəndaşlar SMS icazəni yaşayış yerini təxirəsalınmaz tibbi zərurətlə və hər hansı bir qrafik üzrə müalicə almaq üçün, ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin, bank və poçt xidmətlərinin istifadə edilməsi və yaxın qohumun dəfnində iştirakla əlaqədar olaraq iki saat müddətində ala bilərlər.

Sonralar isə xüsusi karantin rejimləri mərhələli şəkildə olmaqla mövcud yoluxma sayına uyğun tətbiq olunmağa başladı. Tətbiq edilən xüsusi karantin rejiminin effekt verməsi - koronavirus pandemiyasına yoluxma tempinin aşağı düşməsi, xəstələrin sağalma dinamikasının yüksəlməsi səbəbilə bir sıra məhdudiyyətlərin yumşaldılması da həyata keçirildi.

Pandemiyanın başladığı ilk günlərdən etibarən məsələni xüsusi diqqətdə saxlayan Cənab Prezident İlham Əliyev tərəfindən qəbul edilmiş düzgün qərarlar və tətbiq edilən bir sıra rejimlər nəticəsində vəziyyəti nəzarətdə saxlmaq mümkün oldu. İlham Əliyev mütəmadi olaraq koronavirus pandemiyasının nəticələri barədə online konfranslar, müşavirələr keçirmiş və mövcud vəziyyətlə əlaqdar müvafiq tapşırıqlarını vermişdir. Keçirilən belə müşavirələrin birində çıxış edən Cənab Prezident İlham Əliyev koronavirusla mübarizə çərçivəsində həyata keçirilən nəzarət tədbirləri haqqında bu fikirləri söyləmişdir: ”Görülmüş bütün tədbirlər müsbət nəticə verir, vəziyyət bu günə qədər nəzarət altındadır”.

**Açar sözlər:** *Pandemiya, mexanizm, dövlət, mübarizə*

## ƏDƏBİYYAT SIYAHISI

*1. Böhrandan sonrakı iqtisadiyyatda maliyyə resurslarının səmərəli idarə olunmasında şəffaflığın rolu // – Bakı: Beynəlxalq elmi-praktik konfransın materialları. İqtisadiyyat və audit jurnalının nəşri, -2009. - 474 səh.*

*2. Dövlət idarəçiliyində səmərəli nəzarət mexanizmi // – Bakı: Dövlət İmtahan Mərkəzi tərəfindən Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə birgə SIGMA (Rəhbərlik və İdarəetmədə Təkmilləşdirməyə Dəstək) proqramı.- 2019*

*3. Ələkbərov, U.K. İnklüziv inkişafın idarəedilməsinin əsasları: Ali Məktəblər üçün dərslik -Bakı: “Təhsil” nəşriyyatı,- 2018,- 216 s.*

*4. Ələkbərov, U.K. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları: Ali Məktəblər üçün dərslik -Bakı: Təhsil nəşriyyatı, -2013, - 265 s.*

*5. Əliyeva, Y. Ə. Menecmentin əsasları: Dərslik.- Bakı: “Kooperasiya” nəşriyyatı, - 2012. -264 s.*

*6. Əlirzayev, Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi: -Bakı, İqtisad Universiteti nəşriyyatı, -2010, 326s.*

*7. Rzayev, Ə.H. Dövlət nəzarəti: nəzəriyyə və praktika.- Bakı: "Elm" nəşriyyatı, -2008. -310 s.*

*8. Səmərəli dövlət idarəçiliyi: zamanın çağırışları // – Bakı: Beynəlxalq Elmi Konfransın materialları: Birləşmiş Millətlər Təşkilatı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA): Elm və Təhsil nəşriyyatı, -2012.- 622 s.*

*9. http://www.maliyye.gov.az*

*10. https://www.meclis.gov.az*

**Механизм государственного контроля в борьбе с пандемиями**

**РЕЗЮМЕ**

Контроль - это совокупность процессов, которые обеспечивают достижение целей и направляют управленческую деятельность в желаемую форму. Контрольные мероприятия включают установление норм и стандартов, сравнение фактических результатов с установленными стандартами и устранение несоответствий, выявленных в результате сравнения. В наше время мировой опыт показывает, что одним из направлений, где применение механизма государственного контроля крайне необходимо, является борьба с пандемиями. В частности, недавняя пандемия коронавируса, распространившаяся на другие части мира, повысила важность и усиление государственного контроля в этой области.

Ключевые слова: пандемия, механизм, государство, драться

**The mechanism of state control in the fight against pandemics**

**SUMMARY**

Control is a set of processes that ensure the achievement of goals and direct management activities to the desired form. Control activities include the establishment of norms and standards, the comparison of actual results with established standards, and the elimination of discrepancies identified as a result of the comparison. In modern times, world experience shows that one of the areas where the application of the state control mechanism is extremely necessary is the fight against pandemics. In particular, the recent coronavirus pandemic, which has spread to all parts of the world, has increased the importance and strengthening of state control in this area.

**Keywords:** *Pandemic, mechanism, state, struggle*

# Tarix

UOT 94(479.24)

# FARSDİLLİ MƏNBƏLƏR AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİ HAQQINDA (XIII – XVII ƏSRLƏR)

**RAMİL AĞAYEV**
*AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu "Azərbaycanın orta əsrlər tarixi" şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

*E-mail: ramilmahir@gmail.com*

Azərbaycanın ayrı-ayrı bölgələrinin, o cümlədən Qarabağ bölgəsinin tarixi və etnik coğrafiyası ilə bağlı olan problemlərin tədqiqi Vətən tarixşünaslığı qarşısında duran ən mühüm vəzifələrdəndir. Etno-siyasi, sosial-iqtisadi və mədəni baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsi haqqında ilkin yazılı qaynaqlarda, xüsusilə, farsdilli mənbələrdə maraqlı məlumatlara rast gəlinir. Həmin məlumatları araşdırmazdan əvvəl "Azərbaycan" tarixi – coğrafi anlayışı və onun hüdudları haqqında qısa şəkildə bəhs etməyə ehtiyac duyulur.

Tarixi Azərbaycan torpaqları Cənubi Qafqazın böyük bir hissəsini və müasir İran İslam Respublikasının şimal-qərb hissələrini əhatə edir. "Azərbaycan" məfhumu vahid bir coğrafi-siyasi anlayış kimi əsrlər boyu formalaşmış, onun hüdudları bu və ya digər səbəblərdən dəyişikliklərə məruz qalmışdır.

VII əsrdə Azərbaycan torpaqları Ərəb xilafəti tərəfindən istila edilərək onun tərkibinə iki vilayət – "Azərbaycan" (Cənubi Azərbaycan) və "Arran" (Şimali Azərbaycan) vilayətləri kimi daxil edildi. Lakin ərəb mənbələri həmin ərazilərdən vahid ölkə kimi bəhs edərkən onu məhz "Azərbaycan" adlandırırdılar. Ərəbdilli müəlliflərin əsərlərində verilən məlumatlara əsasən, belə nəticəyə gəlmək olar ki, artıq Ərəb xilafəti dövründə Azərbaycan dedikdə həm Araz çayından cənubdakı ərazilər, həm də Araz çayından şimaldakı Dərbəndə qədər olan ərazilər başa düşülürdü. Məsələn, ibn Havqəl yazır: "Sonra Azərbaycanın xəritəsini dərc etdim, oradakı dağları, yolları, Kür və Araz kimi şirin sulu çayları, həmçinin Xilat (Van) və Kəbuzan (Urmiya) göllərini də təsvir etdim. Bu göllərin hər ikisi heç biri dənizlə birləşmir, elə oradaca mən Qabq dağını (Qafqaz) göstərdim" (1, 7).

Göründüyü kimi, ibn Havqəl, Azərbaycanın şimal sərhədlərini Qafqaz dağları, qərb sərhədlərini isə Van gölü hüdudları ilə əlaqələndirir. Beləliklə, indi Ermənistan adlandırılan ərazi və ermənilərin iddia etdikləri Qarabağ bölgəsi, eləcə də hal-hazırda Gürcüstan Respublikasının tərkibindəki bəzi torpaqlar tarixi Azərbaycan ərazisinin hüdudları daxilində, yəni onun həm də "Arran" adlandırılan Araz çayından şimaldakı torpaqlarında yerləşmişdir.

V.V.Bartolda görə, orta əsrlərin ikinci yarısından etibarən ilkin mənbələrdə "Arran" əvəzinə tez-tez "Qarabağ" tarixi-coğrafi anlayışı işlədilməyə başlanmışdır (2, 214). İlkin yazılı mənbələrin araşdırılması V.V.Bartoldun bu fikrinin qismən doğru olduğunu söyləməyə imkan verir. Çünki XIV – XV əsrlərdə yazılmış ərəb və farsdilli mənbələrdə əvvəllər Arran adı altında təqdim edilən şimal ərazilərimizin yalnız Kür və Araz çayları arasında olan hissəsi bu ad altında göstərilməkdə davam edirdi. Bununla belə, Kür və Araz çayları arasındakı bütün üçbucağın Qarabağ adlandırılmasını iddia etmək doğru deyildir.

Yazılı qaynaqlarda Arran Qarabağı və yaxud sadəcə olaraq, Qarabağ haqqında bir sıra maraqlı məlumatlara rast gəlinir. Qarşıya qoyulan məqsədə uyğun olaraq biz burada yalnız farsdilli mənbələrdə rast gəlinən faktlardan bəhs edəcəyik. Həmin mənbələrdə Qarabağ vilayətinin əsl yaşayış yerləri, təxmini sərhədləri, şəhərləri, kəndləri, dağları və çayları haqqında maraqlı faktlara rast gəlinir. Qeyd etmək lazımdır ki, müxtəlif dillərdə yazılmış mənbələrdə Qarabağ adı və yaxud onun ayrı-ayrı hissələri müxtəlif şəkillərdə təqdim edilmişdir. Şübhəsiz, bu ilk növbədə yerli əhali tərəfindən verilən adın həmin əcnəbi dillərə uyğun olaraq tərcümə edilməsi ilə bağlı olmuşdur.

Farsdilli mənbələrdə təsvir edilən hadisələr və bu hadisələrlə bağlı Qarabağ və yaxud Arran Qarabağı anlayışlarının işlədilməsi, bu istilahların Arran torpaqlarında, Kür və Araz çayları arasındakı üçbucaqda yarandığını təsdiq edir.

Arran Qarabağı dedikdə heç də "Düzən Qarabağ" deyil, Arranda yerləşən Qarabağ (Arranın Qarabağı) başa düşülür. Başqa sözlə, burada mənsubiyyət bildirilir, yəni haqqında bəhs olunan Qarabağın məhz Arrana aid olduğuna, Arranda yeləşdiyinə işarə edilir və XIII –XV əsrlərdə yazılmış farsdilli mənbələrdə də elə bu şəkildə - "Arran Qarbağı" ("Qarabağ-e Arran") şəklində təqdim olunur.

Orta əsr müəlliflərinin Arran Qarabağı ifadəsini işlətməkdə məqsədləri onun həm Azərbaycanın Arran vilayətində yerləşdiyini göstərmək, həm də onu türk xalqalarının məskunlaşdığı coğrafiyadakı "Qarabağ" adlanan digər ərazilərdən fərqləndirmək idi. Məsələ burasındadır ki, türk xalqlarının yaşadığı ərazilərdə başqa "Qarabağlar" da olmuşdur. Bu Qarabağlar sırasında "Səlmas Qarabağı" (3, 767), "Badğis Qarabağı" (3, 868) və başqalarını misal göstərmək olar.

Zahirəddin Babur öz əsərində "Kabil Qarabağı" (4, 149-150) və Qəndəhar yaxınlığındakı Qarabağ vadisindən bəhs etmişdir (4, 177). Mənbələrdə hətta "Təbriz Qarabağı" ifadəsinə də rast gəlinir (5, 212; 6, 18). Nizaməddin Şaminin əsərində Qarabağ və Arran Qarabağı ifadələri (5, 248; 6, 31) ilə yanaşı Kür çayı sahilindəki "Kiçik Qarabağ" adlı ərazidən də bəhs edilmişdir (5, 100; 6, 9).

Qeyd etmək lazımdır ki, bu kimi ifadələrə, yəni bu və ya digər yaşayış məntəqəsinin hansı vilayətə, ölkəyə məxsus olduğunu göstərən qoşa adlara ərəb və farsdilli müəlliflərin əsərlərində tez-tez rast gəlinir. Məsələn, Həmdullah Qəzvininin əsərində eyni epizodda həm "Arran Qarabağı", həm də "Azərbaycan Təbrizi" ifadəsinə rast gəlinir (7, 56). Bir sıra mənbələrdə isə Dərbəndin Şirvana aid olduğunu göstərmək üçün tez-tez "Şirvan Dərbəndi" ifadəsi işlənirdi (8, 102).

Beləliklə, "Arran Qarabağı" tarixi-coğrafi anlayışının qaynaqlarda tez-tez işlədilməsi sübut edir ki, həmin ərazi tarixən Azərbaycanın Arran vilayəti ilə bağlı olmuş, sonrakı dövrlərin inzibati-ərazi bölgüsündə də Azərbaycanın tərkib hissəsi kimi öz əksini tapmışdır. Hər bir ölkənin düzənlik, dağlıq, dərə-təpə ərazilərə malik olaması isə təbiidir. Buna görə də Qarabağın daha çox dağlarla əhatə olan hissəsini əsas götürərək qondarma "Dağlıq Qarabağ" termininə qarşılıq olaraq tarixi mənbələrdə rast gəlinən Arran Qarabağını "Düzən Qarabağ" kimi izah etməyə heç bir əsas və ehtiyac yoxdur. Çünki mənbələrdə Dağlıq Qarabağ ifadəsi yoxdur. Yazılı mənbələr onun düzən hissəsindən də, dağlıq hissəsindən də elə vahid Qarabağ kimi bəhs edirlər. Qeyd etmək lazımdır ki, nisbətən sonralar bu və ya digər səbəblərdən Azərbaycanın başqa bölgələrinə və Kiçik Asiyaya köçmüş qarabağlılar həmin ərazilərdə yeni-yeni "Qarabağ" adlı yaşayış məskənləri salmışlar.

Bəzi məlumatlara görə, Azərbaycan xalqının öz doğma torpağının bir parçasına verdiyi "Qarabağ" adına bu şəkildə ilk dəfə VII əsrə aid mənbələrdə rast gəlinmişdir (9, 11). R.Yüzbaşov "Qarabağ" adının söz kimi VII əsrdən, əyalət kimi XIII əsrdən işlədilməsindən bəhs edərək yazır ki, vaxtilə Araz çayının sahilində Qarabağ adlı şəhər də olmuşdur (10, 63-64; 11, 92). Əlbəttə, "Qarabağ" adının VII əsrdə işlədilməsi və daha qədim tarixə malik olması mümkündür. Lakin hələlik, ərəb və farsdilli mənbələrdə bu barədə dəqiq məlumata rast gəlinməmişdir.

Qarabağ adlı ayrıca şəhərin də olması mümkündür. Lakin XIII – XV əsrə aid farsdilli mənbələrdə hələlik, "Qarabağ şəhəri", "Qarabağ kəndi" kimi ifadələrə rast gəlinməmişdir. Müəlliflərin demək olar ki, hamısı ərazidən geniş bir bölgə kimi bəhs edir və onun daxilində yerləşən bir sıra şəhər və kəndlərin adlarını çəkirlər.

Orta əsr farsdilli mənbələrdə tez-tez Qarabağ bölgəsi ilə Qaradağın qarşı-qarşıya yerləşdiyinə işarə edilir. Belə ki, Xudafərin körpülərinin sağından Cənubi Azərbaycandakı Qaradağ silsiləsinə, solundan isə Şimali Azərbaycandakı Qarabağ bölgəsinə giriş başlanır. Təsadüfi deyildir ki, Aşıq Qurbani öz şeirlərindən birində (12, 20) yazır:

*İsmim Qurbanidi, kəndim Diridi,*
*Qaradağdan Qarabağa gedirəm.*

Ərəbdilli müəllif Sədrəddin əl-Hüseyninin əsərində Səlcuqlar dövründə, hicri 455-ci (1063) ildə baş verən hadisələrindən bəhs olunarkən "Qarabac" adına rast gəlinir. Mənbənin naşirinin fikrincə, bu ad əslində "Qarabağ" şəklində oxunmalıdır. Lakin burada Arrandakı Qarabağdan deyil, "Badğis Qarabağ"ından bəhs edilir (13, 26).

Vaxtı ilə V.F.Minorski belə hesab edirdi ki, bu ada ilk dəfə Həmdullah Qəzvininin "Nüzhət əl-qulub" əsərində rast gəlinir (14, 166). Lakin sonrakı araşdırmalar göstərdi ki, Qarabağ adına ilk dəfə Fəzlullah Rəşidəddinin "Cəmi ət-təvarix" əsərində h.682-ci ilin şəvval ayından (18.I.1284), 683-cü

ilin məhərrəm ayınadək (7.IV.1284) Hülakülər dövlətinin hökmdarı Əhməd xanla (1282-1284) bağlı hadisələrdən bəhs edilərkən rast gəlinir. Buradan məlum olur ki, Əhməd xana qarşı sui-qəsd təşkil etmək istəyənlər üzərində "Arran Qarabağında altı gün davam edən məhkəmə prosesi qurulmuşdur" (15, 104). "Cəmi ət-təvarix" əsərində Qarabağın adına ikinci dəfə h.694-cü (1295) ildə baş vermiş hadisələrdən bəhs edilərkən rast gəlinir. Müəlif burada "bütün saray adamlarının Arran Qarabağına yığışıb hiyləgərlik və ikiüzlülük olmadan İslam hökmdarına (Qazan xana) xidmət etməyə razı olduqlarını" qeyd edir (15, 166). Fəzlullah Rəşidəddin h.701-ci (1301) il hadisələrindən bəhs edərkən "İslam hökmdarının (Qazan xanın) Arranda – Qarabağ yurdunda düşərgə salmasını" yazmaqla "Arran Qarabağı" tarixi-coğrafi anlayışının əsl mahiyyətini də göstərir (15, 188).

Qarabağ adına həmin müəllifin "Məktublar" adı altında çap edilmiş yazışmalarında da bir neçə dəfə rast gəlinir. Onun oğlu Məcd əd-Dinə yazdığı məktubda Qazan xanın (1295-1304) qışlamaq üçün Qarabağda dayanmasından (16, 231) və ayr-ayrı vilayətlərinin əhalisinin, o cümlədən Qarabağ elatlarının ordunun ehtiyacları üçün təhvil verməli olduğu bağ-bostan məhsullarının miqdarından bəhs olunur (16, 244). Müəllifin Mövlana Sədr əd-Din Məhəmməd Türkə yazdığı cavab məktubunda isə Azərbaycanın 25 vilayəti sadalanır və bu vilayətlər sırasında Qarabağ, Arran və Şəki ilə yanaşı "Ərməniyə" də Azərbaycanın tərkibində göstərilir (16, 270). Müəllifin adı çəkilən hər iki əsərində Qazan xanın qışlamaq üçün Qarabağda düşərgə salmasından bir neçə dəfə bəhs olunmuşdur.

Həmdullah Qəzvininin "Nüzhət əl-qulub" əsərində Sultaniyədən Bab əl-Əbvaba (Dərbəndə) aparan yollar haqqında məlumat verilir. Burada "Ərdəbildən Arran Qarabağına", "Qarabağdan Gəncəyə", və "Qarabağdan Əhərə" gedən yollardan, xüsusi olaraq, bəhs edilmişdir. Əsərdə "Qarabağ yolu" ifadəsinə də rast gəlinir (7, 56 və 180-182).

Arran Qarabağı tarixi-coğrafi anlayışı haqqında məlumata XIV – XV əsrlərdə yazılmış bir sıra digər farsdilli qaynaqlarda da rast gəlinir. Nizaməddin Şami ilə yanaşı, Teymurilər dövrünün digər məşhur bir tarixçisi Şərəf əd-Din Yəzdi də öz əsərində Qarabağla bağlı məsələlərə geniş yer vermişdir.

Onun əsərində Qarabağın adına ilk dəfə hicri 688-ci (1386) ildə Hülakü hökmdarı Arğun xanın hakimiyyəti dövründə baş vermiş hadisələrlə bağlı olaraq rast gəlinir (17, 175). Əsərdən məlum olur ki, Qarabağ Hülakülərin tənəzzülü dövründə baş vermiş hadislərin mərkəzində idi və hökmdarların seçilməsi ilə bağlı çağrılan qurultaylar burada keçirilirdi (17, 193-196).

Müəllif öz əsərində hicri 789-cu (1387) ildə Əmir Teymurun gürcü hökmdarı Baqratı əsir alaraq Gürcüstan səfərindən qayıdarkən Qarabağda dayanmasından, onu İslama dəvət etməsindən və Şirvanşah İbrahimlə dostluq münasibətlərindən, xüsusi olaraq, bəhs etmişdir (17, 406-408).

Qarabağda baş verən hadisələr haqqında məlumat verən müəllif Ağdam və Bərdə nahiyələrindən daha çox bəhs edir. Onun əsərində Əmir Teymurun "Beyləqandan Qarabağa yola düşməsi", xüsusi olaraq, qeyd edilmişdir. Zənnimizcə, burada Qarabağ hüdudlarının Beyləqandan sonra başlandığına açıq-aşkar işarə edilir (17, 833). Əsərdə Kür sahilindəki "Surxab Qarabağı"ndan da bəhs edilmişdir (17, 406).

Qarabağdan bəhs etmiş müəlliflər sırasında Əbu Bəkr əl-Qütbi əl-Əhərinin "Tarix-e Şeyx Üveys" əsəri, xüsusilə, qeyd edilməlidir. Əsərdə Qarabağ adına dəfələrlə rast gəlinir. Müəllif onu həm Azərbaycan ölkəsinin, həm də onun Arran vilayətinin tərkibində göstərir. Əl-Qütbi əl-Əhərinin Qarabağ haqqında ilk məlumatı Hülakü hökmdarı Əhməd xanın (18, 196), son məlumatı isə Cəlairi hökmdarı Şeyx Üveysin fəaliyyəti ilə bağlıdır (18, 245). Onun əsərindəki "Qarabağ Arranın paytaxtıdır" ("Qarabağ dar-ul-mulk-e Arran əst") ifadəsi, xüsusilə, diqqəti cəlb edir (18, 245). Müəllif Hülakü hökmdarı Əbu Səidin və Çobanilərin ağalığı haqqında məlumat verərkən bölgəni həm "Qarabağ", həm də "Arran Qarabağı" şəklində təqdim edir (18, 209-218). O, Hülakü hökmdarı Məməmməd xan tərəfindən "Qarabağ qapısından Gürcüstan qapısınadək ərazini" əmir Surxan adlı şəxsin nəzarətinə verildiyini də göstərir (18, 223).

Farsdilli müəlliflər Qarabağın XIII – XIV əsrlər tarixindən bəhs edərkən onu Elxanilər dövlətinin tərkib hissəsi kimi təqdim edirlər (19, 40-43). Mənbə məlumatlarından məlum olur ki, Qarabağ Elxanilər dövründə baş vermiş bir sıra hərbi-siyasi hadisələrin mərkəzində olmuşdur. Həmin yazılı qaynaqlar Hülakülərin tənəzzülü və Çobanilərin ağalığı dövrü hadisələrindən bəhs edərkən Qarabağda baş verən hərbi-siyasi hadislərə də yer ayırmışlar (19, 57-66; 20, 66).

XV əsr müəlliflərindən Fəzlullah ibn Ruzhehan Xunəci (21), Hafiz Əbru (3) öz əsərlərində Qarabağ bölgəsindən dəfələrlə bəhs etmişlər. Həmin əsərlərdə Qarabağla bağlı verilən məlumatlar Teymurilər, Qaraqoyunlular və Ağqoyunlularla bağlıdır. Lakin farsdilli mənbələrdə XV əsrdən etibarən Arran Qarabağı ifadəsinə daha az rast gəlinir və əsasən, Qarabağ termininə üstünlük verilir. Məsələn, Hafiz Əbrunun əsərində Qarabağ adına dəfələrlə, Arran Qarabağı adına isə yalnız üç dəfə rast gəlinir. Fəzlullah ibn Ruzhehan Xunəcinin əsərində isə yalnız Qarabağ ifadəsinə (15 dəfə) rast gəlinir.

XVI-XVII əsrlərdə yazılmış farsdilli mənbələrdə də Qarabağ ərazisində baş vermiş hadisələr mühüm yer tutur. Həsən bəy Rumlu da öz əsərində həm əvvəlki dövrlərdə, həm də yaşadığı dövrdə baş vermiş hadisələrlə bağlı Qarabağ istilahından dəfələrlə bəhs etmişdir. Bunun əksinə olaraq, Arran terminindən isə cəmi dörd dəfə istifadə etmişdir. Onlardan yalnız biri XVI əsrdə baş verən hadisələrlə bağlıdır. Belə ki, hicri 984-cü (1576) ildə, I Təhmasibin dövründə baş verən hadisələrlə bağlı Arran (Aran) vilayətinin adı çəkilir (22, 1529). Müəllif hicri 945-ci (1538) ildə I Təhmasib tərəfindən Şirvanşahlar dövlətinə son qoyulmasından bəhs edərkən Şirvana göndərilən qoşunlar sırasında “Qarabağ qoşunu”nun da olduğunu, xüsusi olaraq, qeyd edir (22, 1262).

I Şah Abbasın (1587-1629) tarixçisi İsgəndər bəy Münşinin “Tarix-i aləmaray-yi Abbasi” əsərində Qarabağın adına ilk dəfə h.896-cı (1490) ildə baş vermiş hadisələrlə bağlı olaraq rast gəlinir. Müəllif burada Səfəvi şeyx Heydərə “hörmətsizlik etmiş” Ağqoyunlu hökmdarı Sultan Yaqubun Qarabağda vəfat etdiyini bildirir (23, 22). Bəzi mənbələrdə onun həm də Sultanbud adlanan Sultani adlı yaşayış məntəqəsində öldüyü qeyd edilir. Həmin yaşayış məntəqəsinin Bərdə ilə Ağdam arasında və Beyləqanda yerləşməsi haqqında fikirlər mövcuddur (21, 142). İsgəndər bəy Münşi Həsən bəy Rumludan fərqli olaraq, Şirvana göndərilənlər sırasında “Qarabağ qoşunu” deyil, “Qarabağ camaatı” olduğunu yazır (23, 80).

Xüsusi olaraq qeyd etmək lazımdır ki, XIV – XVII əsrlərdə yazılmış bütün farsdilli mənbələrdə Qarabağın türkmənşəli müsəlman hakimlər tərəfindən idarə olunduğu dönə-dönə qeyd edilir. İsgəndər bəy Münşinin əsərində də bunun şahidi oluruq. O, Qacarlar nəslindən olan bir neçə Qarabağ hakiminin, o cümlədən hicri 961-ci (1554) ildə baş verən hadisələrdən bəhs edərkən Şahverdi sultan Ziyadoğlunun (23, 76) adını çəkir. İsgəndər Münşi Qarabağda olan yerli hakimlər sırasında türkmənşəli qazaq tayfasından olan Dönməz sultandan da bəhs etmişdir (23, 141).

Əvvəlki dövrlərdə olduğu kimi, XVI – XVII yüzilliklərdə də Qarabağda qacarlar və qazaxlarla yanaşı, qaramanlı, baharlı tayfaları, zülqədər elinin şəmşəddinli obası, otuz iki və iyirmi dörd oymaqları da məskunlaşmışdı (24, 358). Məsələn, İsmayıl Səfəvi hələ dövlət yaratmamışdan əvvəl, hicri 906-cı (1500) ildə Ərdəbildən Ərzincana gedərkən Qarabağda Qaraqoyunlu hökmdarı Cahanşahın nəslindən olan Sultan Hüseyn Barani ilə görüşmüşdü (23, 27).

Bu qəbildən olan faktlar ermənilərin ərazi iddialarının əsassız olduğunu bir daha sübut edir. Fars mənbələrində ermənilərin Cənubi Qafqazda döyüş əməliyyatlarında iştirakı, onların nəinki Qarabağ bölgəsində ümumiyyətlə, Qərbi Azərbaycan torpaqlarında varlığı haqqında heç nə deyilmir. Başqa sözlə, nə Qarabağ, nə də hal-hazırda ermənilər yaşayan digər vilayət və rayonlar heç bir zaman dini, etnik və mədəni baxımdan ermənilərlə bağlı olmamışdır.

XVI əsrin 70-ci illərində baş verən hadislərdən danışan İsgəndər bəy Münşi Qarabağda yerləşən bir sıra yaşayış məntəqələrinin, o cümlədən Meydancuq (23, 279), Qarakütəl (23, 237) kimi yaşayış məskənlərinin də adlarını çəkir. Ümumiyyətlə, İsgəndər bəy Münşinin əsəri Qarabağ adına ən çox rast gəlinən orta əsr mənbəsidir. Arran adına isə əsərdə yalnız üç dəfə rast gəlinir.

XVII əsr müəlliflərindən Nadirin şah Əfşarın (1736-1747) tarixçisi Məhəmməd Kazım da Qarabağ və onun ayrı-ayrı yaşayış məntəqələri haqqında məlumat verir. O, yazır ki, şah 1736-cı ildə Təbrizdən Qarabağa getmək üçün Xudafərin körpüsündən keçdi və Qarabağın ilk nahiyəsi sayılan Bərgüşad qalasında məskən saldı (25, 652).

Farsdilli mənbələrin verdiyi məlumata görə, Səfəvilər dövründə bütün Azərbaycan torpaqları vahid şəkildə birləşdirildikdən sonra vaxtilə mənbələrdə vilayətlərə, mahallara bölünən, geniş bir əraziyə aid edilən Arranın özü artıq müəyyən bir inzibati-ərazi vahidinin, yəni Qarabağın tərkib hissəsi kimi işlənirdi. Təsadüfi deyildir ki, Səfəvilər dövründə Azərbaycanın bölündüyü dörd

bəylərbəylikdən biri Arran deyil, Qarabağ adlanırdı. Bu zaman Arran özü Qarabağ bəylərbəyliyinin tərkib hissəsi sayılırdı (26, 113-114).

XVII əsr müəlliflərindən Mirzə Səmiə Səfəvilər dövlətin idarəetmə sistemindən bəhs edərkən Qarabağ bəylərbəyliyi, onun əhatə etdiyi nahiyələr, bəylərbəyliyin qoşunu və arazidən əldə edilən vergilər haqqında da mühüm məlumatlar verir. Buradan məlum olur ki, bəylərbəyliyə daxil olan nahiyələr sırasında həm Qarabağ vilayətinə daxil olan, həm də onun hüdudlarından kənarda yeləşən ərazilər var idi. Bəylərbəyliyə daxil olan ərazilər aşağıdakılar idi: Zəyəm, Ağstafa, Cavanşir, Bərgüşad, Qarağac, Lori, Pəmbək, Arasbar, Bəyazidli, Simavi, Tərkür (14, 101-102).

Beləliklə, farsdilli mənbələrin izlənməsi göstərir ki, Azərbaycanın tarixi vilayəti olan Arranın torpaqlarının bir hissəsinin adı kimi yaranmış Qarabağ anlayışı getdikcə daha geniş mənada işlənməyə başlanmışdır. Bunun əksinə olaraq, Arran (Aran) adının tədricən məhdudlaşdığının şahidi oluruq. Belə ki, XVI – XVII yüzilliklərin yazılı qaynaqları Kür və Araz çayları arasındakı ərazilərdən bəhs edərkən Arran deyil, daha çox Qarabağ anlayışına üstünlük verirdilər.

Arran (Aran) tarixi-coğrafi anlayışı tədricən sırf şəkildə coğrafi anlayışa çevrildi, xalq arasında “aran” şəkilində işlənməyə başlandı, nəticə etibarı ilə Azərbaycanın Kür-Araz ovalığındakı düzən və isti ərazilərinə şamil edildi. Elə bunu da əsas götürən bəzi mütəxəssislər, yanlış olaraq, Arran Qarabağı anlayışını Arranın Qarabağı deyil, “Düzən Qarabağ” şəklində izah etməyə çalışmış və bunu qondarma “Dağlıq Qarabağ” anlayışının qarşılığı kimi təqdim etmişlər. Əslində isə, yuxarıda qeyd edildiyi kimi, Azərbaycanda orta əsrlərdə düzən Qarabağ və dağlıq Qarabağ adlı tarixi-coğrafi bölgü olmamışdır. Əksinə Qarabağın həm dağlıq hissəsi, həm düzən hissəsi Arran Qarabağı (Arranın Qarabağ), ya da sadəcə olaraq Qarabağ adlanmış və bütün dövrlərdə Azərbaycan türklərinin Vətəni olmuşdur. Qarabağın düzən və dağlıq ərazilərinin bir-birindən inzibati vahid kimi fərqləndirilməsi sonrakı dövlərin, xüsusilə, XX əsrin əvvəllərinin məhsuludur və məqsədyönlü şəkildə gündəlik həyatımıza daxil edilmişdir.

XIV – XVII əsr farsdilli müəlliflərin əsərlərindən və Şah Sultan Hüseynin (1694-1722) fərmanlarından məlum olur ki, Qarabağ əhalisi əsasən, türkmənşəli elatlardan ibarət idi. Həmin fərmanlarda elatlar üzərinə qoyulan çobanbəyi vergisinin miqdarından bəhs edilir (27, 41-42). Mənbələr Qarabağ əhalisini həm də türkmanlar və tərəkəmələr şəklində də təqdim edirlər.

Nadir şah Əfşarın qısa müddət üçün dörd Azərbaycan bəylərbəyliyini vahid şəkildə birləşdirməsinə baxmayaraq, Səfəviər dövrü Qarabağ bəylərbəyliyi XVIII yüzilliyin ortalarında Qarabağ xanlığının yaranması üçün tarixi-coğrafi özül rolunu oynamışdır.

Qarabağ xanlığının vəziri Mirzə Camal Cavanşir özünün “Qarabağ tarixi” (1847) adlı əsərində Qarabağ vilayətinin Azərbaycanın “Aran məmləkətinin bir hissəsi olduğunu” və sərhədlərinin cənubda Xudafərin körpüsündən şimal-qərbdə Sınıq körpüyə qədər, şərqdə isə Kürlə Arazın qovuşuğu yerə qədər uzandığına işarə edir (28, 122). Əlbəttə, burada sırf şəkildə Qarabağ vilayətinin deyil, Səfəvilər dövründə yaradılmış Qarabağ bəylərbəyliyinin hüdudları nəzərdə tutulurdu. Mirzə Camal Cavanşirin özü də qeyd edir ki, keçmiş əsrlərdə ərazini ələ keçirən ayrı-ayrı dövlətlərin hökmdarları vilayətin hüdudlarını dəyişdirmiş və onun üçün fərqli sərhədlər müəyyən etmişlər (28, 122).

Qarabağ xanlığı 1805-ci ildə çar Rusiyası tərəfindən işğal, 1822-ci ildə isə ləğv edildikdən sonra “Qarabağ əyaləti” kimi imperiyanın tərkibinə qatıldı. Rusiya imperiyasının süqutundan sonra, 1918-1920-ci illərdə isə ərazi Azərbaycan Xalq Cümhuriyyəti tərkibində idi. Göründüyü kimi tarixən “Dağlıq Qarabağ” adlı coğrafi və inzibati bölgü olmamışdır. XX əsrin əvvəllərinə kimi ərazi coğrafi məkan kimi tam halda Qarabağ adlanmışdır. Bu vəziyyət 1920-ci ildə Azərbaycan SSR yaranana kimi davam etmişdir. Nəhayət, Azərbaycanın sovet rəhbərliyinin acizliyi, ermənilərin “arzusu”, Moskvanın təzyiqi ilə 1921-1923-cü illərdə qondarma Dağlıq Qarabağ inzibati bölgü vahidi yaradıldı.

“Qarabağ” birmənalı şəkildə türkmənşəli sözdür. Lakin bu adın etimologiyası haqqında müxtəlif fikirlər vardır. Tədqiqatçıların irəli sürdüyü başlıca elmi mülahizəyə görə, Qarabağın adı Azərbaycan türk dilindəki “qara” və “bağ” sözlərindən əmələ gəlmişdir və “qara” sözü vaxtilə böyük, sıx, qalın, qərb və s. mənalarda da işlənmişdir. Elmi ədəbiyyatda bu adın mənaları haqqında bir sıra tədqiqatçılar (V.V.Bartold, V.F.Minorski, M.Bayar, S.Aşurbəyli, Ş.Cəmşidov, R.Göyüşov, M.Seyidov, Y.M.Mahmudlu, K.K.Şükürov, İ.Q.Məşədiyev,

Ə.Çingizoğlu, Ş.Sədiyev, Q.Ə.Qeybullayev, B.Həsənov, B.Dədəyev, C.Mahmudlu, S.Əbilov və başqaları) tərəfindən kifayət qədər fikirlər səsləndirildiyinə və bizim istifadə etdiyimiz farsdilli mənbələrdə bu adın mənası ilə bağlı xüsusi, tutarlı məlumata rast gəlinmədiyinə görə bu məsələ üzərində ətarflı şəkildə dayanmağı məqsədəuyğun hesab etmirik. Bununla belə, "Qarabağ" adının "bağ-bağatlı" yer mənasında işlənməsi fikrinin həqiqətə daha yaxın olduğunu qeyd etmək istərdik. Çünki farsdilli mənbələr Qarabağı doğurdan da axar-baxarlı yaylaq və qışlaqları olan, yaşıllıqlara bürünmüş, laləzar bir bölgə kimi təqdim edir və onun təbiətini digər ərazilərdən fərqləndirirlər. Məsələn, Məhəmməd Kazım Bayat və Şahbulağı kimi yaşayış məskənlərindən bəhs edərkən yaşıllıqlara və bağ-bağatlı olmasına görə Qarabağı behşitə bənzədir və əsərində "Qarabağ bölgəsi baharda Gülüstani-İrəmdən bir nümunədir" (Məhəl-e Qarabağ dər fəsl-e bahar numune-yi əst əz Gülüstan-e İrəm) cümləsinə də yer verir (25, 1040) .

Beləliklə, etno-siyasi, sosial-iqtisadi və mədəni baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsi haqqında farsdilli ilkin yazılı qaynaqlarda maraqlı məlumatlara rast gəlinir. İlkin mənbələrin, eləcə də mövcud elmi ədəbiyyatın araşdırılması, müqayisəsi və ümumiləşdirilməsi əsasında belə nəticəyə gəlmək olar ki, Qarabağ bölgəsi siyasi, coğrafi və etnik baxımdan həmişə Azərbaycanla sıx şəkildə bağlı olmuşdur və onun ayrılmaz tərkib hissəsidir.

**Açar sözlər:** *Azərbaycan, Arran, Qarabağ, Xudafərin, türk.*

### ƏDƏBİYYAT SİYAHISI

*1. İbn Havqəl. Kitab surət əl-ard. Əl-qism əl-avval. Leyden: Brill, 1967.*

*2. Бартольд В.В. Азербайджан и Армения. Сочинения в 9-ти томах. Т. VII. Москва: Наука, 1971.*

*3. Əbru Hafiz. Zubdət ət-təvarix. Cilde dovvom. Tehran: 1372*

*4. Бабурнаме. Записки Бабура.Ташкент: Изд-во АН Узб. ССР, 1958.*

*5. Nizaməddin Şami. Zəfərnamə. Tehran; Bamdad, 1363.*

*6. Nizaməddin Şami. Zəfərnamə. Bakı: Elm, 1992.*

*7. Həmdullah Mustovfi Qəzvini. Nüzhət əl-qulub. Tehran: Dünyaye Kitab, 1362.*

*8. Пириев В.З. Об исторической географии Азербайджана XIII – начала XV вв. / Историческая география Азербайджана. Баку: Элм, 1987, с.98-109.*

*9. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: Real tarix, faktlar və sənədlər. Bakı: Təhsil, 2005.*

*10. R.Yüzbaşov., K.Əliyev., Ş.Sədiyev. Azərbaycan coğrafi adları. Bakı. 1972,*

*11. Yüzbaşov R. Dağlıq Qarabağ Muxtar vilayətinin toponimikası // Azərb SSR EA Xəbərləri. Yer haqqında elmlər seriyası, 1969, № 12.*

*12. Qurbani.Əsərləri. Bakı, Şərq-Qərb, 2006.*

*13. Sədr əd-Din əl-Hüseyni. Əxbar əd-daulət əs-Səlcuqiyyə. Lahor: 1933.*

*14. Təzkirət əl-muluk. Persian text in facimile. Translated and explained by V.Minorski. London 1943.*

*15. Рашид ад-Дин. Сборник летописей. Том. 3. Перевод персидского А.К.Арендса. Москва-Ленинград: Изд-во АН ССР, 1946.*

*16. Рашид ад-Дин. Переписка. Перевод, введение и комментарий А.И.Фалиной. Москва: Изд-во Наука, 1971.*

*17. Şərəf əd-Din Əli Yəzdi. Zəfərnamə. Cilde əvvəl və dovvom. İsfahan,1387.*

*18. Əl-Bəkr əl-Qutbi əl-Əhəri. Tavarix-e şeyx Uveys. Təbriz: 1379.*

*19. Piriyev V.Z. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə (1316-1360- cı illər). Bakı: Elm, 1978.*

*20. Nəcəfli T. H. XV – XVII yüzilliklərdə Qarabağın ictimai-siyasi həyatı / Qarabağ: Bildiklərimiz və bilmədiklərimiz. Bakı: Şərq-Qərb, 2010. s.65-87*

*21. Хунджи Фазлуллах ибн Рузбехан. Тарих-и алам ара-йи Амини. Баку:1987.*

*22. Həsən bəy Rumlu. Əhsən-üt-təvarix. Cilde sevvom. Tehran: Əsatir, 1384.*

*23. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. Şamil cild-e əvvəl və nim-i əz cilde dovvom . Tehran: Əmir Kəbir, 1382.*

*24. Bayramlı Z.H. Azərbaycan Səfəvi imperatorluğu: Dövlət quruluşu. Bakı: Füyuzat, 2020.*

25. *Məhəmməd Kazım. Aləm aray-e Nadiri. Cilde dovvom. Tehran: 1364.*
26. *Эфендиев О.А. Территория и границы Азербайджанских государств в XV – XVI вв. / Историческая география Азербайджана. Баку: Элм, 1987, с.110-119.*
27. *Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər. Bakı: Elm, 1977.*
28. *Qarabağnamələr. Birinci kitab. Bakı: Şərq-Qərb, 2006.*

**Рамил Агаев**

**Персоязычные источники о Карабахском регионе Азербайджана (XIII-XVII вв.)**

**РЕЗЮМЕ**

Письменные первоисточники, в том числе персоязычные источники дают нам ряд интересных сведений о Карабахском регионе Азербайджана, об исторической географии этого региона, о военно-политических событиях, произошедших в этом регионе.

Употребление в персоязычных источниках выражения «Арранский Карабах» наряду с термином «Карабах» свидетельствует о том, что этот термин возник на территории Аррана, на «треугольнике», находящемся между реками Араз и Кюр.

Таким образом, многочисленные сведения персоязычных источников свидетельствует о том, что Карабах является одним из исторических регионов Азербайджана и на протяжении многих столетий сыграл важную роль в политической и социально-экономической жизни нашей страны.

**Ключевые слова:** *Азербайджан, Арран, Карабах, Худаферин, тюрк.*

**Ramil Agayev**

**Persian-language sources about the Garabagh region of Azerbaijan (13th – 17th centuries)**

**SUMMARY**

Primary written sources, including Persian-language sources, provide us with a number of interesting information about the Garabagh region, its historical geography and military-political events occurring in the region.

The use of the term “Arran Garabagh” along with “Garabagh” in Persian-language sources confirms that this term had originated in the lands of Arran, in the triangle between the Araz and Kura rivers.

Thus, numerous data provided us by Persian-language sources show that Garabagh was one of the historical regions of Azerbaijan and played an important role in the political and socio-economic life of the country.

**Key words:** *Azerbaijan, Arran, Garabagh, Khudaferin, Turk.*

UOT 94(479.24)

# TİFLİS VƏ ƏTRAFI VIII-XVIII ƏSRLƏRDƏ

**RƏŞAD MUSTAFA**
*AMEA Tarix İnstitutu,*
*tarix üzrə fəlsəfə doktoru*

*E-mail: reshadmustafa@gmail.com*

**Ərəb yürüşlərindən sonra Tiflis və ətrafı:** Ərəb yürüşlərindən sonra da Qərbi Azərbaycan və Borçalı bölgəsi Arrana – Şimali Azərbaycana aidiyyətini qoruyub saxlamışdır. İbn Xordadbehin qeydlərinə görə, ərəblər Cənubi Qafqazın I valiliyinə Arran adlandırdıqları tarixi Albaniya ərazisinə Sisəcan (Qərbi Azərbaycanın bir hissəsi olan Zəngəzur və Göyçə torpaqları), Arran, Bərdə, Beyləqan, Qəbələ, Şərvan və Tiflisi (Borçalı torpaqlarını) daxil etmişdilər (17, s.122; 24, s.18).

IX əsr tarixçisi əl-Bəlazuri də Cənubi Qafqazın inzibati bölgüsü haqqında məlumat verərkən Gürcüstanı II əmirlikdə, Tiflisi (Borçalını) isə Arran və Sisəcanla (Qərbi Azərbaycanla) birlikdə I əmirliyin tərkibində göstərmişdir (6, s.273; 7, s. 153).

Məsudi (ö. 956) Tiflisin ətrafındakı kəndlərin yalnız X əsrdə gürcülərin əlinə keçdiyini və Tiflisin müsəlman sərhəd şəhəri olduğunu qeyd edir (9, s.155; 24, s. 60-61).

İstəxri (X əsr) Tiflis şəhərini Arran şəhərləri arasında qeyd edir. O qeyd edir ki, Arranda Bərdə, Bab əl-Əbvab (Dərbənd) və Tiflisdən böyük şəhər yoxdur (8,s. 187; 24, s.89 və eyni zamanda, o qeyd edir ki, Arranın sərhədi şərqdən qərbə Bab əl-Əbvabdan Tiflisə qədərdir.

İbn Havqəl (X əsr) İstəxrinin fikirlərini təkrar edir: "…Arranda Bərdə, əl-Bab və Tiflisdən böyük şəhərlər yoxdur. Beyləqan, Varsan, Bərdic, Bərzənc, Şəmaxiyə, Şərvan, Abxaz (Ləican), Şəbəran, Qəbələ, Şəkki, Cənzə, Şəmkur və Hunan isə mühüm olmayan vilayətlərdir; şəhərləri gözəl, eyni böyüklükdə və məhsuldardır, geniş, yararlı təsərrüfat sahələrinə malikdir". İbn Havqəl eyni zamanda Tiflisdə (Borçalıda) İslamın hədis elminin geniş yayıldığını, bu elmlə məşğul olanlara hörmət edildiyini, tiflislilərin qədim nəzəriyyələrə (təlimlərə) əsasən sünnilik tərəfdarlarının fikirlərini müdafiə etdiklərini qeyd edir(16, s.243; 24, s.110).

Əl-Müqəddəsi (d. 946–ö. 1000) isə belə yazır: "Bərdənin (Şimali Azərbaycanın) şəhərləri: Tiflis, Qala, Hunan, Şəmkur, Cənzə ... Qəbələ, Şəkki, Malazkərd, Təbla (Telavi) ... Arran (Xəzər) dəniz(i) və Araz çayı arasında adaya oxşayır və bütün iqlimin 1/3-ni təşkil edir... Paytaxtı Bərdədir"(10, s. 374; 24, s. 130).

Bu dövr ərəb müəllifləri də Azərbaycanın yerli əhalisinin türklərdən ibarət olduğunu qeyd etmişlər. Belə ki, Əbu Muhammədd Əbdulməlik ibn Hişamın "Kitabu-l Tican fi muluk Himyər" adlı tarix əsərində I Müaviyənin Ubeyd ibn Şəriyyə əl-Curhumi ilə dialoqu zamanı ortaya Azərbaycanla bağlı sual çıxır. Sualın ortaya çıxmasının səbəbi Ubeyd ibn Şəriyyənin Yəmən padşahı Raiş zamanında Şimr ibn əl-Qəttafın yüz min nəfərlik ordu ilə türklərlə döyüşə-döyüşə Azərbaycana daxil olması idi. Müaviyə soruşur: "Azərbaycan haqqında ələqəniz, təlaşınız və xatirəniz nədir?" Ubeyd belə cavab verir: "Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər" (3, s.56; 4, s.174; 34, s.87). Z.M.Bünyadov bənzər məlumata 1126-cı ildə farsca tərtib edilmiş imzasız bir əsərdə də rast gəlindiyini qeyd edir. Bu imzasız əsər müəllifi Himyari padşahlarından Raiş haqqında məlumat verərkən deyir: "Azərbaycan qədimdən türklərin əlində olan bir ölkədir" (4, s.74).

**IX–XI əsrlər dövlətçilik ənənələrinin dirçəlməsi ərəfəsində bölgə:** Xilafətin zəifləməsi dövründə Azərbaycanda dövlətçilik ənənələri dirçəlir və Sacoğulları, Salarilər, Şəddadilər kimi sülalələr, Tiflis əmirliyi kimi dövlətlər Qərbi Azərbaycan və Borçalını idarə edir.

Tiflis bölgəsi VIII–IX əsrlərdə müasir Gürcüstanın Kaxetiya bölgəsi istisna edilməklə, bütün şərq və cənub torpaqlarını əhatə edirdi və bəzən hüdudları daha da genişlənirdi. IX əsr mənbələrində Tiflisdə əmir olan İshaq ibn İsmayılın Cənubi Qafqazın hakimi olub Tiflisdə oturduğu qeyd edilir. Əmir İshaq ibn İsmayıl (830–853) dövründə Tiflis əmirliyi o qədər güclənmişdi ki, xəzərlərin yardımı ilə Bizans hakimiyyətindən qurtularaq müstəqil olan abxazlar da ona vergi ödəyirdilər (13, s.174). Stefan Asogik qeyd edir ki, Bizans imperatoru Feofilin (829–842) orduları Vənənd (Qars və ətrafı) ərazisinə daxil olduqları zaman "İsmailin oğlu

Sahak tərəfindən darmadağın edildilər". Bununla da əmir İshaq nəinki Borçalı, eyni zamanda Qars və ətrafı daxil olmaqla Qərbi Azərbaycanı da nəzarətə götürmüşdü. İbn Xordadbeh və ondakı məlumatı təkrar edən Müqəddəsi qeyd edir ki, Xəlifə Vasiq Yəcuc-Məcuc səddində yarıqlar açıldığına dair yuxu görmüş və 30 dil danışan Səlləm ət-Tərcümanı ora getməsi və vəziyyəti tədqiq etməsi üçün vəzifələndirmişdi. Səlləmə bu işlərdə yardım etməsi və xəzərlərlə və dağ hökmdarları ilə münasibət qurmaqda kömək etməsi üçün Xəlifənin məktubunu Tiflisdə oturan "Cənubi Qafqaz sahibi" İshaq ibn İsmayıla çatdırmışdı. Bu qeydlər Tiflis əmiri İshaqın dövründə əmirliyin sərhədlərinin qərbdə Qarsa, Qarsdan Dəryal keçidinə – əl-Lana qədər uzandığını sübut edir (10, s. 362; 17, s. 163; 5, s.206-207; 13, s.177). Lakin IX əsrdə Abbasilər xilafətinin türk sərkərdəsi Buğanın hücumundan sonra Tiflis və ətraf ərazilərin müsəlman-türk tayfaları qərb torpaqlarının bir hissəsini itirirlər.

Qərbdə əmirliyin sərhədləri Trialetiyə qədər uzanırdı. X–XI əsrlərdə Tiflis əmirliyinin şimal sərhədi Diqom vadisinə qədər uzanırdı. Msxeta bəzən onların nəzarətində, bəzən isə nəzarətdən kənarda qalırdı. Belə ki, təxminən 853-cü ilə aid Diqom düzənliyindəki Maçxan kilsəsinin divarında Tiflis əmirinin məmuru Huməd ibn Kitrin adının yazılması bu ərazilərin Tiflis əmirliyinə aid olduğunu deməyə əsas verir(33, s. 341). Şərqdə əmirlik İsani düzənliyini, Avçalanı, Qabırrı çayının (İori) qərb sahillərini əhatə edirdi. Şərqdə əmirliyin qonşusu digər Azərbaycan dövləti olan Şəki məlikliyi idi (15, s. 120). Cənubda isə Rustav, Dumanis, Şəmşəddil (Samşvilde) və Loru (Lori) torpaqları bu əraziyə daxil idi. Bundan əlavə, Tiflis əmirliyinə tabe Rustavi, Dumanis, Hunan şəhərlərində müsəlman əmirlər də var idi (33, s. 341).

Azərbaycanın qərb torpaqları 889-cu ildən etibarən Sacilər sülaləsinin tabeliyində olur. Bu dövrdə Azərbaycanın qərb torpaqlarını narahat edən və mərkəzləri Van gölü ətrafında yerləşən Baqratuniləri Sacilər dəfələrlə məğlub etmişdi. Bunlardan ən əhəmiyyətliləri 893-cü ildə Məhəmməd ibn Əbu Sacın Dəbil yaxınlığında (indiki İrəvandan qərbdə) erməni katolikosu II Georqu, 896-cı ildə Anidə (indiki Qars yaxınlığında) Baqratuni hökmdarı I Smbatın arvadını, başqa qohumlarını, eləcə də hökmdarla qaçmış bir çox erməni zadəgan ailələrini əsir almasıdır (23, s. 132). Məhəmmədin qardaşı Yusif ibn Əbu Sacın dövründə isə 907-ci ildə Tiflis müsəlman əmirliyinin varlığını təhdid edən bütün gürcü feodalları zərərsizləşdirilir. Eyni zamanda, 914-cü ildə Baqratuni hökmdarı I Smbat edam olunur, Qərbi Azərbaycanın – Dəbil və ətrafının təhlükəsizliyi tamamilə təmin edilir (27, s. 113).

Qərbi Azərbaycan 951 və 971-ci illərdən etibarən Şəddadilər sülaləsinin tabeliyində olmuşdur. Məhz bunun nəticəsi idi ki, Səlcuq imperatoru Alp Arslanın Anadolu yürüşləri zamanı bölgəni yaxından tanıdığı üçün Ani (Qars yaxınlığı) və ətrafını öz yaxın müttəfiqi Şəddadilərə vermişdi (20, s. 21).

**Bölgə Səlcuqlular dövründən sonra:** XI əsrdən etibarən bu ərazilərə oğuz türklərinin axını baş verir. Oğuz türkləri yerli türklərlə qaynaşaraq burada yerli etnosa çevrilirlər. Lakin oğuz türklərinin Azərbaycanda məskunlaşması daha qədim dövrlərə aiddir. Davidin tarixində oğuz türklərinin Asisfor, Klarcet, Şavşet, Acarıstan, Samsxe, Kartli, Araqveti, Samokalako və Çkondidiyə yayıldıqlarını, bunun böyük türkləşmə – "didi turkoba" olduğu deyilir (28, s. 277; 14, s. 307). Xüsusilə Məlikşah dövründə səlcuqlu türklərin bu ərazilərə daha kompakt və sıx şəkildə yerləşdiyi nəzərə çarpır.

XII əsrin əvvəllərində IV David (1089–1125) səlcuqlulara qarşı mübarizə apara bilməyəcəyini anlayıb "türkü türkün əliylə vurmaq siyasəti"ni həyata keçirdi və bölgəyə qıpçaqları dəvət etdi. Həmin qıpçaqlar Tiflis və ətrafına yerləşdirilmişdi və sonradan həm gürcülərin, həm də Azərbaycan türklərinin formalaşmasında əhəmiyyətli rolları olacaqdı. Belə ki, IV David 1104–1105-ci illərdə etnik olaraq erməni əsilli yoldaşından boşanaraq qıpçaq bəyi Şaraqanın oğlu Atrakın qızı ilə evlənəcəkdi və bu nikahın sayəsində Atrakın başçılığıyla 10 minlərlə qıpçaq ailəsi bölgəyə köçərək Davidə xidmət edəcəkdi (2, s. 129-130). Bir sıra tarixçilərin, xüsusilə Z.M.Bünyadovun fikrincə, qıpçaqların Azərbaycana gəlməsi VII əsrdə də baş verib (21, s. 37). IV Davidin dövründə köçürülən döyüşçülərin 40-45 min ailə olması qıpçaqların sayca ən azı ərazidə yaşayan xristianlar qədər və hətta daha artıq olduğunu göstərirdi. Belə ki, IV Davidin ordusu 40 mini qıpçaqlardan ibarət olmaqla 60 min nəfərə, gürcü əsgərlərin sayı isə bu orduda cəmi 20 minə çatırdı (30, s. 98). IV Daviddən gürcü çariçası Tamaraya qədər çardan sonra ikinci əhəmiyyətli şəxslərin, ordu rəhbərlərinin Kubasar, Kutlu Arslan kimi qıpçaq türklərinin olması hələ bu dövrdə

ərazidə qıpçaqların həm sayca, həm də qüvvəcə gürcülər üzərindəki üstünlüyünü göstərir. Qeyd edək ki, "Kitabi-Dədə Qorqud"da Gürcüstan doqquz tümən Gürcüstan – doxsan minlik və ya doqquz vilayətlik Gürcüstan kimi qeyd edilir (18, s. 104). İ.Cavaxaşvilinin, C.Stepnadzenin hesablamalarına görə, bu dövrdə IV David orta hesabla 225 min qıpçaq türkünü köçürmüşdü, Q.Ançabadze isə qıpçaqların sayını 200–250 min nəfər qeyd edənlərin düzgün nəticəyə gəldiklərini müdafiə edir (2, s. 133). F.Kırzıoğlu isə qıpçaqların təxminən 300 min nəfər olduğunu qeyd edir(11, s. 115; 2, s. 135; 25). Həm ordu, həm əhali arasında qıpçaqların açıq-aydın üstünlüyü nəzərə çarpır. Bir neçə on min qıpçaq ailəsi bir də III Georgi (1156–1184) tərəfindən Gürcüstan və ətraf ərazilərə köçürülmüşdü ki, bu gələn qıpçaqları gürcülər "kivçakni axalni" – yeni qıpçaqlar adlandırırdılar (29, s. 12; 25). İstisna edilmir ki, müasir Gürcüstanın şərqində gürcülərin Kvemo-Kartli, Azərbaycan türklərinin Borçalı-Börü Çala-Qurd dərəsi adlandırdığı ərazilərdə yaşayan Azərbaycan türklərinin, eyni zamanda Axıska türklərinin, Şimal-Qərbi Azərbaycanda Şəki–Zaqatala ərazisində yaşayan Azərbaycan türklərinin əcdadları arasında qıpçaqlar olmuşdur. Qıpçaqların daha çox heyvandarlıqla məşğul ola bilməsi və yürüşlər edə bilməsi üçün əsasən IV Davidin onları krallığının cənub və cənub-qərb sərhədlərinə yerləşdirməsi haqqında məlumatları bunu təsdiqləyir. Eyni zamanda, M.D.Lordkipanidzenin qıpçaqların əsasən sərhədlərə, yeni işğal edilən ərazilərə – Ereti, Tiflis ətrafı və şimalına yerləşdirilməsi fikri də bu iddianı dəstəkləyən mahiyyətdədir (2, s. 131). Toponimlər də eyni şeyi deyir. Qaxda qıpçaqlarla bağlı Qıpçaq adlı kənd mövcuddur (19, s. 140). Qıpçaqlardan əncə vəya öncələrin adı ilə adlandırılan Qax rayonunda Oncallı kəndi, eyni tayfa ilə bağlı Şəkidə İncədağ, İnçə kəndi, Qazax rayonunda İncə dərəsi, Goranboy rayonunda İncədzor kəndi adlarında rast gəlinir (19, s. 145-146; 21, s. 38). Gürcüstanın Axalsıx rayonunda isə Edincə və İncəblə kənd adlarında əncə tayfalarının izinə rast gəlinir (25). Qıpçaqlardan qullar adlanan tayfa adı ilə bağlı isə Azərbaycanda Ağdam, Bərdə, Qusar və şimal-qərbdə Balakəndə Qullar kənd adları ilə yanaşı, Gürcüstanda Akullar və Dağıstanda Kullar kənd adları var (21, s. 39). Məhz qıpçaqlarla güclənən yeni ordu sayəsində IV David 1122-ci ildə Tiflisi, 1123-cü ildə Dumanis və Ani (Qars) şəhərlərini işğal edir. Təkcə Ani şəhərinin işğalı zamanı 20 min müsəlmanı qətl edirlər (22, s. 271-272).

Qıpçaqlarla güclənən xristian qüvvələrinə qarşı mübarizə aparmaq Atabəylər dövründə bir sıra problemlərə çevrilir. İlk hökmdarlar dövründə (Atabəy Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan) Qərbi Azərbaycan və Borçalı üzərinə olan işğalşı yürüşlər dəf edilsə də, XIII əsrin əvvəllərində intensivləşən yürüşləri dəf etmək mümkün olmur. Bu dövrdə Loru (Dağ Borçalı) əyaləti və ətrafının idarəsi gürcülər tərəfdə vuruşan türk-qıpçaq Kubasarda (Qurdbasar) idi. Eyni zamanda, Axıska–Ərdəhan bölgələrini də qıpçaq bəyləri idarə edirdi (14, s. 336). Xarəzmşah Cəlaləddin 1225-ci ildə Dəbili geri almaqla Qərbi Azərbaycanın böyük hissəsini xristianlardan təmizləyir. 1226-cı ildə isə Tiflisi geri almaqla Borçalını təmizləməyə nail olur. Lakin Cəlaləddin geri qayıtdıqdan sonra 1227-ci ildə Tiflis şəhərinə hücum edərək buranı tamamən yandırırlar. Bu qırğın o qədər şiddətli olur ki, Cəlaləddin Tiflisə qayıdanda şəhərdə bir nəfər də sağ adam görmür. Bu hadisədən sonra şəhərdə demoqrafik vəziyyət xristianların xeyrinə dəyişir (22, s. 283).

**Səfəvilər və əfşarlar dövründə:** Monqolların yürüşü ilə oğuz tayfalarının mərkəzi Şimali Azərbaycandan (Muğandan, Arandan) Qərbi Azərbaycana, eyni zamanda sonrakı dövrdə Anadoludan Azərbaycana köçmə prosesi daha da intensivləşdi. Nəticədə Qaraqoyunlu tayfa ittifaqına daxil olan sadlu/səədlular İrəvan və ətrafında məskunlaşdılar. Bununla da Çuxur Səəd (səədluların çuxuru, obası) yaşayış məntəqəsi adı meydana gəldi. Səfəvilər dövründə Çuxur Səəd dörd Azərbaycan bəylərbəyliyindən biri olmuşdu (Təbriz – Cənubi Azərbaycan, Qarabağ – Gəncə, Şirvan – Şamaxı və Çuxur Səəd – İrəvan bəylərbəylikləri). Bu bəylərbəyliyinin ərazisi Qərbi Azərbaycan və Axıskaya qədər Borçalının bir hissəsini də əhatə edirdi. Səfəvilər dövründə Çuxur Səəddə idarəçilik əsasən ustaclılara və qacarlara verilmişdi. Şah Abbasın hakimiyyəti dövründə bölgənin hakimi qacarlardan olan Sarı Aslan ləqəbli Əmir Günə bəy idi (12, s. 146-147). 1555-ci il Səfəvi və Osmanlı arasında bağlanan Amasya sülh müqaviləsinə görə Borçalı torpaqları Səfəvilərin tərkibində qalmışdı (31, s. 54). Borçalı bölgəsinin də idarəçiləri əsasən qacarlardan təyin edilirdi. Borçalı özü inzibati vahid kimi Gəncə bəylərbəyliyinə daxil edilmişdi və

bəylərbəyləri əsasən qacarlardan olan Ziyadoğlular arasından seçilirdi.

XVIII əsrdə Borçalı gürcü və Azərbaycan feodalları arasında mübarizə meydanına çevrilir. Bunun əsas səbəblərindən biri gürcü zadəganlarının İslamı qəbul edirmiş kimi görünməsi, qadınları vasitəsilə Səfəvi sarayına və hərəmxanasına yol tapmaları, bununla da bölgədə idarəçiliyi ələ keçirmə cəhdləri idi. Məhz bunun nəticəsi idi ki, 1722-ci ildə I Pyotr Azərbaycana yürüş edəndə Kartli çarları Səfəvi imperiyasına xəyanət edərək Borçalı bölgəsini ələ keçirməyə çalışdılar (31, s. 61-62). Lakin I Pyotr geri çəkildiyi üçün gürcülər də bölgəni Gəncə bəylərbəylərindən ala bilmədilər.

1736-cı ildə Nadir şah Əfşar Səfəvi sülaləsinin hakimiyyətini ləğv edib taxta özünün keçdiyini elan edəndə Gəncə bəylərbəyliyinin irsi sahibi olan Ziyadoğlu qacarlar tayfası buna etiraz edir. Nadir şah Əfşar cəza olaraq Borçalı bölgəsini Qazaxla bir yerdə o dövrdə idarəçiliyi sadəcə kağız üstündə olan, vali statusu daşıyan və Nadirin Tiflisdəki naibindən asılı olan Kaxetiya (Şərqi Gürcüstan) hakimi II Teymuraza verir (26, 186). Teymurazın belə əhəmiyyət qazanmasının səbəbləri arasında qərbdən hücum edən Osmanlı qoşunu ilə daim həvəslə mübarizə etməsi, eyni zamanda Nadirə qarşı üsyan qaldıran Səfəvi şahzadəsi Sam Mirzəni Nadirə təhvil verməsi də var idi. Məhz bunun nəticəsi idi ki, Nadir narahat qızılbaş-türk əmirlərindən fərqli olaraq, onu özünə sadiq təbəə kimi görürdü. Hətta Nadir şah 1744-cü ildə Kartlinin (Qərbi Gürcüstan) idarəsini də Teymuraza tapşırır (31, s. 74), Kaxetiyanın idarəsini isə öz yanında saxladığı Teymurazın oğlu II İrakliyə verir. Nadir şah Əfşarın ölümündən sonra onun təbəələri olmuş Kartli çarı Teymuraz və oğlu Kaxetiya çarı II İrakli qarışıqlıqdan istifadə edərək müstəqil oldular və Borçalı bölgəsini işğal etdilər. Şəki xanı Hacı Çələbi 1752-ci il döyüşü nəticəsində qısa müddətliyə Borçalı bölgəsini Azərbaycana geri qaytarsa (32, s. 67; 1, s. 201) da, Azərbaycan xanları arasında daimi mübarizə bölgənin Azərbaycan sərhədləri daxilində qalması şəraitini aradan qaldırdı. Gəncə xanlarının da Borçalı mübarizəsi bir nəticə vermədi. Əksinə, II İrakli Rusiyaya arxalanaraq Qərbi Azərbaycana – İrəvan xanlığına da dayanmadan qarətçi yürüşlərə başladı. 1783-cü il Georgiyevsk müqaviləsi ilə II İrakli Rusiya himayəsinə keçdi. Bununla da Borçalı bölgəsinin Azərbaycan torpaqlarına birləşdirilməsi çətinləşdi. Müqavilə, bir növ, təbəəçilik xarakteri daşıyırdı. Əvvəllər Səfəvi və Əfşar valisi olan II İrakli və ataları indi Rusiyanın valisi hesab edilirdilər, Gürcüstan torpaqları artıq Rusiyanın himayə etdiyi ərazi idi. Ağa Məhəmməd şah Qacar 1795-ci ildə Tiflisi tutur, Borçalını geri – Gəncə xanlarına qaytarır, lakin sonradan Rusiyanın 1783-cü il müqaviləsini əsas gətirərək bölgəyə müdaxilə etməsi yenidən tarazlığı gürcülərin xeyrinə dəyişir (1, s. 221-223).

**Açar sözlər:** *Tiflis, Arran, Borçalı, Azərbaycan, türk*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm. Bakı: Kitab klubu, 2018*

*2. Alasania G. Gürcüler ve İslam Öncesi Türkler. Trabzon: KTU-Karadeniz Araştırmaları Enstitüsü yayınları. Atalay matbaası, 2013*

*3. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989*

*4. Bünyadov Z.M. Azərbaycan VII–IX əsrlərdə. Bakı: Azərnəşr, 1989*

*5. Dunlop D.M. Hazar Yahudi Tarihi. İstanbul: Selenge yayınları, 2008*

*6. Əl-Bəlazuri, Əhməd ibn Yəhya ibn Cabir. Kitab Futuh əl-Buldan. Haqqaqahu və şərəh. Abdullah Ənis Tubba. Beyrut: Muəssəsətu-l Muaf. 1987*

*7. Əl-Bəlazuri. Kitəb Futuhi-l Buldən. Azərbaycanın VII–IX əsrlər tarixinə aid çıxarışlar. Ərəbcədən tərcümə edəni, ön söz, qeyd və şərhlərin müəllifi Hikmət Əkbərov / Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Vətən tarixi seriyası. AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu. Bakı: "Nurlan" nəşriyyatı, 2005*

*8. Əl-İstəxri, Əbu İshaq əl-Farisi. Kitab əl-Məsalik əl-Məmalik. Leyden: E.J.Brill. 1870*

*9. Əl-Məsudi. Muruc əz-Zəhəb və Məadin əl-Cəvahir. C.1. Beyrut: əl-Məktəbət-ul Asriyyə, 2005*

*10. Əl-Müqəddəsi, Şəmsəddin Əbi Abdullah Muhamməd ibn Ahməd ibn Əbi Bəkr. Əhsən ət-təqasim fi mə'rifəti-l əqalim. Leyden: BGA, E.J.Brill. 1877*

*11. Fahrettin M. Kırzıoğlu. Yukarı-Kür ve Çoruk Boylarında Kıpçaklar. Ankara: Türk Tarih Kurumu Basımevi, 1992*

*12. Faruk Sümer. Oğuzlar (Türkmenler). Ankara Üniversitesi yayınları, 1972*

*13. Gümüş N. İlk Dönem İslam-Gürcü İlişkileri.*

*Rize: Karadeniz Basın Yayın, 2007*
*14. Gürcistan Tarihi (Eski Çağlardan 1212 Yılına Kadar), notlar: M.F.Brosset, trc. Hrand D. Andreasyan, Ankara: Türk Tarih Kurumu Basımevi, 2003*
*15. Hacıəli Ş. Şimal–Qərbi Azərbaycan: İngiloylar. (I kitab: ən qədim zamanlardan XIII əsrin ortalarınadək). Bakı: Təhsil nəşriyyatı, 2007*
*16. İbn Havqəl. Kitab əl-Məsalik və-l Məmalik. Leyden: E.J.Brill. 1872*
*17. İbn Xordadbeh, Əbu-l Qasim Ubeydullah ibn Abdullah. Kitab əl-Məsalik əl-Məmalik. Leyden: E.J.Brill. 1889*
*18. Kitabi-Dədə Qorqud. Bakı: "Yazıçı" nəşriyyatı, 1988*
*19. Məmmədov N.G. Azərbaycanın yer adları (oronimiya). Bakı: "Azərnəşr", 1993*
*20. Minorsky V. Studies in Caucasian History. Cambridge Oriental Series, No.6, London: Taylors Foreign Press, 1953*
*21. Nuriyev E.B. Azərbaycan SSR Şəki-Zaqatala zonasının toponimiyası. Bakı: "Elm" nəşriyyatı, 1989*
*22. Rəşad Mustafa. Tiflis əmirliyi. Bakı: Turxan NPB, 2019*
*23. Şərifli M. X. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri, Bakı: Turxan NPB, 2015*
*24. Vəlixanlı N.M. IX–XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı: "Elm" nəşr., 1974*
*25. Yunusov Arif. Axıska (Mesxeti) türkləri: İki dəfə deportasiya edilmiş xalq (rusca) http://www.ca-c.org/journal/cac-02-1999/st_20_junusov.shtml*
*26. Бутков П.Г. Материалы для новой истории Кавказа, с 1722 по 1803 год. Том 2. С.Петербург, 1869*
*27. Всеобщая История Вардана Великого. Пер. Н Эмин. Москва: Тип. Лазаревского Института восточных языков, 1861*
*28. Житие царя царей Давида. Перевод И. Зетеишвили // Символ, 1998, № 40*
*29. История Князей Орбельян. Извлечение из сочинений Стефана Сюнийского, армянского писателя XIII в. Пер. с. Армянского Х.Иоаннесов. Москва: Тип. быв. А. В. Кудрявцевой, 1883г*
*30. Лордкипанидзе М. Д. История Грузии XI – нач. XIII вв. Тбилиси: Издательство «Мецниереба», 1974*
*31. Мехрибан Аббасова. История Борчалинского махала. Баку: Sabah, 2006*
*32. Мирза Адигезаль-Бек. Карабаг-Наме. Баку, 1950*
*33. Очерки истории Грузии (в 8-и т.). Т.II. Грузия в IV-X веках / Ред.: М. Лордкипанидзе, Д. Мусхелишвили. Тб., Издательство «Мецниереба»: 1988*
*34. Сумбатзаде А.С. Азербайджанцы – Этногенез и формирование народа. Баку: Изд. «Элм», 1990*

**SUMMARY**

According to Arabic sources that Tbilisi and the surrounding areas - Borchali region belonged to the administrative division of Arran - Northern Azerbaijan during the Caliphate. During the weakening of the caliphate, the Emirate of Tiflis was established in the region. During the Seljuk period, there was migration of numerous Turkic tribes to the region. Although the region was occupied by David IV and his successors during the weakening of the Seljuks, the area was mainly inhabited by Kipchak Turks. Before the Russian occupation, the political control of the region belonged to Azerbaijan.

**Ключевые слова:** *Тифлис, Арран, Борчалы, Азербайджен, турк*

**РЕЗЮМЕ**

Согласно арабским источникам, Тбилиси и его окрестности - Борчалинский район входили в состав административного деления Аррана - Северного Азербайджана во время Халифата. В период ослабления халифата в регионе был основан Тифлисский эмират. В период сельджуков в этот регион мигрировали многочисленные тюркские племена. Хотя этот регион был оккупирован Давидом IV и его преемниками во время ослабления сельджуков, в этом районе в основном проживали тюрки-кипчаки. До российской оккупации политический контроль над регионом принадлежал Азербайджану.

**Key words:** *Tiflis, Arran, Borchali, Azerbaijan, turk*

UOT 94 ( 479.24 )

# XƏZƏR XAQANLIĞINDA DİNLƏR

**ELÇİN NECİYEV**
*Muş Alparıslan Universitetinin doktoru*
*E-mail:eneciyev@yahoo.com*

**MƏHƏRRƏM ƏHMƏDOV**
*Azərbaycan Milli Elimlər*
*Akademiyasının dissertantı*
*E-mail:maqerram@lenta.ru*

## Giriş

Dünya tarixşünaslığında mühüm yeri olan Xəzər xaqanlığı Türk dövlətçilik tarixində ən uzunömürlü imperiyalardan biridir. Tədqiqatçıların əksəriyyəti bu qüdrətli imperiyanı Qərbi Türk xaqanlığının varisi hesab edir. Xəzər xaqanlığını dünya tarixində yaşadan bir sıra səbəblər vardır. Onlardan birincisi, xəzərlərin Bizansın Sasani imperiyası qarşısındakı məğlubiyyətinin, qalibiyyətlə əvəzlənməsindəki roludur. İkinci, Xəzər xaqanlığının 100 il Ərəb xilafətinə qarşı mübarizə apararaq, onların Şərq Avropaya hücumlarının qarşısını almaqla, Avropanı ərəb işğalından xilas etməsidir. Əgər, ərəblər xəzər maneəsini dəf etsələrdi, Şərqi Avropada onları qarşı duracaq qüvvə yox idi. Üçüncüsü, onlar, dəfələrlə Bizans imperiyasını Ərəb xilafətinin zərbələri nəticəsində məhv olmaqdan xilas etmişdi.

651-ci ildən 965-ci ilədək parlaq tarix yaratmış xəzərlər, müxtəlif dinlərlə qarşılaşmış, onları mənimsəmişdir. Xəzər tarixinin müxtəlif sahələri tarixçilərin diqqətini cəlb etmişdir. Həmin sahələr arasında öndə gələn, Xəzər xaqanlığında din problemi olmuşdur. Xaqanlıq ərazisində çoxlu xalqlar yaşadığı kimi, müxtəlif dinlər mövcud olmuşdur. Həmin dinlərdən İslam, Xristian, Yəhudi və bütpərəstliyi qeyd etmək olar. Xəzər xalqının bütün dinlərə qarşı tolerant münasibəti, dözümlülüyü xaqanlığın uzun ömürlü olmasını təmin edən amillərdən biridir. Digər qüdrətli dövlətlər, Bizans imperiyası və Ərəb xilafətinə baxarsaq, onlada baş verən dini və məzhəblər arası qarşıdurma Xəzər xaqanlığının bü sahədəki önəmini sübut etmiş olur. Yuxarıda adları çəkilmiş dinlər, heç bir maniə olmadan Xəzər xaqalığında öz mövcudiyyətini mühafizə edə bilirdi.

Dünya tarixində dinin önəmi böyükdür. İnsanlıq mövcud olduğundan bəri, insanlarda fövqəl güc inancı mövcud olmuşdur. Bu inanclar müxtəlif formada öz varlığını göstərmişdir. Əsrlər boyudur ki, alimlər dinin nə olduğunu və insan həyatında onun rolunu izah etməyə çalışırlar [13, s. 5]. Qudratov O.Q dini "məhv olmayan inamın mənbəyini təşkil edən ideya sistemi " adlandırır [15, s. 6]. Dünya tarixində etnos və din insan cəmiyyətinin ən həssas problemi sayılmışdır. Din və etnos insan sosial birliyinin özünə məxsus formasıdır. Onlar dəqiq və tam şəkildə müəyyənləşmiş bir sıra parametirlərlə bir-birindən fərqlənir. Etnosun ən mühüm göstəricisi dil və mədəniyyət birliyidir [13, s. 38].

## Xəzərlərdə din

Xəzərlər Türk xalqlarından biri olduğu üçün, türklərin qədim dinlərinə nəzər yetirilməsi vacibdir. Ərəb tarixçilərinin konkret məlumatlarında xəzərlərin Türk olması öz təsdiqini tapır [19, s. 27]. Cənubi Qafqazdakı Ərəb-Xəzər müharibəsinin gedişinə baxarsaq, ərəblərin xəzərləri türklərin bir hissəsi kimi gördüyünü deyə bilərik [8, s. 161].

Bilindiyi kimi, qədim türklər geniş sahələrdə yayıldığına görə, onlar müxtəlif dinlərin təsirinə məruz qalmışdır. Onların ilk dini Şamançılıq olmuşdur [7, s. 48]. Qədim türklərdə bir peyğənbər və müqəddəs kitab olmadığı üçün, şamanların vəzifələri və böyük nüfuzları vardı [7, s.54]. M.Q.Maqamedov xəzərlərdə din məsələsinə toxunarkən, bildirir ki, "Xəzər xaqanlığında yaşayan xalqların dini baxışları haqqında ədəbiyyatlar azdır" [21, s. 155]. Lakin o, özünün və digər arxeoloqların tədqiqatlarına əsaslanaraq, xəzərlərdə Tenqri xan inancının olduğunu bildirir [21, s. 156; 1, s 80]. Novoselçev bildirir ki, Tenqri xan türkdilli xalqların (Türk, Azərbaycan, Türkmən, Yakut, Çuvaş) inancıdır. Onun bildirdiyinə görə, xəzərlərdə bütpərəstlik müxtəlif mənşəli olduğu üçün mürəkkəb ayinləri özündə əks etdirdirdi [22, s. 145-146]. Bizcə, müəllifin diqqət çəkmək istədiyi məqam Xəzər xaqanlığında müxtəlif xalqların yaşaması və onların bütpərəst olmasıdır. Bilindiyi

kimi, Xəzər xaqanlığı təşəkkül tapdığı dövürdə onun ərazisində müxtəlif xalqlar yaşayırdı. Onlar bütpərəst olsada, müxtəlif dilli xalqaları təmsil edirdilər. Onlar, əsasən, Türk dilli və Hindi Avropa dilli xalqların təmsilçiləri idi. Təbiidir ki, müxtəlif xalqların milli adət və ənənələri onların dini ayinlərinə təsir edirdi. Ayinlərin müxtəlif şəkildə olması, bununla izah edilə bilər.

Türklərdə Tenqrixan inancına görə, o, qəhrəmanlıq, güc, cəsurluq, uğur və bolluq rəmzidir [12, s. 11]. Kevin Allan Brooka görə, xəzərlərdə, hunlarda və bulqarlarda olduğu kimi, Tenqri inancı olmuşdur. Tenqri dünyanı yaradan, ölümsüz varlıqdır. Ona müxtəlif heyvanlar qurban kəsilirdi, əsasən də at [4, s. 203-204]. Biz diqqət edərsək, görərik ki, Tenqriyə verilən zati sifətlər bütpərəstlik və ilahi din arasındakı bir mərhələni xatırladır.

Xəzər xaqanlığında yayılan dinlərdən biridə Xristian inancı idi. Tədqiqatlardan bilindiyi kimi, xaqanlıq ərazisində çoxlu sayda xalqlar yaşamışdır və onlar əsasən bütpərəst idi. Xristian dininə sitayiş edən əhali isə Krım yarmadasında yaşayanlar idi. Xəzərlər arasında Xristian inancının yayılması, Bizans imperiyası və Cənubi Qafqazdan qaynaqalanırdı. Göründüyü kimi, bu missiyonerlik hərəkətlərinin arxasında müxtəlif siyasi güclərin dini və siyasi maraqları dayanırdı. Bilindiyi kimi, Bizans imperiyası istər Sasani imperiyasına, istərsə də Ərəb xilafətinə qarşı mübarizədə xəzərlərin hərbi qüdrətindən məharətlə istifadə etmişdir. Bəzi tədqiqatçıların gəldiyi nəticəyə görə, Xəzər xaqanlığı lazımı anlarda müdaxilə etməsələrdi, Bizansında talehi Sasani imperiyasının aqibəti kimi olacaqdı. Təbiidir ki, bu qüdrətli gücü idioloji olaraq özünə bağlamaq, Bizans imperiyası üçün geniş imkanlar yaradardı. Bizansa təhdid, təkcə Ərəb xilafəti tərəfindən deyildi. Avar xanlığı, Bulqar xanlığı, slavyanlar, pəçənəklər ayrı-ayrılıqda Bizans üçün təhdit mənbəyi idi. Dərin dövlətçilik tarixi olan bizanslılar, bu problemləri xəzərlər vasitəsilə həll etmək istəyirdilər. Bəzən Bizans imperiyası Xəzər xaqanlığının leyhinə torpaqlarını itirməyidə qəbul edə bilirdi. Belə ki, xəzərlərin Xerson şəhəri xaric bütün Krım yarmadasını Bizansdan alması buna misal ola bilər. Xəzərlər bu əraziləri ilhaq etsələr də, orada yaşayan əhalinin dini baxişlarına qarşı hər hansı məhdudiyyət qoymadılar. Onlar, ərazi baxımından xaqanlığı tabe olsalarda, dini yöndən Bizans imperiyasının nəzarətində idilər. Bəzən Bizans imperiyası bu üstünlükdən faydalanmağa cəhd edirdi. Bizans Qotiyada 7 eparxiyanı birləşdirərək, Mitropoliya yaratmışdı [23, s.61]. 784-cü ildə İonna Qotskinin başçılığı altında xəzərlərə qarşı üsyan oldu. O, Bizans imperatriçası, Afinalı İrina tərəfindən buna təşviq edilmişdir. Qeyd olunmalıdır ki, o, Bizans imperatoru Lev Xəzərin (775-780) dul qadını idi. Lev Xəzərin anası Xəzər xaqanını qızı idi. Xəzər ordusu bu üsyanı yatıra bildi. Qotiya əhalisidə bu üsyanın yatırilmasında maraqlı idi. İmperatriçanın arzusu Krımı yenidən Bizans imperiyasının nəzarətinə keçirmək və ya, xəzərləri zəiflətmək olsa da, əksinə, xəzərlər orada dahada möhkəmləndi və həmin ərazilərə bulqarlar köçürüldü [18, s. 146].

Cənubi Qafqaz dövlətlərinə gəlincə, Albaniya çarlığı onlar arasında ən qüdrətlisi və ilk olaraq Xristian dinini qəbul etmiş dövlət idi [2, s. 18]. Alban knyazlığının şimal hissəsində yerləşən Dərbənd şəhəri Cənubi Qafqazda Xiristian mərkəzlərindən biri idi. Sonralar türklərin hücumları nəticəsində Bərdə şəhərinə köçürüldü. Tarixi mənbələr təsdiq edir ki, xəzərlər Qərbi Türk xaqanlığına tabe olanda da, sonralar müstəqil xaqanlığa çevriləndə də, Cənubi Qafqazı özünün nüfuz dairəsi hesab edirdi. Bu hücumlardan ən çox zərər çəkən dövlət Albaniya idi. B.N.Zaxoder bildirir ki, "Alban kilsəsinin xarici siyasəti Albaniya hökumətinin xarici siyasətinə uyğun aparılırdı" [17, s. 50]. Alban hakimiyyətinin əsas məqsədi Xəzər xaqanlığının hücumlarının qarşısını almaq idi. Alban dövləti bunun üçün bir çox vasitələrdən istifadə edirdi. Bu vasitələrə xərac, ailə diplomatiyası və Xristian dinini aid etmək olar. Sonuncu cəhd, Alban knyazı Cavanşirin sui-qəsd nəticəsində öldürülməsindən sonra, Xəzər xaqanın hücumunun nəticələrini aradan qaldırmaq üçün, knyaz Varaz-Trdat, Alban katalikosu Yelizar və yepiskop İsralin birgə diplomatik və missioner fəaliyyəti olmuşdur. Missionerlik işi uğurlu şəkildə aparılmışdır [2, s. 156-157]. Dağıstan ərazisində arxeoloji qazıntılar aparmış M.Q. Maqomedov bildirir ki, "yazılı məlumatlar və arxeoloj qazıntılar şahidlik edir ki, ilk zamanlar xəzərlərin ibadətləri kilsədə olmamışdı. Təbiidr ki, köçərilər üçün tanış olmadıqları yaradana üstü örtülü məkanlarda ibadət etmək, çətin olmuşdu. Onlara ibadət etmək üçün üstü açıq kilsələr inşa edilmişdir" [21, s. 169]. Onun fikrincə, xəzərlər Xristian dinini qəbul edərkən, tam şəkildə onu qəbul etməkdə çətinlik çəkirdilər.

Göründüyü kimi, Bizans imperiyası və Alban knyazlığının cəhdləri nəticəsində xristianlığın yayılmas, tam şəkildə özünü doğrultmamışdır. Xristian dini digər xalqlarda, slavyanlarda bulqarlarda, macarlarda olduğu kimi, Xəzər xaqanlığında rəsmi dinə çevrilmədi.

Xəzər xaqanlığında İslam dinin yayılması, Xəzər-Ərəb siyasi və ticari münasibətlərinin nəticəsində baş vermişdir. Məlum olduğu kimi, Azərbaycan ərazisi ərəblər tərəfindən işğal olunduqdan sonra, Ərəb xilafəti Xəzər xaqanlığı ilə həm sərhəd oldu. Ərəblərin hücumları nəticəsində Xəzər-Ərəb müharibələri başladı. Ərəblər xaqanlıq ərazisində möhkəmlənə bilməsə də, onlar arasında münasibətlər nəticəsində, xəzərlər arasında İslam dinin yayılması hadisəsi baş verirdi. İslam dinin yayldığı bölgələrdə müxtəlif sivlizasiyaların qarşılıqlı təsiri nəticəsində, ərəbdilli İslam mədəniyyəti yarandı [23, s. 99]. Ərəb fütuhatları yeni monoteist dinin özünə məxsus etik-hüquq sistemini və dini-siyasi insitutlarını yaratdı [10, s. 3]. İslam Cənubi Qafqazda inkişaf etmiş mədəniyyət və fəlsəfi mühakimərə əsaslanan zəngin dini inamla qarşılaşdı [3, s. 42]. Təsadüfü deyildir ki, İslam dinin Dərbəndin şimalında yayılmasında əsas dayaq Azərbaycan olmuşdur. İslamın Dərbənd ərazisində möhkəmlənməsində Məsləmə b. Əbdülməlikin rolu böyük olmuşdur. Dərbənd ərazisində Xəzər məscidinin olması sübut edir ki, artıq Əməvi xilafəti (661-749) zamanında xəzərlər arasında İslam dini yayılmışdı. Baxmayaraq ki, Ərəb və Xəzər münasibətləri çox kəskin idi. VIII əsrin birinci yarısında Dərbənd şəhərində Cüma məscidinin tikilməsi, onun Qafqazda ən böyük müsəlman mərkəzinə çevrilməsinin sübutu idi [24, s. 103]. Xəzər xaqanlığında İslam dinin yayılmasının ən əlamətdar dövrü Mərvan b. Məhəmmədin 737-ci ildə xəzərlərin paytaxtı Beyda şəhəri yaxınlığında xaqanı tam məğlub edərək, onu İslam dinin qəbul etməyə məcbur etməsi hadisəsi idi [23, s. 41]. Lakn Əməvi xilafətində üsyanların kəsknləşməsi və saray daxili hakimiyyət mübarizəsi, İslam dinin Xəzər xaqanlığında yayılmasının qarşısını aldı. Xaqan xilafət daxilindəki qarışıqlıqdan istifadə edərək, İslam dinindən imtina etdi. İslam dinin qəbul etmiş xəzərlər Dağıstan ərazisində də yerləşmişlər. Göründüyü kimi, xəzərlər kütləvi şəkildə olmasada, İslam dinini qəbul edirdilər. Sonralar Ərəb-Xəzər ticari münasibətləri xəzərlə arasında islam dinin yayılmasını sitimullaşdıran səbəblərdən bii olmuşdur.

**Xəzər xaqanlığında Yəhudi dini**

Xəzərlərin Yəhudi dinini qəbul etməsi, hər zaman xəzərşünasların diqqət mərkəzndə olmuşdur. Yəhudi dinin Xəzər xaqanlığında yayılması hadisəsinə müxtəlif yanaşmalar vardır. Bəzi tədqiqatçılar bunun ictimai-sosial vəziyyətin diqtəsindən qaynaqlandığını bildirir. Bir qismi iddia edir ki, ruhbanlar Yəhudi dinin xarakterik xüsusiyyətlərini Xəzər xaqanina daha inandırıcı şəkildə təqdim etdiyinə görə, o, digər dinlərdən üstün olduğunu zənn edərək, Yəhudi dinini qəbul etmişdir. Digərləri isə, xəzərlərin bu dini qəbul etmədiklərini, sadəcə olaraq, Yəhudi qadınlarla evlənən hakim təbəqənin sonradan yəhudi din adamları və tacirlərinin təsiri altına düşərək, hakimiyyətini itirib, simvolik xaqana çevrildikləri fikrini irəli sürür. Yəhudi dinin Xəzər xaqanlığında qəbul eilməsini şərtləndirən amillər hansılardı ?

"Gerçək tarixi hadisələrin elimdə doğru-düzgün əks etdirilməsi yalnız vicdanlı, qərəzsiz tədqiqat aparmaq istəyindən, düzgün nəticələr çıxarmaq bacarığından asılıdır" [3, s. 29] Xəzər xaqanlığında yeni dinin qəbul olunması səbəbi nə idi?

Bəzi tədqiqatçıların fkrinə görə, Xəzər xaqanlığının ərazilərini genişləndirməsi, feodal münasibətlərin formalaşması dini dəyişikliyi zəruri edirdi. Xəzər xaqanlığının Bizans imperiyası və Ərəb xilafətilə siyasi baxımdan bərabər səviyyədə olması, yeni dinin qəbul edilməsini tələb edirdi. Təbiidir ki, o, İslam və Xristian dini kimi, bərabər səviyyəli din olmalı idi. M.Q.Maqamedovun rəyincə, xəzərlərdə sosial iqtisadi inkişaf , köçərilərdəki bütpərəstlik baxışlarında dəyişiklər edilməsini zəruri edirdi [21, s. 158]. A.P. Novoselçev bildirir ki, istənilən feodallaşmaqda olan cəmiyyət üçün bu və ya digər monoteist dini qəbul etmək qanunauyğunluq idi. Yaranmaqda olan feodal münasibətlər mərkəzdən qaçma hadisərin qarşısını almaq üçün, politeizmi monoteizmlə əvəzləməyə məcbur idi [22, s. 151]. Tədqiqatçılar bildirir ki, VIII əsrin ilk yarısında xəzərlərin qarşısında yeni bir idealogiya seçmək zərurəti dayanırdı. Bu, Xristian, İslam və Yəhudi dinləri idi. Təbiidir ki, ilk iki dinin mənsubları xəzərləri öz dinlərində görmək istəyirdi. Xəzərlər üçün ən məqbul olan Yəhudi dini idi. Bununla, onlar Bizans imperiyası

və Ərəb xilafəti kimi, səmavi din qazandılar. İkinci, Yəhudi dinin arxasında hər hansı bir dövlət gücü dayanmamışdı. Əks halda, xəzərlər Bizans imperiyası və ya Ərəb xilafətindən asılı vəziyyətə düşə bilərdi [8, s. 360-361]. Həqiqətəndə, Xəzər-Yəhudi yazısındanda görünür ki, Bizans və ərəblər xəzərləri öz dinlərinə çəkmək üçün müxtəlif vastələrdən istifadə edirdilər. "Edom imperatoru (Roma) və ismaillilər böyük miqdarda hədiyyələr və öz müdrüklərini göndərərək, bizi özlərinə məxsus dinlərə dəvət edirlər" [20, s. 77]. Xəzərlər monoteist dini qəbul edərək, daxili inkişafı və birliyi təmin etməklə bərabər, xarici siyasət və ticarətdə geniş imkanlar əldə etdilər [21, s. 158].

Digər tədqiqatçıların fikrinə görə, xəzərlər Yəhud dinini qəbul etməmişdilər. Onlar bu dinə yaxşı münasibət bəsləsələr də, onu qəbul etməmişlər [5, s. 9]. Zəkəriyyə Kitapçı bildirir ki, Qafqaz ərazisinə gəlmiş yəhudilərin dininə xəzərlər heç bir maraq göstərməmişlər [6,s. 11]. L.N.Qumilyov Xəzər xaqanın və yaxınlarının yəhudiliyi qəbul etmək hadisəsini, xaqanların gözəl yəhudi qızları ilə evlənmələri və yəhudi ruhbanların və tacirlərinin fəaliyyətinin nəticəsi kimi dəyərləndirir. Təbiidir ki, qeyd olunan fikirlərin əsaslı olduğunu görmək üçün, Yəhudi dinin xarakterik xüsussiyətlərinə diqqət etmək lazımdır. Xalqın, toplumun pisxalogiyasını bilmək, başa düşmək üçün onun dini inancını bilmək lazımdır [9, s. 13].

Yəhudilər genioloji olaraq, İbrahim və Saranın oğlu İsakın nəvələridir. İsakın oğlu Yaqubun dörd arvadından 12 övladı olmuşdur. Yəhudilər özlərini həmin 12 nəslin varisləri hesab edir [15, s. 24]. Yəhudilərin dinləri səmavi din qurpuna aid olsada, tarixi proseslər nəticəsndə milli dinə cevrildi. Yəhudi dini bir ideologiya kimi, İsrail oğulları mədəniyyətinin mühüm bir elementidir. Bu, yəhudilər milli –siyasi müstəqilliklərini itirdikdən sonra, onlara özünü qorumaq imkanı verdi [13, s. 323]. Onlara görə, yəhudilər Allahın seçdiyi və digər millətlərdən üstün tutduğu millətdir. Yəhudilərin əziyyət çəkmələrinin səbəbi onların yaradana qaşı verdikləri vədi çeynəməkləridir. Buna baxmayaraq, onlar yenədə seçilmiş xalqdır, Yəhva onları bağışlayacaq və bütün insanlardan üstün tutacaqdır. Yəhudi dini səmavi dinlər arasında yeganə dindir ki, mllət və din anlamı birləşib. Yəhudi dinində missiyonerlik fəaliyyəti yoxdur. Nəslin davamı ana xəttilədir. Milli dinlərin xarakterik xüsusiyyətlərinə gəlincə, bu dinlərdə əsas subyekt millət və ya xalqdır. İkinci, etik qayda və qanunlar bütün sosial təbəqələrin yer üzündəki vəzifələrini və əbədiyyətdə ruhların xoşbəxtliyini müəyyənləşdirir. Üçüncü, onun dini fəlsəfəsi və ayinləri hər kəs üçün aydın olur. Sonuncu, o, milli baxışlara əsaslanır.

Tədqiqatçıların müxtəlif baxışlarını tədqiq, təhli etdiyimizdə, hər iki baxışda haqlı və məntiqli yanaşma görürük. Ancaq iki fərqli baxışda, müştərək əlamətlərin olması mümkündür. Həqiqətin ortaya çıxması üçün, tarixi hadisəni sonadək izləyib, nəticəni təhlil etdikdən sonra həqiqəti tapmaq olar.

Məlumdur ki, Yəhudi dini milli bir dindir, özünü ən yüksək din, məlum 12 qəbiləni seçilmiş millət hesab edir. Digər millətlərdən üstün olduğunu iddəa edir. Soy isə anailə bağlanır. Bu halda xəzərləri nə üçün yəhudi hesab edirlər?

Xaqan Yusifin özünü hansı soya aid etdiyinə baxarsaq, "biz Yafəsin oğlu Toqarmanın nəslindən gəlirik. Toqarmanın on oğlu olmuşdur. Aqiyor, Tiras, Avar, Uqin, Biz-l, T-r-na, Xazar, Z-nur, B-l-q-d, Savir. Biz Xəzərin övladlarından gəlirik . Onun zamanında biz az saylı olmuşuq" [20, s. 74]. Müəllif məktubun əvvəlində özünü Aoronun oğlu Toqarma çarı kimi ifadə edir [20, s. 72]. Buradan nəticə almaq olar ki, xaqan Yusif özünü bütün türklərin çarı hesab edr. Tarixi məlumatlara görə, e.ə. ozlərini yəhudi adlandıran samiriləri yəhudilər özlərindən hesab etmirlər. Çünki onlar on iki qəbiləyə aid deyillər. Yəhudi dinin milliləşmə hadisəsi Babil sürgünündən sonra olmuşdu. IX əsrdə xəzərlərin yəhudiliyi qəbul etmələri sual doğurur.

Xəzərlərdə dini dəyişklik Ərəb tarixçilərinə görə IX əsrin əvvəllərində Harun ər-Rəşidin (786-809) hakimiyyəti zamanında baş vermişdir. Qeyd etməliyik ki, Abbasi-Xəzər münasibətləri daha mülayim olmuşdu. Xəzərlər daha çox ticari gəlirlər vastəsilə xəzinəni doldururdular. Dini dəyişiklikdən sonra, Xəzər xaqanlığında ikili hakimiyyət yarandı. Türk taixçisi Osman Karatay Xəzər xaqanlığındakı iki hakimiyyətliliyi Osmanlı imperiyası tarixinin ikincin yarısılə müqayisə edərək, sədrəzəmin səlahiyyətlərinin İşanın səlahiyyətləilə eyni olduğunu bildirir. Onun fikrinə görə, xaqan Aşina sülaləsindən, ikinci şəxs isə Yəhudi idi [5, s. 68]. Bu fikir, təkcə Osman Karatayla məhdudlaşmır,

Artur Kostler həmin fikri dəstəkləyir. Ordu sistemi dəyişildi, 12 minlik muzdlu orduya üstünlük verildi. Xəzər xaqanlığında dini və milli zəmində qarşıdurmalar yarandı. Böyük bir imperiya Rus durjinasının zərbəsilə məhv oldu. Bütün baş verənlər hansısa səbəbin nəticəsi idi. Bizcə, birinci fikirlə müqayisədə, ikinci fikri təsdiqləyən məlumatlar daha məntiqlidir.

Xəzər xaqanlığına yəhudi icmasının varlığı heç bir sual doğurmur. Bilindiyi kimi, Sasani imperiyasında baş verən Məzdəki hərakatında yəhudilərdə iştirak etmişlər. 529-cu ildə Sasani imperiyasında yəhudi icmasının başçısı Mar Zutra asıldıqdan sonra, yəhudilər Qafqaz ərazisinə köç etdilər [16, s. 269]. Digər yəhudi köçü Ərəb-Sasani savaşları dövründə baş vermişdir. Bundan başqa zaman-zaman yəhudilər Bizans imperiyasından dini zəmində təqiblərə görə, Xəzər xaqanlığı ərazilərinə köç etmişdilər. Bu, VII əsrin 20-ci illərində imerator I İraklinin zamanında, VIII əsrin başlanğıcında III Levin zamanında baş vermişdi. Onlar üçün ən təhlükəsiz yer Xəzər xaqanlığı idi [18,s. 152]. Onların dini dözümlülüyü yəhudilərə rahat yaşamağa imkan verirdi. Təsadüfü deyildir ki, şərqşünas V.V. Qriqoriyev Xəzər xaqanlığını Avropa qaranlığında yanan metroidə bənzədir. Bütün xalqlar bu imperiyada özünün milli və dini kimliyini təhlükəsiz ifadə edə bilirdiidi [14].

Xəzər xaqanlığında Yəhudi dinin qəbul olunması tarixi qaranlıq qalmaqdadır. Bunun səbəbini müxtəlif tərəflərin siyasi maraqları ilə izah etmək olar. Xaqan Yusifin məlumatına görə, onlar yəhudiliyi hakimiyyətindən 340 il əvvəl qəbul etmşlər. Bu isə təqribən VII əsrin 20-ci illərinə təsadüf edir. O zaman İslam dini yaranmamışdır. Bulanın Ərdəbilə hücumu 730-cu ilə təsadüf edir. XII əsrdə yaşamış Yəhuda Qalevi təqrbən 400 il əvvəl qəbul edildiyin yazır. Ərəb tarixçləri Harun ər- Rəşid zamanında baş verdiyini bildirir. Halbu ki, onun valisi Xəzər xaqanın qızı ilə evlənmişdir, onun yəhudi olduğu haqqınnda heç bir məlumat yoxdur. Bəzi müəlliflərə görə, VIII əsrin 30-cu illərində xəzərlərdə dini dəyişiklik üçün heç bir cəhd olmamışdı. Əslində buna ehtiyac da yox idi. "Bütpərəst xəzərlər məharətlə müharibə edib, qələbələr qazanır və zənginləşirdilər. Demək ki, allahları öz işlərini məharətlə yeinə yetirirlər " [22, s. 148].

Sonda Oleq Ivikin uzun illər arxeoloji qazıntıları təhlil edərək, gəldiyi nəticəyə diqqəti cəlb etmək istəyirik. "Arxeoloqlar Xəzər xaqanlığında yəhudilərin olduğuna şahidlik edən heç bir qalıntı tapmamışlar. Tapilan məlumatlar o qədər azdır ki, Xəzər xaqanlığında yəhudiliyinn mövcud olduğunu yazan ərəb müəlliflərinin fikrlərini qəbul etməyə əsas vermir. Əldəki məmulatlar, bunun Yəhudi dinin aparıcı olduğu ölkənin əhalisinin mirası yox, az saylı tacirlərin keçərkən, saxladıqlarını xatırladır" [ 18, s. 175]. Qeyd edilməlidir ki, bu fikri L.N.Qumliyovun "Otkrıtie Xazarii" əsərində də rast gəlirik. Lakin müəllif onların arxeoloji qazıntılar lazımı məkanda axtarmamalar ilə bağlı olacağını bildirir [16, s. 162]. Tədqiqatçılardan bəziıləri bildirir ki, Xəzər xaqanlığında Yəhudi dini məsələsini qabartmağa çalışanlar, o cümlədən, Xəzər-Yəhudi yazıları din tarixini ön plana çəkərək, qüdrətli bir imperiyanın yaranma və inkişaf tarixini kölgələyrlər [11, s. 127].

**Nəticə**

Xəzər xaqanlığında dini dəyişiklərin doğurduğu nəticələrə gəlincə, tədqiqatçıları əksəriyyəti onu mənfi dəyərləndirir. Onlara görə, bu, xəzər elitasında parçalanmalara səbəb oldu. Onun nəticəsində xaqan təkləndi və saray yəhudi elitasının əlinə keçdi. Onlar bundan istifadə edərək, xaqanı hakimiyyətdən kənarlaşdırdılar. Yeni hakmiyyətlə digər xalqlar və dini konfesiyalar arasında gərginliklər yarandı. Hakimiyyət dövlətçilik maraqlarından deyil, qurup maraqlarından çıxış edirdi. Xəzərlər hərbi elitadan kənarlaşdırıldı və yerinə 12 minlik muzdlu qvardiya yaradıldı. Onlar da müsəlman türklər idi. Qvardiyanın şərtlərinə görə, onlar müsəlmanlara qarşı vuruşmayacaqdılar. Deməkdir ki, hakimiyyətin İslam dövlətlərilə hər hansı problemi yox idi. Xəzər xaqanlığını milli zəmində vətəndaş müharibələri bürüdü. Dini zəmində münaqişələr isə hakimiyyət tərəfindən körüklənirdi. Xalqa dayanmayan hakimiyyətin ömrünün uzun olmayacağını, tarix sübut etmişdir. Qüdrətli Xəzər xaqanlığı 965-ci ildə Svyotaslavın başçılığı altındaki bir Rus durjinasının zərbəsilə tarixə qovuşdu.

**ƏDƏBİYYAT SİYAHISI**

*1. Əliyeva. N. Azərbaycanda İslam mədəniyyəti. Bakı: Elm və Təhsil, 2017, 488 s.*

*2. Moisey Kalankatyuklu. Albaniya Tarixi, Mixtar Qoş. Alban Salnaməsi Bakı: Elm, 1993, 269 s.*

*3.Paşazadə A.Ş. Qafqazda İslam. Bakı: Azərnəşr, 1991, 224 s.*
*4. Brok K.A. Bir Türk imaratorluğu: Hazar yahudileri. İstanbul: Nokta kitap, 2005, 455 s.*
*5.Karatay Osman. Hazarların musevileşmesine dair belge : Keniz mektubu // Kara deniz araştırmaları. Sayı -18, 2008, s 1-17.*
*6.Kitapçı Zekeriyye. Hazrlar hakkında yeni tarihi gerçekler. İstanbul: TDA, Özrenk matbaası: 2005, s 111-164.*
*7.Turan Osman. Türk cihan hakimiyeti mefkuresi tarihi. İstanbul: Hakışları yayın evi, 1973, 646 s.*
*8. Артамонов М.И. История Хазар. СПб: Лань, 2001, 688 с*
*9.Бартольд В.В. Тюрки.Москва: МГУ им. Ломоносов, 2015, 240с*
*10. Большаков О.Г. История Халифата. В 4 томах. Том 1.*
*11. Гадло А.В. Этническая история Северного Кавказа VI-X вв. Ленинград: Издательство ЛГУ,1979, 216 с.*
*12.Гмыря Л.Б. «Царство Гуннов» в Дагестане. Москва: 1980, 21 с. автореформат.*
*13.Горохов С.А, Христов Т.Т. Религии народов мира. Москва: КН ОРУС, 2014, 424 с.*
*14. Григорьев В.В. Обзор политической истории Хазар (Россия и Азия), СПб: 1876, с 45-65.*
*15.Гудратов О.Г., Гудратов Н.О. Мировые религии: Ислам. СПб: «Диля», 2008, 640 с*
*16. Гумилёв Л.Н. Открытие Хазар. Москва: Айфис, 2007, 412 с*
*17. Заходер Б.Н. Каспийский свод сведений о восточной Европе. Москва: Наука, 1962, 279 с*
*18. Ивик Олег, Ключников Владимр. Хазары. Москва: Ломоносов, 2015, 336 с.*
*19.Калинина Т.М., Флёров В.С., Петрухин В.Я. Хазария в косскультурном пространстве. Москва: Рукописные памятники Древней Руси, 2014, 208 с.*
*20.Коковцев П.К. Еврейско-Хазарская переписка в X в. Ленинград: 1932, 134 с.*
*21. Магомедов М.Г. Образование Хазарского каганата. Москва: 1983, 223 s.*
*22. Новосельцев А.П. Хазарский Каганат. Москва: Ломоносов, 2017, 272 с. 23.Шыхсаидов А.Р. Очерки истории, источниковедения, археографии средневекового Дагестана. Махачкала: ГУ Дагестанское книжное издательство, 2008, 560 с*

**РЕЗЮМЕ**

**Религии в Хазарского каганата**

На территории Хазарского каганата существовали исламские, христианские, еврейские и языческие верования. Несмотря на существование разных религий, хазары терпимо относились ко всем религиям. Неслучайно что, Хазарский Каганат можно было уподобить метеориту, сияющему во тьме Европы. В статье автор исследует религии, существовавшие в Хазарском Каганате. Он затронул причины распространения среди каспийцев иудаизма, христианства и ислама.

**Ключевые слова:** *Хазары, религии, ислам, христианства, иудаизм*

**SUMMARY**

**Religions in the Khazar Khaganate**

Khazar Khaganate is one of the long-lived Turkish Empires. The representatives of many nationalities were under the control of the Empire as it has a big territory. In Khazar Khaganat there were many religions because of the multinationalism of the country. The first belief system of khazars was Tenqri belief as in other Turkish nations. There were Islamic, Christian, Jewish and pagan beliefs in the territory of the Khazar Khaganate. Despite the existence of different religions, the Khazars were tolerant to all religions. It is no coincidence that the Khaganate is considered as ametroid shining in the darkness of Europe. In the article, the author examines the religions that existed in the Khazar Khaganate. He noticed the reasons for the spread of Judaism, Christianity and Islam among the.

**Key words:** *Khazars, religions, Islamic, Christian, jewish*

UOT 94

# "YEDDİİLLİK" MÜHARİBƏNİN KANADA ÜÇÜN NƏTİCƏLƏRİ

**NƏRGİZ ƏLİYEVA**
*Bakı Dövlət Universiteti*
*Regionşünaslıq (Amerika üzrə) ixtisası*
*üzrə II kurs magistrant*

*E-mail: nargiz.aliyeva-7@bsu.edu.az*

## Giriş

İngiltərə və Fransanın Avropada hegomonluq uğrunda apardıqları rəqabət müvafiq olaraq Şimali Amerikada XVII əsrin əvvəllərindən başlamışdır. Ticarətdəki rəqabət, qeyri – müəyyən sərhədlər həmçinin üçüncü tərəf kimi iştirak edən hinduların köməyi ilə münaqişələr adətən daha da alovlanırdı. Lakin Auqusburq liqası və Fransa arasında müharibənin baş verməsi (1689 - 1697) ardınca İspan irsi uğrunda aparılan müharibənin (1702 - 1713) yekun nəticələri ilə daha da çıxılmaz vəziyyət halını almışdır. Belə ki, Utrex sülhünü Fransa kralı XIV Luinin Şimali Amerikada İngiltərə ilə apardığı müstəmləkə işğalları rəqabətində ən böyük məğlubiyyəti adlandıra bilərik. Çünki, Utrex sülhü Şimali Amerikadakı fransız mülkü olan Akadiyanın İngiltərə ağalığına keçməsini rəsmiləşdirir. Buna baxmayaraq, fransızlar Atlantika sahillərindəki Keyp Bretonda Luisburq qalasını tikdirməklə, özlər üçün yeni əhəmiyyətli hərbi post həmçinin ticarət məntəqəsinin əsasını qoyurlar.

1740-cı ildə Prussiya kralı II Fridixin Sileziyanı işğal etməsi ilə Avropada Avstriya irsi uğrunda müharibənin başlanması, 1744-cü ildə Şimali Amerikada da öz təzahürünü tapır. 1745-ci ildə Yeni İngiltərə koloniyaları öz hərbi birləşmələrinin hesabına fransızların strateji iqamətgahı sayılan Luisburqu ələ keçirsələr də, 1748-ci ildə opponentlər arasında imzalanan Axen sülhünə əsasən İngiltərə koloniyaların mövqeyinə əhəmiyyət vermədən Hindistandakı Mədrəs qarşılığında Luisburqu yenidən Fransaya qaytarır.

Son olaraq Kanadanın taleyini əhəmiyyətli dərəcədə dəyişəcək "Yeddi illik" müharibənin başlanması yenidən Avropadakı sülhün siyasi tarazlığını dəyişir. Beləki, tərəflər arasındakı bu müharibə yalnız Avropa və Şimali Amerikada deyil, həmçinin Hindistanda, Afrika sahillərində də baş vermişdi. Sonda isə qalib Şimali Amerika materikinin əsaslı hissəsinin ağasına çevrildi.

## Kanada uğrunda müharibənin başlanması

Avropada Avstriya uğrunda müharibənin bitməsindən sonra, tərəflər Şimali Amerikada qısa müddət içərisində yenidən hərbi hazırlıqlara başladılar. İlk olaraq fransızlar Ohayo vadisindəki ərazi iddialarını rəsmiləşdirmək, həmçinin Ontoria gölü yaxınlığındakı Frontenak və Niaqara istehkamlarına dəstək məqsədilə yetərincə hərbi təchizat ilə təmin edilən Düken qalasının inşasanı yekunlaşdırırlar. Eyni zamanda, hər zaman ingilislərin fransızlar üzərinə hücuma keçdiyi daha bir qaynar nöqtə hesab olunan Appalaçın qərbi idi ki, 1681-ci ildə fransızlar burada Kraun Point qalasını inşa etdirməklə, yaxınlıqda yerləşən ingilislərin əsas ticarət məskənlərindən biri olan Albaniyə qarşı təhlükə mənbəyinə çevrilirlər.

Beləliklə, Ohayo vadisində fransızlar tərəfindən ard – arda əsası qoyulan istehkamları ingilislər xüsusilə Vircinya və Pensilivaniya koloniyaları özləri üçün təhlükə hesab etdiklərindən 1754-cü ildən etibarən fransızlara qarşı müxtəlif ekspedisyalar həyata keçirmək qərarına gəlirlər. Bunlardan ən ciddisi isə, müasir ABŞ – ın banilərindən hesab oluna gənc Corc Vaşinqtonun başçılığı ilə fransız qalasına göndərilən hərbi heyət olmuşdur. Vaşinqtonun qeyri-şərtsiz tələbi isə Vircinya torpaqları hesab edilən Ohayo vadisinin tez bir zamanda boşaldılması idi. İngilislərin bu tələbinə laqeyd yanaşan fransızları cəzalandırmaq məqsədilə Yeni İngiltərə koloniyalarının birləşmiş hərbi qüvvələri Vaşinqtonun başçılığı ilə Ohayo vadisindəki fransız qalasına hücum təşkil etsələr də, Böyük Çəmənliklər ərazisində (Great Meadows) meşədə pusquda gözləyən fransız və hindu müttəfiqlərinin müqavimətini qıra bilmirlər. Beləliklə, gənc Vaşinqtonun ilk döyüş təcrübəsi hesab edilən reyd uğursuzluqla nəticələnməklə yanaşı, Londonda böyük rezonansa səbəb olur. Bu illərdə fransızların hərbi hazırlıqları ingilislərin hazırlıqlarından qat –qat daha yaxşı vəziyyətdə olduğu üçün, əvvəlki illərin təcrübəsindən fay-

dalanaraq İngiltərə höküməti Ohayo vadisinin fransızların əllərindən alınması məqsədilə 1755-ci ildə Şimali Amerikaya İrlandiya əsgərlərindən ibarət iki yeni hərbi kontingent göndərir. [4, s.33] Payız aylarına qədər isə Şimali Amerikada koloniyalardakı kişilərin hesabına iki yeni alay da formalaşdırılmalı idi. Kral Yeni İngiltərədəki ümumi hərbi birləşmənin komandanlığını general – mayor Edvard Baqota tapşırır. Baqotun qarşısında qoyulan hədəflər isə birmənalı idi, belə ki, tez bir zamanda Ohayo vadisindəki, Niaqara və Kraun Point qalalarını ələ keçirib, Bosejur qalasını isə tamamilə məhv etməli idi.

Şimali Amerikaya çatan Baqot, yol boyunca hazırladığı əməliyyat planına əsasən ingilis qüvvələri fransızlar üzərinə eyni vaxtda dörd istiqamətdə hücuma keçməli idilər. Baqotun başçılıq etdiyi əsas qüvvələr Düken qalasını, digər ikisi Niaqara və Kraun Point qalasına doğru hərəkət etməli idilər. Massaçussetts qubernatoru Vilyam Şörli isə Nova Skotyadakı Bosejur qalasını məhv etməli idi. Sonuncu əməliyyat planı digərlərinə nisbətən daha az əziyyət tələb etsə də, yerli fransızları məhv edərək müttəfiqləri mikmak hindularının da müqavimətini qıra bilərdilər. Lakin Baqotun coğrafi mövqenin əlverişsizliyini nəzərə almadan, qərbdə aparılacaq olan döyüş əməliyyatlarının kağız üzərində mükəmməl hazırlanması, gözlənilən nəticəni vermir. Eyni zamanda Parisdə ingilislərin Şimali Amerikaya kontingent göndərilməsindən narahat olan Fransa kralı XV Lui Kanadaya 6 tabor göndərilməsinin əmrini verir. [4, s.35] Beləliklə də, qərb torpaqlardakı düşünülməyən yol şəraiti, həmçinin hərbi ləvazimatların yetərincə çox olmaması nəticəsində ingilislər, özlərindən təxmini üç qat artıq olan fransız-hindu qüvvələrinə tab gətirə bilmirlər.

Şimali Amerikada 1754-1755-ci illər arasında hərbi toqquşmalar baş versə də, Avropada metropolitenlər arasında 1756-cı ilə qədər rəsmi şəkildə başlamış bir mübaribədən söz gedə bilməzdi. Buna baxmayaraq, Avropanın hər iki hegomon ölkəsi, rəqib koloniyalar ilə vuruşmaq naminə hərbi birliklər göndərmişdilər. İki ölkə arasında bir əsrdən çox davam edən müharibələrdən fərqli olaraq, “Yeddi illik müharibənin” ilk təzahürləri Şimali Amerikada öz əksini tapmışdı. Beləliklə də, müharibə abu-havası Şimali Amerikada başlayıb inkişaf etmiş, növbəti iki ildə Avropadakı siyasi tarazlığı alt-üst etmişdir. 1756-cı ildə İngiltərənin Fransaya müharibə elan etdiyi vaxt, hər iki ölkə Şimali Amerikadakı müstəmləkələrin hərbi komandanlığına yeni şəxslər təyin etdilər. Kanada üçün Fransa kralı XV Luinin təyin etdiyi Montkalm Avstriya irsi uğrunda döyüşlərdə əvvəlcə Bohemyada, daha sonra isə İtaliyada xidmət etdiyindən hərbi karyerası yetərincə uğurlu idi. Yeni İngiltərəyə təyin edilən komandirlərdən isə Loudon, Aberkrombi həmçinin Daniel Veb də bir o qədər yanlış seçim idi.

Yeni komandirin gəlişini gözləməyən fransız qubernator Voudrey, Corc və Şampliyen gölü ərazilərində fransızların şəksiz nəzarətini təmin etmək məqsədilə yeni Karillon adlanan (daha çox Tikonderoqa kimi tanınan) bir istehkam inşa etdirir. Bununla bərabər Kanadaya gəlib çatan Montkalm ingilislər üzərinə hücum planları hazırlayır. Plana qərbdə ard-arda yerləşən Ontoria, Osveqo və Corc istehkamlarının müqavimətini qıraraq başlamaq qərarına gəlir. İlk hədəfi Ontoria olduğundan qərb hindularının da köməyindən istifadə edərək qalaya hücum təşkil etsədə, gecə yarı qalanın qarnizon rəhbəri fransızların boşluğundan istifadə edərək qoşunu Osveqo fortuna aparır. Bu səbəbdən də, Montkalm heç bir toqquşma olmadan Ontoria qalasını “fəth” edir. Daha sonrakı hədəf isə ən əsas strateji nöqtə olan Osveqo qalası olur. Osveqoda yerləşən qarnizonun vəziyyəti acınacaqlı olduğundan ingilislər fransız – hindu birləşməsinə uzun müddətli müqavimət göstərməyi bacarmırlar. Osveqo qalasının işğalı ilə fransızlar Ontaria gölünə tam nəzrəti əllərinə alırlar.

İngilislərin Şimali Amerikadakı daha bir önəmli dayaq nöqtəsi sayılan Vilyam Henri qalası fransızların yeni hədəfləri sırasına daxil olmuşdu. Belə ki, bu qalanın işğalı əslində, fransızlar üçün çətin olmayacaqdı. Çünki qalada düşmənə topçu bombardımanına başlamaq üçün kifayət qədər yaxınlaşmasına mane ola biləcək müdafiə baryerləri yox idi, həmçinin qala çox kiçik olduğundan maksimum 500 hərbiçi ala bilirdi. Qalanın zəif təchizatından xəbərdar olan qubernator Voudrey 1757-ci ilin martında Vilyam Henri Fortuna hücum edir və qalanı ələ keçirsələr də, heç bir hərbi birlik buraxmadan geri döndüklərindən qala yenidən ingilislərin nəzarətinə keçir. Bununla belə, bu kiçik “qalibiyyət” fransızların üstünlüklərinə əhəmiyyətli dərəcədə təsir göstərməmişdi. Bu arada Loudan,

Luisburqa hücum hazırlıqları içərisində olsa da, Vilyam Henri fortunun fransızlar tərəfindən ələ keçirilməsi ingilislər arasında çaşqınlıq yaradır və tez bir zamanda qüvvələri Vilyam fortuna doğru yönləndirirlər. İngilislər qalanı yenidən təchiz etsələr də, səriştəli Montkalm bu xəbəri eşidib, yenidən qalaya hücum təşkil edir və qeyri- bərabər döyüşdə ingilislər fransızlara məğlub olur. [3, s.52-54] Vilyam Henri fortunun ikinci səfərdə ələ keçirilməsi nəinki Şimali Amerikada həmçinin İngiltərə hökümətində də böyük rezonansın yaranmasına şərait yaratdı. Bu qalibiyyətləri nəzərə alaraq qeyd etmək olar ki, müharibənin ilk iki ili fransızların tam üstünlüyü ilə bitir. Lakin, bu prosses də uzun çəkmir, belə ki, İngiltərədə rəhbərliyə gətirilən Pitt növbəti bir il ərzində Avropada həmçinin Şimali Amerikada İngiltərənin düşən nüfuzunu qaldırmaq üçün yeni hərbi strateji planların hazırlanmasına başlayır. Eyni zamanda Yeni İngiltərənin ard-arda məğlubiyyətinin əsas baiskarı olan Loudanı 1757-ci ilin dekabrına qədər geri çağırtdırır. İngiltərə hökümətinin əksinə digər cəbhələrdə çətinliyə düşən Fransa kralı XV Lui artıq Şimali Amerikaya yetərincə diqqət göstərməməyə başladı. Bununla da qüvvələr nisbəti tərsinə meyl edirdi. Pittin hazırladığı 1758-ci il planına əsasən ingilislər Şimali Amerikadakı fransızlara Tikonderoqa, Luisburq və Düken qalaları boyunca hücum təşkil etməli idilər. İngilislərin hazırlıqlarından xəbər tutan Montkalm qüvvələrin əksəriyyətini Tikonderoqaya cəmləşdirməsinə baxmayaraq, nə Böyük Göllər ətrafındakı nə də Ohayo vadisində yerləşən qalaların hərbi təchizatına yetərincə önəm vermir. İngilislərin say üstünlüyünü nəzərə alan Montakalm əsas vəzifə kimi, öz üzərinə Yeni Fransanın mərkəzi sayılan Kvebekin qorunmasını götürür. [5, s.76-77]

1758-ci ilin əvvəllərində Aberkrombinin başçlığı altında ingilislər Ticonderoqaya hücum edirlər. Sayca ingilislər fransızlardan qat-qat çox olsalar da, Aberkrombinin bacarıqsızlığı ucbatından həmçinin xeyli insan itkisi ilə geri çəkilməyə məcbur olurlar. Növbəti uğursuz əməliyyatdan sonra ingilislər Frontenak qalasına üz tuturlar, gecə boyunca top atəşinə məruz qalan fransızlar səhər qalanı təslim etməyə məcbur olurlar. Əsas silah anbarlarının itirilməsi ilə Ohayo vadisinə və Göllər vasitəsilə qərbə gedən xəttləri kəsildiyindən fransızlar Düken qalası da daxil olmaqla qərbə və cənuba gedən mövqelərini nə gücləndirə bilirdilər, nə də təmin edə bilirdilər. Sonrakı hədəfləri Ohayodakı əsas qalalardan biri Düken müharibənin əvvəllərində daha yaxşı vəziyyətdə olmasına baxmayaraq, 1758-ci ilin payız aylarında artıq zəif və təcrid olunmuş vəziyyətdə qalır. Qalanın çətin vəziyyətindən istifadə edən ingilis general Forbes Dükeni ələ keçirməklə, [2, s.250-251] Ohayo vadisində ingilislərin mövqelərini gücləndirir. Eyni zamanda Cefri Amherst tərəfindən fransızların Keyp Breton adasındakı əsas postlarından biri sayılan Luisburqda işğal edilmişdi. Amherstin 1759-cu il üçün əsas vəzifələrindən biri Tikonderoqa və Kraun Point qalaların ələ keçirib Şampliyen gölü hövzəsində ingilislərin hökümranlığını təmin etmək idi. Amherstin bu vəzifənin öhdəsindən gəlmək üçün böyük cəhd göstərməsinə gərək yox idi, belə ki müdafiəsi zəif təşkil olunmuş qalaların müqavimət göstərə biləcək gücləri yox idi. Bu qalaların ələ keçirilməsi özlüyündə, ingilislər üçün əhəmiyyətli olsa da, Vulfun Kvebekə hücumu ərəfəsində ona köməyə gələ bilmirlər. İngilislər tərəfindən hərbi starteji qalaların ələ keçirilməsindən dərhal sonra, əsas hədəfləri isə Kanadanın mərkəzi sayılan Kvebek olur.

Luisburqun ələ keçirilməsində fəal şəkildə iştirak etmiş gənc Ceyms Vulf, İngiltərə hököməti tərəfindən Kvebekin işğal edilməsi missiyasına rəhbər seçilir. Bununla belə, Pitt Kvebekin işğalının bir neçə ay içərisində reallaşdırması üçün Vulfun qarşısına ciddi öhdləliklər qoyur. Lakin, Kvebekin işğalı göründüyü qədər də asan deyildi, baxmayaraq ki, ingilislər Yeni Fransanın kənar hüdudlarını ələ keçirmişdilər. Belə ki, bu missiyanın yerinə yetirilməsi üçün düzgün zamanın seçilməsi daha vacib idi. Çünki qış ayları olduğundan Müqəddəs Lavrentiya çayı buz bağlamışdı, bu isə gəmilərin keçidini qeyri – mümkün hala gətirəcəkdi. Bununla belə, missiyanın uğuru Fransız gəmilərinin Kvebekin köməyinə gəlməsinə maneə törətmək, həmçinin ingilis donanması üçün etibarlı bir keçid təmin etmək üçün Müqəddəs Lavrentiya çayının hövzəsini idarə etməkdən asılı idi.

Yaz aylarında əməliyyat planı hazırlayan Vulf, ordunu üç böyük biriqadaya bölərək, Kvebekə üç istiqamətdən hücuma keçməyi planlaşdırırdı. Lakin planın mükəmməlliyinə baxmayaraq, ərazinin təbii coğrafi mövqeyindən asılı olan şəhərin müqaviməti davamlı top atəşinə tutulsa belə qırıla bilmirdi. Vulf ən yaxşı yolun qalanın

tədarük xəttlərini kəsmək və döyüşə məcbur etmək taktikasının olduğunu düşünürdü. [1, s.146] Gecə boyu qalanı aramsız artileriya atəşinə tutan Vulf beləcə kvebekliləri heç nədən şübhələnməməyə inandırır və gecənin qaranlığından istifadə edərək ordunu balaca qayıqlarda Kvebekdən aralıda quruya çıxarır. Beləcə qalaya arxadan qəfil hücum planlayan Vulf səhərin ilk üfüqlərində böyük bir qoşunla Abraham yüksəkliyində ortaya çıxır. Vulfun bu taktikası qarşısında çarəsiz qalan Montkalm, Monrealdan köməyə gələcək Levisin qoşunlarını gözləmədən hücum əmri verir. Nəhayət üç aylıq mühasirədən sonra darmadağın olan Kvebek ingilislərin əlinə keçir. Hər iki tərəfin komandiri döyüşdə ağır yaralandığından qısa zaman sonra ölürlər. Kvebek ingilislərin əlinə keçsə də 1759-1760-cı illər ərzində təhlükəsizliyini tam təmin edə bilməmişdilər. Fransız qüvvələrinin yeni təyin edilmiş komandiri Levis Kvebekdəki ingilislərə hücum etmək üçün fürsət axtarırdı, lakin fransızların özləri də bildirdilər ki, Kvebekə hücum etmək olduqca çətindir. 1760-cı ildə Levis Kvebekə hücum etsədə, zəif təşkil edilmiş hərbi birliklərlə ingilislərin müqavimətini qıra bilməyib Monreala dönür. Bununla bərabər, ingilis komandir Amherst 10 min nəfərlik ordu toplayaraq Monreala qərb tərəfdən hücuma keçdi. [6, s.191] Kvebek, Niaqara həmçinin Tikonderoqa qalalarının işğalı əslində Monrealın taleyini həll etmişdi, belə ki hər iki tərəfdən müdafiəsiz qaldığından və xarici hücumlara qarşı yetərincə qüvvənin olmaması fransızların əl-qolunu bağlayırdı. Müdafiənin mənasız olduğunu bilən fransızlar, döyüşsüz Monrealı ingilislərə təhvil verirlər. Son məntəqə olan Monrealın da faktiki işğalı ilə bütövlükdə fransızlar Şimali Amerikadakı bütün mülklərini itirmiş olurlar.

Müharibənin sonlanması ilə bağlı 1763-cü ildə İngiltərə və Fransa arasında Paris müqaviləsi bağlanır. Baxmayaraq ki, müharibə eyni zamanda üç qitədə aparılmışdı, amma müqavilənin əsas hissəsini Şimali Amerikadakı müstəmləkə problemləri təşkil edirdi. Buna əsasən, Fransa Şimali Amerikada əvvəllər iddia etdiyi Akadiya, həmçinin bütünlüklə Kanada olmaqla Keyp Breton və Müqəddəs Lavrentiya hövzəsindəki adalardan imtina edir. Yeganə istisna Missisipi çayının sahilində yeləşən Yeni Orlean qəsəbəsi olur. Razılaşmaya əsasən LuizIananın şərqi də İngiltərə hakimiyyətinə keçir. Kanadaya lazımsız mülk kimi yanaşan Fransa hököməti şəkər çuğunduru ilə zəngin Vest İnddəki Qvadalupeni, həmçinin Afrikadakı ticarət postlarını daha üstün tutur. Bununla belə, Paris müqaviləsi Fransanın beynəlxalq aləmdə İngiltərə tərəfindən müəyyən müddətlik təcrid edilməsi ilə nəticələnir. Paris sülhü, Şimali Amerikda ingilislər və fransızlar arasındakı sərhəd münaqişələrin əbədi olaraq aradan qaldırdı. Həmçinin, uzun çəkən danışıqlardan sonra Fransa hököməti Şimali Amerika ilə bağlı İngiltərədən bəzi güzəştlər əldə etməyi bacarır. Beləki, Nyu – Faundləndin cənub sahillərindən bir neçə mil uzaqlıqda yerləşən Sent Pier və Mikelon adaları Fransaya qalır. [1, s.150-151] Bütün XVIII əsrin dəniz donanmaları kimi, Fransız donanması da müharibə dövründə sürətli bir şəkildə istismara verilə biləcək ixtisaslı dənizçilərin hazır təchizatından asılı idi. Balıqçılar vacib bir işçi qüvvəsi idilər və onların çoxu Nyu – Faundlənd sahillərinində işləri ilə məşğul olurdular. Qərbi Atlantik sahillərinin yaxınlığında etibarlı bir yer olmasaydı, fransızlar bu iqtisadiyyatda ciddi itki ilə uzləşəcəkdilər. Həmçinin fransızlar üçün növbəti güzəşt isə, Müqəddəs Lavrentiyadan 45 mil, Keyp Breton və Nova Skotya sahillərindən isə 9 mil uzaqlıqda balıqçılıq ilə məşğul ola bilərdilər. İngiltərə ilə imzalanmış müqaviləyə əsasən qərbi Luiziana Fransa hakimiyyətində qalsada, Fransa tərəfindən qənimət vədi ilə müharibəyə daxil olan İspaniya, Floridanın İngiltərəyə verilməsinə görə Fransadan qərbi Luizinanı alır. [7, s.304-305] Nəticə etibarilə, indi İngiltərə Artikadan Missisipi deltasına qədər Şimali Amerikanın bütün şərq sahillərinin yeganə sahibinə çevrilir. Eyni zamanda müqavilənin şərtlərindən irəli gələrək, Kanadada yaşayan mülki fransızlara Fransaya geri qayıtmaq icazəsi verilmişdi. Bu icazədən sonra zadəganlar, gəmiçilər və yuxarı sinifə mənsub insanlar qayıtsalar da əsasən kəndlilər Kanadada qalmağı üstün tutmuşdular. 1763-cü ildə fransızkanadalıların sayı təxminən 60 minə yaxın idi. İngilislər Kanadada Akadiya təcrübəsini sınaqdan keçirə bilmədiklər üçün, zamanla özlərinə sosial dayaq yaratmaq məqsədilə ingilis kolonistləri yerləşdirməklə bir növ assimiliyasiya prossesini həyata keçirilər.

Paris müqaviləsinin şərtlərindən ən çox Yeni İngiltərə koloniyaları məmnun idi, belə ki Şimali Amerikada bir əsrdən artıq davam edən

müharibənin rəsmi və ya qeyri-rəsmi tərəflərindən biri olduqlarından, koloniyaların sosial-iqtisadi inkişafları yetərincə zəifləmişdi. 1697-ci ildən etibarən Fransanın Şimali Amrikadan qovulduğu ilə qədər rəqiblər arasındakı siyasi tarazlığı davamlı şəkildə qoruya biləcək heç bir sülhdən söz gedə bilməzdi.

**Nəticə**

Bəzən "Yeddiillik" müharibəni Şimali Amerika inqilabının başlanğıcı kimi qələmə verirlər. Belə ki, Avropanın iki supergücü arasında baş verən bu müharibə, sonda Fransanın Şimali Amerikadan çıxdaş olması ilə nəticələnir. Təxminən 150 il davam edən rəqabət, zaman – zaman metropolitenlərin koloniyalara olan həqiqi münasibətini də ortaya qoyurdu. Fransa ictimaiyəti hər zaman Kanada ilə bağlı iki yerə parçalanmışdır, belə ki ölkənin ali bürokratik zümrəsi buranı Fransaya əlavə yük kimi görmüşlər. Bunun əyani sübutunu isə, Kanadanı "iki akr buz parçası" kimi qələmə verən XVIII əsrin məhşur fransız mütəfəkkiri Volterin sözlərində görə bilərik. İngiltərəyə gəldikdə isə, Kanadanın işğalı ilə böyük ticarət imperiyası yaratmağı bacarsa da, onun bu xoşbəxtliyi çox çəkmir. Belə ki, Kanada timsalında Şimali Amerikanın əsaslı hissəsinin sahibi olsa da, müharibələrdə koloniyalarına göstərdiyi münasibət "Amerika kimliyinin" formalaşmasına, əlavə olaraq isə gələcək on illikdə Yeni İngiltərə koloniyalarının müstəqillik uğrundakı mübarizələrinə təkan vermiş olur.

**Açar sözlər:** *Kanada, Fransa, İngiltərə, "Yeddi illik müharibə", Şimali Amerika, Kvebek*

**ƏDƏBİYYAT SİYAHISI**

1. *Conrad Black – Rise to Greatness (History of Canada from the Vikings to the Present), 2014, 1257 pp*

2. *Fred Anderson – Crucible of War of Seven Year, New York, "Vintage", 2001, 912 pp*

3. *George McKinnon Wrong - The Conquest of New France, A Chronicle of the Colonial Wars, Toronto, "Hard Press", 1919, 246 pp*

4. *Jonathan R. Dull - The French Navy and the Seven Years' War, Lincoln, "University of Nebraska Press Lincoln & London" , 2005, 468 pp*

5. *Roger Riendeau - A Brief History of Canada, Second Edition, New York, "Facts On File", 2007, 465 pp*

6. *Sir Charles Prestwood Lucas - History of the New France 1534-1763, 1900, 388 pp*

7. *William M. Fowler Jr – Empires at War : The French and Indian War and The struggle for North America, 1754-1763, London, "Bloomsbury Publishing", 2006, 368 pp*

**SUMMARY**

**The results of "The seven years war" for Canada**

The article examines England – France relations in "The seven years war" and the role of the Canada in these relations. The Treaty of Paris was signed between England and France in 1763. According to the articles of the treaty, France refused colonial lands in North America.

**Key words:** *Canada, France, England, "Seven Years War", North America, Quebec*

**РЕЗЮМЕ**

**Итоги " семилетней войны" для Канады**

В статье рассматриваются англо – французские отношения в "семилетней войне" и роль Канады в этих отношениях. Парижский договор был подписан между Англией и Францией в 1763 году. Согласно статьям договора, Франция отказалась от колониальных земель в Северной Америке.

**Ключевые слова:** *Канада, Франция, Англия, "Семилетняя война", Северная Америка, Квебек*

UOT 94 (479.24)

# QUBALI FƏTƏLİ XANIN AZƏRBAYCAN TORPAQLARINI BİRLƏŞDİRMƏ SİYASƏTİ

**SONA BABAZADƏ**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əyani magistrantı*

*E-mail: sonababazade42@gmail.com*

Yarımmüstəqil inzibati vahid kimi XVIII əsrin sonlarından mövcud olan Quba xanlığının ilk xanı Hüseyn xan 1689-cu ildə vəfat etmişdir. Quba xanlığı Rusiyanın tərkibinə keçdikdən sonra isə Quba xanı Hüseynəli xan olmuşdur [9, s.38-39].

1747-ci ildə Nadir şahın sui-qəsd nəticəsində vəfatından sonra müstəqillik əldə edən Quba xanlığı iqtisadi və hərbi cəhətdən öz gücünü artırdıqdan sonra ərazilərini genişləndirməyə başlayır. Hüseynəli xanın oğlu Fətəli bəy tərəfindən 1757-ci ildə Salyana təşkil olunan yürüş nəticəsində Salyan Quba xanlığına birləşdirilir.

Hüseynəli xanın vəfatından sonra Qubanın yeni xanı 22 yaşlı Fətəli oldu. Fətəli xan qısa müddətdə özünü bacarıqlı və mahir dövlət adamı kimi sübut edir. Onun apardığı siyasət nəticəsində Quba xanlığının ərazisi genişləndi.

Fətəli xan birləşdirmə siyasətinə Dərbənddən başladı. Dərbənd hakimi Məhəmməd Hüseyn xanın əhali üzərinə qoyduğu ağır vergi yükü ona qarşı narazılıqları artırmışdı. Fətəli xan yaranmış vəziyyətdən istifadə edərək Məhəmməd Hüseyn xanın siyasətindən narazı olan bəylərə bəxşişlər verməklə, onlara diqqət göstərməklə öz ətrafına topladı. Hətta bəzi bəylər Qubaya köçmüşdülər. Həmin bəylərin köməkliyi ilə Dərbənddə özünə sadiq tərəfdarlar toplayan Fətəli xan 1760-cı ildə Dərbəndə hücum edir. Müqavimətlə qarşılaşmayan Fətəli xan ona sadiq şəhər əhalisinin köməkliyi ilə Dərbəndi aldı. Hakimiyyətdən salınmış Məhəmməd xan isə ailəsi ilə bərabər Bakıya gedərək, ömrünün axırına kimi orada yaşayır.

Salyan və Dərbəndin Quba xanlığına birləşdirilməsindən sonra Quba xanlığı daha da gücləndi. Şəki xanı Hüseyn ağa Qazıqumuqlu Məhəmməd tərəfindən 1759-cu ildə hakimiyyətdən salındıqdan sonra yardım istəmək üçün Fətəli xana müraciət edir. A.Bakıxanov yazır ki, Hüseyn ağa Fətəli xanın yardımları və əyanların onun tərəfində olması nəticəsində Şəkidə hakimiyyətini bərpa edə bilir. [4,s.187]

Bakı xanlığının ərazisini Quba xanlığına birləşdirmək istəyən Fətəli xan ilk əvvəl xanlığın iqtisadiyyatına zərbə vurmağı planlayır. Fətəli xan Bakının liman şəhəri kimi mövqeyini zəiflətmək məqsədilə Rusiya ilə ticarəti Dərbənd, Salyan və Niyazabad kimi özünün nəzarətində olan limanlara istiqamətləndirərək Bakını iqtisadi cəhətdən sıxışdırır. Fətəli xan həmçinin diplomatik addımlar ataraq Bakı xanlığını qorumağı öhdəsinə alır. Fətəli xan "nigah diplomatiyası"nın vasitəsilə Bakını dinc yolla özünə tabe edir.

Fətəli xan 1767-ci ildə bacısı Xədicə Bikəni Bakı xanı Məlik Məhəmmədə ərə verir. 1767-ci ildən etibarən Bakı və Abşeron Quba xanlığının tabeçiliyinə keçir. Öz ağlı, dünyagörüşü ilə seçilən xanımlardan olan Xədicə Bikə qardaşı Fətəli xanın tövsiyələri ilə Quba xanlığının xeyrinə Bakı xanlığının idarəetməsində fəal iştirak etmişdir. Məlik Məhəmməd xan Bakıda olmadığı vaxtlarda xanlıq Xədicə Bikə tərəfindən idarə olunurdu. Məlik Məhəmmədin 2 il Qarabağ xanı tərəfindən girov saxlandığı, həmçinin onun Məkkə ziyarəti zamanı Xədicə Bikə xanlığı təkbaşına idarə etmişdir [12,s.103].

Bakının da Quba xanlığına tabe etdirilməsindən sonra Fətəli xana "Quba, Dərbənd, Bakı və Salyan rəisi" deyə müraciət olunurdu [3, s.102-103].

Şimal-şərqi Azərbaycan torpaqlarının Fətəli xan tərəfindən birləşdirilməsinin ilk mərhələsi Bakı xanlığının tabe edilməsi ilə bitir. Fətəli xanın Şamaxı və Cavad xanlıqlarını özünə tabe etmək uğrunda mübarizəsi isə ikinci mərhələni təşkil edir.

Şamaxı xanlığı ticarətin və sənətkarlığın inkişaf etdiyi, hərbi cəhətdən güclü bir xanlıq idi. Şamaxı xanlığını digər xanlıqlardan fərqləndirən cəhət isə burada ikihakimiyyətliyin mövcud olması idi [5,s.23].

Şimal-şərqi Azərbaycan torpaqlarını birləşdirmək qayəsində olan Fətəli xan üçün Şamaxı xanlığını tabe etmək həm iqtisadi, həm də hərbi-strateji cəhətdən sərfəli idi.

Dərbənd və Bakının Fətəli xan tərəfindən tabe edilməsindən sonra Quba xanlığının gücü artır. Mənbələrin verdiyi məlumata əsasən Fətəli xan

Şamaxı xanlığından onları dağıstanlılardan müdafiə etmək qarşılığında illik 10 min manat istəyir. Şamaxı xanı 4 il ərzində bu məbləği ödəməyə razı olduğundan 2 xanlıq arasında bu illərdə gərginlik yaşanmır. [6, s.253; 12, s.103]

Lakin 4 ildən sonra Şamaxı xanı xərac ödəməyi dayandırır və bundan sonra 2 xanlıq arasında 1765-1769-cu illəri əhatə edən qanlı mübarizə başlayır. Şəki xanı Hüseyn xanın bu mübarizədə Şamaxı hakimlərinin yanında olması Fətəli xanın işini daha da çətinləşdirir.

Şamaxı xanı Məhəmməd Səid xan Fətəli xanla qarşı-qarşıya gəlməkdən çəkinirdi. Fətəli xan Qaraqaytaqdan və Qazıqumuqdan muzdlu qüvvələr gətirməklə öz hərbi gücünü daha da artırmışdı. Fətəli xan tərəfindən Müci qalası tutulduqdan sonra Şamaxı hakimləri Fətəli xana tabe olub, xərac verməyə razı oldular.

Bir müddətdən sonra Şamaxı hakimlərinin saziş üzrə öhdəlikləri yerinə yetirməməsi barışığın pozulmasına gətirib çıxarır. Şəki xanı Hüseyn xanın Şamaxı xanı ilə müttəfiqlik etməsi Fətəli xanın işini çətinləşdirdiyindən Fətəli xan qərara gəlir ki, Hüseyn xanla Şamaxı xanının arasını pozsun. Fətəli xan istəyinə nail olur və Hüseyn xanı öz tərəfinə çəkir. Fətəli xan müttəfiqi Hüseyn xan ilə birlikdə 1768-ci ilin mayında Şamaxıya hücum edir. Şamaxı xanlığı müttəfiqlərin sürətli hücumu nəticəsində müdafiəni təşkil edə bilmədiyindən xanlıq ərazisi müttəfiqlər tərəfindən alınır. Şamaxı şəhəri də aclıq səbəbindən mühasirəyə davam gətirə bilməyib 1768-ci ilin iyun ayında təslim olmaq məcburiyyətində qalır.

Bakıxanov Məhəmməd Səid xanın əlacsız qalıb Fətəli xanın yanına getdiyini və onun tərəfindən Dərbəndə həbsə göndərildiyini, Ağası xanın isə Hüseyn xanın yanına getdiyini və Hüseyn xan tərəfindən kor edildiyini qeyd edir [4, s.189].

İskəndər bəy Hacınski qələbədən sonra Şamaxı xanlığının ərazisinin müttəfiqlər arasında bölünməsi ilə bağlı yazır: "Fətəli xan köhnə Şamaxını Ağsuya köçürərək, Şirvanı Hüseyn xanla özü arasında böldü; belə ki, Şəki ilə həmsərhəd olan Sədərə və Qəsai mahallarını Hüseyn xana verdi, qalan hissəyə isə özü sahib olub, Qubaya qayıtdı" [10, s.8].

Ağası xanın oğlanları ilə bərabər Bakıya aparılması ilə bağlı göstəriş verən Fətəli xan Şamaxıya gələrək xanlığın idarəsini öz əlində saxlamaqla Məhəmməd Rza bəyi (yeznəsi olan Məhəmməd Səid xanın oğlu) formal olaraq xan elan etdi [10, s.14].

Şamaxı xanlığının ərazisi Hüseyn xan və Fətəli xan tərəfindən bölüşdürüldükdən sonra onlar bu ərazilərin idarəsi üçün naiblər təyin edirlər. Fətəli xan qardaşı Abdulla bəyi Köhnə Şamaxıya naib təyin edir [4, s.189].

1768-ci il sentyabr ayının 10-da Rus konsulluğunun əməkdaşı İvan Matveyev və Yeqor Zamyatin (Həştərxan taciri Stefan Şaripinin prikazçiki) tərəfindən M.Sulyakova göndərilən yazılarda avqustun 17-də 15 minlik qüvvə ilə Yeni Şamaxıya gələn şəhərdən 2 verstlik məsafədə düşərgə salan Fətəli xanın 2 minlik qüvvə ilə Yeni Şamaxıya daxil olaraq şəhəri idarə edən Manaf bəy başda olmaqla bəzi əyanları həbs etdirməsi ilə bağlı məlumat vardır. Əyanların həbs olunmasına səbəb onların Fətəli xana müxalif olması və Hüseyn xana bu səpkidə məktub göndərmələri ilə bağlı idi. Hüseyn xan uyğun vaxtda qala qapılarının bağlanaraq Fətəli xanın tərəfdarı olan ağsaqqalların məhv edilməsini və özü gəlməyincə qala qapılarının heç kimə açılmamasını Manaf bəyə tövsiyə edir. Fətəli xan rəqiblərini qabaqlayaraq 3 kəndxudanı və Manaf bəyi həbs etdirib Dərbəndə göndərir, qardaşı ilə birlikdə Məhəmməd Səid xanı yanında tutur. Y.Zamyatin və İ.Matveyev Şamaxıda olduqları müddətdə eşitdiklərinə əsasən Kərim xan Zənd tərəfindən Təbriz və Ərdəbil xanlarının və bəzi kəndxudaların əhaliyə əziyyət verdiklərindən həbs edilib Şiraza aparıldığını, kəndxudaların digər qisminin isə Ərdəbil və Təbrizi hakimiyyəti altına alması üçün Fətəli xandan nümayəndələri vasitəsilə xahiş etdiyini yazmışdı. Fətəli xan isə Şəki xanı ilə arasındakı məsələləri həll etdikdən sonra Ərdəbilə və Təbrizə hərəkət edəcəyi ilə bağlı vəd verir. İ.Matveyev və Y.Zamyatin Fətəli xanın niyyətinin qardaşı Abdulla bəyi Köhnə Şamaxıya naib təyin etmək, Məhəmməd Səid xana isə Yeni Şamaxının idarəsini tapşırmaq olduğunu yazır. Məhəmməd Səid xan bu təkliflə razılaşmayaraq ailəsi ilə bərabər Dərbənd və Qubada yerləşdirilməsini və iki kəndin ona verilməsi ilə bağlı istəyini Fətəli xana bildirir [12, s.110].

Şamaxını idarə etmək üçün Fətəli xanın qardaşı Abdulla bəy naib təyin edilsə də onun etdiyi özbaşınalıqlar nəticəsində Şamaxıda 1769-cu ildə qiyam baş verdi. Qiyamçıların məqsədi şəkililərin köməyi ilə Şamaxıda Fətəli xanın hakimiyyətinə son qoymaq Sərkərlər sülaləsini hakimiyyətə geri qay-

tarmaq və Yeni Şamaxının idarəsini Şəki xanlığına vermək idi. Qiyama rəhbərliyi Məhəmməd Səid xan edirdi. Fətəli xan Yeni Şamaxıya gələrək Hüseyn xan üzərinə hücum etməyi qərarlaşdırır. Döyüşdən əvvəl gizli müşavirə adı altında Məhəmməd Səid xanı çağırıb həbs etdirir. Şəki xanı üzərinə olan hücum da uğurla sonlanır, Hüseyn xan təslim olaraq Şamaxı xanlığı ilə bağlı iddialarından imtina edir. Bundan sonra qiyamçılara qarşı cəza tədbirləri aparılır, Yeni Şamaxı dağıdılaraq əhalisi Köhnə Şamaxıya yerləşdirilir.

Şamaxıda olan mövcud durum Fətəli xanı çox narahat edirdi. Burada gələcəkdə baş verə biləcək çıxışların qarşısını almaq məqsədi ilə Məhəmməd Səid xan Fətəli xan tərəfindən Dərbəndə sürgün edilir. Onun qardaşı Ağası xan isə Qarabağa qaçır [3, s.228].

Fətəli xanın birləşdirmə siyasətinə qarşı olan Avar xanları ilə münasibətlərin kəskinləşməsi və Şamaxının idarəçiliyindən uzaqlaşdırılan Abdulla xanın Dağıstana qaçaraq doğma qardaşı Fətəli xandan sahiblik etdiyi torpaqların yarısını istəməsi Quba xanlığında vəziyyəti çətinləşdirmişdi. Abdulla bəyin 1772-ci ildə vəfatı ilə onun qardaşı Fətəli xana qarşı mübarizəsi sonlansa da, digər narazı qüvvələrə qarşı mübarizə davam etmişdir.

Fətəli xan 1775-ci ildə keçmiş Şamaxı xanı Məhəmməd Səid xanı Şamaxıya hakim qoyur. “Xan” titulu ilə on il yenidən Şamaxını idarə edən Məhəmməd Səid xandan sonra onun oğlu Məhəmməd Rza bəy bu vəzifəyə təyin edilir. Lakin Fətəli xan 1786-cı ildə burada Sərkərlər sülaləsinin hakimiyyətini sonlandıraraq bura canişin təyin edir və canişin vasitəsilə birbaşa özü Şamaxını idarə edir [3, s.269-270; 6, s.253].

Kürlə Arazın qovşağında yerləşən, o qədər də geniş əraziyə malik olmayan Cavad xanlığı da 1768-ci ildə-Şamaxı xanlığının Quba xanlığına birləşdirilməsi ilə eyni vaxtda şimal-şərqi Azərbaycan torpaqlarına birləşdirildi. Bu birləşmə Cavad hakimi olan Həsən xanın Fətəli xana könüllü şəkildə asılılığı qəbul etməsi nəticəsində dinc yolla baş tutur və burada xan hakimiyyətinə toxunulmur [10, s.73; 13, s.270].

Qubalı Fətəli xan Azərbaycan torpaqlarını Quba xanlığı ətrafında birləşdirmək işini tədricən görürdü. Artıq XVIII əsrin 70-ci illərinə yaxın Fətəli xan Şimali Azərbaycan torpaqlarının yarısını özünə tabe edə bilmişdi. Bu dövrü Quba xanlığının ən qüdrətli dövrü hesab etmək olar.

Qonşu torpaqları birləşdirməklə kifayənlənməyən Fətəli xan Cənubi Azərbaycan torpaqlarını hətta İranın da bəzi yerlərini Quba xanlığına tabe etmək niyyətində idi. Fətəli xan şimali Azərbaycan torpaqlarını tabe etdikdən sonra dövlətin paytaxtını Şamaxıya köçürmək qərarına gəlir. Fətəli xan ailəsi ilə birgə Köhnə Şamaxıya köçmək fikrində idi. O, Quba, Salyan və Dərbənddən güvəndiyi sakinləri buraya köçürməklə özünün və ailəsinin təhlükəsizliyi üçün güvənli şərait yaratmaq niyyətində idi. [3, s.320-321].

Cənuba hücum etməzdən əvvəl Quba və Dərbəndin təhlükəsizliyini gücləndirmək qərarına gələn Fətəli xan Tarki və Buynakla bərabər Cənubi Dağıstanda daha bir dayağa sahib olmaq üçün şamxalla ittifaq bağlayaraq Qazıqumuq xanını devirib Eldar bəyi onun yerinə keçirmək qərarını aldı. Qazıqumuqlu Məhəmməd xanın qardaşı oğlu olan Eldar bəy Şamaxı xanlığının Qubaya aid olan hissəsinin idarəçiliyi ilə məşğul olurdu. Fətəli xan planı gerçəkləşdiyi halda Təbrizə hücum etmək fikrində idi [3, s.516]. Həmçinin Fətəli xan və müttəfiqləri olan Tarki və Buynak hakimləri Əmir Həmzəni qovmaq və qardaşı Ustar xana idarəçiliyi vermək niyyətilə Qaraqaytaqa hücum etmək barədə də razılaşmışdılar.

Quba xanının artan nüfuzu, öz ərazilərini genişləndirməsi ona qarşı olan qüvvələrin təşvişinə səbəb olmuşdu. Bu siyasətdən daha çox narazı qalanlar isə Qarabağ və Şəki xanları həmçinin Cənubi Dağıstan hakimləri olmuşdur. Fətəli xana qarşı olan qüvvələr iki cəbhə yaratmışdılar. Birinci cəbhəyə Qarabağ, Şəki xanları və Ağası xan daxil idi. Cənubi Dağıstan hakimlərdən Qazıqumuqlu Məhəmməd xan, Qaraqaytaq usmisi Əmir Həmzə, Avar başçılarından Nutsal və Ümmə xan, canqutaylı Əlisultan, tabasaranlı Rüstəm, kostyukovlu Həmzə Əlişov və Tavlin feodalları isə Fətəli xana qarşı ikinci cəbhədə birləşmişdilər. Gürcü hakimi II İrakli birinci cəbhədə yer almışdı. [2, s.528].

Fətəli xan Şəki xanlığına qarşı müttəfiqlik üçün Qarabağ xanı İbrahimə və gürcü hakimi II İrakliyə müraciət edərək düşmənlərini ayrı salmaqla onlar üzərində qələbə qazanmaq niyyətində idi. Lakin hadisələrin gedişi buna imkan vermir. Gürcü çarının işə qarışması, Fətəli xana qarşı Cənubi Dağıstan feodallarının pis münasibəti Fətəli xanı çətin vəziyyətdə qoymuşdu. Sərkərlər sülaləsininin hakimiyyətini bərpa etmək istəyənlərin Şamaxıdakı

fəaliyyətləri də vaxt və qüvvə baxımından Fətəli xanı məşğul edirdi.

70-ci illərin əvvəllərində qarışıq durumla üz-üzə qalan Fətəli xanın gənc yaşlı qardaşını itirməsi ona daha da mənfi təsir göstərir. Qardaşının vəfatından sonra Şamaxı və Qubanın idarəsini naiblərinə həvalə edərək Dərbəndə yollanan Fətəli xan özünü hər şeydən təcrid edərək bir müddət burada yaşamışdı [12, s.122].

Şəki ilə Qarabağ xanlıqlarının və Avar hakimliyinin birləşmiş qüvvələri 1773-cü il noyabrın axırı-dekabrın əvvəllərində Şamaxıya hücum etdilər. Qüvvəsi az olan Fətəli xan Şamaxını tərk etməyə məcbur olur.

Məğlubiyyəti qəbul etməyən Fətəli xan Tabasaran, Aquşa, Quba və Dərbənddən xeyli qüvvə toplayaraq Şamaxı yaxınlığında düşmənləri üzərində qələbə qazanır. Döyüş zamanı avarlar xeyli sayda qurban verib məğlub olurlar. Ağası xan isə özünün Kür sahilindəki həmişəki məskəninə qaçır [10, s.8].

A.A.Bakıxanov bu hadisələr haqqında yazır ki, Ağası xan avarlı Nutsal xanla müttəfiqlik edərək Şamaxını alır. Məğlub olan Ağası xan qaçır. Nutsal xan isə "qədim şəhərin yuxarı hissəsində" bir sığınacaqda gizlənir. Fətəli xan aman vəd edib onu yanına gətirdir. Quba xanlığının qoşununda xidmət edən akuşalılar keçmişdə düşmənçilikləri olduğu Nutsal xanın öldürülməsini Fətəli xandan istəyirlər. Çarəsiz qalan Fətəli xan Nutsal xanı öldürür [4, s.190].

Nutsal xanın öldürülməsi ilə bağlı yaranan vəziyyətdən istifadə edən Əmir Həmzə 1774-cü ildə Fətəli xana qarşı çıxıb avarlı Ümmə xan, kürəkəni qazıqumuqlu Məhəmməd xan, tabasaranlı Rüstəm, canqutaylı Əlisultan və Dişsiz Məhəmmədi özünə müttəfiq edərək Qubaya hücum etdi [3, s.524]. Müttəfiqlərin sürətlə Qubaya doğru irəliləməsi Fətəli xana qüvvə toplamağa imkan vermir. Müttəfiqlər bu hücumda istəklərinin guya öldürülən Nutsal xanın və oğullarının qisasını almaq olduğunu bildirərək əsl niyyətlərini bu cür pərdələmişdilər .

1774-cü ilin iyulunda Xudat yaxınlığında Gavduşan çölündə tərəflər qarşılaşdılar. Döyüş ilk əvvəl Fətəli xanın üstünlüyü ilə keçsə də, usminin oğlu Əli bəyin cəsarətlə hərəkət edərək Quba qoşunun mərkəzinə vurduğu zərbə döyüşün gedişini onların xeyrinə dəyişdi. Döyüş zamanı qazıqumuqlu Eldar bəy, şeyx Əli bəy və Dişsiz Məhəmməd öldürüldü. Fətəli xan döyüşdə məğlub olduğundan və çoxlu qüvvə itirdiyindən Salyana çəkildi [4, s.190-191; 10, s.9].

Əmir Həmzə vuruşmada özünün yaxın müttəfiqi olan Dişsiz Şamxalı itirdikdən sonra Dərbəndə hücum edir. O Fətəli xanın ölümü ilə bağlı yalan şayiə yayır və bu xəbəri Fətəli xanın arvadı eyni zamanda özünün bacısı olan Tutu Bikəyə çatdıraraq Dişsiz Məhəmmədin nəşini Fətəli xanın nəşi kimi bacısına təqdim edir. Bundan sonra isə qalanın ona verilməsini istəyir. Tutu Bikə bu yalanlara inanmır və qalanın qorunmasına birbaşa özü nəzarət edərək düşmənə qarşı mübarizə aparır. Doqquz aylıq bir müddət ərzində Əmir Həmzə qalanı mühasirədə saxlasa da Tutu Bikə inadla müqavimət göstərərək şəhəri müdafiə edir. Şəhər naibi Hacı bəy və Məlik Hacı bəy Dərbəndin müdafiəsində fəal iştirak etmişdilər [7, s.19;1, s.387]. Fətəli xan mühasirənin uzanmasından yararlanaraq Şabran və Müşkürdən keçməklə Dərbəndə geri qayıdır.

Gavduşan döyüşündə məğlub olub Salyana çəkilən Fətəli xan Salyanda olarkən Rusiya ilə diplomatik münasibətləri gücləndirmək məqsədilə və himayə xahişi ilə 1775-ci ilin yazında dərbəndli Mirzəbəy Bayatın rəhbərliyi ilə II Yekaterinanın sarayına elçilər göndərir. Ş.F. Fərzəlibəyli Fətəli xanın Rusiyaya meyl etməsi ilə bağlı yazır "Fətəli xan Rusiyanın qəsbkar siyasətini dərindən öyrəndiyi və bu imperiyanın niyyətlərinə yaxşı bələd olduğu üçün Rusiyaya təmayül edən şəxs idi ki, bu xüsusiyyət də o zaman üçün Azərbaycan birliyi naminə mütərəqqi keyfiyyət idi" [8, s.103]. İyulun 6-da Moskvaya çatan elçilər yaxşı qarşılanır. II Yekaterinanın Qaraqaytaq usmisi Əmir Həmzəyə qarşı general de-Medemin hərəkət etməsi ilə bağlı fərman verdi. Bu fərmanın verilməsinin başqa bir səbəbi də Rusiya EA-nın üzvü Rusiya hökumətinin göstərişi ilə Xəzər sahili bölgələr barəsində gizli araşdırma aparan S.Qmelinin 1772-1774-cü illəri əhatə edən ikinci səyahəti zamanı Əmir Həmzə tərəfindən həbs edilməsi və 1774-cü ildə burada ölməsi olmuşdu. S.Qmelinin həbs olunması isə onun casusluqla məşğul olması və bu fəaliyyətinin Azərbaycan, Dağıstan və Gilan hakimlərinə məlum olması ilə bağlı idi. De-medem 1775-ci ilin martında Fətəli xanın müttəfiqi olan Tarki şamxalı Murtuzəli xanla birlikdə Əmir Həmzəyə qarşı hücuma keçdi. Bu hücum nəticəsində Əmir Həmzə de-Medəmlə mübarizə aparmalı olduğundan Dərbəndin mühasirəsini dayandırmalı oldu. Lakin o de-Medemlə mübarizəsində məğlub oldu. De-

Medem Fətəli xanın ondan Dərbəndi tutması və onu himayəçiliyə götürməsi ilə bağlı təklifini dəyərləndirərək Dərbəndə girdi [2, s.529-530].

Rus hərbi hissəsinin Dərbəndə daxil olması Osmanlı imperiyasında Rusiyanın yeni sülhü pozduğu ilə bağlı narahatlıqlar doğurmuşdu. Rusiya hökuməti Osmanlı ilə münasibətləri yenidən gərginləşdirmək istəmədiyindən II Yekaterina de-Medemə Dərbənddən çıxmağı əmr etdi.

Fətəli xanın apardığı mübarizə nəticəsində 1774-cü ilə qədər olan vəziyyət bərpa edildi. Fətəli xan Dərbənd zindanından azad etdiyi Məhəmməd Səid xana 1775-ci ildə Ağsunun-Yeni Şamaxının idarəsini həvalə etdi. Bu zaman Əlvənddə olan Ağası xan isə zahiri itaət göstərib ətraf ərazilərin idarəçiliyi ilə məşğul oldu [4, s.191-192].

Fətəli xanın qüvvətlənməsi və onun apardığı birləşdirmə siyasəti Mərkəzi İranda hakimiyyətə gəlmiş Kərim xan Zəndi narahat edirdi. Kərim xan həm birləşdirmə siyasətinin qarşısını almağa, həm də Rusiyanın Şimali Qafqazda möhkəmlənməsindən narahat olaraq Quba xanlığını Rusiyadan ayırmağa çalışırdı. Məqsədlərinə dinc yolla çatmaq istəyən Kərim xan rəştli Hidayət xanı hədiyyələrlə Fətəli xanın yanına göndərərək Dərbənd xanının bacısı Fatmanı öz oğluna istəyir və bu təkliflə razılaşağı təqdirdə ona hər cür yardım edəcəyini bildirir.

Fətəli xan və Kərim xan Zənd arasında 1775-1776-cı illərdə elçilər mübadiləsi olur. Fətəli xan İranla münasibətlərin pozulmasını istəmədiyindən böyük ustalıqla Türkiyə, İran və Rusiya arasında manevr edirdi. Fətəli xan Kərim xanın qohumluq barədə təklifinə cavabı bilərəkdən gecikdirirdi. Fətəli xanın niyyətini bilən Kərim xan ona qarşı fitnəkarlıq etdi. İrandakı rus konsulluğunun məmuru 1776-cı ilin iyununda Hidayət xan tərəfindən çağırılaraq ona guya Dərbənddəki rusları qovmaq üçün Fətəli xanın Kərim xandan qoşun istəməsi ilə bağlı məlumat verilir [2, s.534; 12, s.131].

Diplomatik təxribatla istəklərinə nail olmadıqlardan gilanlı Hidayət xan Quba xanlığına qarşı hərbi yürüşə başladı. Muğana hücum edən zaman Hidayət xanın qoşunları keçmiş Şamaxı xanı Ağasının qüvvələri ilə birləşib Cavad xanlığına tərəf yönəldi. Cənubi Dağıstan feodalları ilə də əlaqə yaradıldı. Fətəli xan müqavimət göstərməyə hazırlaşdığı zaman Cənubi Dağıstan hakimləri ona əngəl oldular [2, s.534].

Lənkəran xanı Qara xanla ittifaq yaradan Fətəli xan sonradan bu xanlığı özündən asılı vəziyyətə salmışdır. Buna görə də Fətəli xanın Qarabağ və Gilana olan hücumlarında Qara xan da iştirak etmişdir.

Fətəli xanın birləşdirmə siyasəti Qarabağ xanı İbrahim xanı da narahat edirdi çünki İbrahimxəlil xan Azərbaycan torpaqlarını Qarabağ xanlığı ətrafında birləşdirmək istəyirdi. Fətəli xan isə bu xanlığı da özünə tabe etməyə çalışırdı. Fətəli xan bu xanlığı tabe etmək üçün diplomatik yollardan istifadə etmək qərarına gəldi.

İbrahimxəlil xanla müqavilə bağlamaqla onu tabe etməyə çalışan Fətəli xan Bakı xanı Məlikməhəmmədin başçılığı ilə 1779-cu ildə Qarabağa elçilər göndərdi. Bu elçiliyin məramını başa düşən İbrahimxəlil xanın Məlikməhəmmədi həbs etməsi iki xanlıq arasında münasibətləri pozur.

Fətəli xan 1780-ci ilin Qarabağ xanlığına hücum etdi. Bu hücum zamanı gürcü çarı II İrakli Qarabağ xanına şahzadə David və Georginin rəhbərliyi ilə qüvvə göndərmişdi. Fətəli xanın qoşununda xidmət edən dağıstanlı muzdlu döyüşçülər şahzadə Davidin təsiri altına düşərək düşərgəni tərk etmişdilər. Beləliklə bu hücum nəticə vermədi. 1781-ci ildə Fətəli xan 2 dəfə Qarabağ üzərinə hücum etsə də, bu yürüşlər də uğursuz olur. Fətəli xanın 1781-ci ilin əvvəlində Qarabağa olan yürüşü zamanı kəndlər talan edilir və xeyli sayda insan və mal-qara Qubaya aparılır [2, s.530; 12, s.142]. Fətəli xanın Qarabağ xanlığına növbəti yürüşü 1783-cü ilin əvvəllərində baş tutur. Fətəli xanın 1787-ci ilin yanvarında da Qarabağa edilən yürüşü uğursuz olur. O, Qarabağa girsə də, irəliləyə bilmir.

Fətəli xan 1784-cü ildə Cənubi Azərbaycan torpaqlarına daxil olaraq Ərdəbil və Meşkini tutsa da Rusiyanın təzyiqi ilə geri çəkilməli olur [11, s.144].

Fətəli xanın Cənubi Azərbaycan torpaqlarına yürüş etməklə bağlı II İrakli ilə arasında razılıq olsa da, Fətəli xanın ölümü ilə bu baş tutmur.

Fətəli xandan sonra hakimiyyətə gəlmiş Əhməd və Şeyxəli xanın dövründə Fətəli xanın hakimiyyəti zamanı birləşdirilmiş ərazilər itirilir yalnız Quba və Dərbənd Quba xanlığının tərkibində qaldı.

**Açar sözlər:** *Quba xanlığı, Fətəli xan, xanlıq, birləşdirmə, nigah diplomatiyası.*

## ƏDƏBİYYAT SİYAHISI


1. *Azərbaycan tarixi, yeddi cilddə III cild Bakı, Elm, 2007.*

2. *Azərbaycan tarixi.S.S.Əliyarlının redaktəsi ilə, Bakı, Çıraq, 2009.*

3. *Абдуллаев Г.Б. Азербайджан в XVIII в. и взаимоотноше-ния его с Россией. Баку, 1965.*

4. *Bakıxanov A. Gülüstani-irəm (M.Əsgərlinin tərcüməsi ilə) Baki, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyati, 1951.*

5. *Bayramova N. Şamaxı xanlığı, Bakı, "Təhsil", 2009.*

6. *Бутков П. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. В 3-х т. ч. I, СПб.,1869.*

7. *Бутков П. Г. Материалы для новой истории Кавказа с 1722 по 1803, т.II, СПб., 1869.*

8. *Fərzəlibəyli Ş.F. Quba tarixi, Bakı, "Əbilov, Zeynalov oğulları", 2001.*

9. *İbişov S.Ə. Quba xanlığı:əhali tarixi və azadlıq mücadiləsi. Bakı, Elm, 2012.*

10. *İskəndər bəy Hacınski. "Qubalı Fətəli xan" (Tərcüməçi F.Babayev). Bakı,1959.*

11. *Левиатов В. Очерки из истории Азербайджана в XVIII веке. Баку, Изд. АН Азербайджанской ССР, 1948*

12. *Mustafazadə T. "Quba xanlığı" Bakı, Elm, 2005*

13. *Mustafazadə T. "Azərbaycan xanlıqlarının qısa tarixi" Bakı, 2011.*


## SUMMARY

**Sona Babazade**

**Gubali Fatali khan's policy of unification of Azerbaijani lands**

The article examines the struggle of Gubali Fatali khan with neighboring khanates and foreign forces to unite the Azerbaijani lands. Fatali khan was able to unite Derbent, Baku khanate, Javad khanate with bloody struggles, Shamakhi khanate to Guba khanate. The Lankaran khanate also depended on the Guba khanate for some time. Fatali khan marched to the territory of South Azerbaijan and managed to capture Ardabil and Meshkin. However, it withdrew under Russian pressure. After Fatali khan's death, the northeastern Azerbaijani state union created by him collapsed.

**Keywords:** *Guba khanate, Fatali khan, khanate, merger, marriage diplomacy.*

## РЕЗЮМЕ

**Сона Бабазаде**

**Политика Губали Фатали хана по объединению азербайджанских земель**

В статье исследуется борьба Губали Фатали хана с соседними ханствами и иностранными силами за объединение азербайджанских земель. Фатали-хан сумел кровопролитными боями объединить Дербент, Бакинское ханство, Джавадское ханство, Шемахинское ханство с Губинским ханством. Ленкоранское ханство тоже какое-то время зависело от Губинского ханства. Фатали-хан двинулся на территорию Южного Азербайджана и сумел захватить Ардебиль и Мешкин. Однако под давлением России он отозвался. После смерти Фатали хана государственное объединение северо-востока Азербайджана было разрушено.

**Ключевые слова:** *Губинское ханство, Фатали хан, ханство, слияние, брачная дипломатия.*

UOT: 332.142: 336.13.051

**AYGÜN QULİYEVA**
*Azərbaycan Kooperasiya Univesitetinin prorektoru, iqtisad elmləri doktoru*

*E-mail: aygun.e.guliyeva@hotmail.com*

# MÜASİR DÖVRDƏ REGİONLARIN İNKİŞAFININ İNTENSİVLƏŞDİRİLMƏSİNDƏ MALİYYƏ TƏMİNATI MEXANİZMLƏRİNİN AKTUAL PROBLEMLƏRİ

Postpandemiya dövrü bütün sahələrdə daha təkmilləşdirilmiş və yenilənmiş fəaliyyət mexanizmlərinin hazırlanmasını və tətbiqini şərtləndirir. Bu hazırkı şəraitdə obyektiv reallıq və zərurət kimi baxılmalı, xüsusilə regional inkişafın təmin olunmasında tələb olunan mexanizmlərin tətbiqi məsələləri nəzərə alınmalıdır. Digər tərəfdən, son onillikdə dünya maliyyə sisteminin dərin transformasiyası, 2008-ci ilin sonlarından başlayan dünya maliyyə böhranının mənfi fəsadlarının təsrinin hələ də davam etməsi maliyyə-kredit sisteminin maksimum təkmilləşdirilməsini, o cümlədən investisiyalar üzrə mexanizmlərin investisiya layihələri iştirakçılarının maraqlarının qorunması şərti ilə yenilənməsi tələb olunur. Maliyyə-kredit mexanizmləri və tətbiq olunan alətlər kifayət qədər etibarlı olmalı, eyni zamanda bu resurslara ehtiyacı olanlar üçün həm də əlçatanlığı ilə fərqlənməlidir. Təəssüf ki, əksər hallarda maliyyə-kredit təşkilatları qısamüddətli gəlirlər arxasınca qaçaraq, ilk növbədə yüksək faizlərdən ibarət istehlak kreditlərinə üstünlük verirlər və eyni təəssüf hissi ilə də demək olar ki, əhalinin əhəmiyyətli hissəsi bu və ya digər amildən asılı olaraq bu kreditlərdən fəal şəkildə istifadə edirlər. Regionlarda fəaliyyət göstərən sahibkarlıq və biznes subyektləri o qədər də iri təşkilatlar və ya müəssisələr deyildirlər və təxminən bu qəbildən olan bazar iqtisadiyyatı subyektlərinin 90 %-dən çoxu mikro, kiçik və orta sahibkarlıq subyektləridir, başqa sözlə, əsas üstünlük fərdi sahibkarlığa verilmişdir [1]. Bunun başlıca səbəbi, ümumiyyətlə dünya səviyyəsində regionlarda maliyyə-kredit və investisiya mexanizmlərinin o qədər də əlçatan olmamasıdır [2; 3]. Eyni zamanda, təsərrüfatın genişləndirilməsi, biznesin və sahibkarlığın inkişaf etdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi imkanlarının da zəif olmasını nəzərə alsaq, regionlarda iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi tədbirlərində kompleksliliyin hələ də təmin olunmaması qənaətinə də gəlmək olar [4]. Prioritetlər və hədəflər məlumdur, amma qarşıda duran problemlərin həll olunması, sosial-iqtisadi inkişaf proseslərinin intensivləşdirilməsi məqsədil tələb olunan tədbirlərin və vəzifələrin həyata keçirilməsi üçün əlçatan maliyyə-kredit şəbəkəsinin formalaşdırlması vacib şərtdir [5].

Qeyd edək ki, ölkəmizin regionlarında maliyyə-kredit şəbəkəsinin əlçatanlığı məqsədilə bir sıra amillərin və meyarların nəzərə alınması vacibdir: 1) regionlarda maliyyə-kredit axınlarının hərəkəti, idarə edilməsi və istifadəsi üzrə şəbəkənin qurulması; 2) maliyyə-kredit xidmətlərinin infrastrukturunun və xidmət məntəqələrinin yaradılması; 3) maliyyə-kredit resurslarının təmərküzləşməsi və bölüşdürülməsi funksiyalarını yerinə yetirən maliyyə-kredit təşkilatlarının yaradılması; 4) maliyyə-kredit müəssisələrinin sərbəst balansa malik olmasının təmin edilməsi; 5) regionun iqtisadiyyat sahələrinin inkişaf xüsusiyyətlərinin potensialından qaynaqlanan layihələrin işlənib hazırlanması; 6) regionda təbii və iqtisadi resurslardan səmərəli və məhsuldar istifadəyə imkan verən maliyyə-kredit axını mühitinin yaradılması; 7) region əhalisinin gəlirlərinə adekvat olan maliyyə-kredit xidmətləri paketinin hazırlanması və tətbiq edilməsi; 8) regionda yaşayan həssas əhali qruplarının maraqlarını təmin edən maliyyə-kredit xidmətləri paketinin tətbiqi; 9) real iqtisadiyyat sahələrinin uzunmüddətli perspektivdə rentabelliyi nəzərə alınmaqla sahibkarlıq və biznes subyektləri üçün maliyyə-kredit xidmətləri paketinin tətbiqi; 10) regionun maliyyə-kredit sisteminin gücləndirilməsi istiqamətində regional və beynəlxalq əməkdaşlığın gücləndirilməsi və s.

Məlumdur ki, dünya maliyyə sistemində, maliyyə resurslarının axınında, maliyyə-kredit sisteminin fəaliyyətində və investisiya resurslarının formalaşdırılmasında yeni trendlər və yanaşmalar

diqqət çəkir. Artıq maliyyə resurslarının doymuş seqmentləri və ya ifrat mənbələri ilə bağlı baxışlar köklü surətdə dəyişməkdədir. Dünya səviyyəsində daha çox maliyyətutumlu bazar olan enerjidaşıcıyılarla bağlı məsələlər, ilk növbədə neft və təbii qaz bazarları, onlarda formalaşan maliyyə resursları heçdə sabitliyi ilə fərqlənmirlər. Məlimdur ki, bu bazarların əsas maliyyə mənbələri güclü və iri iqtisadiyyata malik, həm də daha çox maliyyə və investisiya resurslarının cəmləşdiyi ölkələr iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdir və eyni zamanda dünya siyasətində və təhlükəsizliyində ciddi mövqeyə malik olan super dövlətlərdir. Maraqli bir məqama diqqət lazımdır ki, son 30 il ərzində məhz bu ölkələrdən bir neçə qlobal böhranlar qaynaqlanmışdır və bu böhranların kökündə enerji resursları və maliyyə məsələləri dayanır. Deməli belə çıxır ki, bir müddət ərzində dünya maliyyə və investisiya bazarlarında baş vermiş dinamiklik enerji resurslarının qiymətlərinin artımı və sabitliyi nəticəsində neft və qaz ixrac edən ölkələrin gəlirlərinin artması, valyuta eytiyatlarının güclənməsi və həmin ölkələrə investisiya axınları daha da intensiv xaratker daşıyacaqdır. Amma, müəyyən dövrdən sonra baş verən qlobal təsirlərdən maliyyə itkiləri, qeyri-sabitliyi və digər problemlərin yaranması qacılmaz olacaqdır. Bu isə növbəsində neft dollarının tez "əriməsi"nə gətirib çıxara bilər və ölkənin topladığı valyuta ehtiyatlarrının önəmli bir hissəsi milli valyutanın kursunun sabitliyinə, sosial müdafiə sisteminin gücləndirilməsinə xərclənilməsi məcburi xarakter daşıyır. Həmin amillər səbəbindən milli iqtisadiyyatın diversifikasiyalaşdırılması, maliyyə-kredit resurslarının mənbələrinin alternativliyinin təmin olunması, investisiya fondlarının yaradılmasının, maliyyə holldinqlərinin inkişaf etdirilməsi, maliyyə-sənaye qruplarının formalaşdırılması, ümümilikdə ölkədə maliyyə bazarının dayanıqlılığının artırılması və dinamikliyinin inkişaf etdirilməsi vacib şərtlər kimi ortaya çıxır. Biz bu promlemləri və amilləri Azərbaycanın timsalında və keçdiyi inkişaf proseslərində baxsaq, doğrudan da bu qeyd olunanların əksəriyyətinin ölkəmiz üçün xarakterik olduğunu görərik və bütün bunlar hazırki dövrdə, bundan sonraki şəraitdə maliyyə mənbələrinin daha etibarlı və müxtəlif formalarının təşkili, bunun üçün tələb olunan tədbirlərin sistemli və ardıcıl həyata keçırılməsi məqsədilə maksimum təsirli və məhsuldar mexanizmləirinin tətbiq olunmasını tələb edir. Azərbaycan özünün neft strategiyasının reallaşdırmağa başlayarkən ölkənin müxtəlif sosial-iqtisadi sahələrində fəal şəkildə islahatlara start vermiş və bir çox istiqamərdə bu islahatların səviyyəsini dərinləşdirməyə nail olmuşdur. İqtisadiyyatın əksər sahələrinin institusional islahatlar təmin edilmiş, milli iqtisadiyyatın strukturu təkmilləşdirilmiş, maliyyə ehtiyatları – valyuta ehtiyatları yaradılmışdır, lakin 2008-ci ilin sonlarından başlayan dünya maliyyə böhranı gec də olsa ölkəmizə öz mənfi təsirinin göstərmişdir. 2004-ci ildən başlayaraq regionların sosial-iqtisadi inkişafının surətləndirilməsi prosesləri reallaşdırılmiş və bu məqsədlə hazırlanaraq həyata keçirilən dövlət proqramları və onların maliyyə mənbələri formalaşdırılmışdır [6]. Amma, bununla belə qeyd etmək istərdik ki, həmin məqsədli regional sosial-iqtisadi inkişad dövlət proqramlarınının başlıca maliyyə mənbələri dövlət büdcəsindən ayrılan vəsaitlərdən ibarət olmuşdur, bunlar isə öz növbəsində əsas etibarı ilə neft pulları hesabına formalaşdırılmışdır. Lakin 2014-ci ildən başlayaraq dünya bazarlarında neftin qiymətinin bir neçə dəfə aşağı düşməsi səbəbindən ölkəmizin maliyyə sistemində, valyuta ehtiyatlarının artımı məsələsində, həm də milli valyutanın məzənnəsinin sabit saxlanılmasında ciddi çətinliklər yaranmış və bütün bunlar ozünü 2015-ci il başlayan kimi büruzə vermişdir. Milli valyuta-manat ikiqat devalvasiyaya məruz qalmışdır, maliyyə resurslarının formalaşmasında çətinliklər yaranmışdır, büdcənin gəlirlər hissəsi isə daha çox valyuta ehtiyatlarından istifadə ilə bağlı olmuşdur. Digər tərəfdən də, milli valyutanın kursunun sabitləşdirilməsi və dəyərdən daha çox düşməməsi üçün milyardlarla dollar xərclənməli olmuşdur. Şübhəsiz, bütün bunlar maliyyə sabitliyinə mənfi təsir göstərməyə bilməzdi, eyni zamanda dövlət nə qədər səy göstərsə belə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı layihələri ixtisara salmasa belə, müəyyən layihələrin icrasının ləngidilməsi, maliyyə intensivliyinin qorunub saxlanması o qədər də asan olmamışdır [7]. Regional maliyyə-kredit və investisiya fəallığının daha optimal variantlarının və modellərinin işlənib hazırlanması, müvafiq fondların regional səviyyədə yaradılması və gücləndirilməsi belə situasiyalarda gərginliyin azaldılmasına imkan verə bilərdi. Yəni regional dövlət strukturları və özəl qurumların daha

sıx əməkdaşlıq etməsi, regionda olan təbii və iqtisadi resursların məhsuldar şəkildə və təsərufat maliyyə dövriyyəsinə cəlb olunması, etibarlı və dayanıqlı vergiqoyma mənbələrinin yaradılması, maliyyə hesabatlarının dürüstlüyunün və şəffaflığının təmin olunması, sahibkarlıq və biznes mühütündə işguzar və sağlam rəqabət prinsiplərinin qorunması regionun maliyyə müstəqilliyinin artırılmasına və dövlət büdcəsindən asıllılığının azaldılmasına imkan verər. Təəssüf ki hazirda ölkə regionlarında yerləşən rayonların 70 %-dən çoxu dotasiya ilə fəaliyyət göstərirlər, yəni birbaşa olaraq maliyyə baxımından mərkəzdən asılıdırlar və onların maliyyə-nöqteyi nəzərindən manevrlik qabiliyyəti aşağıdır, eyni zamanda investisiya cəlbediciliyindən söhbət gedə bilməz. İnvestorlar o vaxt regionlara daha çox investisiya yönəldərlər ki, həmin regionda maliyyə-investisiya fəallığı yüksək olsun, müəsisələr zərərlə işləməsin, sahibkarlıq subyektlərinin inkişafı təmin edilsin və nəticədə qoyulan investisiyaların geriödəmə potensialı formalaşsın. Bundan əlavə, regional maliyyə-kredit resurslarının yerli səviyyədə formalaşması, təmərküzləşməsi və bölüşdürülmsəi funksiyalarını həyata kecirmək səlahiyətlərinə malik olan müvafiq qurumların və strukturların formalaşdırılması və unkişaf etdirilməsi təmin edilməlidir. Maliyyə bazarlarının müxtəlif seqmentlərinin regional səviyyədə dəyərləndirilməsi, maliyyə-kredit resurslarına əlçatanlığın təmin olunması xeyli vacib məsələlər kimi xarakterizə olunurlar [8]. İndi internet əsridir, yüksək texnologiyalar dövrüdür və ən ucqar kənddə, qəsəbədə belə müasir texnologiyalardan istifadə etməklə, özünün biznesini və sahibkarlıq fəaliyyətini qurmaq istəyənlər vardır. Amma bunun üçün müvafiq infrastruktur, maliyyə-kredit və investisiya rejiminin adekvat olaraq təşkili vacib xarakterizə edilir. Regionda yaşayan və fəaliyyət göstərən hər bir fərdi sahibkar, iş adamı və biznesmen yerindəcə operativ olaraq maliyyə-kredit xidmətlərində istifadə imkanlarına malik olmalı və hər xırda iş üçün Bakıya getməli deyildir. Hazırda real olaraq vəziyyət belədir və regionlarda olan bank filiallarının fəaliyyəti yarımçıq xarakter daşıyır. Böyük ölcüdə bütün qərarlar həmin bankların mərkəzi ofislərində baxılır, verilir və çox zaman bu qərarların əksəriyyətini uzun müddət gözləmək lazim gəlir. Digər tərəfdən, region səviyyəsində fəaliyyət göstərən sahibkarlıq və biznes subyektlərinin əhəmiyyətli hissəsi analoji burokratiyaya qarşı hazır deyillər və buna görə də kredit resursları üçün müraciət etməkdən çəkinirlər.

Qeyd edək ki, hazırkı şəraitdə regionların inkişafından danışarkən və bununla bağlı strateji yanaşmaları müəyyənləşdirərkən, artıq bütün məsələlərin işğaldan azad olunmuş ərazilərlə – Qarabağa regionu ilə bağlı şəkildə baxılması, qiymətləndirilməsi və dəyərləndirilməsi vacib şərtlərdəndir. Əslində müasir zəmanəmizdə Qarabağ regionunun dirçəldilməsi və bərpa edilməsi ilə bağlı tətbiq olunan dövlət siyasəti mexanizmləri və yanaşmaları, sosial-iqtisadi inkişaf proseslərinin təşkili ilə əlaqəli sistemli və kompleks fəaliyyət istiqamətləri regional inkişafın yeni və daha səmərli-ağıllı texnologiyalar əsasına inkişaf modelinin formalaşdırılması deməkdir [9]. Qürurverici haldır ki, bu proseslər ölkəmizin çox güclü potensiala, o cümlədən təbii resurslara malik olan Qarabağ regionunda baş verir. Belə ki, Böyük Qarabağ zəfərindən sonra Qarabağ regionunda, eyni zamanda ona bitişik 7 rayonda bərpa işlərinin təşkili, işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi və bunlarla bağlı olaraq daha çox investsisiyaların bu regiona cəlbedilməsi kimi problemlər həll olunmalı və bu istiqamətlərdə tələb olunan tədbirlər həyata keçirilməlidir. Bunlarla bağlı bir çox hədəflər öz əksini “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də tapmışdır [10]. Qarabağ regionu keçmiş SSRİ dövründə Azərbaycan Respublikasının iqtisadiyyatının formalaşdırılmasında, şaxələndirilməsində önəmli mövqeyə malik olmuşdur. Məsələn, kənd təsərrüfatının, bütövlükdə aqrar-sənaye kompleksinin inkişafında, turizm-rekreasiya potensialından istifadədə böyük pay sahibi olmaqla bərabər, heyvandarlığın inkişaf etdirilməsində və heyvandarlıq məhsullarının istehsalında xeyli fərqlənmişdir. Buna görə də işğaldan azad olunmuş ərazilərin dirçəliş və bərpa işlərinin maksimum nizamlı və mütəşəkkil formada həyata keçirilməsi strateji əhəmiyyət kəsb edir. Bu qeyd olunan məsələlər ölkəmizdə iqtisadi ədəbiyyatda hələ müharibədən əvvəlki dövrlərdə də aktual olmuşdur və postkonflikt ərazilərin bərpasına dövrün tələbləri prizmasından, eyni zamnda obyektiv reallıqlar bazasında yanaşılması məsələləri üzrə konseptual yanaşmalar işlənib hazırlanmışdır [11]. Erməni faşıstlərinin işğal dövründəki vəhşilikləri və

vandallıqları sərhəd tanımamışdır, insanlığa qarşı qatı cinayətləri ilə bərabər, həm də Qarabağda, bununla yanaşı işğal etdikləri digər bitişik 7 rayonunun ərazisində talanlar törətmiş, təbii və iqtisadi resurslara qənim kəsilmişlər. Məhz erməni vəhşilikləri və hərbi təcavüzü nəticəsində işğal olunmuş ərazilərdə 900 yaşayış məntəqəsi, 150 min evlər, 7 min ictimai binalar, 693 məktəb, 695 tibb müəssisəsi, 855 uşaq baxçası, 6 min sənaye və kənd təsərrüfatı müəssisələri dağıdılmışdır. Eyni zamanda, 2670 km avtomobil yolları, 160 körpü, 2,3 min km su xəttləri, 2 min km qaz kommunkiasiyaları, 15 min km elektrik xəttləri dağıdılmış və sıradan çıxarılmış, torpaq sahələri deqradasiyaya uğradılmış, su mənbələri zəhərlənmiş və meşələr məhv edilmişdir [12]. Amma, artıq qüdrətli dövlətimiz Qarabağın dirçəldilməsi və bərpa proseslərinin təşkii istiqamətində intensiv fəaliyyətə başlamış, regionun infrastrukturunun yaradılması və böyük köç üçün hazırlıq tədbirlərinin daha sürətlə icra edilməsi tədbirləri ardıcıl şəkildə reallaşdırılmaqdadır. Şübhəsiz, bu proseslərin daha səmərəli və məhsuldar olması maliyyə təminatı mexanizmlərinin işləkliyindən, tətbiq olunan maliyyə alətlərinin adekvatlığından bilavasitə asılıdır. Düzdür, dövlətimiz xaricdən investisiyaların daxil olmasını və yaxid hansısa beynəlxalq qurumun, dünya dövlətlərinin köməyini gözləmədən öz maliyyə resursları hesabına dirçəliş və bərpa tədbirlərinə başlamışdır və hesab edirik ki, vaxt itkisinə yol verilməməsi baxımından bu cür yanaşma tamamilə düzgün və vaxtında atılmış addımdır. 2021-ci ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün 2,2 mlrd. manat vəsait nəzərdə tutulmuşdur. Həmin vəsaitlər əsas etibarı ilə işğaldan azad olunmuş ərazilərdə infrastrukturun formalaşdırılmasına, o cümlədən elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal, digər zəruri infrastrukturların, mədəni-tarixi abidələrin bərpası və yenidənqurulması, yaşayış evlərinin tikintisinə yönəldilməkdədir [13]. Hesab edirik ki, təkcə dövlət vəsaitləri və dövlət investisiya qoyuluşları hesabına tamamilə yenidən qurulacaq və dirçəldiləcək Qarabağ regionun və ona bitişik 7 rayonun sosial-iqtisadi reabilitasiyasının təmin olunmasında, tarazlı yaşayış səviyyəsinin formalaşdırılmasında müəyyən ləngimələr yarana bilər və buna yol verməmə üçün alternativ maliyyə mənbələrinin, mexanizmlərinin işlənib hazırlanması, daha çox xarici investisiyaların cəlbedilməsi tədbirləri görülməlidir. Maliyyə təminatı mexanizmləri regional inkişaf hədəflərinə adekvat olmalı və nəzərdə tutulan layihələrin həyata keçirilməsinə ciddi zəmanət və təkanverici amil səviyyəsində qiymətləndirilməlidir.

## NƏTİCƏ

Yaxın perspektivdə regionlarin inkişafinin intensivləşdirilməsində maliyyə təminatı mexanizmlərinin aktual problemlərinin daha çevik və operativ, eyni zamanda səmərəli həll olunması üçün bir qrup prinsipial yanaşmalar və məsələlər xüsusilə diqqət mərkəzində saxlanılmalıdır:

- Regional səviyyədə maliyyə-kredit və investisiya təminatı mexanizmlərinə konseptual yanaşmanın əsas şərt kimi ortaya qoyulması və dövlət siyasətində öz əksini tapması;
- Regionlarda müstəqil maliyyə-kredit təşkilatlarının, holdinq və birliklərinin yaradılması və inkişafının stimullaşdırılması mexanizmlərinin işlənib hazırlanması və tətbiqi;
- Regionlarda tam səlahiyyətlərə malik investisiya fondlarının və qruplarının təşkili və motivasiyalaşdırılması sahəsində tədbirlərin görülməsi;
- Regionlarda maliyyə-kredit və investisiya fəallığının müasir dövrün tələbləri səviyyəsinə çatdırılmasına imkan verən müvafiq infrastrukturun və institusional mühitin formalaşdırılması;
- Regionlarda fəaliyyət göstərən sahibkarlıq və biznes subyektlərinin dürüst və şəffaf maliyyə fəaliyyəti prinsiplərini mənimsənilməsi istiqamətində sistemli tədbirlərin görülməsi və maarifləndirmə işlərinin aparılması;
- Regionlarda maliyyə-kredit və investisiya məsələləri, həmçinin vergi mexanizmləri üzrə müvafiq məsləhət mərkəzlərinin açılması tədbirlərinin görülməsi;
- Maliyyə-kredit və vergi sahəsində müvafiq dövlət orqanlarının yerli strukturları ilə sahibkarlıq subyektləri arasında əməkdaşlığın daha sıx formada təşkil olunması;
- Regional səviyyədə sahibkarlığın və biznesin inkişafına mane olan baryerlərin müəyyənləşdirilməsi və aradan qaldırılması tədbirlərinin həyata keçirilməsi;
- Regionlarda investisiya-innovasiya yönümlü iri layihələrin daha səmərəli təşkili məqsədilə

ünvanlı qrantların və tenderlərin təşkili, şəffaf olaraq reallaşdırılması;

- Regionlarda yaşayan əhalinin maliyyə-kredit xidmətləri ilə əlçatanlıq məsələsinin ən yüksək səviyyədə həll olunması, əhalinin iqtisadi fəallığının artırılmasının prioritetliyinin təmin edilməsi və s.

**Açar sözlər:** *regionlar, regional inkişaf, maliyyə təminatı, regionların maliyyə mexanizmləri, regionların maliyyə təminatının aktual problemləri, Qarabağ regionun maliyyə təminatı mexanizmləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Nuriyev, Ə.X. Davamlı və tarazlı regional inkişaf / Bakı: Avropa. – 2017. – 240 s.*

*2. Аврамчикова Т.Н. Современная региональная политика: опыт зарубежных стран / М.В.Решетнева // Вестник Сибирского государственного аэрокосмического университета имени академика. – 2008, № 4(21). – С. 185-191.*

*3. Петров, А.В. Зарубежный опыт применения инструментов государственного регулирования по преодолению диспропорций в развитии социально-экономических систем // Вестник Томского государственного университета. Экономика. 2016. №3 (35), С. 7-18.*

*4. Aliyev Sh.T. Economics of Azerbaijan: upgrading and implementation of effective instruments // Life Science Journal - Acta Zhengzhou University Overseas Edition (Scopus), 2014, Vol.11, №.5, p. 321-326.*

*5. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. / – Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.*

*6. Guliyeva, A.E. Problems of financial and investment support modelling of the regional social and economic development// WSEAS Transactions on Business and Economics, Volume 17, 2020, Grecce, Art. №72, p. 741-752.*

*7. Ataşov B.X. Maliyyə bazarları. Bakı, "Kooperasiya nəşriyyatı", 2016.– 456 s.*

*8. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.-59 s.*

*9. Ağıllı şəhər (Smart City) və Ağıllı kənd (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. / – Bakı şəhəri, 19 aprel 2021-ci il.*

*10. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.*

*11. Müzəffərli N., İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar. Bakı, Qafqaz nəşriyyat evi, 2010. - 270 s.*

*12. Ermənistan Respublikasının hərbi təcavüzünün nəticələri. https://mod.gov.az/az/ermenistanin-herbi-tecavuzunun-neticeleri-statistika-412/.*

*13. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 dekabr 2020-ci il. https://president.az/articles/49859.*

## РЕЗЮМЕ
## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ МЕХАНИЗМОВ ФИНАНСОВОЙ ОБЕСПЕЧЕННОСТИ В ПРОЦЕССАХ ИНТЕНСИФИКАЦИИ РАЗВИТИЯ РЕГИОНОВ В СОВРЕМЕННОМ ПЕРИОДЕ

В статье исследованы актуальные проблемы механизмов финансовой обеспеченности в процессах интенсификации развития регионов в современном периоде. С этой целью раскрыта сущность регионального развития и актуальные проблемы обеспечения работоспособности и эффективности финансовых механизмов. Рассмотрена важность формирования альтернативных вариантов финансовой обеспеченности регонов для интенсификации решения социально-экономических проблем и повышения экономической активности в регионе. Обоснована необходимость формирования более привлекательной финансово-инвестиционной среды и соответствующей инфраструктуры для развития рынка финансовых услуг в регионах. Отдельно рассмотрены актуальные проблемы и перспективы усиления механизмов финансовой обеспеченности Карабахского региона в связи с освобождением оккупированных территорий от армянских захватчиков. Даны итоговые предложения по рассматриваемым проблемам.

*Ключевые слова: регионы, региональное развитие, финансовая обеспеченность, финансовые механизмы регионов, актуальные проблемы финансовой обеспеченности регионов, механизмы финансовой обеспеченности Карабахского региона.*

**SUMMARY**
**CURRENT PROBLEMS OF MECHANISMS OF FINANCIAL SUSTAINABILITY IN PROCESSES OF INTENSIFICATION OF DEVELOPMENT OF REGIONS IN THE MODERN PERIOD**

The main problems of mechanisms of financial sustainability in processes of intensification of development of regions in the modern period are investigated in the article. The essence of regional development and the pressing problems of ensuring the efficiency and effectiveness of financial mechanisms are considered for this purpose. The importance of forming alternative options for financial sustanability of the regions for intensifying the solution of socio-economic problems and increasing economic activity in the region is analyzed. The need to create a more attractive financial and investment environment and appropriate infrastructure for the development of the financial services market in the regions is justified. Topical problems and prospects of strengthening the mechanisms of financial sustainability of the Karabakh region in connection with the liberation of the occupied territories from the Armenian invaders are separately considered. The final proposals on the issues under consideration are given.

**Key words:** *regions, regional development, financial sustainability, financial mechanisms of regions, main problems of financial sustainability of regions, mechanisms of financial sustainability of the Karabakh region.*

UOT 339.9

# QLOBAL İSTİLƏŞMƏNİN QLOBAL ÜDM-Ə TƏSİRİ

**TURAL ABDURƏHİMOV**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*Beynəlxalq Magistratura və*
*Doktorantura Mərkəzi, magistr*
*E-mail: baku1922@mail.ru*

## Giriş

Qlobal olan hər bir problem bütün dünya üçün təhdiddir, dünya iqtisadiyyatının halqası olan istənilən ölkə gec yaxud tez qlobal olan problemlərdən ciddi şəkildə təsirlənməyə başlayır. Qlobal istiləşmə də bu cür problemlərdən biridir. O, istixana qazlarının həddindən artıq istifadəsi nəticəsində atmosferdə toplanan qazların dünyanın ortalama temperaturunun tədricən artması ilə müşaiyət edilən problemdir. Qlobal istiləşmə ilə bağlı alimlərin gəldiyi qənaət ondan ibarətdir ki, dünyanın orta temperaturu ildən–ilə artır və bu da öz növbəsində dünya iqtisadiyyatına öz təsirini göstərir. Qlobal istiləşmənin dünyada səbəb olduğu əsas iqtisadi problemlərdən biri ondan ibarətdir ki, bu probem onsuz da azalmaqda olan şirin su hövzələrinin azalmasına, nəticədə də dünyada suyun azalması nəticəsində kənd təsərrüfatında əhəmiyyətli problemin yaranmasına gətirib çıxaracaqdır. Əgər kənd təsərrüfatı melyorasiya sistemi ilə təmin olunmasa, bu kənd təsərrüfat məhsullarının istehsalının azalmasına, nəticədə də qiymətin yüksəlməsinə səbəb olacaqdır.

Qlobal ÜDM dedikdə müəyyən edilmiş zaman çərçivəsində bütün son məhsulların bazarda gətirdiyi gəlir nəzərdə tutulur. ÜDM hesablanarkən istehlak, sərmaye və dövlət xərcləmələri (ixrac-idxal) nəzərə alınır, başqa sözlə bu üçü birlikdə ÜDM təşkil edir. ÜDM hər hansı bir ölkənin rifah halını ölçmək üçün istifadə olunur. Qlobal ÜDM dünya iqtisadiyyatının halqası olan ölkələrin əldə etdiyi birgə nəticədir. Beləliklə, qlobal ÜDM-yə qlobal istiləşmənin təsirini araşdırmaq bütün dünya ölkələri iqtisadiyyatının bu prosesdən necə təsirləndiyini öyrənmək deməkdir.

Qlobal istiləşmənin iqtisadiyyatdan qaynaqlanan səbəbləri

Qlobal istiləşmənin bir çox səbəbi vardır. Ancaq bu səbəbləri birləşdirərək aşağıdakı kimi qruplaşdırmaq olar:

- ✓ Sənayeləşmə;
- ✓ Fosil yanacaqların istifadəsi nəticəsində atmosferdə toplanan qazlar;
- ✓ Meşələrin azalması;
- ✓ Kənd təsərrüfatı fəaliyyətləri (R.Yayar, Ç. Kaplan, Ü. Şimşek, 82)

Bu səbəblər insan qaynaqlı səbəblər sayılır. Sənayeləşmə və kənd təsərrüfatı

fəaliyyətləri birbaşa iqtisadiyyatdan qaynaqlanan səbəblərdir. Sənayeləşmə qlobal istiləşməni surətləndirən ən vacib səbəblərdən biri hesab edilir. Belə ki, sənayeləşmənin başladığı dövrdən etibarən dünyada qlobal istiləşmə də daha diqqətçəkən olmuşdur. Kənd təsərrüfatı fəaliyyəti iqtisadiyyatın mühüm qolu olmaqla yanaşı həm də qlobal istiləşmədən ən çox təsirlənən sahə olacaqdır. Quraqlıq və su qıtlığının birbaşa bu sahəyə təsir göstərməsi qaçılmazdır.

Qlobal istiləşmənin birinci və ən böyük təsiri ekologiyaya olsa da, onun iqtisadiyyata təsiri də böyük olacaqdır. Çünki ekologiya ilə ekonomika bir-biri ilə sıx bağlıdır. Hələ 1990-cı illərdə Avropada xüsusilə fırtınalar və quraqlıq səbəbi ilə ziyanın həddi on milyon evro olmuşdur. 2000-ci ildən sonra bütün dünyada ekoloji fəlakətlər nəticəsində təkcə 2004-cü ildə iqtisadi zərər 90 milyard dollara çatmışdır (R.Yayar, Ç. Kaplan, Ü. Şimşek, 84).

Dövlətlər iqtisadi göstəriciləri yaxşılaşdırmaq və iqtisadi dayanıqlılığa nail olmaq üçün sərvətlərin istifadəsini surətləndirirlər, digər tərəfdən dünyanın əhalisinin surətli artımı da təbii resursların istifadəsini artırır. Təkcə son 40-50 ildə neftin istifadəsi (xammal kimi çıxarılması, satışı da daxil olmaqla) 4-5 dəfə, qazın istifadəsi 5-6 dəfə, boksitlər 9-10 dəfə, kömür istehsalı isə 2-3 dəfə artmışdır (T.Xəlilov, M.Zeynalova, 2014, s 55). Təkcə bu fakt göstərir ki, iqtisadi fəaliyyət qlobal istiləşmənin təməl səbəblərindən birini təşkil etməkdədir.

Qlobal istiləşmə fərqli bölgələrdə və fərqli sektorlarda ciddi təsirə malik olsa da, inkişaf etmiş ölkələrdə bazara daha az təsir edərək, bazar xarici təsirlərin önəmini artırmaqdadır. Ancaq güman olunur ki, qlobal istiləşmə turizmə daha çox

təsir edəcəkdir. Enerji qiymətlərinin artmasına görə səyahət qiymətlərinin də yüksəlməsi qaçılmaz olacaq. Bu isə əlbəttə, dünyanın istirahət mərkəzlərinə neqativ təsir edəcəkdir. Dünyanın bir çox ölkələrinin ÜMM-sini turizm sektoru təşkil etməkdədir. Məsələn, Baham adalarını ÜDM-sinin təxminən 39%ni turizm təşkil edir, Avropa Birliyi ölkələrinin ÜDM-sinin 4% turizmlə bağlıdır, buna görə də bir çox Avropa istirahət mərkəzləri və turizm bölgələrinin qlobal isinmədən təsirlənəcəyi qaçılmazdır ( D.Alper, A.Anbar, 2007, s.34 ).

ÜDM-nin sıx bağlı olduğu proses ixracla bağlıdır. Klassik iqtisadi məktəbin razılaşdığı kimi iqtisadi böyümə ixracın artımı ilə düz mütənasibdir. İxraca söykənən iqtisadi böyümə hipotezi dörd əsas təməl üzərində qurulmuşdur. Bunların ilk ikisində ixracın ÜDM-ni artırması, ÜDM-nin xərcləmələr yolu ilə hesablanması zamanı istehsal səviyyəsinin də yüksəlməsi nəzərdə tutulur. Üçüncü və dördüncü halda isə ixracın iqtisadi istehsalda səbəb olduğu səmərəliliyin artımı ÜDM-nin artmasına səbəb olur. İxracla iqtisadi böyümə arasında əlaqə bir çox alim tərəfindən aparılan tədqiqatlarda öz əksini tapmışdır. Məsələn, Bilas, Bosnjak və Frank 2015-ic ildə Xorvatiyanın 1996-cı ildən 2012-cı ilə qədərki, Medina-Smit 2001-ci ildə Kosta – Rikanın 1950-ci ildən 1997-ci ilə qədərki, Paul və Chovdru 1995-ci ildə Avstraliyanın 1949-cu ildən -1991-ci ilə qədərki , Avokuze 2003-cü ildə Kanadanın tarixi boyunca, Thronton 1996-cı ildə 1895-ci ildən 1992-ci ilə qədərki Meksikanın, El Aloui 2015-ci ildə Mərakeşin 1980-ci ildən -2013-cü ilə qədərki, Alkthateb, Mahmud və Sultann 2016-cı ildə Səudiyyə Ərəbistanının 1980ci ildən -2013-cü ilə qədərki, Egeli 2007-ci ildə 23 Asiya ölkəsinin 1995-ci ildən 2005-ci ilə qədərki, Konya 2006-cı ildə İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının ölkəsinin 1960-cı ildən 1997-ci ilə qədərki 25 iqtisadi göstəricilərini, Ekanayake 1999-cu ildə inkişaf etməkdə olan 8 Asiya ölkəsinin 1960-cı ildən 1997-ci ilə qədərki olan ÜDM-sini, Qrinvey, Morgan və Rayt 1999-cu ildə 69 fərqli ölkəsi nin 1975-ci ildən 1993-cü ilə qədərki, Ajmi, Aye, Balcılar və Qupta 2015-ci ildə 1911-ci ildən 2011-ci ilə qədərki Cənubi Afrika ölkələrinin, Konstantakopolou 2016-cı ildə Cənubi Avropa ölkələrinin 1960cı ildən -2014-cü ilə qədərki , Seymur Ağayev 2011-ci ildə 12 post-sovet ölkəsinin müstəqillikdən 2011-ci ilə qədərki, Yardımçıoğlu və Gülməz 2013-cü ildə Türkiyə Cumhuriyyətinin 1995-2011-ci ilə qədərki dövrdə ÜDM-si ilə ixrac arasında əlaqəni təhlil edərək bu qənaətə gəlmişlər ki, ixrac birbaşa ÜDM-ni artırır və dolayı yolla idxala da təsir edir (Metehan Yılgör, 2017, 417, 418). Siyahıdakı ölkələr müxtəlif iqtisadi inkişafa malikdir və əslində nümunənin onlar üzərində göstərilməsi bu baxımdan təqdirə layiqdir. Qlobal istiləşmə də öz-özlüyündə dünya ölkələrinin iqtisadiyyatına bu və ya digər baxımdan təsir edərək iqtisadi böyüməni aşağı salırsa, ixrac da aşağı düşür , nəticədə bu ölkənin ÜDM-sini azaldır və bu da son nəticədə qlobal ÜDM-yə öz təsirini göstərir. Qlobal ÜDM dünya ölkələrinin hər birinin ÜDM-sinin ortalamasından yaranan rəqəmdir. Ayrı-ayrı ölkələrdə ÜDM azaldıqca təbii ki son nəticədə qlobal ÜDM –də aşağı düşməyə başlayır. Ancaq burada bəzi məqamları da nəzərə almaq lazımdır. Ümumilikdə bütün ölkələr qlobal istiləşmədə təsirlənərək iqtisadi düşüş yaşasa da, qlobal istiləşmənin iqtisadiyyata təsiri ölkələrin iqliminə və iqtisadi inkişaf səviyyəsinə görə fərqli olacaqdır. İnkişaf etmiş ölkələr daha çox resursa, ehtiyata sahib olduğu üçün daha az zərər gördüyü halda, inkişaf etməkdə olan və kasıb ölkələr daha ciddi iqtisadi itkilər yaşayacaqdır.

**Qlobal istiləşmənin regional effektləri**

Qlobal istiləşmənin qlobal ÜDM-ə təsiri məsələsini araşdırarkən bu problemə başlıca olaraq iki aspektdən yanaşlışmışdır.

- ✓ Qlobal istiləşmənin inkişaf etmiş ölkələrə təsiri;
- ✓ Qlobal istiləşmənin inkişaf etməkdə olan ölkələrə təsiri.

İqtisadi inkişaf baxımından nəzər salsaq, Avropa və Amerika ölkələri əsasən inkişaf etmiş (bəzi istisnalarla), Afrika və Asiya ölkələri isə inkişaf etməkdə olan ölkələr kateqoriyasına daxildirlər (bəzi istisnalarla). Ancaq iqtisadçıların yekdil fikirlərindən biri ondan ibarətdir ki, qlobal istiləşmə əsasən isti iqlim qurşaqlarında yerləşən və inkişaf etməkdə olan ölkələr sırasında olan daha yoxsul ölkələrə daha ciddi təsir edəcəkdir. Onsuz da büdcələri zəif olan, qıt resurslarla əhalinin yaşayışını təmin etməyə çalışan belə ölkələr qlobal istiləşmənin yaratdığı problemlər qarşısında da təbii olaraq daha aciz qalacaqdır. Məsələn, dünyanın ən isti bölgələrindən biri sayılan, ölkələrə görə inkişaf

baxımından fərqlər olan, həm inkişaf etməkdə olan, həm də yoxsul ölkələrin olduğu Afrika qlobal istiləşmənin artması ilə məhsul istehsalında çətinliklə üzləşəcək, nəticədə əhalini lazımi məhsullarla təmin etməkdə problem yarandığı üçün ixrac da təbii olaraq aşağı düşəcək. Quraqlığa davamlı kənd təsərrüfatı məhsulları istehsal etmək isə yenə də bu ölkələr üçün çox çətin olacaq.

Qlobal istiləşmənin iqtisadiyyatlara təsiri və ÜDM arasında əlaqəyə nəzər salarkən görmək olur ki, qlobal ÜDM-ni aşağı salacaq ölkələr başlıca olaraq Afrikanın yarımsəhra ölkələri ilə Asiyanın cənub və cənub-şərqi ölkələridir. Dünya bankının bir neçə dəfə açıqladığı statistikalarda bu ölkələrin qlobal istiləşmə baxımından zəif halqa olduğunu vurğulaması da bu fikrə gəlməyə əsas verir.

Yüksək enlikli ölkələr isə daha az zərərə məruz qalacaq və onlar qlobal ÜDM-yə təsiri neqativ baxımdan olmayacaqdır. Kanada, Rusiya və Skandinaviya ölkələri kimi soyuq şimal bölgələri nəinki qlobal istiləşmədən əziyyət çəkəcək, əksinə bu problem onlar üçün faydalı olacaqdır. Çünki onlar daha normal istilik tələb edən kənd təsərrüfatı məhsullarını rahatlıqla istehsal və ixrac edə biləcəklər.

Qlobal istiləşmənin inkişaf etməkdə olan və yoxsul ölkələrə mənfi təsirini nəzərə alan qlobal iqtisadi güclər 2009-cu ildə keçirilən və uğursuz hesab edilən Kopenhagen İqlim Dəyişikliyi zirvəsində çox mühüm bir nəticəyə nail oldular: zəngin ölkələrin inkişad etməkdə olan ölkələrə maddi yardım etməsi qərara alındı. Burada məqsəd 2020-ci ilə qədər, yəni 10-11 il ərzində milyon dollarlarla pulun varlı ölkələrdən kasıb ölkələrə transferi ilə onların iqlim dəyişikliyinin nəticələrindən daha az təsirlənməsinə nail olmaq idi (A.Cangüzel Taner, 1).

**Qlobal istiləşmə və iqtisadi itkilər**

Qlobal istiləşmə artdıqca və davam etdikcə ümumilikdə dünya iqtisadiyyatına mənfi təsir edəcəkdir. Ancaq bu təsirin hansı sahədə hansı dərəcədə əks olunması haqqında fikirlərdə fərqlər vardır. Aşağıdakı cədvəldə müxtəlif alimlər tərəfindən qarşıdakı 100 -150 il ərzində gözlənilən iqtisadi itkilərin proqnozu verilmişdir.

**Cədvəl 1: Qlobal istiləşmə və iqtisadi itkilərin təxmin edilən proqnozu ( Keith Wade, 2015, 6)**

| **Tədqiqat** | **İstilik dərəcəsinin artımı** | **Təsir (ÜDM %)** |
|---|---|---|
| Mendelson, Şlesinger, Morrison, Andoronova (2000) | 2060-cı ilə qədər 2.0ºC | 2060-cı ildə qlobal ÜDM-in 0,3%-i həcmində kumulyativ təsir |
| Mendelson, Şlesinger, Villiams (2000) | 2100-cü ilə qədər 2.5ºC | 2100-cü ildə bazara kumulyativ təsir qlobal ÜDM-nin 0,1%-ni keçmir |
| Stern (2005) | İlkin ssenariyə görə 2100-cü ilə qədər 2.4 ºC ilə 5.8 ºC | İllik qlobal ÜDM itkisinin ortalama dərəcəsi 5%-ə bərabər olur |
Tədqiqatın məhdudiyyəti ondan ibarətdir ki, pandemiya şəraitində kitabxanalar işləmədiyi üçün mövzu ilə əlaqədar kifayət qədər ədəbiyyatın əldə oluna bilməməsidir.

Tədqiqat prosesində tədqiqat obyektinə və mövzusuna inteqrasiya olunmuş yanaşmadan istifadə edilmişdir, ümumi elmi idrak metodlarından istifadə edilmişdir (induksiya, deduksiya, müqayisə, analiz, sintez, ümumiləşdirmə), həmçinin müqayisə metodları statistik və dinamik analiz, mücərrəd-məntiqi metodlardan istifadə edilmişdir.

## Əsas hissə

Pul müasir iqtisadiyyatda, təsərrüfat subyektlərinin fəaliyyətinin yaxşılaşmasına, məhsul istehsalının həcminin artırılmasına, onun çeşidlərinin yaxşılaşdırılmasına və hazırlanmasına keçilən xərclərin ixtisar olunmasına stimul yaradır, müəssisə kollektivi və dövlət orqanları tərəfindən resurslardan qənaətlə istifadə edilməsində, pul daxilolma-larının artmasında onların marağını artırır. Pul məcmu ictimai məhsulun bölgüsü və istifadəsi üzərində nəzarətin həyata keçirilməsi üçün imkanlar yaradır.

Mərkəzi bankın müstəqilliyi əksər tədqiqatçılar tərəfindən uğurlu pul siyasəti üçün zəruri amil kimi tanınır. Bir tərəfdən mərkəzi bank dövlətlə sıx bağlıdır. İqtisadi mexanizmin bir hissəsi olaraq, mərkəzi bank bütövlükdə müstəqil bir əlaqə olaraq onun birliyini təmin edir.

Digər tərəfdən, yalnız müstəqil bir iqtisadi qurum deyil, həm də müstəqil bir təşkilatdır, çünki ölkədəki yeganə nağd pul emitenti olmaq üçün müstəsna hüquq verilmişdir.

Pul siyasətinin həyata keçirilməsindən məsul olan pul bu sahədəki əsas subyekt olaraq, mühakimə və hərəkətlərində müstəqildir.

Bundan əlavə, onun müstəqilliyi, digər fikirləri qəbul edə və nəzərə ala biləcəyindədir, eyni zamanda onların təsirindən azaddır və zərər vermə ehtimalı barədə öz anlayışına əsaslanaraq qərar qəbul etmək hüququna malikdir, ancaq əsas vəzifəsinin həyata keçirilməsini təmin edir.

Pul kimi istifadə olunan məhsulun və əmtəə kimi məhsulun dəyərinə pul sistemi deyilir. Əmtəə-pul sistemləri tək və iki sistemə bölünür. Bir sikkədən (qızıl və ya gümüş) hazırlanan sikkələr, tək bir metal sistemində istifadə edildiyi təqdirdə, ikincil metal sistemində ödənişlərdə birlikdə istifadə edilə bilər.

Niyə bəzi ölkələr qızıl standartından istifadə edirlər?

- Qiymət sabitliyinin təmin edilməsi;
- Beynəlxalq qiymət dalğalanmalarından çəkinmək;
- Satış gəlirlərinin ədalətli bölüşdürülməsini təmin etmək;
- Beynəlxalq ticarətin asanlaşdırılması.

Ödəmə balansı, böhran zamanı bu böhranı həll etmək üçün istifadə olunur. Deyək ki, ölkədə ümumi qiymət səviyyəsində və istehsal xərclərində artım var. Bu, qızıl istehsalının maya dəyərini artırır. Beləliklə, qızıl ehtiyatları azalır, pul kütləsi azalır, nəticədə qiymətlər düşür.

Təmsil pulları, ehtiyac olduqda qızıl və ya gümüşə çevrilə bilən ödəmə vasitələridir. Misal üçün;

qızıl və gümüş (Aslanov A.M. 2012: s.111). Malların pul sistemindən istifadə olunduğu günlərdə insanlar pul istehsalçılarına qızıl və gümüşlərini saxlamağı əmanət edirlər, bunun müqabilində qəbzlərini alaraq bu gəlirləri ödəmələrində istifadə edirlər.

Ödənişlərdə qızıl və ya gümüş əvəzinə bu qəbzlərin istifadəsi dövriyyədə pul kimi istifadə olunan malların dövriyyədən çıxmasının qarşısını alır, bir çox malın valyuta kimi istifadəsinə imkan verir və əməliyyatları asanlaşdırır.

Bu sistemdə bankların etibarlılığı və ehtiyac olduqda onların bankda qiymətli kağıza çevirmə qabiliyyəti vacibdir.

Kağız pul sistemində kağız pulu qızıla çevirmək mümkün deyil. Bu sistem inhisarçı istehsal tələb edir. Bu sistemə görə, əmanətin əhəmiyyəti yoxdur, pulun qiyməti isə olduqca vacibdir (Aslanov A.M. 2012: s.65).

Bu vəziyyətdə pul kağızdan da edilə bilər. Kağızın əmtəə kimi dəyəri demək olar ki, sıfıra bərabərdir, lakin hökumət qiymətli kağız olaraq mübadilə vasitəsi kimi istifadə edəcəyini elan etdiyi üçün dəyərlidir.

Pul Siyasəti Komitəsinin vəzifələri:

Qiymət sabitliyini təmin etmək üçün pul siyasətinin prinsiplərini və strategiyasını müəyyənləşdirmək;

Pul siyasəti strategiyası çərçivəsində hökumət ilə birlikdə inflyasiya səviyyəsinin müəyyənləşdirilməsi;

Pul siyasətinin məqsədləri və tətbiqləri barədə mütəmadi olaraq hesabatlar hazırlamaq və müəyyən olunmuş prinsiplərə uyğun olaraq hökuməti və ictimaiyyəti məlumatlandırmaq.

Mərkəzi bankın istifadə etdiyi geniş faiz dəhlizi qlobal qeyri-müəyyənlik dövründə kapital hərəkəti dəyişkənliyinin təsirinin azaldılmasına böyük töhfə versə də, pul siyasətinin vəziyyətini başa düşmək üçün bəzi çətinliklər də gətirir. Ənənəvi pul siyasətində siyasət maraqları pul siyasətinin mövqeyini müəyyənləşdirir; Geniş faiz dəhlizində pul siyasəti fərqli maliyyələşdirmə dərəcələrindən asılıdır. Bu, pul siyasətinin vəziyyətini anlamağı çətinləşdirən bir amildir.

Mərkəzi Bank; Qanunla təyin olunmuş vəzifə daxilində qiymət sabitliyi hədəfinə uyğun olaraq maliyyə sabitliyini nəzərə alaraq, ölkə iqtisadiyyatının balanslı və davamlı inkişafı prosesinə töhfə verməyə davam edir. Bu çərçivədə Bank, inflyasiya ilə mübarizə aparmaq üçün vaxtında və zəruri dərəcədə tətbiq etdiyi pul və likvidlik siyasətindən istifadə edir.

Pul Siyasəti Komitəsi Azərbaycan manatının daxili və xarici dəyərini qorumaq və xarici valyutalara və qızılla qarşılıqlı münasibətini müəyyənləşdirmək üçün məzənnə rejimini təyin etmək üçün lazımi tədbirləri görməyə cavabdehdir və səlahiyyətlidir.

Pul siyasəti yuxarıda göstərilən pul köçürmə mexanizmləri vasitəsilə iqtisadiyyata müxtəlif təsirlər göstərir. Bu kanalların təsiri maliyyə bazarlarının inkişaf səviyyəsindən asılı olaraq ölkələrdən ölkələrə fərqli ola bilər. Həqiqətən, bəzi kanalların zaman keçdikcə ölkədə getdikcə daha əhəmiyyətli bir rol oynadıqlarını görmək mümkündür.

Məsələn, son araşdırmalar göstərir ki, valyuta məzənnəsinin təsiri və bankın kredit kanalının təsiri mühüm rol oynayır. Mərkəzi banklar pul siyasətini inkişaf etdirərkən bu köçürmə kanallarını birlikdə nəzərdən keçirməlidirlər.

Son illərdə aparılan tədqiqat nəticələri göstərir ki, mərkəzi bankın müstəqilliyi və pul tənzimlənməsi pul tənzimləməsinin uğurla həyata keçirilməsi üçün yeganə şərt deyil.

Vergi siyasəti dövlət xərcləri, vergilər, borclanma və büdcə siyasəti kimi məsələlərlə məşğul olur. Pul siyasəti; iqtisadiyyatda pulun miqdarını və dəyərini təyin etmək üçün mərkəzi bankın müraciətlərinə əsasən aparılır. Bu gün bir çox mərkəzi bank qiymət sabitliyinə nail olmaq üçün pul siyasətindən istifadə edir.

Qısamüddətli faiz dərəcələri ümumiyyətlə pul siyasətini idarə etmək üçün istifadə olunur. Qısamüddətli faiz dərəcəsi mərkəzi bankların maliyyə qurumları ilə əməliyyatlarında istifadə etdikləri faiz dərəcəsidir.

Faiz dərəcələrindəki dalğalanmalar faizləri, aktiv qiymətlərini, valyuta məzənnələrini və bankların və digər maliyyə qurumlarının müştəriləri üçün təyin etdikləri gözləntilərə təsir edir.

Beləliklə, iqtisadiyyatın gedişi, yəni iqtisadi fəaliyyət və qiymətlər ümumi səviyyəyə təsir göstərir (Aslanov A.M. 2012: s.100). Azərbaycan Respublikasının Mərkəzi Bankı, ölkəmizdə pul siyasətini təyin etmək səlahiyyətinə və məsuliyyətinə sahib olan yeganə qurumdur. Mərkəzi bank qiymət sabitliyinə nail olmaq üçün pul siyasətindən istifadə edir.

Pul tənzimlənməsini həyata keçirən mərkəzi bank, ilk növbədə, bank sisteminin kredit potensialını stimullaşdıran və ya məhdudlaşdıran, iqtisadiyyatın pul resursları ilə doyduğu kommersiya banklarının

resurslarına təsir göstərir.

Pul siyasətini birbaşa həyata keçirən qurumlarla yanaşı, pul siyasəti subyektlərinin sayına dolayısı ilə onun həyata keçirilməsində iştirak edən orqanlar da daxildir. Beləliklə, ölkədəki pul sahəsinin vəziyyəti Maliyyə Nazirliyi, Xəzinədarlıq, Əmanətlərin Sığortalanması Agentliyi və bir sıra digər təşkilatlar kimi qurumlardan təsirlənir.

Mərkəzi bank sərəncamında olan alətlərin ötürülməsi (ötürülməsi) mexanizmləri vasitəsi ilə pul siyasətinin ara məqsədlərinə təsir göstərə bilər. Bu mexanizmlər pul təklifinin iqtisadi fəaliyyətə təsir göstərdiyi dəyişənlər sistemini təmsil edir.

Pul siyasətinin ötürülmə mexanizmi kanallarının tədqiqatları daxil edilmişdir. Şanzıman mexanizmindəki son əlaqə iqtisadiyyatın real sektorunun məcmularından ibarətdir: istehlak, investisiya, dövlət xərcləri, xalis ixrac və ya ümumi daxili məhsul və ötürmə impulslarının mənbəyi (zəncirdəki ilk əlaqə) müxtəlif maliyyə dəyişkənlikləridir.

İnkişaf etmiş ölkələr, mərkəzi banklar tərəfindən idarə olunan bir impuls mənbəyi kimi maliyyə təsir vasitələrindən istifadə ilə xarakterizə olunur. İnkişaf etməkdə olan ölkələrdə və qlobal iqtisadi mühitdən çox asılı olan ölkələrdə real ötürülmə dəyişiklikləri ekzogen dəyişənlərlə müəyyən edilir.

Beləliklə, iqtisadiyyatın strukturu ötürmə mexanizminin təbiətinə təsir göstərir: endogen (əsas maliyyə göstəricilərindəki süni dəyişikliklər nəticəsində) və ekzogen (makroiqtisadi mühitdə dəyişikliklər olduqda).

Bundan əlavə, pul siyasəti impulslarının bu və ya digər kanaldan keçməsi milli maliyyə (kredit) sisteminin növündən asılıdır: bank sistemi və ya bazar sistemi.

Birinci halda, maliyyə mənbələri əsasən iqtisadiyyatın bank sektoru vasitəsi ilə bölünür, ikincisi, iqtisadiyyatın real sektorunun maliyyələşdirilməsi qiymətli kağızlar bazarı vasitəsilə həyata keçirilir.

İqtisadiyyatın idarə edilməsi və tənzimlənməsi bir-biri ilə əlaqəli və müəyyən bir sistemi təmsil edən bir sıra elementlərin mövcudluğunu nəzərdə tutur. Bu, pul daxil olmaqla iqtisadiyyatı tənzimləyən hər hansı bir metod üçün tətbiq olunur. Tənzimləmə sistemində aşağıdakılar olmalıdır (Aslanov A.M. 2012: s.169):

- hədəflər;
- bir obyekt;
- mövzu;
- fəaliyyət mexanizmi;
- alətlər;
- metodlar.

Bütün elementlərin olması iqtisadiyyatın dövlət tənzimlənməsi metodunun mahiyyətinin daha dolğun və dəqiq tərifini verir.

Dövlət pul siyasətinin aparılması və iqtisadiyyatın pul tənzimlənməsi problemləri ilə bağlı bir çox nəşrlər mövcuddur, lakin "pul siyasəti" kateqoriyasının tərifi, mahiyyəti, məzmunu ilə bağlı fikirlər fərqlidir.

Pul siyasəti qarşısında qoyulan vəzifələrə nail olmaq üçün Azərbaycan Respublikasında monetar inkişaf modellərinin qurulması sahəsində kompleks işlər aparılır.

Respublikamızın Mərkəzi Bankı ölkə iqtisadiyyatında, o cümlədən pulkredit sahəsində gedən proseslərin qiymətləndirilməsi üçün ekonometrik metodların tətbiqinə xüüsusi diqqət yetirir.

Dünya təcrübəsi göstərir ki, ekonometrik tədqiqat metodları iqtisadiyyatda fundamental tədqiqatlar aparmağa və bunun nəticəsində daha dəqiq və səmərəli iqtisadi siyasət həyata keçirməyə imkan verir. Məhz bu iqtisadi zərurət baxımından Azərbaycan Respublikasının Mərkəzi Bankı monetar idarəetmənin qurulmasında, pul siyasətinin işlənməsində iqtisadi-riyazi modelləri tətbiq etməyə başlayıb.

Bu işlərin nəticəsi olaraq makroiqtisadi tədqiqatların müasir ekonometrik aparatı yaradılmış, riyazi-iqtisadi üsulların geniş tətbiqinə keçilmişdir.

**Açar sözlər:** *Mərkəzi Bank, inteqrasiya, davamlı inkişaf pul siyasəti, investisiya, makroiqtisadi mühit.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Allahverdiyev H.V., Qafarov K.S., Əhmədov Ə.M. (2012) "İqtisadiyyatın dövlət tənzimlənməsi". Bakı, "Elm", 494 səh.*

*2. Aslanov A.M. (2012). "Maliyyə və bank statistikası", Bakı. "Azərnəşr", 169 səh.*

*3. Azərbaycan Respublikası Mərkəzi Banki maliyyə sabitliyi icmalı. Bakı, 2011.*

*4. Bağırov M.M. (2013). "Bank və bank əməliyyatları". Ali məktəblər üçün dərslik, Bakı, "Elm", 382 səh.*

*5. Bəşirov R.A. (2014) "Bank işi". Bakı, "Çaşıoğlu", 397 səh.*

*6. Əliyev A., Şəkərəliyev A. (2012). "Bazar iqtisadiyyatına keçid-dövlətin iqtisadi siyasəti". Bakı,*

*"Azərbaycan", 130 səh.*

*7. Əsgərova R. (2014). "Pul, Kredit və Banklar". Bakı, "Çaşıoğlu", 145 səh.*

*8. Məmmədov N. (2011). "Bank və maliyyə terminləri lüğəti", Bakı, 44 səh.*

*9. Məmmədov Z. (2011). "Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi". Bakı, "Adiloğlu", 348 səh.*

*10. Məmmədov Z. (2016). "Pul, Kredit və banklar". Dərslik. Bakı, 168 səh.*

*11. Məmmədov Z., Abbasov Ə., Rzayev R., Həmişəyeva Ş. (2013). "Bank işi və elektron bankçılıq", Bakı, "Azərbaycan", 256 səh.*

*12. Rzayev R.M. və b. (2010). "Pul, kredit və banklar". Dərslik. Bakı, 201 səh.*

*13. Sadıqov M.M., Balayeva E.Ə., Həmişəyeva Ş.Ü. (2013). "Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi". Bakı, "Elm", 413 səh.*

*14. Tağıyev və başqaları. (2009). "Maliyyə, pul tədavülü və kredit", Bakı, "Azərnəşr", 73 səh.*

*15. Vəliyev D. (2010). " Beynəlxalq Maliyyə", Bakı, "Çaşıoğlu", 131 səh.*

*16. Vəliyev F.S., Meybullayev M.X., Babayev Ə.P. və b. (2009). "İqtisadi nəzəriyyə", Dərslik, Bakı, 14 səh.*

*17. http://money.aol.com/news/articles/banking/_a/lost-bank-tapes-may-expose-millions/20080521193009990001*

*18. http://www.lewrockwell.com/rothbard/frb.html*

*http://www.piaohaoreport.sampasite.com/china-financial-markets/blog/The-informal-banking-sector-is-g.htm*

## MAIN FEATURES AND MAIN FACTORS OF MONEY-CREDIT REGULATION IN OUR COUNTRY

**Summary**

The article examines the main factors of monetary regulation, considers monetary regulation as a key factor of the economy, identifies the main features of the monetary regulation system. In the modern world, the monetary policy of each state is one of the strongest branches of macroeconomic regulation of the national economy.

Historically, it is one of the first forms of economic regulation. Theoretical studies have confirmed the dependence of macroeconomic indicators on monetary variables. The subject of monetary policy can be interpreted in a broad sense - both the state and the narrow sense - the country's government, the government together with the central bank. The independence of the central bank is recognized by most researchers as a necessary factor for successful monetary policy.

On the one hand, the central bank is closely linked to the state. As part of the economic mechanism, the central bank as a whole ensures its unity as an independent link.

**Keywords:** *Central Bank, integration, sustainable development, monetary policy, investment, macroeconomic environment.*

## ОСНОВНЫЕ ОСОБЕННОСТИ И ОСНОВНЫЕ ФАКТОРЫ ДЕНЕЖНО-КРЕДИТНОГО РЕГУЛИРОВАНИЯ В НАШЕЙ СТРАНЕ

**Резюме**

В статье исследуются основные факторы денежно-кредитного регулирования, рассматривается денежно-кредитное регулирование как ключевой фактор экономики, определяются основные особенности системы денежно-кредитного регулирования. В современном мире денежно-кредитная политика каждого государства является одной из сильнейших отраслей макроэкономического регулирования национальной экономики.

Исторически это одна из первых форм экономического регулирования. Теоретические исследования подтвердили зависимость макроэкономических показателей от монетарных переменных. Предмет денежно-кредитной политики можно толковать в широком смысле - как государство, так и в узком смысле - правительство страны, правительство вместе с центральным банком. Независимость центрального банка признается большинством исследователей как необходимый фактор успешной денежно-кредитной политики.

С одной стороны, центральный банк тесно связан с государством. В рамках экономического механизма центральный банк обеспечивает его единство как полностью независимый субъект.

**Ключевые слова:** *Центральный банк, интеграция, устойчивое развитие, денежно-кредитная политика, инвестиции, макроэкономическая среда.*

UOT 339.187; 339.13; 658.8

# İŞÇİLƏRİN DAVRANIŞ VƏ GÖRÜNÜŞÜNÜN QƏBUL EDİLƏN XİDMƏT KEYFİYYƏTİ VƏ MƏMNUNİYYƏTƏ TƏSİRİNDƏ CİNS AMİLİ (RESTORAN SEKTORU TIMSALINDA)

**ALİYƏ HƏSƏNLİ**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*

*E-mail: aliyagasanli@gmail.com*

**1.1.Restoran sektorunun nəzəri incələnməsi**

Xidmət sektoru iqtisadiyyatın mühüm sahələrindən biridir. Xidmət sektorunun qlobal bazardakı payı əhəmiyyətli səviyyəyə çatmışdır. Lakin, mühüm sektor olsa da, xidmətin hələ də tam bir tərifi yoxdur. Xidmət hər hansı mal, əmtəə deyil, bir fəaliyyət prosesidir.19-cu əsrin ikinci yarısından sonra Sənaye inqilabı ilə sənayeləşmə və şəhərləşmə dövrü başladı. Əvvəlki dövrlə müqayisədə işləyən qadınların sayı artmağa başladı. Bununla da artıq evdən kənarda hazırlanan yeməklərə tələbat da artdı. Restoranların inkişafı elə bu dövrdən başladı. Bundan əlavə turistlərin də axını restoranlara olan tələbatın artmasına səbəb oldu. Bu artım həm müştərilərin gözləntilərinin artmasına,xidmətdə dəyişikliyin edilməsində, yeni müştərilərin cəlb edilməsində və mövcud müştərilərin saxlanmasında yeni strategiyaların inkişaf etdirilməsinə təsir göstərmişdir.( Tuncer İ, Unusan C, and Cobanoglu C, 2020: s.1-29) Restoran yalnız qida satan bir təşkilat kimi deyil, qida və içkilər ilə insanlara xidmət göstərən bir təşkilat kimi qəbul olunmağa başladı. Turistlər milli yeməkləri təcrübədən keçirməyə maraqlı idilər. Bu səbəbdən restoran rəhbərləri müştərilərə fərdi şəkildə yanaşmağa, onların gözləntilərini öyrənməyə çalışır.( Li A və başqaları, 2019: s.369-374)

**1.2.İşçi davranışı dəyişkəninin nəzəri incələnməsi**

Marketinq araşdırılması aparılan zaman əsas 2 şəxsiyyətə aid davranışlar dəqiq edirlər. Bunlardan biri işçi davranışı, digəri istehlakçı davranışıdır. (Ekinci Y. və Dawes P.L., 2009: s. 503–521) İşçilər şirkətlər onun müştəriləri arasında əlaqələndirici şəxslərdir.Həmçinin,işlərin davranışı xidmət keyfiyyəti haqqında müştəri qərarlarına təsir göstərir. (Alhelalat J. A., HabiballahM. A., və Twaissi N. M., 2017: s. 46–53) Sosial-pisxologiya baxımından işçilər satılan malın və ya göstərilən xidmətin müştəri tərəfindən daha yaxşı başa düşülməsində vacib rol oynayır. Buna görə də xüsusilə xidmət sektorunda müştərilərin daha çox məmnun qalması müştərilərlər birbaşa işləyən işçilərdən asılı olur. Çünki o işçilər müştərilərlə üz-üzə olur və onların davranışı, danışıq tərzi müştərilərdə xidmət keyfiyyəti və şirkətin imici haqqında təsəvvür yaradır. (Ekinci Y. və Dawes P.L., 2009: s. 503–521) məmnuniyyətinin artırılması üçün işçilərin ünsiyyət qabiliyyətiləri artırılmalıdır. Bəzi araşdırmalarda göstərilir ki, işçilərin şəxsi keyfiyyətləri ilə professional keyfiyyətləri müştəri məmnuniyyətinə fərqli təsirlər göstərir. Xüsusilə qeyd etmək lazımdır ki,işçilərin davranışı:bədən dili,gülümsəmə,salamlaşma və səmimiyyət xidmət keyfiyyətinin daha yaxşı qəbul edilməsində vacib amillərdir.(Alhelalat J. A., HabiballahM. A., və Twaissi N. M., 2017: s. 46–53)

**1.3.İşçi görünüşü dəyişkəninin ədəbiyyat incələməsi**

İşçi görünüşü xidmət sektorlarında sözlü olmayan bir ünsiyyət vasitəsidir və işçilərin geyimi müştərilərin xidmət keyfiyyəti ilə bağlı gözləntilərinə bir başa təsir göstərir.( Wang Y.-C. və Lang C., 2019: s. 1–9) Restoranlarda işçilərin geyim tərzi və işçilərin ümumi görünüşü əvvəlcədən müştərilərdə restoranın xidmət keyfiyyəti haqqında fikir yaranmasına səbəb olur. Aparılan araşdırmalara görə müştərilər bir restoranın xidmətlərinin keyfiyyətli olmasına və ya işçilərin professional olub olmadığna işçilərin geyimi əsasında ümumi bir qərar qəbul edirlər. Məsələn,bəzi ağ rəngdə geyinən işçilərin olduğu restoranlar digərlərindən daha çox müştəriləri cəlb etdiyini göstərən araşdırmalar da mövcuddur.(Chen Y.-C. D. və Lee, C.-S. 2018: s. 1223–1235)

Xidmət keyfiyyəti haqqında aparılan əksər araşdırmalarda qəbul edilən xidmət keyfiyyəti və müştəri məmnuniyyətinə təsir göstərən amillərdən insanların qarşılıqlı ünsiyyətlərinə nəzərən fiziki

mühit amilinə daha az yer verilmişdir. Lakin Bitner (1992) modeli ilə göstərilmişdir ki, fiziki mühit (interyer dizayn,geyim tərzi,rənglər,işıqlar və s.) işçilərin də,müştərilərin də davranışlarına təsir göstərir. Həmçinin, xidmət sahəsinin və işçilərin görünüşünün təmizliyi və səliqəliyi xidmət keyfiyyəti haqqında müştərilərin qərar qəbul etməsində mühüm təsir göstərir. İşçilərin görünüşünün restoran sektorunda müştəri məmnuniyyətinə təsiri vacibdir. Lakin, buna baxmayaraq, bu təsir çox araşdırılmışdır. Gabbott və Hogg (2000) öz tədqiqatlarında xidmət göstərən işçilərin fiziki cəlbediciliyinin müştəri məmnuniyyəti üzərində əhəmiyyətli təsiri olduğun göstərmişlər. Eləcə də, Koernig və Page (2002) öz araşdırmalarında müştərilərin qəbul etdikləri xidməti qiymətləndirərkən işçilərin geyimlərini, görünüşlərini diqqətə aldıqlarını göstərmişlər.( Söderlund M. və Julander C.-R., 2019: s.216–226)

Xidmət keyfiyyəti bir təşkilatın ümumi fəaliyyətinin qiymətləndirilməsində əsas faktorlardan biridir. Əvvəlki araşdırmalar göstərir ki, xidmət işçilərinin müştərilərin qəbul etdikləri xidməti qiymətləndirməsində əhəmiyyətli rol oynayır. (Luoh H.-F. və Tsaur S.-H., 2009: s. 1093–1104)

**1.4.Xidmət keyfiyyəti dəyişkəninin ədəbiyyat incələməsi**

Keyfiyyət bütün ticarət sektorlarında müştərilər tərəfindən arzu edilən və gözlənilən nəticədir. Həmçinin, keyfiyyət müştəriləri cəlb etmək və əldə tutmağın başlıca yollarından biridir. Bir neçə tədqiqatçı xidmət və ticarət sektorunda keyfiyyətə fərqli aspektlərdən yanaşıldığın göstərmişdir. Xidmət sektorunda əsas məqsəd göstərilən xidmətin müştəri tərəfindən keyfiyyətli qəbul edilməsidir. Ümumiyyətlə xidmət keyfiyyəti xidmət bazarında rəqabət aparılmasında əsas faktorlardan biridir. Təşkilatlar anlamalıdırlar ki, müştəriləri əldə saxlamaq, onları məmnun etmək yeni müştərilər qazanmaqdan daha sərfəlidir. Çünki, məmnun müştərilər yeni müştərilərin gəlməsi üçün vacibdir. Buna görə də, xidmət göstərərkən mütləq bunu nəzərə almalı, keyfiyyətli xidmət göstərməlidirlər. (Gopi B. və Samat N., 2020: s.1-14)

Xidmət keyfiyyəti və müştəri məmnuniyyəti xidməti təmin edən zəncirin əsas elementləri kimi müəyyən edilmişdir.Xidmət keyfiyyətinin daha yüksək səviyyədə olması müştəri məmnunluğunun daha yüksək səviyyəsini yaradır ki, bu da müştəri himayəsi və satış gəlirlərinin daha yüksək olmasına səbəb olur. Beləliklə, daha yüksək bir xidmət keyfiyyətinin əldə olunmasına diqqət edilməsi xidmət təşkilatlarının bazarda özlərini daha effektiv şəkildə göstərə bilmələri üçün vacib bir strategiyadır (Chow I-H. və başqaları, 2007: s. 698–710)

Xidmət keyfiyyəti təşkilatların bir-birilə apardığı rəqabətin əsas amilidir. Çünki məmnun müştəri qazanmağın əsas yolu keyfiyyətli xidmət göstərməkdir. Xidmət keyfiyyəti fərqli ədəbiyyatlarda fərqli cür tərif edilmişdir. Bəzi ədəbiyyatlarda xidmət keyfiyyətinin 3 əsas müəyyən edici amilləri var. Bunlar aşağıdakılar:

Fiziki amillər ( Restoranın görünüşü, məkan atmosferi, temperatur və s.);

Təşkilatın imici və atributları;

Müştərilər ilə olan əlaqə.( Namin A., 2017: s. 70–81)

**1.5.Müştəri məmnuniyyəti dəyişkəninin ədəbiyyat incələməsi**

Müştəri məmnuniyyəti müştərinin ona təqdim olunan məhsulu və ya xidməti həddən artıq qiymətləndirməsi kimi müəyyən edilir. (Gustafsson A., Johnson M. D. və Roos, I., 2005: s. 210–218). Aparılan tədqiqatlar nəticəsində müştəri məmnuniyyətinin müştəriləri saxlamağın əsas meyarlarından olduğu bildirilir. (Anderson E. W., Fornell C. və Mazvancheryl S. K., 2004: s.172-185). Oliver(1981) müştəri məmnuniyyəti ilə bağlı aparılan araşdırmalarında "Təsdiqləmə" modelini tədqim etmişdir. Belə ki,bu modelə əsasən müştəri məmnuniyyəti müştərinin gözləntiləri ilə qavrayışları arasındakı subyektiv müqayisənin nəticəsidir.( Oh H,1999: s. 67– 82)

Xidmət keyfiyyəti barədə ədəbiyyatlarda müştəri məmnuniyyətinin müştərinin aldığı dəyəri qavraması kimi iddia olunub,dəyər və xidmət keyfiyyəti,qiymət kimi xüsusiyyətlərlə birləşməsinə əsaslanır.( Cronin J. J., Brady M. K., və Hult G. T. M., 2000: s. 193– 218).Bundan əlavə,müştəri məmnuniyyətinin gözlənti ilə nəticənin müqayisə olması ilə yanaşı müqayisə prosesi zamanı yaranan emosional bir hiss kimi qiymətləndirilir.( Tam J. L. M.,2004: s. 897– 917)

Müştəri məmnuniyyəti müştəri saxlama və

sədaqət üçün ön şərt sayılır və açıq şəkildə gəlirlilik, bazar payı, investisiya qoyuluşu və s. kimi iqtisadi hədəflərə nail olmaqda kömək edir. (Sureshchandar G. S., Rajendran C. və Anantharaman R.N., 2002: s. 363–379). Belə ki, məmnun müştəri rəqiblərdən daha az təsirlənməyə, daha az qiymətə həssas olmağı və daha uzun müddət sadiq qalmağı düşünür (Ooi K. və başqaları, 2011: s. 410–419) .

Tədqiqatlar xidmət keyfiyyətinin,qavranılan dəyərin hamısının müştəri məmnuniyyətinə,müştəri məmnuniyyətinin də müştərinin sədaqətinə təsir göstərdiyini göstərir.(McDougall G.H.G. və Levesque T. 2000: s. 392– 410). Marketoloqlara görə yeni müştərilərin əldə edilməsi cari müştərilərin əldə saxlanmasına nəzərən daha çox xərc tələb edir. Bu səbəbdən müştəri məmnuniyyətin araşdırılması və ölçülməsi sahəsində fərqli metodlar irəli sürüldü. ( Flint D.J., Blocker C.P. və Boutin P. J., 2011: s. 219–230).

**1.6.Tədqiqatın dəyişkənləri arasında əlaqənin nəzəri əsaslandırılması və hipotezlər:**

Xidmət zamanı həm maddi, həm də qeyri-maddi amillər müştərilərin xidmət təcrübəsini necə qiymətləndirməsində vacib rol oynayır.Müştəri ilə işçilərin əlaqəsi müştərinin qərar qəbuluna təsir göstərən əsas amillərdən biri olsa da, bu əlaqə haqqında çox az sayda araşdırma vardır. Müştərilərin aldıqları xidməti qiymətləndirməsində işçilərin fiziki görüşünü, cəlbediciliyi və s. kimi amillər əsas rol oynayır. (Kim K və . Baker M. A, 2017: s.1-21).

Tədqiqatlar göstərir ki, işçilərin geyimlərinin qəbul edilən xidmət keyfiyyəti üzərində böyük təsiri vardır. Xüsusilə işçi formalarının rəngi müştərilərin cəlb edilməsinə təsir göstərən vacib amillərdən biridir. Qızılı, qırmızı, bənövşəyi rənglərin iştaha təsir göstərdiyi araşdırmalarda öz təsdiqini tapmışdır. (Chen Y.-C. D. və Lee C.-S., 2018: s. 1223–1235)

H1-İşçi davranışı xidmət keyfiyyətinə təsir göstərir.

H2-İşçi görünüşü xidmət keyfiyyətinə təsir göstərir.

. Müxtəlif alimlər işçilərin restoranlarda mükəmməl xidmət göstərməsində oynadığı rolla əlaqədar çox araşdırma aparılmadığını iddia etsələr də, (Alhelalat J. A., Habiballah M. A. və Twaissi N. M 2017: s. 46–53) bir çox tədqiqatlar işçilərin davranışlarının,göstərdikləri xidmətin keyfiyyətinin, müştəri sədaqəti və sədaqətlə əlaqəli davranışlar arasında pozitiv bir əlaqə müəyyən etmişdir.Buna görə də işçilərin davranış və görünüşünün müştəri məmnuniyyətinin təmin edilməsində olan rolu araşdırmanın mərkəzindədir. İşçilərin davranışı dedikdə,əsas diqqət işçinin uğurlu ünsiyyət qabilliyyəti və müştəri ehtiyaclarını vaxtında dəqiq formada ödəmək bacarıqlarına yönəldilmişdir.

H3-İşçi davranışı müştəri məmnuniyyətinə təsir göstərir.

H4- İşçi görünüşü müştəri məmnuniyyətinə təsir göstərir.

H5- Xidmət keyfiyyəti müştəri məmnuniyyətinə təsir göstərir.

Xidmət sektorunda bir müşərinin ona göstərilən xidməti dəyərləndirməsi çox qarışıq qarışıqdır. Çünki müştərilər qiymətləndirməni subyektiv olaraq aparır. Bundan əlavə bir sıra araşdırmalarda göstərilir ki, kişi və qadın müştərilər xidməti fərqli aspektlərdən qiymətləndirirlər. Həmçinin xidmət sahələrinin də müştərinin gözləntilərinin üstündə xidmət göstərməsi çətin prosesdir.Restoran kimi xidmət sektoranlarda yüksək keyfiyyətli xidmətin təmin olunması öndə çalışan işçilərdən çox asılıdır. Xidmətin göstərilməsi zamanı müştəri ilə birbaşa ünsiyyətdə ön sahəsinin işçiləri olduğu üçün, müştərilərin təşkilat haqqında fikir yaranmasına da ən çox onlar təsir göstərirBu baxımdan tədqiqatçılar xidmət sektorunda müştərilərlə birbaşa çalışan işçilər haqqında daha çox araşdırma edirlər. (Bahadur W. və başqları, 2019: s. 1–24)

H6-İşçi davranışının qəbul edilən xidmət keyfiyyətinə təsirində qadın və kişi müştərilər arasında fərqlilik vardır.

H7- İşçi görünüşünün qəbul edilən xidmət keyfiyyətinə təsirində qadın və kişi müştərilər arasında fərqlilik vardır.

H8-İşçi davranışının müştəri məmnuniyyətinə təsirində qadın və kişi müştərilər arasında fərqlilik vardır.

H9- İşçi görünüşünün müştəri məmnuniyyətinə təsirində qadın və kişi müştərilər arasında fərqlilik vardır.

Xidmət keyfiyyəti çox geniş bir termindir. Ona görə bir çox araşdırmanın mərkəz mövzusudur. Xidmət keyfiyyətinə təsir edən faktorlar araşdırılarkən xidmət keyfiyyətinin özünün alt dəyişkənlərinə də diqqət edilir. Belə ki, xidmət

keyfiyyəti bir neçə faktorların birləşməsi nəticəsində ortaya çıxır. Bu faktorlara məkanın fiziki imkanları, interyer dizaynı, atmosferi, qida keyfiyyəti aid edilir. Bu faktorların hamısı müştərilərin məmnuniyyətinə təsir göstərən faktorlardır. (Barber N, Goodman R. J. və Goh B. K., 2011: s. 329–336)

H10-Xidmət keyfiyyətinin müştəri məmnuniyyətinə təsirində qadın və kişi müştərilər arasında fərqlilik vardır.

### 1.7.2.Tədqiqat modeli




### 2.1. Demoqrafik məlumatların analizi

Analiz metodları olaraq Frekans, Independent Samples T və One- Way ANOVA testlərindən və SEM, Faktor analizlərində istifadə edilmiş,məlumatların analizində SPSS istifadə edilmişdir.

Demoqrafik amillər götürülərək Frekans analizi edilmişdir. Sorğuda 356 respondent iştirak etmişdir. Onlardan analizdə istifadə edəcəyimiz demoqrafik amillərin frekans analiz nəticələrinə uyğun olaraq iştirakçılardan 209 qadın (58.7%),147 kişi(41.3%) olmuşdur. İştirakçılar arasında ən çox say 18-29 yaşlarında (285), ən az isə 50+ yaşlarında (4) olmuşdur. Digər yaş kateqoriyaları üzrə 30-39 yaş aralığında 56,40-49 yaş aralığında 11 nəfər iştirak etmişdir. İştirakçılardan 341 nəfər ali, 8 nəfər texnikom və ya kollec, 3 nəfər peşə,4 nəfər isə orta təhsilli şəxslərdir.

Gəlir səviyyəsi üzrə respondentlərin 107 nəfəri 0-250,83 nəfər 251-500, 92 nəfəri 501-1000, 39 nəfəri 1001-1500, 35 nəfəri 1500+ gəlir qrupuna aiddir.

### 2.2 Faktor analizi

**Cədvəl 1. Faktor analizi və Güvənirlilik testi**

KMO=0.924    Bartlett,df=210, Approximate    Chi-square=4952.658,p<0.001

| Factors | Factor loading | Explained variance | Cronbach's alpha | Mean |
|---|---|---|---|---|
| *İşçilərin görünüşü* | | 11.096 | 0.841 | |
| İşçilər səliqəli geyimdədir. | 0.794 | | | 4.06 |
| İşçilərin geyimi gigiyenikdir. | 0.735 | | | 3.83 |
| İşçilərin görünüşləri xoşagələndir. | 0.704 | | | 3.94 |
| *İşçilərin davranışı* | | 18.880 | 0.891 | |
| Problemləri etməyi həll bacarırlar. | 0.843 | | | 3.55 |
| Müştərilərin şikayətlərini idarə etməyi bacarırlar | 0.824 | | | 3.57 |
| Müştərilərin istək və ehtiyaclarına qarşı diqqətlidirlər. | 0.763 | | | 3.73 |
| Səhvlərə görə üzr istəməyi bacarırlar | 0.676 | | | 3.75 |
| İşçilərin ünsiyyət qabiliyyətləri | 0.670 | | | 3.63 |
| yüksəkdir. | 0.613 | | | 3.22 |
| Olmayan məhsul haqqında əvvəlcədən məlumatlandırırlar | | 13.580 | 0.878 | |
| *Müştəri məmnuniyyəti* | 0.808 | | | 3.98 |
| Yenidən bu restorana getməyi | 0.807 | | | 3.93 |
| düşünürəm | 0.665 | | | 3.44 |
| Bu restoranı dostlarıma da tövsiyyə edirəm | 0.622 | | | 4.04 |
| Bu restoran digər restoranlarla | | 13.558 | 0.817 | |
| müqayisədə ilk seçimimdir. | 0.837 | | | 3.84 |
| Restoran yeməklərindən məmnun qaldım | 0.826 | | | 3.90 |
| *Atmosfer* | | | | |
| Məkan cəlbedici rənglərlə dizayn | 0.663 | | | 3.91 |
| edilmişdir. | 0.631 | | | 3.64 |
| Restoranın interyer dizaynı və dekoru | | 14.675 | 0.879 | |
| cəlbedicidir. | 0.839 | | | 3.85 |
| Məkan havası normal temperaturdadır. | 0.825 | | | 3.85 |
| Fon musiqisi xoşagələndir. | 0.774 | | | 4.05 |
| *Qida* | 0.558 | | | 4.13 |
| Qidaları təzədir. | | | | |
| Qidaları təhlükəsizdir. | | 71.789 | | |
| Qidaları təmizdir. | | | | |
| Yemək ərazisi təmizdir. | | | | |
| *TOTAL VARIANCE EXPLAINED* | | | | |

İlk öncə, p dəyərinin 0.001-dən kiçik olması və KMO və Bartlett testinin nəticələrinin yüksək olması analizin edilməsinin məqsədəuyğun olduğunu göstərir. Cədvəl 1-dən da göründüyü kimi, faktor analizi nəticəsində ifadələr 5 faktor da toplanmışdır. Bunlardan işçi davranış,işçi görünüşü müstəqil dəyişkənlər, məkan atmosferi və qida alt dəyişkənləri ilə ölçülən qəbul edilən xidmət keyfiyyəti və müştəri məmnuniyyəti asılı dəyişkənlərdir. Toplam 21 olmaqla, işçi görünüşü 3, işçi davranışı 6, müştəri məmnuniyyəti 4, məkan atmosferi 4, qida 4 ifadəylə ölçülmüşdür. Güvənirlilik analizi nəticəsində alınan Cronbach's alpha dəyərlərinə baxdıqda, araşdırmanın güvənli olduğu görünür. Bundan əlavə,hər ifadə üzrə ortalama dəyəri alınıb cədvəldə qeyd edilmişdir.

### 2.2. SEM analizi

SEM analizi üçün SPSS AMOS 26 proqramı istifadə edilmişdir. İşçi davranışı,işçi görünüşü,müştəri məmnuniyyəti və qəbul edilən xidmət keyfiyyəti dəyişkənin alt dəyişkənləri olan

məkan atmosferi və qida dəyişkənləri analizə daxil edilmişdir. Bundan əlavə olaraq, cins moderator dəyişkən kimi analizdə istifadə edilmişdir.

Analizin nəticəsi olaraq Model Fit dəyərləri CMIN/DF=2.224, GFI=0.906, CFI=0.955 və RMSEA=0.059 olmuşdur. Tədqiqatların aparılması üçün qəbul edilən normalara uyğun dəyərlərə uyğun nəticələr alınmışdır. Şəkil 1-də analiz edilən tədqiqat modelinin təsviri göstərilmişdir.

**Şəkil 1. Tədqiqat modeli**




**Cədvəl 2. SEM analizi**

| Model | | | Estimate | S.E. | C.R. | P |
|---|---|---|---|---|---|---|
| Qida | <--- | İşçi davranışı | .293 | .069 | 4.278 | *** |
| Atmosfer | <--- | İşçi görünüşü | .271 | .083 | 3.252 | .001 |
| Qida | <--- | İşçi görünüşü | .487 | .078 | 6.233 | *** |
| Atmosfer | <--- | İşçi görünüşü | .636 | .102 | 6.216 | *** |
| Müştəri məmnuniyyəti | <--- | İşçi davranışı | .457 | .082 | 5.565 | *** |
| Müştəri məmnuniyyəti | <--- | İşçi görünüşü | .267 | .104 | 2.572 | .010 |
| Müştəri məmnuniyyəti | <--- | Qida | .317 | .072 | 4.410 | *** |
| Müştəri məmnuniyyəti | <--- | Atmosfer | .085 | .076 | 1.117 | .264 |

Cədvəl 2.-də göstərilən P dəyərlərinə baxdıqda işçi davranışın qida,atmosfer,müştəri məmnuniyyəti,işçi görünüşünün qida,atmosfer,müştəri məmnuniyyəti və qidanın müştəri məmnuniyyəti üzərində təsiri pozitiv çıxmışdır. P dəyəri yalnız atmosferin müştəri məmnuniyyəti üzərində təsirinin ölçülməsində 0.01-dən yüksək olmuş,yəni təsirin olmadığı müəyyən edilmişdir.

Cins amili tədqiqata moderator dəyişkən kimi daxil edilmişdir. Cədvəl 3.-də işçi davranış və görünüşünün müştəri məmnuniyyəti və qəbul edilən xidmət keyfiyyətinin alt dəyişkənləri olan atmosfer və qida,eləcə də qida və atmosferin müştəri məmnuniyyəti üzərində təsirinin qadın və kişilərdə fərqlilik göstərib-göstərməməsinin nəticələri təqdim edilmişdir.

**Cədvəl 3. SEM analizi (cinsin moderator təsiri)**

| Model | | | P | |
|---|---|---|---|---|
| | | | Qadın | Kişi |
| Qida | <--- | İşçi davranışı | *** | .011 |
| Atmosfer | <--- | İşçi davranışı | .062 | .005 |
| Qida | <--- | İşçi görünüşü | *** | *** |
| Atmosfer | <--- | İşçi görünüşü | *** | *** |
| Müştəri məmnuniyyəti | <--- | İşçi davranışı | *** | *** |
| Müştəri məmnuniyyəti | <--- | İşçi görünüşü | .215 | .006 |
| Müştəri məmnuniyyəti | <--- | Qida | *** | .132 |
| Müştəri məmnuniyyəti | <--- | Atmosfer | .769 | .174 |

### 3.1. Nəticə və təkliflər

Xidmət sektoru beynəlxalq səviyyədə çox tədqiqatlarda araşdırılmışdır. Bu tədqiqatlarda istər xidmət keyfiyyəti, istərsə qəbul edilən xidmət keyfiyyəti, istərsə də müştəri məmnuniyyəti dərindən araşdırılmış, onlara təsir edən amillər ortaya qoyulmuşdur. Bu tədqiqatda da xidmət keyfiyyəti və müştəri məmnuniyyəti araşdırılmış, onlara təsir göstərən amillər analiz edilmişdir. Qəbul edilən xidmət keyfiyyəti və müştəri məmnuniyyətinə işçilərin davranış və görünüşlərinin təsirinin araşdırılması tədqiqatı digər araşdırmalardan fərqləndirir.Bundan əlavə işçilərin davranış və görünüşlərinin qəbul edilən xidmət keyfiyyəti və müştəri məmnuniyyəti üzərində təsirində cinsiyyətin moderator rolu da analiz edilmişdir. Yəni tədqiqatda işçilərin davranış və görünüşünün qəbul edilən xidmət keyfiyyəti və müştəri məmnuniyyətinə təsiri kişi və qadın müştərilərdə fərqlilik göstərir. Tədqiqatda çalışdığımız əsas məsələ kişi və qadın müştərilər arasında hansı amillərin nə dərəcədə fərqlilik göstərdiyini ortaya qoymaqdır.

Sorğunun cavabları SPSS proqramı vasitəsilə analiz edilmişdir. Aparılan Independent Sample T və ONE ANOVA testlərinə görə aşağıdakı nəticələr əldə edilmişdir:

Müştəri məmnuniyyətinə və xidmət keyfiyyətinə münasibət cins,yaş,gəlir faktoruna görə fərqlilik göstərmir. Yəni, fərqli yaşda fərqli cinsdə olan, gəlir səviyyələri fərqli olan müştərilərin hamısının müştəri məmnuniyyəti və xidmət keyfiyyətinə münasibəti eyni olmuşdur. Restorana getmək məqsədinə görə analizin nəticəsi

göstərir ki, xidmət keyfiyyətin ölçən məkan atmosferi ifadəsinə görə iştirakçılar fərqli münasibət göstərir. Bu nəticəyə əsasən bildirmək olar ki, müştərilərin hansı məqsədlə restorana getməsi onların məmnuniyyətinə və xidmət keyfiyyətini necə qəbul etmələrinə təsir göstərməkdədir. Lakin, xidmət keyfiyyətini ölçən digər ifadə-qida keyfiyyətinə münasibət iştirakçıların restorana getmək məqsədlərinə görə fərqlilik göstərmədi.

Faktor analizinin nəticəsi olaraq dəyişkənlər 5 qrupda toplanmışdır. Bunlar aşağıdakılardır:

1) İşçilərin davranışı
2) İşçilərin görünüşü
3) Qida keyfiyyəti
4) Məkan atmosferi
5) Müştəri məmnuniyyəti

Cədvəl 6-da Faktor analizindən əlavə güvənirlilik testisinin də nəticələri göstərilmişdir. Testin nəticəsinə görə bütün dəyişkənlər üzrə Cronbach Alpha dəyəri 0.05-dən yüksək olduğu üçün aparılan sorğunun analiz üçün yararlı olduğu təsdiqlənmişdir.

Tədqiqatın nəticəsinə görə qoyulan hipotezlər haqqında aşağıdakı kimi olmuşdur:

1) İşçilərin davranışının qəbul edilən xidmət keyfiyyəti üzərində təsiri öz təsdiqini tapmışdır. Analizin nəticələrinə görə işçilərin davranışları göstərilən xidmətin müştərilər tərəfindən keyfiyyətli qəbul edilib-edilməməsinə təsir göstərir. Rajib Lochan Dharın (2015) araşdırmasının nəticəsi olaraq göstərilir ki, işçilərə təlim keçirilməsi onların bilik və bacarıqlarını təkmilləşdirərək xidmət keyfiyyətinin yüksəlməsinə səbəb olur. Həmçinin, Chih-Ching Teng və Jung-Hua Chang (2013) tərəfindən aparılan araşdırmada göstərilmişdir ki, işçilərin davranışları, vəzifə öhdəliklərini yerinə yetirmələri müştərilərin həmin xidmət haqqında qərar qəbulunda əhəmiyyətli təsir göstərməkdədir. Eyni nəticə bu tədqiqatda da öz təsdiqini tapmışdır. İşçilərin davranışları müştərilərin qərar qəbuluna təsir göstərməkdədir.Bu nəticəyə əsaslanaraq işçilərə müştərilərlə davranış qaydalarının öyrədilməsi vacib sayılır.

2) İşçilərin görünüşünün qəbul edilən xidmət keyfiyyəti uzərində təsiri də SEM analizində təsdiqlənmişdir. Analizin nəticələrinə görə qəbul edilən xidmət keyfiyyətinin alt dəyişkənləri olan qida keyfiyyəti və məkan atmosferi üzərində təsirində P dəyəri 0.01-dən kiçik olması işçilərin görünüşlərinin qəbul edilən xidmət keyfiyyəti üzərində təsiri olduğun göstərir. İşçilərin fiziki görünüşünün müştəri-işçi əlaqələrinə təsiri barədə olan "How the Employee Looks and Looks at You: Building Customer–Employee Rapport" araşdırmanın nəticəsində göstərilir ki, işçilərin fiziki görünüşü, cəlbediciliyi, işçilərlə müştərilər arasında olan münasibətə böyük təsir göstərir. Bu da öz növbəsində müştərilərin məmnun qalmasına təsir edir. (Kim K və . Baker M. A, 2017: s.1-21).

3) İşçilərin davranışının müştəri məmnuniyyəti üzərində müsbət təsiri vardır. P dəyərinin 0.01-dən aşağı olması işçilərin müştərilərə qarşı davranışının müştərilərin həmin restorandan məmnun qalıb-qalmamaqlarında əhəmiyyətli dərəcədə təsiri olduğunu göstərdi. Araşdırmalarda təsdiq olunmuşdur ki, qadın müştərilər kişi müştərilərə nisbətən daha emosional qərarlar verirlər. Yəni bir restoranda onlara xidmət göstərən işçilərin onlarla necə davranması, davranış tərzi, bədən dili həmin müştərilərin o restorandan məmnun qalıb-qalmamasına təsir göstərəcəkdir. Buna görə də məmnun müştərilər qazanmaq işçilərdən çox asılıdır. İşçi seçimində bunları nəzərə alaraq daha proffessional işçilər seçmək, mütəmadi işçilərə təlimlərin keçirilməsi məsləhət görülür.

4) İşçilərin geyimini, vizual görünüş restoran sektorunda müştərilərin məmnuniyyətinə təsir göstərir Müştərilər olduqları restoranları yenidən seçərkən qida keyfiyyəti və digər amillərlə yanaşı, orda çalışanların geyiminin, görünüşünün necə olmasın da nəzərə alırlar. (Wang Y-C və Lang C, 2019: s. 1–9) İşçilərin görünüşünün müştəri məmnuniyyəti üzərində təsirinin olması analiz vasitəsilə təsdiqlənmişdir. Bunu nəzərə alaraq, restoran sektorunda işçilərin seçimində vizual görünüşə diqqət edilməlidir. Həmçinin təşkilat daxilində geyimlərlə bağlı standartlar yaradıla bilər, vahid formalar hazırlana bilər.

5) Tədqiqatın 5-ci hipotezi xidmət keyfiyyətinin müştəri məmnuniyyəti üzərində təsirini olmasıdır. Tədqiqatda xidmət keyfiyyəti 2 alt dəyişkənə: məkan atmosferi və qida keyfiyyəti olaraq göstərilmişdir. SEM analizinin nəticəsi olaraq P dəyərinə görə xidmət keyfiyyətinin qida keyfiyyəti alt dəyişkəni müştəri məmnuniyyətinə təsir göstəriri. Jooyeon Ha və Soo Cheong (Shawn)Jang (2010) araşdırmasında da xidmət keyfiyyətinin, xüsusilə də qida keyfiyyətinin

müştəri məmnuniyyətinə təsir göstərən əsas amillərdən biri olduğu bildirilmişdir. Bu nəticə də onu göstərir ki, araşdırmanın nəticəsi bundan əvvəl aparılmış tədqiqatın nəticələri ilə uzlaşır. Lakin xidmət keyfiyyətinin digər alt dəyişkəni olan məkan atmosferinin müştəri məmnuniyyəti üzərində təsiri olmadığı nəticədi ortaya çıxmışdır.

6) 2013-cu ildə online maliyyət xidmətləri sektorunda Riadh Ladhari və Andre Leclerc tərəfindən aparılan araşdırma xidmət keyfiyyətinin qəbulunda kişi və qadınlar arasında fərqlilik olduğu göstərilmişdir. Bu araşdırımada işçi davranışının qəbul edilən xidmət keyfiyyətinə təsirində qadın və kişi müştərilər arasında fərqliliyin olması ortaya qoyulmuş və analizdə öz təsdiqini tapmışdır. Analizin nəticəsinə görə belə bir fikir irəli sürmək olar ki, qadınlar kişilərə nisbətən xidmət keyfiyyətini qiymətləndirərkən işçilərin davranışları və proffesional bacarıqlarına da diqqət edirlər. Bu səbəbdən, qadın müştərilərlə danışıq və davranış tərzi kişi müştərilərə nisbətən daha proffesional olmalı, diqqət edilməlidir. Qadın müştəriləri məkanın daha yaxşı yerində yerləşdirmək ola bilər.

7) Fiziki görünüş sözlü olmayan ünsiyyət vasitəsidir. Marketinq araşdırmalarına görə xidmət personalının fiziki cəlbediciliyi, xoş görünüşü müştərilərin qərarlarına əhəmiyyətli dərəcədə təsir göstərir. Bundan əlavə, Gallucci və Meyer (1984) cəlbediciliyin sosial cəhətdən arzu olunan bir xüsusiyyət olduğunu və insanların fiziki cəhətdən cazibədar insanlarla ünsiyyət qurmağı və əlaqələr qurmağı üstün tutduqlarını açıqladılar. (Kim K. və Baker M. A., 2017: s.1-21) İşçi görünüşünün qəbul edilən xidmət -keyfiyyətinə təsirində cinsin moderator rolunu araşdırmaq üçün aparılan analizin nəticəsi olaraq P dəyərinin kişilərdə və qadınlarda 0.01-dən kiçik olması hipotezi təsdiq edir. Zeki Yüksekbilgili tərəfindən aparılan Restoran Seçim Ölçütleri Üzerine Bir Araştırmasında da müştərilərin restoran seçimləri kişi və qadın müştərilərdə fərqlilik göstərmişdir.

8) Otel sektorunda işçilərin davranışlarının turistlərin məmnuniyyətinə təsirində cinsin moderatorun təsirini araşdıran Norazah Mohd Suki (2014) qadınların kişilərə nisbətdə işçilərin daha xoş, mülayim davranışına diqqət edirlər. Belə ki, qadın turistlər işçilərin nəzakətli olması və kömək edib-etməmələri daha vacib amillər kimi sayırlar. Bu araşdırmada da işçilərin davranışının müştəri məmnuniyyətinə təsirində cinsin moderator rolu araşdırılmışdır. Analizinin nəticəsinə görə hipotez təsdiqlənmişdir. Belə ki, SEM analiz vasitəsilə işçi davranışının müştəri məmnuniyyətinə təsirində qadın və kişi müştərilər arasında fərqlilik olduğu nəticələndi.

9) İşçi görünüşünün müştəri məmnuniyyətinə təsirində qadın və kişi müştərilər arasında fərqlilik vardır. Hean Tat Keh, Run Ren, Sally Rao Hill və Xuan Li (2013) tərəfindən işçilərin fiziki görünüşünün- gözəllik, gülərüzlük və s. müştəri məmnuniyyətinə təsirini ölçmək üçün tədqiqat aparılmışdır. Bu tədqiqatın nəticəsinə işçilərin daha xoş görünüşdə olması müştərilərin xidmətdən məmnun qalmasında əhəmiyyətli təsir göstərir. Bu tədqiqatda isə yalnız işçilərin görüşünün müştəri məmnuniyyətində təsiri deyil, həm də bu təsirdə cinsin moderator rolu da araşdırılmışdır. Aparılan analizin nəticəsinə görə işçilərin görünüşlərinin müştəri məmnuniyyətinə təsiri kişi və qadın müştərilərdə fərqli formada təsir göstərməkdədir.

10) Xidmət keyfiyyətinin müştəri məmnuniyyətinə təsiri bir çox tədqiqatlarda araşdırılmışdır. Xidmət keyfiyyəti müştəri məmnuniyyətinin mükəmməl bir proqnozlaşdırıcısıdır. Yəni müştəri xidmət keyfiyyətini yaxşı olaraq qəbul edərsə, məmnun qalmış müştəri sayılır. (Setó-Pamies D, 2012: s. 1257–1271)

Bu araşdırmada xidmət keyfiyyətinin müştəri məmnuniyyətinə təsirində cinsin moderator rolu da araşdırılmış, nəticədə qəbul edilən xidmət keyfiyyətinin alt dəyişkənləri olan qida keyfiyyətinin müştəri məmnuniyyəti üzərində təsirində kişilər və qadınlar arasında fərqlilik olduğu sübut olunmuşdur. Lakin, xidmət keyfiyyətinin digər alt dəyişkəni olan məkan atmosferinin müştəri məmnuniyyətinə təsirində kişi və qadınlarda fərqlilik olmamışdır.

Tədqiqatın nəticələri bundan sonrakı araşdırmalar üçün nəzəri məlumat üçün mənbə kimi istifadə edilə bilər. Praktiki cəhətdən restoranlar öz strategiyalarında tədqiqatın nəticələrin tətbiq edə bilərlər. Buna misal olaraq işçilərinin görüşünlərinin xidmət keyfiyyəti və müştəri məmnuniyyəti üzərində təsirini nəzərə alıb işçilərin formalarında dəyişiklik edə bilər, müştərilərə pozitiv enerji verə biləcək formaların olmasını təmin edə bilərlər. Yuxarıda qeyd etdiyimiz bəzi araşdırmalarda

olduğu və tədqiqatın nəticələrindən göründüyü kimi işçilərin görünüşlərinin müştərilərin həmin resoran haqqında fikirlərində böyük təsiri vardır. Bəzi araşdırmalarda göstərilir ki, müştərilər işçiləri ağ rəngli forma geyinən restoranlardan digərlərinə nisbətən daha məmnun qalır. Bundan əlavə işçilərinin gigiyenik qaydalara- geyimlərinin, üzlərinin təmiz olması əməl etmələrinə nəzarət etməlidirlər.

**Açar sözlər:** *restoran, müştəri məmnuniyyəti, işçi, xidmət keyfiyyəti.*

## ƏDƏBİYYAT SİYAHISI

*1) Tuncer, I., Unusan, C., & Cobanoglu, C. (2020). Service Quality, Perceived Value and Customer Satisfaction on Behavioral Intention in Restaurants: An Integrated Structural Model. Journal of Quality Assurance in Hospitality & Tourism, 1–29*

*2) Li, Y., & Shang, H. (2019). Service Quality, Perceived Value, and Citizens' Continuous-Use Intention Regarding E-government: Empirical Evidence from China. Information & Management, 103197.*

*3) Ekinci, Y., & Dawes, P. L. (2009). Consumer perceptions of frontline service employee personality traits, interaction quality, and consumer satisfaction. The Service Industries Journal, 29(4), 503–521*

*4) Alhelalat, J. A., Habiballah, M. A., & Twaissi, N. M. (2017). The impact of personal and functional aspects of restaurant employee service behaviour on customer satisfaction. International Journal of Hospitality Management, 66, 46–53.*

*5) Wang, Y.-C., & Lang, C. (2019). Service employee dress: Effects on employee-customer interactions and customer-brand relationship at full-service restaurants. Journal of Retailing and Consumer Services, 50, 1–9.*

*6) Chen, Y.-C. D., & Lee, C.-S. (2018). Is it the staff or is it the food? How the attire of restaurant employees affects customer judgments of food quality. British Food Journal, 120(6), 1223–1235.*

*7) Söderlund, M., & Julander, C.-R. (2009). Physical attractiveness of the service worker in the moment of truth and its effects on customer satisfaction. Journal of Retailing and Consumer Services, 16(3), 216–226.*

*8) Luoh, H.-F., & Tsaur, S.-H. (2009). Physical attractiveness stereotypes and service quality in customer–server encounters. The Service Industries Journal, 29(8), 1093–1104.*

*9) Gopi, B., & Samat, N. (2020). The influence of food trucks' service quality on customer satisfaction and its impact toward customer loyalty. British Food Journal, ahead-of-print(ahead-of-print).*

*10) Hau-siu Chow, I., Lau, V. P., Wing-chun Lo, T., Sha, Z.,Yun, H. (2007). Service quality in restaurant operations in China: Decision- and experiential-oriented perspectives. International Journal of Hospitality Management,26(3),698–710*

*11) Gustafsson, A., Johnson, M. D., & Roos, I. (2005). The Effects of Customer Satisfaction, Relationship Commitment Dimensions, and Triggers on Customer Retention. Journal of Marketing, 69(4), 210–218*

*12) Anderson, E. W., Fornell, C., & Mazvancheryl, S. K.(2004). Customer Satisfaction and Shareholder Value. Journal of Marketing, 68(4), 172-185.*

*13) Oh, H. (1999). Service quality, customer satisfaction, and customer value: A holistic perspective. International Journal of Hospitality Management, 18(1), 67– 82.*

*14) Cronin, J. J., Brady, M. K., & Hult, G. T. M. (2000). Assessing the effects of quality, value, and customer satisfaction on consumer behavioral intentions in service environments. Journal of Retailing, 76(2), 193– 218*

*15) Tam, J. L. M. (2004). Customer Satisfaction, Service Quality and Perceived Value: An Integrative Model.Journal of Marketing Management, 20(7-8), 897– 917*

*16) Sureshchandar, G. S., Rajendran, C., & Anantharaman, R.N. (2002). The relationship between service quality and customer satisfaction – a factor specific approach. Journal of Services Marketing, 16(4), 363–379*

*17) Ooi, K., Lin, B., Tan, B., & Yee-Loong Chong, A. (2011). Are TQM practices supporting customer satisfaction and service quality? Journal of Services Marketing, 25(6) , 410–419*

*18) McDougall, G. H. G., & Levesque, T. (2000). Customer satisfaction with services: putting perceived value into the equation. Journal of Services Marketing, 14(5), 392– 410*

*19) Flint,D.J.,Blocker, C.P., & Boutin, P. J. (2011). Customer value anticipation, customer*

*satisfaction and loyalty: An empirical examination. Industrial Marketing Management 40(2),219–230.*

*20) Kim, K., & Baker, M. A. (2017). How the Employee Looks and Looks at You: Building Customer–Employee Rapport. Journal of Hospitality & Tourism Research, 109634801773113*

## РЕЗЮМЕ

При формировании корпоративной культуры необходимо учитывать все составляющие внутренней среды организации. Таким образом, корпоративные ценности включают в себя миссию, цели, стратегию, организационную структуру, кадровую политику и так далее. В этой ситуации задача менеджмента - согласовать ключевые компоненты корпоративной культуры и внутренней среды компании. Если добиться такой последовательности невозможно, корпоративные цели, вероятно, не будут достигнуты. Можно сделать вывод, что понятия «корпоративная культура» и «корпоративное управление» имеют ряд общих черт, в основном в области управления.

**Ключевые слова:** *Корпоративная культура, корпоративное управление, коллектив, приоритеты развития, законодательство.*

UOT311.216;336.717.6

# MÜƏSSİSƏDƏ İNVESTİSİYA PROSESİNİN VƏ ONUN UÇOTUNUN TƏHLİLİ MƏSƏLƏLƏRİNİN TƏDQİQİ

**XIDIR CƏFƏROV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: xidirceferov@icloud.com*

**Uzunmüddətli investisiyaların ümumilikdə və ayrı-ayrı mənbələr üzrə təhlili problemləri**

Hər bir ölkədə, xüsusilə keçid iqtisadiyyatı olan ölkələrdə investisiya fəaliyyəti müəyyən risk qrupu ilə həm mikro, həm də makro səviyyədə bağlıdır. İnvestisiya layihələri formasında investisiyalar zamanı risklərin idarə edilməsi prosesi bütün mərhələlərdə həyata keçirilməlidir: investisiya layihəsinin hazırlanması, investisiya qoyuluşu və istismar mərhələləri, yekun mərhələdə kompleks investisiya strategiyası əsasında (Səfərov R., 2007: 28 ).

Uzunmüddətli investisiya layihələrinin icrası çərçivəsində investisiya fəaliyyəti ilə bağlı qarşıya qoyulan məqsədlərə çatmaq üçün bir-biri ilə bağlı tədbirlər görülür. Bu tədbirlər məhdud zaman, maliyyə və digər resurslarla həyata keçirilir. Eyni zamanda, hər bir uzunmüddətli investisiya layihəsi unikaldır, hər bir layihə yeni həllərin axtarışı, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün müxtəlif metod və üsulların istifadə edilməsidir.

Buna görə uzunmüddətli investisiya fəaliyyəti adi iqtisadi fəaliyyətdən daha risklidir. Risk-investisiya fəaliyyətinin ayrılmaz hissəsidir, çünki ən əlverişli iqtisadi şəraitdə belə gəlir qazanmaq deyil, hətta itirmək olar. Hər bir şirkət öz fəaliyyətində istənilən layihənin həyata keçirilməsində bütün mümkün risklərlə üzləşir. Beləliklə, risklərin idarə edilməsi və qiymətləndirilməsi investisiya dizaynının vacib vəzifələrindən biridir (Анциферова А.И., Козменкова С.В., 2014: 45).

Son zamanlar risk konsepsiyasına müxtəlif aspektlərdə yanaşırlar: risk bir fürsət kimi, risk təhlükə kimi, risk qeyri-müəyyənlik kimi.Risk konsepsiyasına müxtəlif yanaşmaları nəzərdən keçirək:

Təhlükə kimi risk-daha geniş yayılmış anlayışdır. Bu yanaşma maliyyə itkisi, fırıldaqçılıq, oğurluq, nüfuz təhlükəsi, zərər və iflas, məhkəmə prosesində iştirak və s. kimi mənfi hadisələri əhatə edir (Səfərov R., 2007: 18).

Bu yanaşma nöqteyi-nəzərindən risk-menecment bir sıra tədbirlər vasitəsiləarzuolunmaz halların baş verməsinin azalması və təşklatın tam iflasının olmamasını texnikası deməkdir.

Üçüncü yanaşma daha akademik yanaşmadır. Bu çərçivədə risk qeyrimüəyyənlik kimi nəzərdən keçirilir. Burada mümkün ola biləcək müsbət və mənfi nəticələrin bölüşdürülməsi imkanlarına müraciət edilir. Bu nöqteyi-nəzərdən risk menecmentin predmeti hazırrki və gözlənilən nəticələr arasındakı fərqi azaltmaqdır (Басовский Л.К., 2013: 34).

Uzun müddətli investisiya layihələrin təhlilində risklərin düzgün qiymətləndirilməsi əsas şərtlərdən biridir. Risklərin qiymətləndirilməsi metodları aşağıdakı tələblərə cavab verməlidir:

-nəticənin obyektivliyi və dəqiqliyi -kifayət qədər dəqiqlik

-iqtisadi məqsədəuyğunluq (investisiya təhlilinə çəkilə xərclər risklərin qiymətləndirilməsi fəaliyyətindən əldə olunan nəticələrin istifadəsindən qazanılan əlavə gəlirləri aşmamalıdır.)

Layihənin qiymətləndirilməsinin əsasında risk hadisəsinin baş verməsi və onların baş verməsi ehtimalının səviyyəsi halında mümkün maliyyə itkilərinin miqdarının müəyyən edilməsi durur. Buna əsaslanaraq, real uzunmüddətli investisiya layihələrinin risklərinin qiymətləndirilməsi aşağıdakı əsas mərhələlərdən ibarətdir:

- investisiya layihələrinin risklərinin ayrı - ayrı növlərinin müəyyən edilməsi;
- hər bir risk növü üzrə maliyyə itkilərinin ölçüsü və ehtimalının qiymətləndirilməsi üçün lazım olan məlumatların düzgünlüyünü və kafiliyini qiymətləndirmək;
- Hər bir risk növü üzrə mümkün risklərin baş verməsi və maliyyə itkilərinin ölçüsü ehtimalının qiymətləndirilməsi metodlarının seçilməsi və istifadəsi;
- investisiya layihələrinin layihə risklərinin ümumi səviyyəsinin qiymətləndirilməsi.

Uzunmüddətli investisiya layihələrinin qiymətləndirilməsinin ən mühüm mərhələsi risklərin qiymətləndirilməsi metodlarının seçilməsi

və istifadəsidir ki, onların məqsədi risklərin baş verdiyi anda mümkün nəticələrin miqyasını müəyyən etməkdir. Risklərin qiymətləndirilməsi və təhlili üçün hər bir metod öz tətbiq sahəsinə və öz prosedurlarına malikdir ki, bu da mümkün üsulları müəyyən etməyə imkan verir (Дружиловская Э.С., 2014: 77).

**Müəssisədə İnvestisiya Prosesində Riskin Qiymətləndirilməsi Metodları**

Riskin qiymətləndirilməsi üsullarının seçilməsi aşağıdakı amillərlə müəyyən edilir:

- investisiya riskinin növü;
- tamlığı və verilənlər bazası etibarlılığı;
- layihə risklərinin qiymətləndirilməsini həyata keçirən investisiya menecerinin texniki və proqram təminatı, ixtisaslaşma səviyyəsi;
- mürəkkəb investisiya layihələrinin risklərini qiymətləndirmək üçün ixtisaslı mütəxəssislərin cəlb edilməsi imkanı;
- reallaşdırılan layihənin sahə və regional xüsusiyyətləri.

Risklərin təhlili metodlarına funksional yanaşmada onlar keyfiyyət və kəmiyyət metodlarına bölünür (Вахрушина М.А., 2016: 34).

Risklərin keyfiyyətli təhlili layihənin risklərinin müəyyən edilməsi məqsədi ilə formal-mücərrəd səviyyədə Heuristic üsullarla həyata keçirilir. Keyfiyyətin təhlili biznes planının hazırlanması mərhələsində həyata keçirilir. Keyfiyyət təhlili prosesində layihənin risklərinin səbəbləri və dinamikasını araşdırmaq vacibdir. Onların nəticələri hər bir risk növü üçün öyrənilməlidir və mümkün yan təsirlərin qiymətləndirilməsi təmin edilməlidir. (Гыязов А.Т., 2016: 20).

**Risklərin Düzgün Qiymətləndirilməsi**

Uzunmüddətli investisiya layihələrinin həyata keçirilməsinin bütün mərhələlərində qeyri-müəyyənlik dərəcəsi mövcuddur. Əlbəttə ki, investisiya layihəsinin məqsədini və məlumatlarını, eləcə də bu məqsədə nail olmaq üçün konkret yolları aydınlaşdırmaq, mövcud vəziyyətin öyrənilməsi qeyri-müəyyənlik dərəcəsini azaldacaq. Lakin prinsipcə planlaşdırma zamanı qeyri-müəyyənliyi tamamilə istisna etmək mümkün deyil. Buna görə də, onun seçimi zamanı daxili və xarici parametrlərin dəyişdirilməsi ehtimalı nəzərə alınmaqla investisiya layihəsinin ümumi qiymətləndirilməsi aparılmalıdır (Məmmədov Ə., Seyfullayev İ., 2013: 55).

Risklərin düzgün qiymətləndirilməsi uzunmüddətli investisiya layihələrinin təhlili üçün əsas şərtlərdən biridir. Risklərin qiymətləndirilməsi metodları aşağıdakı tələblərə cavab verməlidir:

- obyektivliyi və dəqiqliyi
- Kifayət qədər dəqiqliyi
- iqtisadi məqsədəuyğunluq (investisiya təhlili xərcləri risk qiymətləndirilməsi fəaliyyəti nəticəsində əldə nəticələri istifadə əlavə gəlir artıq olmamalıdır.)

Layihənin qiymətləndirilməsinin əsasında risk hadisəsinin baş verəcəyi təqdirdə mümkün maliyyə itkilərinin həcmi və onların başvermə ehtimalı durur.

bu səviyyənin tərifidir. Buna əsaslanaraq, real uzunmüddətli investisiya layihələrinin risklərinin qiymətləndirilməsi aşağıdakı əsas mərhələlərdən ibarətdir:

- investisiya layihələrinin risklərinin ayrı - ayrı növlərinin müəyyən edilməsi;
- hər bir risk növü üzrə maliyyə itkilərinin ölçüsü və ehtimalının qiymətləndirilməsi üçün lazım olan məlumatların düzgünlüyünü və kafiliyini qiymətləndirmək;
- Hər bir risk növü üzrə mümkün risklərin baş verməsi və maliyyə itkilərinin ölçüsü ehtimalının qiymətləndirilməsi metodlarının seçilməsi və istifadəsi;
- investisiya layihələrinin layihə risklərinin ümumi səviyyəsinin qiymətləndirilməsi.

Uzunmüddətli investisiya layihələrinin qiymətləndirilməsinin ən mühüm mərhələsi risklərin qiymətləndirilməsi metodlarının seçilməsi və istifadəsidir ki, onların məqsədi risklərin baş verdiyi anda mümkün nəticələrin miqyasını müəyyən etməkdir. Risklərin qiymətləndirilməsi və təhlili üçün hər bir metod öz tətbiq sahəsinə və öz prosedurlarına malikdir ki, bu da mümkün üsulları müəyyən etməyə imkan verir (Трухинова О.Л., 2012: 86).

Riskin qiymətləndirilməsi üsullarının seçilməsi aşağıdakı amillərlə müəyyən edilir:

- investisiya riskinin növü;
- tamlığı və verilənlər bazası etibarlılığı;
- layihə risklərinin qiymətləndirilməsini həyata keçirən investisiya menecerinin texniki və proqram təminatı, ixtisaslaşma səviyyəsi;

- mürəkkəb investisiya layihələrinin risklərini qiymətləndirmək üçün ixtisaslı mütəxəssislərin cəlb edilməsi imkanı;

- reallaşdırılan layihənin sahə və regional xüsusiyyətləri.

Risklərin təhlili metodlarına funksional yanaşmada onlar keyfiyyət və kəmiyyət metodlarına bölünür.

Layihənin əsas risklərinin müəyyən edilməsi risk hadisəsinin baş verdiyi təqdirdə mənfi nəticələrin minimallaşdırılması üzrə tədbirlərin planlaşdırılmasına imkan verir.

Layihə risklərinin kəmiyyət təhlili risk hadisəsinin mənfi təsirini kəmiyyətcə ölçməyə imkan verir (Бобылева АЗ., 2014: 56).

İnvestisiya layihələri risklərinin kəmiyyət qiymətləndirilməsində aşağıdakımetodlardan istifadə edilir:

-statistik metod;

-ekspert qiymətləndirilməsi metodu;

-pul dövrüyyəsi bölgüsü ehtimalının təhlili;

- "hədlər ağacı" metodu;

-diskont norması korrektə metodu;

-etibarlıq ekvivalenti metodu;

-effektivlik amillərinin hissiyatı metodu;

-ssenari metodu;

-imitasiya modelləşdirilməsi.

## Uzunmüddətli Aktivlərin Səmərəli İstifadəsi və İstifadəsindən Əldə Edilən Maliyyə Nəticələrindən İstifadə Imkanları

Uzunmüddətli aktivlər müəssisənin fəaliyyətində istifadə üçün əldə edilən və satış üçün nəzərdə tutulmayan bir ildən çox faydalı istifadə müddəti olan aktivlərdir. Aktivlərin amortizasiya müddətləri üzrə təsnifatında aktivlərin effektiv istifadəsi üçün ciddi minimum müddət mövcud olmasa da, ən çox istifadə olunan amil uzunmüddətli aktivlərin faydalı istifadə müddətinin bir illiyidir. Bu kateqoriyaya yalnız pik və qəza vəziyyətində, məsələn,

Adətən uzunmüddətli aktivlər aşağıdakı kateqoriyalara bölünür:

1. Maddi aktivlər fiziki formada uzunmüddətli aktivlərdir: Torpaq, istehsal binaları və qurğular.

2. Təbii ehtiyatlar-filiz, təbii neft və qaz, meşə ehtiyatları və s.

3. Qeyri-maddi aktivlər fiziki formaları olmayan və hüquqi qüvvəyə malik olan uzunmüddətli aktivlərdir.

4. Daşınmaz əmlaka investisiya - torpaq, binalar və s.gələcəkdə istifadə ediləcək.

Maddi aktivlər fiziki formaya malikdir. Torpaq maddi aktivdir, ona görə də onun faydalı istifadə müddəti məhdud deyildir. Torpaq amortizasiya olunmayan yeganə maddi aktivdir. Binalar, qurğular, avadanlıqlar (əsas vəsaitlər) amortizasiya edilməlidir. Amortizasiya-uzunmüddətli maddi aktivin dəyərinin onun faydalı istifadə müddəti və yenidən qiymətləndirilmiş məbləğinə bölüşdürülməsidir. Bu müddət yalnız insanın əlləri ilə yaradılan aktivlərə aiddir (Анциферова А.И., Козменкова С.В., 2014, 22).
(Вахрушина М.А., 2016: 25).

Uzunmüddətli aktivlər daha uzun ömürlüdür. Uzunmüddətli aktivlərin təhlili üçün balans məlumatlarından istifadə edərək, analitik cədvəl aşağıdakı formada tərtib edilir. Analitik cədvəldə olan məlumatların əksəriyyəti maliyyə vəziyyətinin təşkili üçün əsas məlumat bazası kimi qəbul etdiyimiz Mühasibat balansında verilmişdir. Lakin, balansda uzunmüddətli və qeyri-maddi aktivlərin, həmçinin xüsusi dövriyyə aktivlərinin ödənilməsi üçün istifadə olunan vəsaitlərin mənbələri göstərilmədiyindən, bu göstəricilər təhlil zamanı əlavə hesablamalar yolu ilə müəyyən edilməlidir (Дружиловская Э.С., 2014: 74).

**Cədvəl 1: Uzunmüddətli aktivlərin təhlili (min man)**

| Balansın aktivi və passivinin bölmələri və maddələri | İlin əvvəlinə | İlin sonuna | Hesabat dövrü ərzində artma (+), azalma (-) |
|---|---|---|---|
| Balansın aktivinin I bölməsindən<br>1.Uzunmüddətli və qeyri-maddi aktivlər:<br>1.1.Uzunmüddətli aktivlər<br>1.2.Qeyri-maddi aktivlər | <br><br>529388<br>17 | <br><br>698538<br>31 | <br><br>+169150<br>+14 |
| Yekunu | 529405 | 698569 | 169164 |
| Passivin II bölməsindən | | | |
| 2.Xüsusi vəsait mənbələri | 1036651 | 984347 | -52304 |
| O cümlədən:<br>2.1.Uzunmüddətli və qeyrimaddi aktivlərin örtülməsinə yönəldilməsi | 529405 | 403870 | -125535 |
| 2.2.Cari(dövriyyə) aktivlərinin (xüsusi dövriyyə vəsaitinin) örtülməsinə istifadə olunan xüsusi vəsait mənbələri | 507246 | 580477 | +73231 |

*Mənbə: Nümunə şirkətin göstəricilərinə əsasən müəllif tərəfindən hesablanmışdır.*

1.İlin əvvəlinə və sonuna xüsusi vəsait mənbələrini təyin edən zaman qarşıdakı xərc və gəlirlər üçün ehtiyatlar da hesablamaya daxil edilir.

Bizim misalmızda xüsusi vəsait mənbələri:

a) ilin əvvəlinə: 1036529+122=1036651 min manat;

b) ilin sonuna: 983423+924=984347 min manat olur.

1.Uzunmüddətli və qeyri-maddi aktivlərin örtülməsinə yönəldilən xüsusi vəsait məbləği 3-cü sətir üzrə yekun məbləğindən uzunmüddətli maliyyə öhdəlikləri məbləğini çıxmaqla təyin edilir:

a) ilin əvvəlinə: 529405-0=529405 min manat;

b) ilin sonuna 698569-294699=403870 min manat olur.

2.Cari aktivlərin, yəni xüsusi dövriyyə vəsaitinin örtülməsinə yönəldilən xüsusi vəsait məbləği cəmi xüsusi vəsait mənbələri məbləğindən uzunmüddətli və qeyrimaddi aktivlərin örtülməsinə yönəldilən məbləği çıxmaqlatəyin edilir.

Bizim misalda bu göstəricilər:

a) İlin əvvəlinə 1036651-529405=507246 min manat;

b) İlin sonuna 984347-403870=580477 min manat olur.

Analitik cədvəldə verilən məlumatlardan istifadə etməklə uzunmüddətli aktivlərin örtülməsi mənbələrinin hərəkətini-artması, yaxud azal asını təhlil etmək mümkündür.

Verilən məlumatlardan göründüyü kimi, müəssisənin xüsusi vəsait mənbələrinin və uzunmüddətli maliyyə qoyuluşlarının cəmi məbləği ilin əvvəlinə 1036651 min manat və ilin sonuna 294699+984347=1279046 min manat olmuşdur.

Mühasibat balansı passivinin II bölməsində və yuxarıdakı analitik cədvəldə verilən məlumatlardan göründüyü kimi, təhlil apardığımız müəssisədə ilin əvvəlinə uzunmüddətli bank kreditləri və uzunmüddətli borclar üzrə məbləğlər olmamışdır. Deməli, ilin əvvəlinə olan məlumata görə müəssisədə mövcud olan bütün uzunmüddətli və qeyri-maddi aktivlər onun xüsusi vəsait mənbələri hesabına tam həcmdə örtülmüş və bu məqsədlərə cəlb edilmiş vəsait mənbələrindən istifadə olunmamışdır. Lakin ilin sonuna olan məlumatdan göründüyü kimi, müəssisə uzunmüddətli və qeyri-maddi aktivləri tamamlamaq üçün 294699 min manat məbləğində uzunmüddətli bank kreditlərindən istifadə etmişdir. Deməli, ilin sonuna uzunmüddətli və qeyri-maddi aktivlərin 294699x100:698569=42,2 faizicəlb edilmiş vəsait, 100,0-42,2=57,8%-i isə xüsusi vəsait mənbələri hesabına örtülmüşdür.

Bu, onunla bağlıdır ki, hesabat ilində dövriyyə vəsaitlərinin artırılması üçün əlavə səylər göstərilmiş, habelə şirkətin öz vəsaiti hesabına dövriyyə vəsaitlərinin yaradılmasına və artırılmasına yönəldilən vəsaitin payı artmışdır.

Balansdan göründüyü kimi, müəssisənin dövriyyə aktivləri (II və III məcmu aktivləri) ilin sonuna 58073 min manat (1100970-518897) və ya ilin əvvəli ilə müqayisədə 112,18% artaraq məcmu aktivlərdə payı 49,49% - dən 61-ə qədər artaraq 18%-ə yüksəlib.

Analitik cədvəldən göründüyü kimi, dövriyyə (dövriyyə) aktivlərinin, yəni xüsusi dövriyyə vəsaitlərinin örtülməsi üçün istifadə olunan xüsusi vasitələrin mənbələri ilin əvvəli ilə müqayisədə 73 231 000 manat (580477-507246) artmışdır. Beləliklə, ilin əvvəlində (507246x100): 51897 = 97,75 müəssisənin dövriyyə vəsaitlərinin faizi, ilin sonunda isə (580477x100): 52,72 faiz müəssisənin xüsusi vəsaitləri hesabına ödənilmişdir.

Aşağıdakı analitik cədvəldə təhlil olunan müəssisədə uzunmüddətli və qeyri-maddi aktivlərin müəyyən növlərinin əhatə mənbələri barədə məlumat verilmişdir.

Cədvəldən göründüyü kimi, uzunmüddətli və qeyri-maddi aktivlərin həcmi + 169165x100: 529405 = + 31,95% artdıqda, hesabat ilində bu aktivlərin ödənilməsi üçün istifadə olunan vəsaitlərin mənbələri 23,71 faiz ( 125535x100: 529405) azalmışdır.

Ancaq bu nəticəni dəqiq hesab etmək olmaz. Bu onunla bağlıdır ki, balansda əsas vəsaitlərin, qeyri-maddi aktivlərin, quraşdırma avadanlığının və ilin əvvəlinə növbədənkənar kapital qoyuluşlarının ödənilməsində xüsusi və borc mənbələrinin payını səciyyələndirən Məlumat yoxdur. Daha dəqiq rəy əldə etmək üçün analitik uçot məlumatlarının istifadəsi ilə uzunmüddətli aktivləri əhatə etmək üçün istifadə olunan xüsusi və borc vəsaitlərinin mənbələrini öyrənmək lazımdır.

**Uzunmüddətli İnvestisiya Qoyuluşularının Effektliyinin Təhlili və Qiymətləndirilməsi**

Uzunmüddətli investisiya qoyuluşularının effektliyinin təhlili və qiymətləndirilməsi problemlərinin həllində kompleks göstəricilər sistemindən istifadə olunur.

**Cədvəl 2 : Uzunmüddətli və qeyri-maddi aktivlərin ötürülməsi mənbələri (min manatla)**

| **Uzunmüddətli və qeyri-maddi aktivlər** | **İlin əvvəlinə** | **İlin sonuna** | **Hesabat ili ərzində artma (+), azalma (-)** | **Uzunmüddətli və qeyri-maddi aktivlərin örtülməsi mənbələri** | **İlin əvvəlinə** | **İlin sonuna** | **Hesabat ili ərzində artma (+), azalma (-)** |
|---|---|---|---|---|---|---|---|
| 1.Qurtarmamış kapital qoyuluşları | 489 | 16222 | +15733 | 1.Uzunmüddətli maliyyə öhdəlikləri | — | 294347 | +294347 |
| 2.Quraşdırılası avadanlıqlar | 210 | 1565 | +1355 | 1.1. Bank kreditləri | — | 294347 | +294347 |
| Yekunu | 699 | 17787 | +17088 | 2.Uzunmüddətli və qeyri-maddi aktivlərin örtülməsinə istifadə olunan xüsusi vəsait mənbələri | 529405 | 403870 | -125535 |
| 3.Əsas vəsait | 528340 | 678392 | +150052 | | | | |
| 4.Uzunmüddətli maliyyə qoyuluşları | 349 | 2370 | +2021 | | | | |
| 5.Qeyri-maddi aktivlər | 17 | 31 | +14 | | | | |
| Yekunu | 528706 | 680793 | 152087 | Cəmi | 529405 | 698570 | +169165 |
| Cəmi | 529405 | 698570 | +169165 | | | | |

*Mənbə: Nümunə şirkətin göstəricilərinə əsasən müəllif tərəfindən hesablanmışdır.*

1. Investisiya qoyuluşlarının 1 manatına əlavə məhsul buraxılışı. Bu göstərici aşağıdakı formul ilə istifadə olunur.

$$E = (YM_1 - YM_0)/N$$

Burada: E – investisiyanın effektivliyi;

$YM_1$, $YM_0$ – əsas və əlavə investisiya qoyuluşları ilə bağlı ümumi məhsulun həcmi;

N – əlavə investisiya qoyuluşu, məbləği.

2. İnvestisiya qoyuluşları hesabına məhsulun (iş və xidmətin) maya dəyərinin aşağı düşməsi. Bu aşağıdakı formul ilə ifadə olunur:

$$E = M_1(MD_0 - MD_1)/N$$

Burada: E – investisiyanın effektivliyi;

$MD_0 - MD_1$ – əsas və əlavə investisiya qoyuluşları ilə bağlı ümumi məhsul vahidinin maya dəyəridir.

3. İnvestisiya qoyuluşlarının 1 manatına əmək haqqı xərclərinin azalması.

$$E = M_1 (Ə_0-Ə_1)/N$$

Burada: $Ə_0$-$Ə_1$ – məhsul vahidinin istehsalına əlavə investisiya qoyuluşlarına qədər və sonra əmək haqqı xərcləri.

Əgər $M_1 (Ə_0-Ə_1)$ ifadəsini 1 işçi hesabı ilə illik iş vaxtı fonduna bölsək, əlavə investisiya nəticəsində işçilərin sayının azalması hesabına miqdarına hesablamış olaraq 1 manat investisiya hesabına gəlirin artması

$$E = M_1 (F_1-F_0)/N$$

Burada: $F_1 - F_0$ – məhsul vahidinə mənfəətdir (əlavə investisiyaya qədər və sonra). İnvestisiyanın ödənilməsi müddəti göstəricisi isə aşağıdakı formul ilə hesablanır:

$$T = N/M_1 (F_1-F_0) \text{ vət} = N/M_1 (MD_0-MD_1),$$

Bütün bu göstəricilər investisiyalardan səmərəli istifadə olunmasını hərtərəfli səciyyələndirir. Bundan əlavə, İnvestisiya Planının icrasının öyrənilməsinə və onların müxtəlif amillərə təsirinin öyrənilməsinə yönəlmiş makro və mikro investisiya göstəriciləri hesablanır. Beynəlxalq təcrübədə əmsallar qrupu iqtisadiyyatın istənilən sektoruna investisiya qoyuluşunun məqsədəuyğunluğunu müəyyən etmək üçün də istifadə olunur. Bu əmsalların faktiki dəyərləri müvafiq normativ və ya böhran vəziyyətini əks etdirən göstəricilərlə müqayisə edilir və nəticə əldə edilir. Əlbəttə, bu halda normativ (böhran) vəziyyətin müəyyən edilməsi üçün analiz üçün bu nisbətlərdən istifadə qaydaları və normativ baza olmalıdır.

## Nəticə

Azərbaycan Respublikasının iqtisadiyyatı müstəqilliyin ilk günlərində böhran içində idi və eyni zamanda, müstəqil dövlət kimi Azərbaycan bazar iqtisadiyyatının iqtisadi modelini seçdi. İnvestorlar üçün investisiya mühitinin yaradılması

qarşıda duran əsas vəzifələrdən biri olmalıdır. Ölkədə investisiya mühitinin yaradılması ilə bağlı müəyyən tədbirlər görülür, bu sahədə qanunlar qəbul edilib. Nəticədə Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların həcmi milyardlarla dollar qiymətləndirilir.

Bu problemlərin aradan qaldırılması üçün magistr dissertasiyamda bir sıra təklifləri və onların tətbiq edilməsini xatırlatmaq məqsədəuyğundur.

1. Uzunmüddətli investisiya layihəsini həyata keçirən müəssisədə uçot siyasətinin düzgün müəyyən edilməsi və ona uyğun olaraq mühasibat uçotu sisteminin təkmilləşdirilməsi;

2. Mühasibat uçotunun nəzarət funksiyasının gücləndirilməsi məqsədi ilə müəssisədə sənəd dövriyyəsinin təsdiq edilmiş qrafikini təşkil etmək;

3. Uzunmüddətli investisiyalar zamanı pul vəsaitlərinin daha səmərəli xərclənməsi üçün müəssisənin rəhbəri tərəfindən mühasibat nəzarətini gücləndirmək, uzunmüddətli aktivlərin istifadəsinin effektivliyini təhlil etmək;

4. Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə aparılması məqsədəuyğun hesab edilsin;

5. Uzunmüddətli investisiyaların mühasibat uçotu və təhlili zamanı mühasibat uçotunun avtomatlaşdırılmasını həyata keçirmək, mühasibat uçotunu daha da asanlaşdırmaq, mühasibat uçotu və hesabatlardakı səhvlərin azaldılmasına nail olmaq. Daha mükəmməl mühasibat proqramını əldə edin və istifadə edin;

6. Uzunmüddətli aktivlərin səmərəli istifadəsi üçün onların təhlili zamanı investisiya risklərinin düzgün metodika və qaydalar üzrə hesablanmasının məqsədəuyğun hesab edilməsi;

Bütün bunlar uzunmüddətli investisiyaların uçotunu və təhlilini yaxşılaşdıracaq, düzgün strukturlaşdırılmış və sistemləşdirilmiş mühasibat məlumatları isə uzunmüddətli investisiyaların effektiv idarə olunmasının əsasını qoyacaqdır.

**Açar sözlər:** *investisiya, uçot, müəssisənin maliyəsi, Azərbaycan iqtisadiyyatı.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Məmmədov Ə., Seyfullayev İ. (2013), Vergi və investisiya mühiti. Azərbaycan Respublikasında əlverişli investisiya mühitinin formalaşmasında vergilərin rolu. Bakı. 376 s.*

*2. Səfərov R., (2007). "Azərbaycanda yeni texnologiyaların tətbiqi sahəsində innovasiya fəaliyyətinin təkmilləşdirilməsi mexanizmləri" Bakı.*

*3. Адамов Н. (2009). Бухгалтерский учет инвестиций в капитальное строительство // Финансовая газета. –. - № 4. – с. 8.*

*4. Аныпин В.М. (2012). Инвестиционный анализ. М.: Дело, 360 с.*

*5. Анциферова А.И., Козменкова С.В. (2014). Актуальные проблемы инвестиционной деятельности в промышленности // В сборнике: Промышленное развитие России: проблемы, перспективы Труды XII Международной научно-практической конференции преподавателей, ученых, специалистов, аспирантов, студентов: В 3 томах. Кафедра экономики предприятия. С. 158-164.*

*6. Басовский Л.К. (2013). Прогнозирование и планирование в условиях рынка. Мд ИНФРА-М, 260 с.*

*7. Бобылева АЗ. (2014). Финансовое оздоровление фирмы: теория и практика. М.: Дело, 256 с.*

*8. Ван Хори Дж. (2012). Основы управления финансами. М.: ИНФРА-М, , 270*

*9. Вахрушина М.А. (2016). Инвестиционная привлекательность коммерческих организаций: проблемы анализа и оценки // Вестник АПК Ставрополья. № S1. С. 4-7.*

*10. Воинов В.Р. (2008). Организация аналитического учета вложений во внеоборотные активы при осуществлении капитального строительства // Консультант бухгалтера.*

*11. Гыязов А.Т. (2016). Лизинг как альтернативная форма расширения инвестиционных возможностей предпринимательства в Кыргызской республике // Устойчивое развитие науки и образования. № 1. С. 23-29.*

*12. Дружиловская Э.С. (2014). Инвестиционные активы как новый учетный объект и правила его оценки в российском и международном учете // Международный бухгалтерский учет. № 39 (333). С. 15 – 29.*

*13. Трухинова О.Л. (2012). Реализация модели конкурентного выбора исполнителя инвестиционного проекта. [Текст] / О.Л. Трухинова // Экономика и предпринимательство. – № 6 (29). – С. 405-412.*

## SUMMARY

Although the concept of "investment" has long been included in the concept of the world economy, the term "investment" has long been understood in the national economic literature as "capital investment". In other words, the term "investment" is defined in a very narrow sense: the amount of expenditure in the form of long-term capital investments in industry, construction, agriculture, transport, trade and other areas of economic activity.

The activity of almost every state, enterprise or other degree depends on the investment activity. Almost every day the company solves investment issues. The limited resources and the constant development of demand for them require society to look for ways to attract external and internal resources. Integration into the world economy leads to the internationalization of the national economy, which in turn lays the foundation for international economic relations. Carrying out economic reforms in Azerbaijan requires improving and analyzing the practice of attracting foreign and domestic capital to the country's economy, as well as further stabilizing the investment climate. Azerbaijan's economy is an integral part of the world economy, a unique economy, rich in national shades. Studying such features and richness can help determine the place and place in the world economic system. Of course, there is a place and importance of investments, especially long-term ones, between this feature and wealth.

The transition of the Republic of Azerbaijan to a system of market economic relations has created many problems. In this regard, the topic of the master's dissertation is devoted to a topical issue. The purpose of the study is to analyze the areas of analysis and improvement of long-term investments, to organize their accounting in accordance with national and international accounting standards, to identify their sources and problems of accounting.


**Keywords:** *investment, accounting, enterprise finance, Azerbaijani economy*


## РЕЗЮМЕ

Хотя понятие «инвестиции» давно входит в понятие мировой экономики, термин «инвестиции» уже давно понимается в национальной экономической литературе как «капитальные вложения». Другими словами, термин «инвестиции» определяется в очень узком смысле: сумма затрат в виде долгосрочных капитальных вложений в промышленность, строительство, сельское хозяйство, транспорт, торговлю и другие сферы экономической деятельности.

Деятельность почти любого государства, предприятия или другой степени зависит от инвестиционной активности. Практически каждый день компания решает инвестиционные вопросы. Ограниченность ресурсов и постоянный рост спроса на них требуют от общества поиска способов привлечения внешних и внутренних ресурсов. Интеграция в мировую экономику ведет к интернационализации национальной экономики, которая, в свою очередь, закладывает основу для международных экономических отношений. Проведение экономических реформ в Азербайджане требует совершенствования и анализа практики привлечения иностранного и внутреннего капитала в экономику страны, а также дальнейшей стабилизации инвестиционного климата. Экономика Азербайджана - неотъемлемая часть мировой экономики, уникальная экономика, богатая национальными оттенками. Изучение таких особенностей и богатства может помочь определить место и место в мировой экономической системе. Конечно, между этой особенностью и богатством есть место и важность вложений, особенно долгосрочных.

Переход Азербайджанской Республики к системе рыночных экономических отношений создал много проблем. В связи с этим тема магистерской диссертации посвящена актуальному вопросу. Цель исследования - проанализировать направления анализа и улучшения долгосрочных инвестиций, организовать их учет в соответствии с национальными и международными стандартами бухгалтерского учета, выявить их источники и проблемы бухгалтерского учета.


**Ключевые слова:** *инвестиции, бухгалтерский учет, финансы предприятий, экономика Азербайджана.*

UOT: 167.7:378.4

# MÜASİR UNİVERSİTET MODELİNİN FORMALAŞMASI ŞƏRAİTİNDƏ ELM, TƏHSİL VƏ İSTEHSALIN VƏHDƏTİ

**HƏSƏN RƏHİMLİ**
*Lənkəran Dövlət Universitetinin dissertantı*
*E-mail: rahimli.h@hotmail.com*

Elm-təhsil-biznes yaxud elm-təhsil-istehsal üçbucağı bilik iqtisadiyyatının əsasını təşkil edir. İqtisadiyyatın inkişafının müxtəlif mərhələlərində istər ayrı-ayrılıqda elm-biznes, təhsil-biznes, istərsə də elm-təhsil-biznes əlaqələri sabit olmamışdır. Hazırda texniki tələbatların və peşakar bacarıqların artması təhsilə və xüsusilə də ali təhsilə yiyələnməni postindustrial cəmiyyətinə daxil olmanın əsas şərtinə çevirmişdir. Professor Şəfa Əliyev qeyd edir ki, "ölkənin rəqabət qabiliyyətliliyinin obyektiv qiymətləndirilməsi və müəyyənləşdirilməsi üçün əsas amillərdən biri də milli iqtisadiyyatın innovasiyalaşdırılmasmm sürətləndirilməsi, ali təhsilin səviyyəsinin yüksəldilməsi və bilik iqtisadiyyatının formalaşdırılmasıdır [6, s. 330]. İnsan ehtiyacları arasında çox önəmli bir yer tutan təhsilin iqtisadiyyatla birbaşa və ya dolayı olaraq çox sıx bağlantısı vardır. Cəmiyyətdə təhsil səviyyəsinin artması ilə məhsuldarlıq arasında əlaqənin mövcudluğu bizə fərdlərin yaşadığı topluma əldə etdiyi təhsil ölçüsündə fayda verdiyini deməyə əsas verir. Texniki və peşə təhsilinin xüsusilə sənayeləşmədə, klassik təhsilin isə bir ölkənin mədəni və sosial yöndən inkişafında önəmli rol oynadığı demək olar.

Ölkədə təhsil səviyyəsinin artması əməyin keyfiyyətini də artıraraq toplam istehsal qabiliyyətini artırır. Əməyin keyfiyyətindəki artım isə insan kapitalına investisiyalar yolu ilə mümkün olur. Deməli, təhsilin inkişafı işçi qüvvəsinin keyfiyyət parametrlərinin yaxşılaşdırılmasına səbəb olmaqla son nəticədə ölkənin məcmu məhsul istehsalını, yəni iqtisadi artımı yüksəldir. Təhsil iqtisadçılarına görə təhsil həm də iqtisadi inkişafın təməl nöqtəsidir. Təhsilin ictimai həyatın iqtisadi, sosial, siyasi, hüquqi və mədəni cəhətdən formalaşması və inkişafında rolu əvəzolunmazdır. Təhsillə bərabər elm (bilik) də iqtisadi artımın və iqtisadi inkişafın hərəkətverici qüvvəsi hesab edilir. Postindustrial cəmiyyətdə bilik və informasiya əsas iqtisadi resursa çevrilib. Lüğəvi anlamda bilik öyrənmə, araşdırma və

Təhsil ilə iqtisadiyyat arasındakı əlaqələri aşağıdakı şəkildə ifadə edə bilərik:

**Cədvəl 1**
**Təhsil ilə iqtisadiyyat arasındakı əlaqələri**

| Təsir istiqaməti | Təsirin məzmunu |
|---|---|
| İstehsala təsiri | İstehsalın toplam həcmi istehsal amillərindən olan şçi qüvvəsinin keyfiyyətindən, işçi qüvvəsinin keyfiyyəti isə onun təhsil səviyyəsindən asılıdır |
| İstehlaka təsiri | Təhsil kifayət qədər yüksək istehlak xərcləri tələb edən bir xərc istiqamətidir. İstər ev təsərrüfatlarının istehlak xərci, istərsə də dövlətin büdcə xərcləri içərisində ən önəmli bir yeri tutan təhsil xərclərinin ÜDM strukturunda payı getdikcə artmaqdadır. Bəzi ölkələrin təhsil nazirliklərinin büdcəsinin nazirliyin özündən daha böyük dəyərə malik olması bunu bir daha sübut edir. |
| Gəlirlərə təsiri | Təhsilli fərdin daha yüksək əmək haqqı alması təhsilin fərdi gəlir üzərində, məcmu istehsal məhsuldarlığının artması nəticəsində yaranan əlavə dəyər hesabına milli gəlirin artması isə təhsilin ictimai gəlir üzərindəki təsirini göstərir |
| İnvestisiyaya təsiri | Dövlətin və özəl sektorun təhsil xidmətləri sahəsindəki xərcləmələri multiplikator effektinə malik olur və milli gəliri artırır |
| İqtisadi inkişafa təsiri | Təhsilli insanın yaratdığı texnologiya, resurslardan daha səmərəli və məhsuldar istifadə istiqamətində yeni ideyaların yaranması təhsilin inkişafa təsirini açıq şəkildə göstərir. Hər hansısa bir ölkənin inkişafı üçün investisiya, texnologiya transferi, yüksək istehsal güclərinin təhsilli insana hər zaman ehtiyacı vardır |
| Xidmət bazarına təsiri | Təhsil xidmətlərinə olan tələb və təklif xidmət sahəsində ən böyük bazarlardan biri sayılan təhsil xidmətləri bazarını formalaşdırır |
| Məşğulluğa təsiri | Təhsilin inkişafı təhsil xidmətləri sahəsində yeni iş yerlərinin yaranmasına və beləliklə də məşğulluğun artmasına təsir edir |
| Demoqrafik təsiri | Təhsil sisteminin inkişafı ilə əhalinin sayı arasında tərs korrelyasiya əlaqəsinin olması haqqında ciddi hipotezlər mövcuddur |
| Gəlir bölgüsünə təsiri | Təhsilin inkişafı ölkədə gəlir bərabərsizliyinin azalmasına səbəb olur |
| Xarici iqtisadi əlaqələrə təsiri | Yüksək təhsil səviyyəsi ölkənin ixrac potensialını artırır, təhsil sisteminin inkişafı təhsil xidmətlərinin idxalını və "beyin axını"nı azaldır, son nəticədə tədiyə balansına müsbət təsir edir |

*Qeyd: Materiallar əsasında müəllif tərəfindən hazırlanıb*

müşahidə yolu ilə əldə edilən hər növ həqiqət və qavrayışın məcmusudur. İnsan zəkasının çalışması nəticəsi kimi ortaya çıxan zehni məhsuldur və

ya öyrənmə, müşahidə və araşdırma yolu ilə əldə edilən həqiqətdir. Postsənaye cəmiyyətini ikili mənada bilik cəmiyyəti hesab edə bilərik. Birincisi, innovasiyaların mənbəyi kimi daha çox nəzəri biliklərə əsaslanan tədqiqatlar və kəşflər çıxış edirlər. İkincisi, cəmiyyətin inkişafı birmənalı şəkildə bilik sahəsindəki nailiyyətlərlə müəyyənləşir. Belə deyə bilərik ki, bilik iqtisadiyyatı biliyə yatırılan investisiyaların həcminin digər növ investisiyalardan daha yüksək olduğu bir ictimai-iqtisadi mərhələdir. Bu mərhələdə insanların sahib olduqları biliyin bazar dəyəri çox yüksək olur. Bilik iqtisadiyyatını digər iqtisadi inkişaf sivilizasiyalarından ayıran əsas fərq isə biliyin iqtisadi resurslar içərisində ən önəmli yerə sahib olmasıdır. Bu səbəbdən də bilik iqtisadiyyatının ən önəmli özəlliklərindən biri bütün iqtisadi fəaliyyətlərə biliyin inteqrasiya edilməsidir. İnstitusional iqtisadiyyat üzrə tədqiqatçılardan olan E.Bağırzadə qeyd edir ki, "Bilik iqtisadiyyatı termini dünya iqtisadiyyatının bu yeni inkişaf mərhələsində yaradılan hər bir əlavə dəyərin daha çox bilikdən istifadəyə əsaslanmasını, başqa sözlə, iqtisadi fəaliyyətlərin getdikcə xammaltutumlu, əməktutumlu, enerjitutumlu olmaqdan çıxaraq daha çox biliktutumlu olmasını ifadə etmək üçün istifadə edilir. Bir qədər obrazlı ifadə etsək, bu gün qumu yalnız tikinti materialı kimi istifadə edən təbii resurslara əsaslanan iqtisadiyyatlar yoxsul, qumu şüşə istehsalında istifadə edən sənayeləşmiş iqtisadiyyatlar orta gəlirli, qumu çip istehsalında istifadə edən biliklərə əsaslanan iqtisadiyyatlar isə zəngin iqtisadiyyatlardır" [5, s.8].

Şəkil 1-də elmin həm mikro səviyyədə, həm də makro səviyyədə iqtisadi təsirlərini görmək olar:




**Şəkil 1. Elmin mikro və makroiqtisadi təsirləri**

Beləliklə, iqtisadi inkişafın müasir mərhələsində elm-təhsil-istehsal əlaqəsinin təmin edilməsi ciddi zərurətə çevrilir. Aydındır ki, ayrı-ayrılıqda həm elm, həm də təhsilin iqtisadiyyatın inkişafına ciddi təsiri var. Amma yaddan çıxarmaq lazım deyil ki, elm və təhsil arasında da ciddi əlaqə mövcuddur. Xüsusən bunu nəzərə almalıyıq ki, bu əlaqə həm iqtisadi, həm də qeyri-iqtisadi amillərlə şərtlənir. Elmin inkişafı təhsilə, təhsilin inkişafı isə elmə təsir edir. Elmi tədqiqatların tədris prosesinə tətbiqi təhsilin keyfiyyətini yüksəldir. Keyfiyyətli təhsil isə təkcə iş dünyası üçün deyil, həm də elmin inkişafı üçün çox vacibdir. Çünki elmi tədqiqatın əsas subyekti olan tədqiqatçılar keyfiyyətli təhsil prosesində formalaşır.

Elmin təhsillə, təhsilin iş dünyası ilə, həmçinin elmin iş dünyası və istehsalla əlaqəsinin təmin edilməsi müasir universitet modelinin formalaşmasından ciddi surətdə asılıdır. Təhsilin hər bir elementi çox önəmlidir. Amma hər hansısa bir ölkənin inkişafında gərəkli olan ixtisaslı işçi qüvvəsinin hazırlanmasında ali təhsil qurumlarının önəmi daha artıqdır. Ali təhsil mərkəzlərində aparılan elmi araşdırma fəaliyyətlərindən əldə edilən nəticələr, cəmiyyətdəki bütün institutların biliklərlə təmin edilməsi, inkişafı və dəyişdirilməsində təsirli rolu oynayır. Bir sözlə hansısa ölkənin inkişafı üçün investisiya və texnologiya transferi ilə birlikdə, kifayət qədər ixtisaslı işçi qüvvəsinə də ehtiyac vardır. Ali təhsil keyfiyyətli işçi qüvvəsini cəmiyyətə qazandırmanın və ictimai rifahı artırmanın yanında fərdlərin əldə etdiyi gəlir səviyyəsinin də yaxşılaşdırılması ilə fərdi rifaha müsbət təsir edir.

Elm yalnız innovasiya üçün mənbə rolunda çıxış edəndə və elmi biliklərin kommersiya realizasiyası mümkün olanda iqtisadiyyata ciddi təsir edir. Elmi məhsul fundamental elmi tədqiqatlardan başlayaraq, ardınca tətbiqi tədqiqatlar, layihələndirmə, istehsal, marketinq və satış mərhələlərindən keçərək sonda kommersiya mərhələsinədək davam edən uzun bir prosesin nəticəsidir. Postindustrial cəmiyyətdə elmi tədqiqat müəssisələri və xüsusən də universitetlər elmin kommersiyalaşması prosesinin ən aparıcı elementləri sayılır. Müasir cəmiyyətin sosial-iqtisadi inkişafı isə tədqiqat və inkişaf sahəsindəki yeniliklərə bağlıdır.




**Şəkil 2. Bəzi ölkələr üzrə tədqiqat və inkişaf xərclərinin ÜDM də nisbi payı (faizlə)**
*(Cədvəl Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır)*

2020-ci ilin məlumatlarına əsasən Azərbaycanda tədqiqat və inkişaf xərclərinin ÜDM-də payı 0,2 % ətrafındadır. Dünya Bankının hesabatına əsasən Azərbaycanda adətən digər ölkələrdə tədqiqat və innovasiyaların stimulu kimi çıxış edən ali təhsil müəssisələrinin iqtisadiyyat ilə güclü əlaqəsi yoxdur və bu müəssisələr sahibkarlıq və biznesin inkişafını stimullaşdırmaq məqsədilə çox az potensiala malikdir. Nəticə etibarilə, beynəlxalq səviyyədə Azərbaycanda tədqiqatın keyfiyyəti nisbətən aşağı qiymətləndirilir. Bununla yanaşı, rəqabətli maliyyələşdirmə imkanları məhduddur, bu da, həmçinin sektorun inkişafına mane olur [12, s.22]. Tədqiqatlar göstərir ki, əgər ÜDM-dən elmə ayırmalar 2 faizdən aşağı olarsa, elm iqtisadiyyata ciddi təsir etmir. Bu səbəbdən də biliklərə əsaslanan yeni iqtisadi inkişaf modelinə keçid yalnız elmin gücləndirilməsi hesabına ola bilər.

İqtisadi münasibətlərin elm sahəsinə daxil olması universitetin yeni bir funksiyasını meydana gətirdi: sənaye cəmiyyətində formalaşan əsas funksiyaları - biliklərin qorunması və ötürülməsi, bacarıq və qabiliyyətlərin formalaşdırılması, biliklərin generasiyası ilə yanaşı, biliklərin ticariləşməsi (kommersiyalaşma) funksiyası da ortaya çıxır. Kommersiyalaşma innovasiya prosesinin mərhələlərindən biridir [15, s.15]. Amma, xüsusilə, qeyd etmək lazımdır ki, tarixi inkişafın bütün mərhələlərində universitetlərin iqtisadiyyatla birbaşa əlaqəsi olmamışdır. Bütün dövrlərdə universitetlər xarici mühitdə baş verən iqtisadi, siyasi, hüquqi, mədəni, sosial, texnoloji və digər amillərin təsirinə məruz qalmışdır. Xarici mühitin təsiri ilə universitetlərin məqsədi, missiyası, cəmiyyətdəki rolu, funksiyası, idarə edilməsi və maliyyələşməsində əhəmiyyətli ölçüdə keyfiyyət dəyişiklikləri meydana çıxmışdır. Nəticədə unversitetlərin yenidən təşkili və müstəqilliyi (muxtariyyatı) məsələsi ön plana keçmişdir. J.G.Vissema qeyd edirdi ki: "Tarixi prosesə nəzər etdikdə ilk nəsil (orta əsrlər dövrü) universitetlərin təhsil əsaslı, ikinci nəsil universitetlərin (Humboldt tipli universitetlər) təhsil və tədqiqat əsaslı və üçüncü nəsil universitetlərin isə cəmiyyətə inteqrasiya etmiş sahibkarlıq universiteti olduğunu görə bilərik" [17, s.15]. Orta əsrlərdəki birinci nəsil universitetlər xüsusi peşələr üzrə kadrlar hazırlamaq məqsədi daşıyan təhsil yönümlü universitetlərdir. Bununla bərabər, birinci nəsil universitetlərin başlıca hədəfi, yeni bilgi arxasınca qaçmaq deyil, keçmişin müdrikliyini qorumaq və dini qurumların təlimlərinə itaəti gücləndirmək idi [18, s.12]. Humboldt və ya ikinci nəsil universitetlər isə təhsil funksiyası ilə bərabər, həm də tədqiqat funksiyasını icra edirdi. Bu universitetlərdə əldə edilən elmi nəticələr hər kəs üçün əl çatan olması məqsədilə kütləvi yayınlanmaya başlanılmışdır. İkinci tip universitetlərin əsas özəlliklərindən biri də ixtisaslaşmadır. Bu isə universitetlərin tək elmi istiqamətli fakültələr şəklində təşkilatlanmasına səbəb olmuşdur. Humboldt tipli universitetlərin ən əsas cəhətlərindən biri də bu universitetlərdə tədris ilə tədqiqat arasında sıx bir əlaqənin olması idi. İkinci nəsil universitelərdə elmi tədqiqatın nəticələri tədrisə tətbiq edilmiş və bununla da elmi fəaliyyət təhsil prosesinin gələcək inkişafı yolunda istifadə edilmişdir. Üçüncü nəsil universitetləri isə sahibkarlıq universiteti olaraq cəmiyyətə inteqrasiya etmiş, iş dünyası ilə sıx əlaqə yaratmış və öz elmi məhsulları ilə innovasiya bazarının əsas iştirakçısına çevrilmişdir. Müasir universitetlər biliyin istehsalı üzrə ixtisaslaşmış institutdur. Üçüncü nəsil universitetlərin hədəfi təhsilin keyfiyyəti, təhsil alanların əmək bazarına uyğunluğu və iş dünyasının tələblərinə cavab verməsi ilə yekunlaşmır. Üçüncü nəsil universitetlər bilik iqtisadiyyatının əsas atributları olmaqla bərabər, həmçinin sahibkarlıq fəaliyyətinin də əsas subyektləri sayılır. Yeni nəsil universitetlər akademik heyətini formalaşdırarkən daha çox sahibkarlıq universiteti modelini yaratmağı hədəfləyir və məhz elə tədqiqatçı alimlər seçilir ki, onların istehsal etdikləri bilik məhsulu bazar iştirakçıları üçün cəlbedici olsun və son nəticədə universitet öz

məhsulunun kommersiya realizasiyasını həyata keçirsin. Bununla da üçüncü nəsil universitetlər təhsil, tədqiqat və innovativ fəaliyyətin əsas institutuna çevrilir. Biliklərə əsaslanan iqtisadiyyatda universitetlərə "Universitet 3.0" adı verilmişdir və bu rəqəm universitetin missiyalarının sayını nəzərdə tutur: 1.0 – yalnız təhsil, 2.0 – təhsil və tədqiqat, 3.0 – təhsil, tədqiqat və biliklərin kommersiyalaşması.

Müasir dövrdə universitet-sənaye əməkdaşlığı aktual bir mövzuya çevrilib. Bunun əsas səbəbi isə universitetlərin məzmununda baş verən keyfiyyət dəyişiklikləridir. İlk universitetlərin əsas missiyası təhsil olsa da sonradan tədqiqat fəaliyyətinin də bir funksiya kimi əlavə edilməsi, universitet tarixində ilk akademik inqilab sayılırdı. Elmin kommersiyalaşması da akademik inqilabla bağlıdır. İlk akademik inqilab XIX əsrin sonunda ABŞ-da, universitetlərdə tədqiqatlar və tədris inteqrasiya olunanda baş vermişdi. Ardınca isə 1980-ci illərdən sonra, universitetlərin təməl missiyalarına iqtisadi və sosial inkişafa töhfə vermək də əlavə ediləndə ikinci akademik inqilab baş verdi. İkinci akademik inqilab akademik və sahibkarlıq sahələrinin inteqrasiyasını və elmi biliklərin kommersiyalaşmasını özündə birləşdirirdi. Beləliklə, universitetlər milli innovasiya sisteminin fəal oyunçusuna çevrilmiş oldu.

Dəyişən bazar şərtlərinə cavab vermək üçün firmalar daim yenilənməyə məcburdurlar. İnkişaf etməkdə olan texnologiyaların nəticəsində biznes təşkilatları son 50 ildə dəfələrlə dəyişməsinə baxmayarq, bu dəyişikliklər universitetlər üçün daha çox çətin və daha mürəkkəb bir prosesdir. Bir universitetin əsas vəzifələri tədqiqat və təhsildir. Universitetlər bilikləri yaradır, qoruyur, paylaşır və cəmiyyətin xeyrinə istifadə edir. Keçən əsrdə bu funksiyalar və bunların bənzəri olan digər funksiyalar az dəyişdi. İnformasiyanın cəmiyyətin xeyrinə istifadəsi yaşadığımız informasiya əsrində daha qabarıq hala gəlmişdir. Biliyi yaradan universitetlərlə biliyi praktik olaraq istifadə edərək məhsula çevirən sənayenin əlaqələri hər şeyin çox tez yeniləndiyi informasiya cəmiyyətində əlbəttə ki, dəyişəcəkdir [8, s.103]. Hər zaman olduğu kimi, universitetlər yeniliyi inkişaf etdirmək və yaradıcı bilikləri istehsal etmək və yaymaq baxımından informasiya cəmiyyətinin önündə durur. Postsənaye cəmiyyətində əsas problem elmin təşkilatlanmasıdırsa, ən vacib institut isə universitet və ya elmi–tədqiqat laboratoriyalarıdır. Sürətlə dəyişən daxili və xarici mühit dəyişkənləri universitetlərin funksiyasını və strateji düşüncəsini çox ciddi təsir edir və onları sahibkarlıq universiteti olmağa sövq edir.

Aparılan tədqiqatların təcrübədə istifadə edilməsi, həmçinin alimlərin biliklərinin kommersiyalaşdırılması prosesində iştirakına hazırlığı sahibkarlıq ruhunun universitetlərə sirayət etməsinə yardımçı olur. Şirkətlər tərəfindən verilən sifarişlər ikili təyinata malikdir – onlar şirkətlərə yeni məhsul hazırlamağa kömək edir, digər tərəfdən, universitet üçün elmi əhəmiyyətə malikdir. Biznes və dövlətlə sıx qarşılıqlı əlaqə universitetin inkişafı üçün mütləq şərtdir. Yeni nəsil universitetlərin inkişaf etdirilməsinə ilkin mərhələdə tədqiqat universitetləri xidmət edir. Universitetlər apardıqları tədqiqat və işlərdən gəlir əldə etmək üçün istehsal potensialını və onun təcrübədə tətbiqi imkanlarını təhlil edir, öz müəllim və tələbələrinə yeni müəssisələrin yaradılması işində yardım göstərir [2, s.43].

Yeni universitet modeli olan sahibkarlıq universitetlərinin əsas məqsədi təkcə məzunlarını yalnız iş axtaranlara deyil, iş yaradanlara çevirə bilməkdir. Sahibkarlıq universitetlərindəki elmi tədqiqatlar yalnız akademik nəşrlərə yönəlmir, həm də cəmiyyətdəki və iqtisadiyyatdakı yeniliklərin mənbəyinə çevrilərək yeni müəssisələr üçün biznes ideyaların inkişafında başlanğıc rol oynayır.

## Yekun

Elm, təhsil və istehsalın vəhdəti tarixi inkişafın heç bir mərhələsində indiki qədər aktual olmamışdır. İnsan inkişafı amilləri sırasında mühüm yer tutan elm və təhsil iqtisadiyyatla birbaşa və ya dolayısı ilə sıx əlaqələrə malikdir. Təhsil əmək bazarının tələblərinə cavab verdikdə və təhsil alanların əldə etdiyi bilik və bacarıqlar ölkədəki insan kapitalının inkişafına səbəb olduqda təhsilin iqtisadiyyata müsbət təsirindən danışmaq olar. Elm isə əsasən elmi biliklərin kommersiya realizasiyası mümkün olanda iqtisadiyyata birbaşa müsbət təsir edir. Postindustrial cəmiyyətdə elmi tədqiqat müəssisələri və xüsusən də universitetlər həm insan kapitalının inkişafı, həm də elmin kommersiyalaşması prosesinin ən aparıcı elementləri sayılır. Müasir informasiya cəmiyyətində universitetlərlə və iqtisadiyyat arasında qarşılıqlı əlaqə getdikcə daha da güclənir.

Hazırda universitetlər elm-təhsil-biznes üçbucağının əsas fiquruna çevriliblər.

Beləliklə, elm-təhsil-biznes tandemini effektiv qurmaq, innovativ ideyaların transferi üçün universitet-iş dünyası arasında əlaqə yaratmaq, tədqiqatdan təhsilə, təhsildən də biznesə keçid edərək innovativ sahibkarlığı inkişaf etdirmək və resurs əsaslı (təbii, kapital və əmək tutumlu) iqtisadiyyatdan biliklərə əsaslanan innovasiyalı iqtisadiyyata transformasiya üçün yeni nəsil (üçüncü nəsil və sahibkarlıq universitetləri) universitetlərinin yaradılmasına ehtiyac vardır.

**Açar sözlər:** *təhsilin iqtisadiyyatı, elmin iqtisadiyyatı, postindustrial cəmiyyət, bilik iqtisadiyyatı, elmin kommersiyalaşması, elm-təhsil-biznes əlaqələri, tədqiqat və inkişaf, üçüncü nəsil universitetlər, sahibkarlıq universiteti, universitet-sənaye əməkdaşlığı*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. A.Musayev. Ölkənin innovasiya sisteminin inkişafı məqsədilə dövlət, elm (innovativ universitetlər) və biznesin qarşılıqlı əlaqəsi. Ali təhsil və cəmiyyət (elmi-metodiki jurnal). 1/2012.*

*2. Bilge Bingöl. Üniversite Özerkliğinin Değişen Tanımı ve Üniversitelerin Yeniden Yapılandırılması. Bingöl / Hacettepe Hukuk Fak. Derg., 2(2) 2012, 39–75.*

*3. Clark B. Excludes Changes in Educational Areas: Development of Visual Studies and Concepts. New York: Open University Press, 2004. 452 p.*

*4. Dicle Özcan, Halil Çakir. Üniversite-Toplum, Devlet, Piyasa/Sermaye İlişkileri Bağlamında Üniversite Özerkliği. Journal of Higher Education and Science. Cilt/Volume 6, Sayı/Number 1, Nisan/April 2016; Sayfa/Pages 31-40.*

*5. E.Bağırzadə. Bilik iqtisadiyyatı, iqtisadi artım və dövlət. UNEC ekspert jurnalı (5). 2018.*

*6. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt: 2018. - 376 s.*

*7. Erkan Erdil, M.Teoman Pamukçu, İ.Semih Akçomak, Yelda Erden. Değişen üniversite-sanayi işbirliğinde üniversite örgütlenmesi. Ankara Üniversitesi SBF Dergisi, Cilt 68, No. 2, 2013, s. 95 – 127.*

*8. Ferhat Ağçay. Üçüncü nesil üniversiteler: kolaylaştirici ve engelleyici faktörler ile başari unsurlarinin belirlenmesine yönelik üniversite paydaşlari üzerinde bir araştirma. İzmir – 2019.*

*9. Güler Gelgeç, Selim Adem Hatırlı. Bilgi ekonomisi ve büyüme arasindaki ilişki: Türkiye örneği. Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi Y.2018, C.23, S.1, s.97-122.*

*10. İmanov, K.S. 3.0 yaranan Universitetlərin əsasında düşünülmüş əqli mülkiyyət siyasəti durur. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi. Bakı, 2019.*

*11. İsmail Seki. Bilgi yönetişimi bağlamında üniversitelerin ekonomideki rolü. İzmir – 2011.*

*12. Sağ qal, öyrən, inkişaf et. Azərbaycanın inkişafının sürətləndirilməsi məqsədilə insan kapitalına strateji investisiyaların yatırılması. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı / Dünya Bankı. 2020.*

*13. Shahid Yusuf, Kaoru Nabeshima. Üniversiteler ekonomik büyümeye nasıl katkıda bulunur. Uluslararası İmar ve Kalkınma Bankası / Dünya Bankası. 2011.*

*14. Süleyman Kevük. Bilgi ekonomisi (Knowledge economy) // Journal of Yasar University, 1(4), 2006, – s. 319-350.*

İnformasiya və təhsil fəaliyyətləri - öyrənənlərin və müəllimin yeni informasiya texnologiyaları vasitələri arasındakı qarşılıqlı fəaliyyətə əsaslanan, təhsil məqsədlərinə çatmağa yönəlmiş fəaliyyətdir. Bu vəziyyətdə aşağıdakı tədbirlər həyata keçirilir: tədqiq olunan obyektlər, hadisələr, proseslər haqqında informasiyaların qeydiyyatı, toplanması, saxlanması, işlənməsi; interaktiv dialoq; real obyektlərin, hadisələrin nümayişinə nəzarət; avtomatlaşdırılmış idarəetmə (özününəzarət) və s.-nin nəticələrinə əsasən təhsil fəaliyyətinin nəticələrinin düzəldilməsi və s. informasiya idarəetmə sistemləri təhsil prosesinin bütün iştirakçıları arasında informasiya mübadiləsini təmin edir.

Deməli, təhsilin informasiyalaşdırılmasının ən vacib vəzifəsi insan fəaliyyətinin digər sahələrinin informasiyalaşdırılmasını qabaqlamaq olmalıdır, çünki təhsil prosesində əldə olunan bilik və bacarıqlar insan fəaliyyətinin bütün növlərinin əsasını təşkil edir.

**Nəticə**

Təhsilin informasiyalaşdırılması son onilliklərin geniş miqyaslı yeniliklərindən biridir. Müasir informasiya texnologiyalarının təhsil sahəsinə daxil olması müəllimlərə təhsilin məzmunu, metodları və təşkilati formalarını keyfiyyətcə dəyişdirməyə imkan verir. Bu texnologiyaların təhsildə məqsədi informasiya cəmiyyətində tələbələrin intellektual bacarıqlarını artırmaq, təhsil sisteminin bütün səviyyələrində humanistləşdirmək, fərdiləşdirmək, təlim prosesini intensivləşdirmək və təhsilin keyfiyyətini yüksəltməkdir. Bundan əlavə, informasiya və kommunikasiya texnologiyalarından istifadə təhsil sahəsində idarəetmə prosesini optimallaşdırmağa imkan verir.

Beləliklə, cəmiyyətin informasiyalaşdırılması və bununla əlaqədar kompüter texnologiyalarının geniş tətbiqi təhsilin məzmununa əhəmiyyətli dərəcədə təsir göstərir, tədris prosesinin iştirakçılarını yeni texniki tədris vasitələri ilə təmin edir və təhsilin həlli üçün avtomatlaşdırılmış informasiya sistemlərinin yaradılmasına təkan verir.

Açar sözlər: təhsil, cəmiyyət, mədəniyyət, informasiyalaşdırma, informasiya cəmiyyəti, informasiya səriştəsi.

**ƏDƏBİYYAT SİYAHISI**

*1. Azərbaycan Respublikasinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi" haqqında qanunu. E-qanun.gov.az.framework/3525*

*2. Nəzərov M.H, Təhsilin sosiomədəni əsasları. Monoqrafiya. Bakı, "Elm və təhsil", 2017, 256s*

*3. Nəzərov M.H, Quliyev N.Z, Nəzərova X.M. Pedaqoji Texnologiyalar. Dərs vəsaiti Bakı: ADPU, 2020. 467s*

*Rus dilində*

*4. Григорьев С.Г., Гриншкун В.В. Информатизация образования. учебное пособие М .: МГПУ, 2005. - 241 с.*

*5. https://cinref.ru/razdel/04900sociologia/15/293127.htm .*

*6. http://www.vsavm.by/kniga3/70.html*

**M.H.Nazarov, N.Z.Guliyev**

**The role of informatization of education in the development of society**

The article examines the theoretical issues of informatization in the field of education, reflects the problems of providing the education sector with methodology and experience for the optimal use of new information technologies. The positive effects of informatization are noted: consistency, flexibility, access to continuing education, extensive access to electronic resources and data visualization. The main tasks and activities aimed at informatization of education were given. Along with the areas of informatization of education, an analysis of existing problems is presented and possible ways to solve them are considered. The principles, means, general cultural and professional skills of the implementation of student-oriented education, the main factors in the development of information culture in modern society are indicated.

**Keywords:** *education, society, culture, informatization, information society, information competence.*

**М. Г. Назаров, Н.З. Кулиев**

**Роль информатизации образования в развитии общества**

В статье исследуются теоретические вопросы информатизации в сфере образования, отражены проблемы обеспечения сектора образования методологией и опытом для оптимального использования новых информационных технологий. Отмечены положительные эффекты информатизации: последовательность, гибкость, доступ к непрерывному образованию, широкий доступ к электронным ресурсам и визуализация данных. Даны основные задачи и мероприятия, направленные на информатизацию образования. Наряду с направлениями информатизации образования представлен анализ существующих проблем и рассмотрены возможные пути их решения. Указаны принципы, средства, общекультурные и профессиональные навыки реализации студенческого обучения, основные факторы развития информационной культуры в современном обществе.

**Ключевые слова:** *образование, общество, культура, информатизация, информационное общество, информационная компетентность.*

UOT 1

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN YARADICILIĞINDA FƏLSƏFƏ MƏDƏNİ DƏYƏR KİMİ

**SABİR BEHBUDOV**
*Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı*

Azərbaycan maarifçiliyinin dəyərlər paradiqması yeni ictimai-siyasi, mədəni proseslər, ideoloji təmayüllər şəraitində formalaşır. Maarifçilik cəmiyyətdə müxtəlif təmayüllərin qarşıdurmasının tarixi yekunu kimi çıxış edir. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Azərbaycan tarixinin ictimai-sosial, mədəni ziddiyyətlərinə baxmayaraq, yeni dəyərlər cəmiyyətdə tədricən bərqərar olur. Cəmiyyətdə yeni dini-mədəni dəyərlərin formalaşdırılması maarifçiliyin aktual problemlərindən biri olur. Məhz yeni mədəni dəyərlər Şərqin, sosial inkişafını müəyyənləşdirə bilərdi. Belə gərəkli mədəni dəyərlərdən – aksioloji diskurslardan biri də fəlsəfə idi, məhz Avropa fəlsəfəsi idi.

Azərbaycan maarifçiləri demokratik dünyagörüşünün, milli özünüdərkin formalaşmasında fəlsəfənin əhəmiyyətini yaxşı anlayırdılar. Onlar cəmiyyətdə elmi-təfəkkürün təşəkkülünü və inkişafını fəlsəfə elminin inkişafı ilə əlaqələndirirdilər. “Bircə şeyi nəzərə almaq lazımdır ki, bu gün Avropada aşkar şəkildə etiraf olunsa da, olunmasa da, onların qazandığı nailiyyətlərdə fəlsəfi düşüncə tərzinin rolu böyük olmuşdur... Bütövlükdə sivilizasiya fəlsəfi düşüncə üzərində qərar tutmuşdur.

Avropanın ikinci inkişaf dövrü Renessansda fəlsəfi düşüncəyə qayıdışdan başlayır. Yeni dövrün bütün siyasi-hüquqi və mədəni-mənəvi dəyərlər sistemi də, demokratiya, insan haqları, beynəlxalq hüquq normaları da fransız maarifçi filosoflarından, Con Lokkdan, Kantdan qidalanır” [1, s.325].

Azərbaycan Maarifçiliyinin əsas ideya istiqamətlərindən müasirləşmək, daha doğrusu, Avropanın inkişaf-tərəqqi yolunu örnək götürmək idi. Müasirləşmə konsepsiyası əslində Mirzə Fətəli Axundzadənin ədəbi-fəlsəfi yaradıcılığı əsasında, ilk rüşeymlər səviyyəsində formalaşırdı. “Mirzə Fətəlinin böyüklüyü orasında idi ki, o bu problemi sadəcə ortaya atıb diqqəti ona yönəltməklə kifayətlənmir, bədii və elmi əsərlərində mədəniləşməyə, müasirləşməyə aparan yolların konturlarını cızırdı. Bir sözlə, M.F.Axundzadə Azərbaycan cəmiyyətinin müasirləşməsi məsələsinə həm bədii, həm də elmi-fəlsəfi rakursdan yanaşmış, düşüncələrini sistemləşdirərək bitkin bir konsepsiya halına gətirmişdir” [2, s.127].

Mirzə Fətəlinin “Avropa mifi” Şərq kontekstində fərqli məna kəsb edirdi. Bu mənada görkəmli ədəbiyyatşünas Y.Qarayevlə razılaşırıq ki, “M.F.Axundovun Avropa mədəniyyətinə və Avropa ictimai həyat tərzinə böyük rəğbətini inkar etmək nəinki bu tarixi həqiqətin, həm də Axundovun bir maarifçi kimi tarixi xidmətini hərtərəfli meydana çıxara bilməyin xeyrinə deyil. Nəinki Axundovun Qərbə rəğbəti, hətta onun şərqliliyi də, klassik Şərq ədəbi-fəlsəfi ənənəsi ilə bağlılığı da ən çox məhz onun maarifçiliyi ilə ifadə olunur. O, məhz Şərqin maarifçi ideallarını ən müasir maarifçilik səviyyəsinə qaldırmışdır” [3, s.136].

Əlbəttə, heç də bütün maarifçilər Mirzə Fətəlinin bu “Avropa sevdası”nı – “tərəqqi konsepsiyasını” birmənalı qəbul etmirdi. A.Bakıxanov, C.Əfqani kimi mütəfəkkirlər cəmiyyətin və fərdin təkamülünü klassik islam dəyərlərinə qayıdışda, hətta təsəvvüf ənənələrinin dirçəlişində görürdülər. Y.Rüstəmov A.Bakıxanovun fəlsəfi dünyagörüşünü belə səciyyələndirir ki, “mütəfəkkir fəlsəfə məsələlərində sufi konsepsiyası olan vəhdəti-vücud tərəfdarı idi. Sufizmə uyğun olaraq A.A.Bakıxanov təsdiq edir ki, ilahi məhəbbət dünya qaydalarının daxili məqsədəuyğunluğunu müəyyən edir. Dünyanın nizamı və ahəngdarlığı ilahi məhəbbət əsasında qurulur, məhəbbətsiz heç bir şey yaşaya bilməz, heç nə baş verə bilməz” [4, s.145].

Azərbaycan maarifçiləri arasında Mirzə Fətəlini fəlsəfə (xüsusən Qərb fəlsəfəsi) bir yaradıcılıq sahəsi kimi daha çox maraqlandırırdı. O, müsəlman cəmiyyətinin problemlərinin həllini fəlsəfə diskursunda gerçəkləşməsində görürdü.

Filosof istənilən problemlə necə işləyir? Əlbəttə, ilk növbədə problemin səbəbini çözməyə, problemin yarandığı situasiyanı anlamağa çalışır. Yalnız fəlsəfə diskursu problemi refleksiv

təfəkkür vasitəsi kimi istifadə edə bilir. Refleksiv düşünmə qabiliyyətinin inkişafı fərdi və toplumu dəyişdirməyə qadirdir. Maarifçi-mütəfəkkirin "Con Stüart milli azadlıq haqqında" adlı məqaləsindən bir parçaya diqqət yetirək: "Bu gün bizim kürəmizdə Hindistan brəhmənlərinin və Musa dininin peyğəmbərləri və Çin dövləti qanunlarına bağlı olanlar haman dəyirman atları kimidirlər ki, dinlərin və qanunların meydana çıxdığı tarixdən bu günə qədər onların halında heç bir dəyişiklik üz verməmişdir. Bəlkə, demək olar ki, onlar daima geri gedəcəklər, çünki insan növünün tərəqqisi ağıl iləddir, bu biçarələrin ağlı üçün isə hərəkət yolu bağlanmışdır" [5, s.355].

Mirzə Fətəli Axundzadə də rus dili vasitəsilə Qərb filosoflarının əsərləri ilə yaxından və daha ciddi surətdə tanış idi və toplumun inkişafı üçün fəlsəfə elminin vacibliyini vurğulayırdı. Qərb (Avropa) cəmiyyətinin tərəqqi etməsinin səbəbini onlar da filosofların olması ilə izah edirdi. O, fəlsəfəyə, yaxud fəlsəfi əsərlər cəmiyyət üçün "faydalılıq əmsalına" görə qiymətləndirirdi. "Belə isə, həqiqət bu ali rütbəli həzrətlərin əsərlərində işlətdikləri üslubda deyildir. Onlar filosofluğun mənasını çox yaxşı anlamışlar. Lakin qorxaqlıq və cəsarətsizlik üzündən fəlsəfənin mənasını bütün xalqa və bütün bəşəriyyətə söyləyə bilməmişlər. Bunun nəticəsidir ki, onların əsl məqsədləri bu günə qədər kəşf edilməmiş qalmışdır. Onların əsərlərindən heç kəs fayda görə bilməmişdir. Halbuki ingilis Bakl, fransız Valter və başqa Avropa filosofları da həmin fəlsəfəni o cənablar kimi anlamışlar. Lakin cəsarətlə, qorxusuz, pərdəsiz və açıqdan-açığa onun mənasını özlərinin dərk etdikləri, bütün insanlara, bütün xalqa başa salmışlar və bunun nəticəsində, bütün dünyada ad qazanmışlar və Avropanın bu günkü mədəniyyətinə bais olmuşlar" [6, s.221].

Mirzə Fətəli inanırdı ki, dini xurafata və fanatizmə, zalımların zülmünə qarşı mübarizə, xalqın maariflənməsi fəlsəfə elmi ilə ciddi məşğul olmasından keçir və fikrinin təsdiqi üçün Volteri, Münteskyönü, Russonu və başqa "söhban təbiətli filosofların" [7, s.119] adlarını və fəaliyyətini örnək gətirirdi. Onun fikrincə, Şərq (müsəlman) cəmiyyətinin gerclikdən, barbarlıqdan, vəhşiyyət və cəhalətdən qurtulma yolu Avropa filisoflarının sözünə qulaq asmaqdır [7, s.295-299]. Mirzə Yusif xana 29 mart 1871-ci il tarixli məktubunda bu zərurəti qeyd edir: ..."bu ölkələrin Bakl və Renan kimi başqa filosofların yazılarından xəbərdar olmalısınız ki, bu sözün həqiqət olması sizə sübut olsun və siz mənim dediklərimə inanasınız ki, moizə və nəsihətin insan təbiətində, onun uşaqlıq və ilk gənclik dövrü keçdikdən sonra heç bir faydası və təsiri ola bilməz" [7, s.253-254].

Araşdırmalar göstərir ki, böyük ədib fəlsəfənin (Qərb fəlsəfəsinin) anlayışlar sistemini anlamağa, mühüm fəlsəfi kateqoriyaları izah etməyə çalışır. Məsələn, "səbəb-nəticə" kateqoriyasının izahı üçün XVIII əsr ingilis filosofu D.Yuma müraciət edir: "Miladi 1768 tarixində Yum adlı bir ingilis həkimi Hind və Bombey müsəlman alimlərindən bir fəlsəfi məsələni soruşmuş və onlardan cavab istəmişdir. Lakin bu vaxta qədər islam alimləri tərəfindən bu məsələyə aid qaneedici bir cavab verilməmişdir. Məsələ budur: hər varlığa bir səbəb lazımdır, çünki hər bir varlıq öz-özünə vücuda gələ bilməz. O halda bir varlıq olan bu kainat da var ola bilmək üçün bir səbəbə möhtacdır ki, bu səbəb onun yaradanıdır. Bu bir əqidədir ki, hər millətin şəriətçiləri, filosoflara qarşı ülühiyyətin isbatı üçün dəlil gətirirlər. Bu əqidənin rəddinə filosoflar cavab verirlər: Bu halda səbəb də özü-özlüyündə bir varlıqdır, buna da başqa bir səbəb lazım gəlməlidir; o başqa səbəb də eyni surətdə nəticədə nihayətsizdir. Bu keyfiyyət isə ağlabatan deyildir. Çünki ağlın hökmünə görə səbəblərin silsiləsi bir yerdə dayanmalıdır, yoxsa silsilələnmə lazım gəlir. O halda ağlın hökmünə görə varlığa bir səbəb olması xüsusda şəriətçilərin gətirdikləri dəlillər yanlışdır" [8, s.167].

Azərbaycan ictimai fikrində fəlsəfi refleksiyanın ən mübahisəli və ziddiyyətli nümunəsi olan "Kəmalüddövlə məktubları"nda XVIII əsr fransız maarifçilərinin ehtiraslı düşüncə üslubu və ruhu, xüsusən XVIII əsr fransız ateist məktəbinin ideyalarının əks-sədası duyulmaqdadır. Axundovşünasların qənaətinə görə, "Kəmalüddövlə məktubları"nda Volter ironiyasının və sarkazmının izləri aydın görünür. Dinə, dini sxolastikaya qarşı bu qədər kəskin, barışmaz münasibət XIX əsr müsəlman cəmiyyətində təhlükəli hadisə idi. Hardasa ateizm düşüncəsi ilə barışma fransız maarifçilik mühitindən fərqli olaraq, Şərq (Azərbaycan) mühiti üçün qutsal obrazlara və kitablara qarşı belə açıq müxalifət qorxulu idi. Y.Qarayev bu haqda yazır: "Dini risalələrdə Peyğəmbərin həyatındakı ayrı-ayrı epizodlara verilən şərhlərə Kəmalüd-dövlənin təfsirləri realist parodiyalar

təsiri bağışlayır və islam müqəddəslərinin Volter tərəfindən dramaturgiyada yaradılan satirik surətini (Volterin "Mə-həmməd" əsəri) M.F.Axundov bədii publisistikada, pamfletdə yaradır" [9, s.140]. Digər görkəmli ədəbiyyatşünasımız Ə.Mirəhmədov yazır ki, "fransız filosofunun (Volneyin – S.B.) dinə və feodal monarxizminə qarşə çevrilmiş "Xərabələr" əsərini oxuyarkən bu əsərdə "Kəmalüddövlə məktubları arasında gah aşkar, qüvvətli, gah da epizodik yaxınlıq hiss olunur" [10, s.16]. Axundovşünasların artıq yekdil fikri belədir ki, Mirzə Fətəli fransız mənbələrini ya orijinalda öyrənmiş, ya da dolayısı ilə Qafqaza sürgün edilmiş rus demokratlarının əsərlərindən bəhrələnmişdir.

Belə güman etmək olar ki, Mirzə Fətəlinin XVIII əsr fransız ictimai-fəlsəfi fikri ilə tanışlığı rus və ya türk tərcümələri ilə tanışlığı əsasındada baş tuta bilərdi. "Bu tanışlığın Axundov zamanındakı türk mətbuatı, bəlkə də Volneydən türkcəyə tərcümələr sayəsində mümkün olduğunu ehtimal etmək olar". Lakin Volneyin bu yaxınlarda əlimizə keçmiş başqa bir əsəri göstərir ki, M.F.Axundov kimi o da, şərqşünaslıq fəaliyyətində ərəb əlifbasının izahı məsələlərinə ciddi əhəmiyyət vermişdir. Deməli, Volneyin elmi irsində Axundovu maraqlandıran yalnız ateizm və feodal istibdadı əleyhinə mübarizə motivləri deyil" [10, s.293-294].

Mirzə Fətəlinin əsərlərində Volney, Holbax kimi filosofların adlarının yer alması, bir tərəfdən, Azərbaycan maarifçiliyinin ideya axtarışlarının səviyyəsini göstərirdisə, digər tərəfdən, fəlsəfi fikrimizin antroponimlərin assosiativ zonasında mif – obrazlar kimi mövcud olurdu. "Sən özün insaf elə, heç rəvadır ki, Volter, Monteskye, Russo, Düma, Humbolt, Luvrie, Uatt, Fenelon, Bakl, Şekspir, Volney, Bayron və Avropadakı bu kimi tanınmış folosofları, yazıçıları, şairləri, tarixçiləri və ixtisasçıları həşərat qismindən bayılsın, amma Süruş adlı faydasız, müzürr bir şəxs və onun kimilər insanlar arasına alınsınlar" [11, s.242].

Mirzə Fətəlinin "fəlsəfi onomastikon"unda (belə demək mümkünsə)Böyük fransız inqilabının məşhur imzalarından olan, mütləqiyyəti kəskin ifşaları ilə tarixə düşən qraf Mirabonun adı keçir. Mirzə Fətəlinin Miraboya tənqidi mövqeyini M.Rəfili haqlı sayırdı və hesab edirdi ki, onun "Feo-dal-patriarxal quruluşu şəraitində belə mövqe kifayət qədər mühüm əhəmiyyət kəsb edirdi" [12, s. 348-350].

Amma bir məqamı da unutmamalıyıq ki, Qafqaz canişinliyinin məmuru olan M.F.Axundzadə 1848-ci il fransız inqilabına təəssübkeşlik münasibətini açıq bildirə bilməzdi. Ona görə də ictimai-siyasi fikirlərində son dərəcə ehtiyatlı davranırdı, "şübhə oyatmamaq və iz itirmək üçün əsərin ("Hekayəti – müsye Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadügünü məşhur" – S.B.) heç bir yerində 1848-ci il inqilabının adını çəkmir və qəsdən hadisənin tari-xini iki il dala, yəni 1846-cı ilə atır" [13, s.150].

Şübhəsiz, maarifçilik ideyalarının Azərbaycanda geniş ilk növbədə fransız fəlsəfəsinin Avropaya, Rusiyaya yayılması ilə bağlı idi. Bu təsir, məsələn, XVIII əsr Rusiya siyasi, mədəni elitasında daha çox fransız hadisəsi idisə, intellektual dairələrdə fransız dəbi idi. Mirzə Fətəlinin adlarını sadaladığı, müraciət etdiyi filosoflar içərisində fransızların üstünlüyübu səbəbdəndir.

Mirzə Fətəli Axundzadə fəlsəfəsinin XVIII əsr fransız maarifçiliyinə fokuslanmasının bir səbəbi düşüncə üslubunun yaxınlığı idisə, digər səbəbi fransız müəlliflərinin Rusiyada, Türkiyədə müəyyən qədər dəbdə olması ilə bağlı idi. "M.F.Axundov ədəbi-fəlsəfi fəaliyyət üçün bir nümunə axtarırkən Balzak XIX əsrini yox, müasir olan Qoqol tənqidi realizmini yox, XVIII əsrin fransız maarifçiliyini, Volteri, Monteskyonu seçdi. Çünki Axundovun XIX əsrinə fransız Avropasının XVIII əsri daha uyğun gəlirdi. Hələ XVIII əsrdə Volterin işini görmək lazım idi ki, Balzak və Qoqol işinə ehtiyac əmələ gəlsin. (Qoqol hələ sonra lazım olacaqdı, Mirzə Cəlilə, Sabirə lazım olacaqdı" [14, s.68].

Görkəmli Azərbaycan maarifçisi Məhəmməd ağa Şahtaxtinski böyük mütəfəkkirin əsərlərində fransız maarifçilərinin adlarını çəkməsini, onların fəlsəfi irsinə müraciət etməsini "geniş diapozonlu fəaliyyəti ilə əlaqələndirmişdir", "ədibin müsbət keyfiyyəti kimi göstərmiş, dar yaradıcılıq çərçivəsində qalmamasını alqışlamışdır" [15, s.142].

Mirzə Fətəli Axundzadə fəlsəfəni dinin antitezi kimi qəbul edir. O, "din-elm", "din-fəlsəfə" semio-tik qarşıdurmasında fəlsəfənin, elmintərəfindəçıxış edir. Mütəfəkkirin inamına görə, "Avropanın başqa millətləri, xüsusən İngiltərə, Fransa və Amerika millətləri dini etiqadların qeydindən azad olaraq, əql və fəlsəfəyə tabe olduqlarından elm və sənayedə günbəgün, saatbasaat tərəqqi etməkdədirlər" [5, s.288].

Məlumdur ki, XVIII əsr Avropa maarifçi fəlsəfəsinin əsas janrı kimi roman janrı çıxış edirdi. Məhz maarifçi roman fəlsəfəni sxolastikadan

uzaqlaşdırmağa cəhd edir. Maarifçi romanlarda filosofpersonajların iştirakı da bu üzdəndir, onlar gah Volterin Panqlosu kimi gülməli, markiz de Sadın romanlarında libertinlər kimi ciddi, qadın (Didronun qəhrəmanı Mirzoza kimi) və kişi (Prevonun "Klivlend" romanında Klivlend kimi) ola bilirdilər. Həmin roman personajları fəlsəfi məsələlər üzərində çox düşünürlər və həmin düşüncələr roman süjetlərinin inteqral hissəsini təşkil edirdi.

Avropa maarifçilərinin bədii əsərlərinin fəlsəfi məndəricəsi və ideyası həmin dövrün oxucularına estetik zövq verirdi. Nə qədər qəribə səslənsə də, fəlsəfi ideyalar bədii təhkiyəni quru, süjeti cansıxıcı etmirdi, əksinə, bir az da canlı edirdi. Hətta J.-J. Russonun "Yeni Eloiza" əsərinin qəhrəmanları özlərini daha çox ideyalar vasitəsi ilə ifadə edirdilər. Teatrda da fəlsəfə vacib rol oynayırdı. Baxmayaraq ki, bəzi pyeslər satirik xarakterli idi, ensiklopedistlər gülüş hədəfi olurdu (məsələn, Palissonun "Filosoflar" komediyası, 1760), amma Maarifçilik tərəfdarlarından filosofluq estafetini personajlar (Bomarşenin "Fiqaronun evlənməsi" dramında Fiqaro) qəbul etdilər, onlar filosof olmasalar da, dərin və müstəqil düşünməyi sevirdilər.

Avropa maarifçiliyində fəlsəfi düşüncələr epistolyar üslübda yazılmış əsərlərə, epistolyar romanlara da yansıyır və əsasən eksperiment forması olub, müəlliflərin intensiv intellektual və reflektiv fəaliyyətinin ifadəsi idi. Monteskyonun "Fars məktubları", Didronun "Rahibə", Russonun "Yeni Eloiza" əsərləri bu qəbildəndir. Maraqlıdır ki, XX yüzildə məhz totalitarizm və nasizm dövründə T.Adorno və M.Xorkxaymerin yazdıqları "İdrakın dialektikası"əsərində maarifçilik bu yöndən tənqid obyektinə çevrilir. Əlbəttə, maarifçiliyin rasionalizmini pozitivizm və texnisizm kimi yeni vəhşilik formasına çevrilməsində günahlandırmaq ədalətsizlikdir.

M.F.Axundzadə üçün xurafat və mövhümata qarşı yeganə kəsərli silah fəlsəfə idi. Ortodoks dinə, molla xurafatına, orta əsrlər cəhalətinə qarşı ən səmərəli ideoloji mübarizə üsulu kimi Qərb fəlsəfəsinin epistolyar janrına üstünlük verir, "Kəmalüddövlə"nin güclü ifşa ritorikasının insanların tərbiyəsində əhəmiyyətli rol oynayacağına inanırdı. "...Əgər inşallah, "Kəmalüddövlənin məktubları" nəşr edilərsə, mənim xalqım da tərbiyə və mərifət meydanına qədər qoyar" [16, s.15].

Məhz "Avropa filosoflarının gözü ilə" baxış Azərbaycan maarifçiliyini iki yerə - inqlabi-demokratik maarifçiliyə və islam maarifçiliyinə ayırır. Maarifçilikdə müasirlərə bizim tarixi varlığımızı və kimliyimizi daim tənqidi yanaşmağa dəvət edən fəlsəfi etosu təklif olunur.

**Açar sözlər:** *M.F.Axundzadə, fəlsəfə, maarifçilik, mədəni proseslər, dini-mədəni dəyərlər, cəmiyyət, milli özünüdərk*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Xəlilov S. Həyatın özü və görünən üzü. Fəlsəfi və ədəbi-bədii publisistika. Bakı: "Nurlan" NPM, 2013, 448 s.*

*2. Şamıoğlu (Musayev) Ş. Mirzə Fətəli Axundzadə (dövrü, elmi biblioqrafiyası və müasirləşmə konsepsiyası). – Bakı: "Elm və təhsil", 2016. 184 s.*

*3. Qarayev Y. Klassik nəsr və maarifçilik problemi // Qarayev Y. Seçilmiş əsərləri. 5 cilddə. II cild. Bakı: Elm, 2015, s.131-170.*

*4. Rüstəmov İ. Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problem-ləri (XIX əsrin sonu – XX əsrin əvvəlləri). Bakı: Diplomat, 2001, 483 s.*

*5. Axundov M.F. Bədii və fəlsəfi əsərləri. Bakı, "Yazıçı", 1987, 368 s.*

*6. Axundov M.F. Seçilmiş əsərləri. III c. Bakı, Azərnəşr, 1962.*

*7. Axundzadə M.F. Əsərləri, 3 cilddə, III c., Bakı: Elm, 1988. 388 s.*

*8. Atayeva Ş.Y. Mirzə Fətəli Axundzadə ingilisdilli ədəbiyyatşünaslıqda. Fil.elm. nam.diss. Bakı, 2005.*

*9. Qarayev Y. Realizm: sənət və həqiqət // Qarayev Y. Seçilmiş əsərləri. 5 cilddə. III cild. Bakı: Elm, 2015, s.5-370.*

*10. Mirəhmədov Ə. M.F.Axundov və K.Volney // Azərbaycan-Avropa ədəbiyyatının qarşılıqlı əlaqəsi. Bakı: Elm, 1986.*

*11. Axundov M.F. Məqalələr məcmuəsi. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1962, 355 s.*

*12. Rəfili M. M.F.Axundov. Bakı: Azərnəşr, 1957.*

*13. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: "Maarif", 1974, 488 s.*

*14. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər (iki min ili tamamlayan iki yüz il). –*

*Bakı: Elm, 2002, 740 s.*

*15. Əliyev Ə. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan-Fransa ədəbi əlaqələri (Məhəmməd ağa Şahtaxtinski yaradıcılığında). Fil. elm. nam. dis. Bakı, 1998.*

*16. Məmmədov M. Azərbaycan ədəbi tənqidi. Müntəxəbat. Bakı: "Tural-Ə" NPM, 2002.*

**Сабир Бехбудов**

**ФИЛОСОФИЯ КАК КУЛЬТУРНАЯ ЦЕННОСТЬ В ТВОРЧЕСТВЕ МИРЗЫ ФАТАЛИ АХУНДЗАДЕ**

**Резюме**

Статья посвящена философским взглядам великого азербайджанского мыслителя, представителя просвещения, реалиста Мирзы Фатали Ахундзаде. Философские взгляды М.Ф. Ахундзаде сравниваются и анализируются с западной философией. Было отмечено, что Мирза Фатали не приемлет возможность просвещения людей с помощью проповедей, советов и дидактики, и решительно заявляет о необходимости критики. У Мирзы Фатали философия была формой самосознания. Он попытался реализовать свои размышления о культуре и истории в философском стиле. Мирза Фатали рассматривал философию как часть реального литературного и культурного процесса, как важный элемент научного, духовного, правящего мышления. Он применил философию к высшим эшелонам культуры.

**Ключевые слова:** *М.Ф.Ахундзаде, философия, просвещение, культурные процессы, религиозные и культурные ценности, общество, национальное самосознание.*

**Sabir Behbudov**

**PHILOSOPHY AS A CULTURAL VALUE IN THE CREATIVITY OF MIRZA FATALI AKHUNDZADE**

**Summary**

The article analyzes the philosophical views of the great Azerbaijani thinker, representative of the enlightenment, realist Mirza Fatali Akhundzade. Philosophical views of M.F. Akhundzade are compared and analyzed with Western philosophy. It was noted that Mirza Fatali does not accept the possibility of educating people through sermons, advice and didactics, and strongly declares the need for criticism. For Mirza Fatali, philosophy was a form of self-awareness. He tried to implement his reflections on culture and history in a philosophical style. Mirza Fatali considered philosophy as part of a real literary and cultural process, as an important element of scientific, spiritual, ruling thinking. He applied philosophy to the highest echelons of culture.

**Keywords:** *M.F.Akhundzade, philosophy, enlightenment, cultural processes, religious and cultural values, society, national self-consciousness*

УДК 821(091)

# НОВАТОРСТВО Г.Р. ДЕРЖАВИНА В ЖАНРЕ ОДЫ

**ШАХЛА АЛИЕВА**
*Магистрант II-ого курса кафедры истории русской литературы Бакинского Государственного Университета*

Гавриил Романович Державин был одним из самых ярких и значительных имён русской литературы 18 века. Являясь представителем русского классицизма, он продвинул русскую оду во второй половине 18 века. Раскрывая новые возможности направления, он одновременно разрушал его, тем самым прокладывая путь к реалистической и романтической поэзии.

Свои мысли о жанре оды он изложил в стихотворении «Рассуждение о лирической поэзии, или об оде». Эту работу сам Державин издать полностью не успел. Она была впервые напечатана в «Чтении в Беседе любителей русского слова». Первая часть была опубликована в 1811-ом году во второй книге, а вторая – в 1812-ом году в шестой книге. Лишь в четырнадцатой книге, изданной в 1815-ом году появились отрывки из очередной части «Рассуждения», предваренные заметкой автора.

Вначале Г.Р. Державин создавал свои произведения по всем правилам классицизма. В его первых произведениях можно найти все черты, которые были присуще одам – «высокий слог», использование множества метафор, гипербол, сравнений. Но написанные поэтом позже стихотворения в этом жанре отличаются от классической оды. Произведения по-прежнему посвящались правителям, значимым событиям истории, но язык уже был иным.

Державин продолжает писать на темы патриотизма, на религиозно-философские темы, но смешивает поэзию с жизнью. Белинский отмечал, что поэзия Державина «была первым шагом к переходу русской поэзии от риторики к жизни». В его одах присутствует лирический герой, в котором читатель может найти самого писателя [1, с. 367].

Оды Г.Р. Державина отчётливо отличались от од Ломоносова. Ломоносов писал оды не нарушая правилу «трех штилей» и соответствуя «высокому слогу». Его произведения, созданные в жанре оды были образцовыми для русской литературы. Своими одами Ломоносов хотел внушить читателю определённую идею. Они больше поучительные. А у Державина наблюдаются пейзажные и портретные описания. Также, Ломоносов описывает общие свойства человеческой натуры, в то время как Державин дает портрет, обращаясь к определённым людям.

Темы од обоих писателей оставались прежними. Но Державин смешивал «высокий слог» с разговорной речью. Художественный прием, где писатель соединял несоединимое был его особым и отличительным видением этого жанра. В итоге, Державин не просто нарушал правила жанра оды, а разрушал их.

В конечном счёте, в одах Державина присутствуют приёмы, характерные высокому стилю, но в то же время в них имеются слова и выражения, присущие низкому стилю. Таким образом, высокий и низкий «штиль» в его одах объединены.

Державин сблизил поэзию с жизнью, смотрел на мир глазами простого человека. Вместе с героическим началом в ней присутствует обычное, повседневное, что было категорически недопустимо во времена М.В. Ломоносова.

Как отмечал В. А. Западов, «использование «высокого слога» у Державина связано с риторическими местами в оде. Там, где риторика заканчивается и начинается описание обычной жизни, употребляются слова низкого «штиля», диалекты и простонародные слова» [3, с. 214].

Еще одной отличительной чертой произведений Державина является юмор. Он создается из соединения бытового русского просторечия времён Державина с архаической лексикой. Примером является ода «На счастье».

Несмотря на такое резкое отличие от традиционных правил этого жанра, Державин,

с точки зрения художественной формы далеко не отходил и следовал традициям высокой оды. В его творчестве сохраняется десятистишная строфа, четырёхстопный ямб, способы рифмовки. А строение его од выглядел следующим образом: вступление, основная часть и заключение. Если сравнить композицию од Ломоносова и Державина, можем наблюдать сложность ломоносовской оды.

Философское ода «На смерть князя Мещеркого» была написана в 1779-ом году. Поводом для написания произведения стала смерть приятеля Державина, близкого к придворным кругам наследника Павла, князя Мещерского.

Важно то, что в высоком жанре оды Державин писал не об историческом лице, как это требовалось в классицизме, а писал о простом смертном, о своём знакомом. Через судьбу обычного человека он хотел объяснить, как же всевластны законы вселенной.

Поначалу кажется, что стихотворение посвящено всевластию смерти. Но в конце Державин призывает изменить своё отношение к жизни и принять её как дар небес, который даровано человеку лишь на миг.

Державин и здесь проявил новаторство: снизив великий космический образ, он включил в его контуры сатирическую и заметную деталь. Смерть глядит на царей, богачей и умников «и точит лезвие косы». Таким образом, главная мысль оды – для смерти все равны.

Державин был в поэзии спорщиком и бунтарём. Он и знаменит своими «гневными одами». Он считал, что величие императрицы не нужно воспевать заваливая одну метафору на другую, как громоздят одну гору на другую. Можно дать по-новому ломоносовский высокий стиль. Эту мысль он выразил в «Оде Екатерине II» 1767-ого года:

На что ж на горы горы ставить
И верх ступать как исполин?
Я солнцу свет могу ль прибавить,
Умножу ли хоть луч один?
Твои, монархиня, доброты,
Любовь, суд, милость и щедроты
Без украшения сияют!
Поди ты прочь, витийский гром!
А я, что Россы ощущают,
Лишь то пою моим стихом. [8]

В этой строфе содержится намёк на художественную задачу, которую спустя несколько десятилетий Державин разрешил в оде «К Фелице». Этой задачей было описание правления монахини без излишних украшений. Он опирался не на предписанное «высоким слогом», а на то, что чувствует автор и его читатели.

Державин писал гражданские («Фелица», «Властителям и судьям»), философские («Водопад», «Бог»), победно-патриотические («На взятие Измаила», «Осень во время осады Очакова»), анакреонтические («Купидон», «Венерин суд», переводы Анакреона и подражание ему) оды.

Настоящая слава пришла к Державину после выхода в 1783-ем году в свет оды «Фелица». Эта ода посвящена императрице Екатерине II. Образ мудрой и добродетельной киргизской царевны Фелицы взят им из «Сказки о царевиче Хлоре», написанной Екатериной II. «Фелица» продолжает традицию похвальных од Ломоносова, но отличается от нее описанием образа просвещённого монарха.

В этой оде Державин соединил несоединимое – похвалу с сатирой, что было нарушением правил классицизма. Он воспевает Екатерину II и даёт сатирическое изображение её окружения, т.е. придворных вельмож. Образ императрицы не просто условный портрет «монарха», а портрет реального человека с его образом жизни, с её привычками. В этой оде Державин пытался показать духовный мир человека и создать индивидуализированные черты характеров. Также в них чётко проявляется мнение автора.

В оде «Фелица» Державина строится диалог, в отличии от Ломоносова, оды которого построены на монологах. В этой оде поэт показывает, что для поэзии нет низких для изображения предметов. Прозаическая лексика, находившаяся рядом с высокой, элементы автобиографизма и другие факторы, присутствующие в одах Державина трансформировали классицистический жанр оды.

Ода «Фелица» привела Екатерину II в восторг. Она была умной и понимала,

что временами следует ставить на место придворных, и ода Державина был прекрасным для этого поводом. Стихотворение получила всеобщее призвание. Екатерина II поэта щедро наградила: подарила в подарок золотую табуретку, осыпанную бриллиантами, и 500 червонцев.

Перейдя к победно-патриотическим одам Державина необходимо отметить оду «На взятие Измаила», написанную в 1790-ом году. В ней даётся героический образ русского народа – «Росса», который сумел взять непреступную турецкую крепость. Сила русского воина приравнивается таким природным явлениям, как землетрясение, раскаты гром, извержение вулкана. Все эти описания подчеркивают природную силу русских воинов. Сила воинов проявляется волей царя и полководцев, вдохновляется чувством любви к Родине.

В одах Ломоносова образ России даётся как продолжение образа монарха и связан с идеей необъятности монаршей власти. В отличии от него, этот же образ у Державина близок к образу былинного богатыря, который выражает силу русского народа и является реальным героем истории.

Державинская ода «Водопад» первоначально была зарисовкой с натуры. Когда поэт узнал о смерти Потёмкина, он вернулся к своей зарисовке и продолжил её. Таким образом, пейзажное стихотворение превратился в философский символ, который показывает временность человеческой жизни, славы и земного величия.

В стихотворении даётся описание реально существующего водопада Кивач в Карелии. Ода Державина богата яркими красками, точными деталями: серебро кипит, капли жемчужины летят вверх и т.д.

Водопад символизирует не только богатства, которыми обладает человек, но также неизбежность падения, конца, который ожидает каждого.

В конце стихотворения, поэт устает от шумного, блестящего водопада и начинает описать спокойную, красивую реку Суну. В образе водопада и реки, противопоставляются друг другу Потёмкин и Румянцев, олицетворяя ложную и истинную славу. Картина глубины и ясности речной воды, не замутнённый чуждыми течениями, даёт нам образ прекрасного человеческого существования.

Ода «Памятник» имеет огромное значение для творчества Державина. Здесь автор задумывается над собственной жизнью, подводит её итоги, и описывает роль, которую он играл в жизни других людей. Он говорит также о влиянии поэзии на общество, так как именно литература воспитывает в человеке желание духовно развиваться, любить прекрасное и т.д.

Он понимает, что смерть неизбежна, но в то же время осознаёт, что своим творчеством он воздвиг себе «чудесный, вечный» памятник. Как человек он умрет, но его имя будет не забудется, благодаря созданным им произведениям. В стихотворении звучит уверенность поэта в том, что будет известен:

Слух пройдёт обо мне от Белых вод до Чёрных,

Где Волга, Дон, Нева, с Рифея льёт Урал [7]

В стихотворении Державин употребляет слова высокого стиля: «тлен», «возгордились»; эпитеты: «вечный», «быстротечный»; метафоры: «времени полёт» (сравнивает время с птицей), «я памятник себе воздвиг» (т.е. оставил память о себе).

Белинский писал о «Памятнике» Державина: «Это одно из самых могучих проявлений его богатырской силы» [1, с. 432].

**ЛИТЕАТУРА**

*1. Белинский В. Г. Полное собрание сочинений: В 13-и тт. Москва: АН СССР, 1954, т. 5, с. 863 с.*

*2. Державин Г. Р. Стихотворения. Ленинград: Советский писатель, 1957, 469 с.*

*3. Западов В.А. Проблема литературного сервилизма и дилетантизма и поэтическая позиция Г.Р. Державина // XVIII век, сб. 16, Итоги и проблемы изучения русской литературы XVIII века. Ленинград: Наука, 1989, с. 56-75.*

*4. Ломоносов и русская литература. Москва: Наука, 1987, 389 с.*

*5. Макогоненко Г. П. Анакреонтика Державина и ее место в поэзии начала XIX в. // Анакреонтические песни. Москва: Наследие,*

*1986, с. 251-295.*

*6. Пумпянский М. Собрание трудов по истории русской литературы. Москва: Языки Русской Культуры, 2000, 864 с.*

*7. https://www.culture.ru/poems/23837/pamyatnik. 24.05.2021.*

*8. ОДА ЕКАТЕРИНЕ II. Державин. Читать стихотворение https://онлайн-читать.рф › державин-ода-екатерине. 24.05.2021.*

**РЕЗЮМЕ**

**Шахла Алиева**

**НОВАТОРСТВО Г.Р. ДЕРЖАВИНА В ЖАНРЕ ОДЕ**

Данная работа посвящена изучению новаторства Державина в жанре оды. В статье уделяется особое внимание содержанию, форме, размеру и стилю его од, которые отличались новизной языковых факторов и содержанию. Державин внес большой вклад в развитие и трансформацию жанра. Он создавал оды разного характера и содержания, творил прекрасные образцы од, которые затрагивают важные темы и трансформируют этот жанр.

**Ключевые слова:** *Державин; жанр оды; смешение жанров; русский классицизм; русская литература*

**XÜLASƏ**

**Şəhla Əliyeva**

**Q.R.DERJAVİNİN ODA JANRINDA NOVATORLUĞU**

Bu təqdimat işi Derjavinin oda janrında etdiyi yeniliklərin öyrənilməsinə həsr edilib. Məqalədə dil amilləri və məzmununun yeniliyi ilə seçilən odaların forması, ölçüsü, üslubuna xüsusi diqqət yetirilir. Derjavin bu janrın inkişafına və tranformasiyaya uğramasına böyük töhfə verib. O, müxtəlif xarakterli və məzmunlu, vacib mövzuları əhatə edən və bu janrı dəyişdirən mükəmməl oda nümunaləri yaratdıb.

**Açar sözlər:** *Derjavin; oda janrı; janrların dəyişməsi; rus klassisizmi; rus ədəbiyyatı*

**SUMMARY**

**Shahla Aliyeva**

**G.R.DERZHAVIN'S INNOVATION IN THE GENRE OF ODE**

This work is devoted to the study of Derzhavin's innovation in the genre of ode. The article pays special attencion to the content, form, size and style of his odes. Which differed in the novelty of linguistic factors and content. Derzhavin made a great contribution to the development and transformation of the genre. He created odes of different nature and content. Created excellent examples of odes that touch on important topics and transform this genre.

**Keywords:** *Derzhavin; ode genre; mixing genres; Russian classicizm; Russian literature*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

ELDAR ƏMİROV: "VİLAYƏTİ-FƏQİH" NƏZƏRİYYƏSİNƏ ƏSASƏN İRANIN ALİ DİNİ LİDERİNİN XARİCİ SİYASƏT MƏSƏLƏLƏRİNDƏKİ VƏZİFƏLƏRİNƏ DAİR............................ 5

TƏHMİNƏ MƏSİMOVA: ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNİN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ ROLU.................................................................. 10

EMİL KAZIMOV: DÖVLƏTLƏRARASI ƏLAQƏLƏRDƏ DİPLOMATİYANIN ROLU.............. 17

XƏTAİ SALMANOV: PANDEMİYA İLƏ MÜBARİZƏDƏ DÖVLƏT NƏZARƏT MEXANİZMİ......................................................................................... 22

## TARİX

RAMİL AĞAYEV: FARSDİLLİ MƏNBƏLƏR AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİ HAQQINDA (XIII – XVII ƏSRLƏR)................................................ 27

RƏŞAD MUSTAFA: TİFLİS VƏ ƏTRAFI VIII-XVIII ƏSRLƏRDƏ.................................................... 34

ELÇİN NECİYEV, MƏHƏRRƏM ƏHMƏDOV: XƏZƏR XAQANLIĞINDA DİNLƏR........................................................................................... 39

NƏRGİZ ƏLİYEVA: "YEDDİİLLİK" MÜHARİBƏNİN KANADA ÜÇÜN NƏTİCƏLƏRİ............... 45

SONA BABAZADƏ: QUBALI FƏTƏLİ XANIN AZƏRBAYCAN TORPAQLARINI BİRLƏŞDİRMƏ SİYASƏTİ........................................................................ 50

## İQTİSADİYYAT

AYGÜN QULİYEVA: MÜASİR DÖVRDƏ REGİONLARIN İNKİŞAFININ İNTENSİVLƏŞDİRİLMƏSİNDƏ MALİYYƏ TƏMİNATI MEXANİZMLƏRİNİN AKTUAL PROBLEMLƏRİ............................................................ 56

TURAL ABDURƏHİMOV: QLOBAL İSTİLƏŞMƏNİN QLOBAL ÜDM-Ə TƏSİRİ..................... 62

SƏKİNƏ BABAYEVA: AZƏRBAYCANDA SAHİBKARLIĞIN İNKİŞAFINDA MALİYYƏ-KREDİT SİYASƏTİNİN ROLU............................................................................... 72

ELDANIZ ISMAYILOV: IMPLEMENTATION OF ERP FOR ACCOUNTING AND AUDIT IN PRODUCTION INDUSTRY...................................................................... 78

ƏSƏDLİ ZƏRQƏLƏM: BANK SİSTEMİNDƏ RİSK QİYMƏTLƏNDİRMƏSİ FƏALİYYƏTLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ.................................................................... 83

GÜLARƏ ZEYNALOVA: AUDİT NƏZARƏTİNİN İNKİŞAFİNİN AKTUAL İSTİQAMƏTLƏRİ.......................................................................................... 88

GÜNAY FƏRZƏLİYEVA: ÖLKƏMİZDƏ PUL-KREDİT TƏNZİMLƏNMƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ VƏ BAŞLICA AMİLLƏRİ................................................................... 93

ALİYƏ HƏSƏNLİ: İŞÇİLƏRİN DAVRANIŞI VƏ GÖRÜNÜŞÜNÜN QƏBUL EDİLƏN XİDMƏT KEYFİYYƏTİ VƏ MƏMNUNİYYƏTƏ TƏSİRİNDƏ CİNS AMİLİ (RESTORAN SEKTORU TIMSALINDA)........................................................................ 97

HİKMƏT MÜRSƏLİYEV: UÇOT SİYASƏTİ ANLAYIŞI VƏ İSTEHSAL MÜƏSSİSƏLƏRİNİN İNKİŞAF STRATEGİYASINDA ONUN ASPEKTLƏRİNİN ƏHƏMİYYƏTİ........ 106

JALƏ HÜSEYNOVA: KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ FORMALAŞDIRILMA MƏRHƏLƏLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ........ 110

KƏNAN CƏFƏRLİ: QLOBALLAŞMA ŞƏRAİTİNDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFININ ROLU VƏ ƏHƏMİYYƏTİ........ 115

SƏMA KAZIMOVA: AQRAR SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İSTEHSAL VƏ SATIŞIN İDARƏ OLUNMASINDA LOGİSTİK YANAŞMA........ 120

MÖHÜBƏLİ ƏLİYEV: YERLİ ÖZÜNÜ İDARƏETMƏDƏ BEYNƏLXALQ TƏCRÜBƏ VƏ ONUN ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ........ 126

TOĞRUL QAFARLI: SAĞLAMLIQ İMKANLARI MƏHDUD ŞƏXSLƏRİN İŞ PROSESİNDƏ MƏHDUDİYYƏTLƏRİ........ 132

XƏYAL VƏTƏNİ: ÖLKƏMİZİN BİZNES TƏŞKİLATLARINDA KORPORATİV MƏDƏNİYYƏTİN İNKİŞAFI İSTİQAMƏTLƏRİ........ 136

XIDIR CƏFƏROV: MÜƏSSİSƏDƏ İNVESTİSİYA PROSESİNİN VƏ ONUN UÇOTUNUN TƏHLİLİ MƏSƏLƏLƏRİNİN TƏDQİQİ........ 142

HƏSƏN RƏHİMLİ: MÜASİR UNİVERSİTET MODELİNİN FORMALAŞMASI ŞƏRAİTİNDƏ ELM, TƏHSİL VƏ İSTEHSALIN VƏHDƏTİ........ 149

ЗАУР АЗИЗОВ: СТРАТЕГИЧЕСКИЕ АСПЕКТЫ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ ИННОВАЦИОННОЙ ЭКОНОМИКИ В КОНТЕКСТЕ ГЛОБАЛЬНЫХ ВЫЗОВОВ........ 155

ELGİZ SEYİDOV: MÜTƏRƏQQİ VERGİ SİSTEMİNİN FORMALAŞMASINDA İNNOVATİV İDARƏETMƏ ÜSULLARININ TƏTBİQİNİN BEYNƏLXALQ TƏCRÜBƏSİ...... 161

RAMİL ƏLİYEV: MARKETİNQ VƏ AYIRMALAR ÜÇÜN DÜZGÜN İNVESTOR SEÇİMİNİN ƏSAS İSTİQAMƏTLƏRİ........ 167

САМИР-АНАР БЕХБУДЗАДЕ: ПРОБЛЕМЫ УПРАВЛЕНИЯ КРЕДИТНЫМ РИСКОМ В БАНКАХ........ 171

ДЖАВАНШИР ОРУДЖОВ: ВАЖНОСТЬ МЕЖДУНАРОДНЫХ СТАНДАРТОВ ФИНАНСОВОЙ ОТЧЕТНОСТИ........ 176

CƏLAL ƏHMƏDZADƏ: QLOBAL ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN MÖVCUD REALLIQLARI VƏ MEYLLƏRİ........ 181

## FƏLSƏFƏ

MÜSLÜM NƏZƏROV, NİZAMİ QULİYEV: CƏMİYYƏTİN İNKİŞAFINDA TƏHSİLİN İNFORMASİYALAŞDIRILMASININ ROLU........ 187

SABİR BEHBUDOV: MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN YARADICILIĞINDA FƏLSƏFƏ MƏDƏNİ DƏYƏR KİMİ........ 193

ШАХЛА АЛИЕВА: НОВАТОРСТВО Г.Р. ДЕРЖАВИНА В ЖАНРЕ ОДЫ........ 198

| | |
|---|---|
| **Təsisiçi:** | **Founder:** |
| **“Kaspi MY” MMC** | **“Kaspi PD” MMC** |
| **Korrektor:** | **Corrector:** |
| **Leyla Binyatova** | **Leyla Binyatova** |
| **Dizayner:** | **Designer:** |
| **İman Hüseynov** | **Iman Huseynov** |
| **Redaksiyanın ünvanı:** | **Address of the editorial office:** |
| **Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzi** | **Matbuat ave. 23M. International Press Centre** |
| **Tel: (+994 12) 537 16 05** | **Tel: (+994 12) 537 16 05** |
| **Faks: (+994 12) 537 16 05** | **Fax: (+994 12) 537 16 05** |
| **E-poçt: strategiya.az@mail.ru** | **E-mail: strategiya.az@mail.ru** |
| **Tiraj: 300** | **Number of copies printed: 300** |
| **Sifariş № 264** | **Order № 264** |
| **“Elm və təhsil” nəşriyyat-poliqrafiya müəssisəsində çap olunub** | **Published by “Science and Education” publishing house** |